DƏRSLİK

# Ədəbiyyat

6





**HEYDƏR ƏLİYEV**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

AFƏT SÜLEYMANOVA, TƏRANƏ BAĞIROVA

# Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün ƏDƏBİYYAT fənni üzrə DƏRSLİK

© Azərbaycan Respublikası Təhsil Nazirliyi

CC BY NC SA

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə www.trims.edu.az saytında yerləşdirilmişdir. Bu nəşrdən istifadə edərkən lisenziyanın şərtləri qəbul edilmiş sayılır:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtləri ilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi **tahsil_az@yahoo.com** və **derslik@edu.gov.az** elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

## MÜNDƏRİCAT

Giriş ..........7
**Rəşid bəy Əfəndiyev.** "Elm tükənməz xəzinədir".
"Şah Abbas və iki vəzir"
*(İndiyə qədər hansı oxu bacarıqlarına yiyələnmişik?)*..........9
Oxu və yazı prosesi ..........13
**Yusif Balasaqunlu.** "Qutadqu bilik – səadət gətirən elm".
(*Oxu prosesi*)..........13
Yazı prosesi ..........18

*BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR*

**Mikayıl Rzaquluzadə.** "Vurğun baxışlarla"
("Gözəlliyin keşiyində" əsərindən).
*(Bədii əsərlərdə təsvirin müəyyən edilməsi)* ..........23
**Bəxtiyar Vahabzadə.** "Qocalar".
*(Bədii əsərlərdə insanın təsviri. İctimai varlıq kimi)* ..........27
**Mirvarid Dilbazi.** "Müəllimim". *(Əsər üzərində iş)*..........32
**Çingiz Aytmatov.** "Dəniz kənarıyla qaçan Alabaş".
*(Bədii əsərlərdə insanın təsviri. Xarici görkəmi)*..........36
**Abdulla Şaiq.** "Köç" hekayəsindən "Kərim baba" və
"Ayrım qızı" parçaları *(Biz nə öyrəndik?)*..........43
**Əliağa Kürçaylı.** "Vətən".
*(Bədii əsərlərin ideyasının müəyyən edilməsi)*..........46
**Məmməd Araz.** "Azərbaycan — dünyam mənim".
*(Bədii əsərlərdə təsvir və ifadə vasitələri)*..........49
**Hikmət Ziya.** "Qarabağda".
*(Bədii əsərlərdə təsvir vasitələrinin əlaqələndirilməsi)* ..........54
**Aleksandr Düma.** "Qafqaz səfəri: Bakı".
*(Təsviri xarakterli bədii əsərlərin quruluşu:*
*əsərin hissələrinin müəyyən edilməsi)*..........58
**Xəlil Rza Ulutürk.** "Gerbimiz – qəlbimiz".
*(Biz nə öyrəndik?)* ..........68
Yazaq, yaradaq: yazıya hazırlıq, yazı, qarşılıqlı
yoxlama, təqdimat..........70
Yazıdan əvvəl..........71
Yazı prosesi ..........73
Yazılmış təsviri mətnin yoxlanması, təqdimatı..........75

## *BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ*

“Kimdir əlil”. **Kamal Turan.** “Üç nəfərin imtahanı”.
*(Bədii əsərlərdə nəqletmə)* ....................................................79
**Məmməd Namaz.** “Hamının günəşi”
*(Nəqli mətnin oxusunun təşkili: proqnozlaşdırma)* ..................86
“Ağıllı uşaq” *(Azərbaycan xalq nağılı).*
*(Nəqli mətnlərdə obrazlar və onların başlıca xüsusiyyətləri)*.....90
**Nəriman Süleymanov.** “Birinci cığır”.
*(Əsərdəki obrazların başlıca xüsusiyyətləri baxımından müqayisəsi)* ....................................................98
**Nizami Gəncəvi.** “Yaralı bir uşağın dastanı”
**Mirmehdi Seyidzadə.** “Əqrəb və Çanaqlı bağa”.
*(Təsviri və nəqli xarakterli əsərlərdə obrazların təqdim edilməsində oxşar və fərqli cəhətlərin qarşılaşdırılması)*.........105
**Sabir Əhmədli.** “Dərs”. *(Nəqletmə xarakterli əsərlərin quruluşu: mətnin hissələri. Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)*............110
“Xan sarayı” əfsanəsi. *(Nəqletmə xarakterli əsərlərdə hadisələrin ardıcıllığının müəyyən edilməsi)*.........................117
**Mir Cəlal.** “Dərsimi yaz” və
**Zahid Xəlil.** “Zeynalabdin”. *(Nəqletmə xarakterli əsərlərin elementlərinin müqayisəsi)*...................................120
**İvan Krılov.** “Ağac”. *(Nəqletmə xarakterli əsərlərin nağıl edilməsi, nəticələrin çıxarılması)* ...............................131
“Çahargah əfsanəsi”. *(Müstəqil iş)* ...................................134
“İsgəndər quş dili öyrənir”. *(Biz nə öyrəndik?)* ....................137
Nəqli essenin yazısına hazırlıq: mətnin elementlərinin yaradılması. Nəqli essenin təşkili.......................................143

## *BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR-NƏQLETMƏ*

**Əli Səmədli.** “Qanlı bənövşə”.
*(Bədii əsərlərdə təsvir və nəqletmə)* ...................................145
**Cabir Novruz.** “Mən bizim anaları Günəşlə tən tuturam”.
“Ana rəhmi” əfsanəsi. *(Təsviri və nəqletmə xarakterli bədii nümunələrin oxşar və fərqli cəhətləri)*..........................152
“Koroğlu” dastanından “Düratın itməyi” qolu.
*(Təsviri-nəqli bədii nümunələrdə təsvirilik və nəqletmə xüsusiyyətləri)*....................................................159

**İlyas Əfəndiyev.** “Zəmidə bir turac səslənirdi”.
*(Biz nə öyrəndik?)* ....................................................... 170
“Kitabi-Dədə Qorqud”.
“Basatın Təpəgözü öldürdüyü boy”.
*(Təsviri-nəqli xarakterli bədii nümunənin təhlili üzrə iş)* ........ 173
“Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”.
*(Təsviri-nəqli xarakterli əsərin ideyasının müəyyən edilməsi)* ....................................................... 181
“Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”.
*(Təsviri-nəqli xarakterli əsərdə obrazlar üzrə iş)* .................. 182
“Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”.
*(Təsviri-nəqli xarakterli əsərdə bədii təsvir və bədii ifadə vasitələri)* ....................................................... 186
“Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”.
*(Təsviri-nəqli xarakterli əsərin hissələri: hadisələrin ardıcıllığı və süjet)* ....................................... 187
“Kitabi-Dədə Qorqud”. “Basatın Təpəgözü öldürdüyü boy”.
*(Təsviri-nəqli xarakterli əsərin elementləri və nəqletmənin təşkili)* ................................................... 189
Layihə ....................................................... 191
**Sevinc Nuruqızı.** “Ağabəyim ağa” ................................... 191
**Mirzə İbrahimov.** “Bağban Rövşən” .................................. 195
**Əli Vəliyev.** “Nənənin söhbəti” ........................................ 199
**Hüseyn Abbaszadə.** “Barıt iyi” ......................................... 202

## *SİNİFDƏNXARİC OXU*

**Aşıq Ələsgər.** “Gərəkdi” ................................................ 205
**Mustafa Çəmənli.** “Qurban bayramı” ................................. 206
**Nizami Gəncəvi.** “Ovçu ilə itin və tülkünün hekayəti” ........... 210
“Tülkü ilə qurd” *(təmsil)* ................................................. 213
“İki qardaş nağılı” ............................................................ 214
**İsmayıl Şıxlı.** “Sənə Aslanım deyən” *(hekayə)* ..................... 220
**Qabil.** “Qarışdırma” ......................................................... 224
Əlavələr ............................................................................ 226
Lüğət ............................................................................... 230

# G İ R İ Ş

Ədəbiyyat fənni vasitəsilə nəyi öyrənəcəksiniz?

Məktəbli dost! V sinifdə əldə etdiyiniz bilik və bacarıqlara əsasən "Ədəbiyyat fənni vasitəsilə nəyi öyrənəcəyəm?" sualına bu və ya digər səviyyədə cavab verə bilərsiniz. Ötən il ərzində bir çox maraqlı bədii nümunələrlə tanış olmuş, onların vasitəsilə mühüm bilik və bacarıqlara yiyələnmisiniz. Bədii sözün qüdrəti ilə insanlara yüksək mənəvi-əxlaqi keyfiyyətlər aşılayan ədəbi nümunələri araşdırmısınız. Şəhərlərimizin, kəndlərimizin, dağlarımızın və s. gözəllikləri təsvir edilən əsərləri oxuyub dəyərləndirmisiniz. Həmçinin keçmişdə, yaxud müasir dövrümüzdə baş verən hadisələrdən bəhs edən bədii əsərləri də təhlil etmisiniz. Öyrənmisiniz ki, mətnlər xüsusiyyətlərinə görə müxtəlif olur. Bu səbəbdən də onlar fərqli üsullarla yazılır, oxuyanda da fərqli üsullarla dərk edilir.

İndiyədək öyrəndiyiniz əsərlərdən mətnin növü və quruluşu ilə bağlı müəyyən bilik və bacarıqlara yiyələnmisiniz. Ötən dərs ili ərzində təsviri, nəqli xarakterli bədii nümunələrlə tanış olmuş, onları bir-birindən fərqləndirməyi öyrənmisiniz. V sinifdə keçilmiş bədii nümunələr əsasında bədii oxunun təşkili yolları, əsərin ideya və məzmununu müəyyən etməyin üsulları ilə tanış olmusunuz.

Artıq bilirsiniz ki, oxuduğunuz mətnin növü və quruluşu haqqında məlumatlılıq həmin əsərin asanlıqla dərk edilməsində sizə yardım edir.

Əsərlərdəki obrazların başlıca xüsusiyyətlərini müəyyən etməyi də artıq bacarırsınız. Təkcə bədii nümunələri qiymətləndirməkdə deyil, həm də həyatda insanları, müxtəlif situasiyaları dəyərləndirməkdə yararlı olan həyati bacarıqlara yiyələnmisiniz. Bu vaxtadək qazandığınız bilik və bacarıqları tətbiq etməklə yeni bədii nümunələr — təsviri və nəqli esselər yaratmış, öz tədqiqatlarınızın nəticəsini əks etdirən inşalar yazmısınız. Bu prosesdə siz həm yoldaşlarınızın yaratdıqları kiçik əsərlərlə tanış olmuş, həm də yaratdığınız nümunələri dəyərləndirmələri üçün onlarla əməkdaşlıq etmisiniz.

Bütün bunlar kiçikhəcmli bədii nümunələrin mahiyyətini anlamaqda, sözün təsir gücünü dərk etməkdə köməkçiniz olub.

Lakin yaxşı oxucu olmaq, sərbəst şifahi və yazılı nitq bacarıqları nümayiş etdirməyi mənimsəmək üçün hələ nə qədər yiyələnməli bilik, bacarıq və dəyərlər var. Bu dərs ilində həmin böyük məqsədimizə doğru daha bir addım atacağıq.

Ötən il araşdırdığınız təsviri və nəqletmə xarakterli bədii nümunələrlə yanaşı, bu il həm də təsviri-nəqli bədii əsərləri də oxuyacaq, onları bütün incəlikləri baxımından tədqiq edəcəksiniz. Müxtəlif əsərləri öyrəndikcə öz araşdırmalarınızın nəticələrini əks etdirən mühakimə xarakterli rəylər də təqdim edəcəksiniz.

Oxu və yazını daha düşünülmüş şəkildə təşkil etmək məqsədilə "Oxu və yazının təşkili"nin beş forması ilə tanış olacaq, onlardan həm oxuyarkən, həm də yazarkən faydalanacaqsınız.

Siz təsviredici bədii nümunələr üzərində ideyanın müəyyən edilməsi mexanizmlərinə ötən dərs ilində yiyələnmisiniz. Bu ildən həmin mexanizmləri nəqli və nəqli-təsviri xarakterli əsərlərə də tətbiq etməyin yollarını öyrənəcəksiniz.

Öyrənəcəyiniz bədii nümunələrdə obrazların hərtərəfli təsviri və təhlili bacarıqlarına yiyələnəcək, onlar haqqında mühakimələr yürüdə biləcəksiniz.

Qarşınızdakı dərslikdə verilmiş müxtəlif xarakterli (təsviri, nəqli və nəqli-təsviri) bədii nümunələrin quruluşunu, elementlərini müəyyənləşdirəcək və onları qarşılaşdıracaqsınız. Onlar haqqında şifahi və yazılı rəy bildirəcəksiniz.

Məktəbli dost!

Beləliklə, siz ötən dərs ilində yiyələndiyiniz bilik və bacarıqları bu dərs ilində daha da inkişaf etdirəcəksiniz. İnanırıq ki, siz bu işin öhdəsindən yetərincə gələcəksiniz. Öyrəndiyiniz əsərlər sizə bədii zövqünüzü formalaşdırmağa, bədii ədəbiyyatı dərindən dərk etməyə kömək edəcəkdir. Bu yolda sizə uğurlar arzulayırıq!

## RƏŞİD BƏY ƏFƏNDİYEV. “ELM TÜKƏNMƏZ XƏZİNƏDİR”
## “ŞAH ABBAS VƏ İKİ VƏZİR”
### (İNDİYƏ QƏDƏR HANSI OXU BACARIQLARINA YİYƏLƏNMİŞİK?)



*Bilik və bacarıqlarımızı yoxlayaq.*

Məktəbli dost! Keçən dərs ilində siz artıq oxunun təşkili ilə bağlı bir çox mühüm bacarıqlara yiyələnmisiniz. Yeni dərs ili başlanır. Qarşıda öyrənəcəyiniz nə qədər maraqlı və faydalı məsələlər var. Əvvəlcə gəlin indiyə qədər nəyə nail olduğumuzu yoxlayaq. Nəzərdə tutulmuş məsələləri mənimsəmisinizmi? Keçən il siz oxu testlərinin yerinə yetirilməsi ilə bağlı təlimatlar da almışdınız. Əgər onları xatırlamağa ehtiyac varsa, dərsliyin sonundakı “Əlavələr” bölməsinə daxil edilmiş həmin təlimatlarla bir daha tanış ola bilərsiniz. Bundan ötrü verilən bədii nümunələri diqqətlə oxuyun ki, tapşırığı yerinə yetirə biləsiniz.

**I. “Elm tükənməz xəzinədir” başlıqlı mətni oxuyun. Tapşırıqları yerinə yetirin.**

Elm tükənməz bir xəzinədir. Bu bir xəzinədir ki, onu sandıqda saxlamağa və qorumağa ehtiyac yoxdur. Elm bir dövlətdir ki, onu nə itirmək, nə də oğurlatmaq mümkündür. Bu səbəbdən onun qədir və qiyməti hər bir şeydən alidir. Çünki elm bu halda puldan və paradan zəngin, topdan və tüfəngdən ötkün, xəncərdən və qılıncdan kəskindir. Nəcabət və hörmət bu halda o kəsdədir ki, onun mükəmməl surətdə elmi və məlumatı vardır. Hər şey sərf və xərc olunduqca tükənir və əskilir, amma elm sərf olunduqca həddən ziyadə artır. Bir nəfər alim şəxs elmini sərf etsə, özündən başqa neçə yüz alim meydana gətirər, həm də öz elm və məlumatını ziyadələndirər. Hər alim bir şama bənzər ki, ondan neçə-neçə şamlar yandırmaq mümkündür. Bir şamın nuru başqa şamları alovlandırmaqla özü kimi çox-çox çıraqlar və məşəllər törədər.

Elmin böyük bir fəziləti də budur ki, kiçiyə, böyüyə, ədnaya, əlaya heç təfavüt qoymaz. Bu kəslərdən hansında elm olsa, onu hörmətə layiq edəcəkdir. Elm yaşca kiçik adamda da olsa, onu ehtirama layiq edər, onu əla dərəcəsinə yetirər.

***Rəşid bəy Əfəndiyev***

## Özünüqiymətləndirmə tapşırığı

1. Oxuduğunuz əsərdə mətnin növünü müəyyən edin (nəqli, təsviri).
2. Bu mətnin mövzusu qeyd edilənlərdən biridir: elmin yayılması, elmin çoxluğu, elmin zərəri, elmin dəyəri. Doğru cavab hansıdır?
3. Mətndə əsas fikrə zəmin yaradan cümləni tapın.
4. Mətndəki təşbehləri müəyyənləşdirin.
5. Mətndəki "ziyadə" sözünün mənasını lüğətdən tapın.
6. Mətndəki bədii təsvir vasitələrini müəyyənləşdirin.
7. Mətndə hansı hisslərin təsvirinə yer verilib?
8. Əsərdə "fəzilət" sözünün mənasını lüğətdən tapın.
9. Mətnin hissələrini müəyyən edin.
10. Mətnin ideyasını müəyyən edin.

**II. “Şah Abbas və iki vəzir” mətnini oxuyun. Tapşırıqları yerinə yetirin.**

Bir gün Şah Abbas iki vəziri ilə — Şeyx Bəhayi və Mir Damədlə gəzintiyə çıxır. Mir Damədin mindiyi at Şeyx Bəhayinin atından azacıq geri qalırdı. Şah Abbas öz vəzirlərini yoxlamaq qərarına gəlir. Buna görə Mir Damədə yaxınlaşıb deyir:

— Görürsənmi, Şeyx Bəhayi bizi saymır, özünü bizdən üstün bilir. Ona görə də atını çapıb bizdən irəli düşüb.

Mir Daməd şaha belə cavab verir:

— Şeyx Bəhayidə günah yoxdur. Onun atı belində bu cür alimi gəzdirdiyi üçün sevincindən qanad açıb uçur, ona görə də bizdən irəli keçib.

Sonra Şah Abbas atını sürüb Şeyx Bəhayiyə çatır və ona belə söyləyir:

— Mir Damədi görürsənmi? Bizimlə bir sırada gəlməyi özünə ar bilir. Ona görə də özünü kənara çəkib, bizdən arxaya qalıb.

Şeyx Bəhayi isə belə cavab verir:

— Şah sağ olsun, Mir Damədin mindiyi at onun elm və əxlaqının ağırlığından geri qalır. Görün, Mir Damədin atı necə böyük bir alimin yükünü çəkir. Ona görə heç təəccüblü deyil ki, onun atı bizimkindən geri qalır.

Şah Abbas başa düşür ki, vəzirlərinin ürəkləri elmləri qədər genişdir.

## Özünüqiymətləndirmə tapşırığı

1. Əsərdə əsas fikri müəyyən edin.
2. Sizcə, vəzirlərin cavabından sonra Şah Abbas hansı qənaətə gələ bilər?
3. Mətndəki "ar bilmək" sözünün mənasını lüğətdən tapın.
4. Sizcə, Şah Abbasın məqsədi nə idi?
5. Mətndə hadisələrin baş verdiyi məkanı və zamanı müəyyən edin.
6. Mətndə nədən bəhs edildiyini müəyyənləşdirməklə mövzusunu tapın.
7. Mətnin hissələrini göstərin.
8. Mətndə hadisələrin baş vermə ardıcıllığını göstərin.
9. Oxuduğunuz əsərdə mətnin növünü müəyyən edin (nəqli, təsviri)
10. Sizcə, gəzintinin sonunda Şah Abbas hansı hissləri keçirdi?

## OXU VƏ YAZI PROSESİ



*Oxunun və yazının təşkili barədə nə bilirik?*

Məktəbli dost! Siz artıq beşinci sinifdə oxunu təşkil etməyin yolları ilə bağlı müəyyən bilik və bacarıqlara yiyələnmisiniz. Bədii nümunələri oxumazdan əvvəl, oxuyarkən və oxuyandan sonra hansı işlərin aparılmasının əhəmiyyətli olduğunu öyrənmiş və bunu təcrübədə də tətbiq etmisiniz.

Siz hər hansı hadisəni nağıl etməyin yollarını öyrənmiş, təsvir xarakterli bədii nümunələri verilən təlimatların yardımı ilə oxuyub araşdırmısınız.

Bu dərs ilində də həm bu xüsusiyyətlərə malik bədii nümunələr üzərində iş aparacaq, həm də bu istiqamətdə bilik və bacarıqlarınızın dairəsini genişləndirəcəksiniz. Mühakimə xarakterli mətnlər (inşalar) yazmağı öyrənmək məqsədilə əvvəlcə belə mətnlərin xüsusiyyətləri və quruluşu barədə bilik və bacarıqlara yiyələnəcəksiniz. Bu bacarıqlar sizə həm də dərslikdə verilən digər məlumatlandırıcı və şərhedici mətnləri asanlıqla dərk etməkdə yardımçı olacaqdır.

## YUSİF BALASAQUNLU. "QUTADQU BİLİK – SƏADƏT GƏTİRƏN ELM"
### (OXU PROSESİ)

**Yadda saxlayın!**

Bu təlimatlar ədəbiyyat dərslərində oxuduğunuz bədii nümunələri dərk etməkdə sizə yardımçı olacaq. Bununla həm də başqa fənlərdə oxuduğunuz mətnləri asanlıqla başa düşərsiniz. Oxu səmərəliliyini yüksəltməyə nail olarsınız. Oxu prosesinin üç mühüm mərhələsini əhatə edən bu təlimatlar "Oxunun təşkili cədvəli"ndə təqdim edilmişdir.

***Tapşırıq 1.*** Təqdim edilən əsəri (səh. 16) oxumazdan əvvəl oxuya hazırlıq işləri aparın. "Oxudan əvvəl" təlimatını yerinə yetirin.

*Cədvəl 1*

| OXUNUN TƏŞKİLİ CƏDVƏLİ (DƏRK EDƏRƏK OXU) | | |
|---|---|---|
| **Təlimatlar** | | **Qeydlər** |
| **Oxudan əvvəl** | | |
| 1. | Fikrinizi bir yerə cəmləşdirin. Əsərin başlığını oxuyun. İlk və son dörd misrasını nəzərdən keçirin (nəsr əsərinin oxusunda cümlə və ya abzas oxunacaq). | |
| 2. | **Fikirləşin:** Elmin faydası barədə indiyə qədər nə oxumuşam, nə eşitmişəm, hansı televiziya verilişinə baxmışam? Bu barədə nə bilirəm? | |
| 3. | Bu mətni nə üçün oxuyuram? Bildiklərimdən əlavə, daha nələri öyrənmək maraqlı olardı? — deyə oxu məqsədini müəyyən edin. | |
| 4. | Başlıq və yarımbaşlıqlara, şəkillərə, həmçinin digər diqqət cəlb edən məqamlara ötəri nəzər salın. | |
| 5. | Əldə etdiyiniz bu ilkin məlumatlara əsasən çalışın ki, mətndə nədən bəhs olunduğu barədə əvvəlcədən fərziyyələr irəli sürəsiniz. Həmin fərziyyələri qeyd edin. | |

***Tapşırıq 2.*** Oxu zamanı cədvəl 1-də təqdim edilən fəaliyyətlərə nəzər salın. Fərziyyələrinizin doğru olub-olmadığını yoxlayın. Cədvəldəki məsələlərə cavab tapdıqca qeydlər aparın.

*Cədvəl 2*

| | Təlimatlar | Qeydlər |
|---|---|---|
| | **Oxu zamanı** | |
| 1. | Oxu prosesində qarşılaşdığınız tanış olmayan sözlərin mənasını aydınlaşdırın ki, müəllifin fikrini tam şəkildə anlaya biləsiniz. | |
| 2. | Oxu zamanı əsərdə yazıçının nə demək istədiyini (əsərin əsas ideyasını) müəyyən etməyə çalışın. | |
| 3. | Mətnin necə təşkil edildiyinə fikir verin. Bəzən mətndə əvvəlcə hadisələrin baş vermə səbəbləri verilir, sonra isə həmin hadisələrin nə ilə nəticələndiyi göstərilir. Bəzən də hadisələr əhəmiyyətlilik baxımından düzülür: əvvəlcə daha əhəmiyyətli məsələlər, sonra az əhəmiyyətli məsələlər gəlir. Yaxud əksinə olur. Bunları bilmək sizə əsas ideyanı (fikri) dəstəkləyən kiçik fikirlərin müəyyən edilməsində kömək edər. | |
| 4. | İmkan olduqca əsərdəki hadisələri özünüzün və ya yaxınlarınızın həyatında baş vermiş hadisələrlə əlaqələndirin. | |
| 5. | Əgər nəyisə anlamadığınızı və ya səhv oxuduğunuzu hiss etsəniz, dayanın. Yenidən oxuyun. | |
| 6. | Mətndəki fikirlərin sxemini və ya cədvəlini dəftərdə çəkməyə çalışın. | |

## QUTADQU BİLİK — SƏADƏT GƏTİRƏN ELM

*(poemadan bir parça ixtisarla)*

*Tərcümə edəni: X.R.Ulutürk*

Bilirsən qəsdimi, ey ulu alim,
Elmdən, zəkadan, idrakdan deyim.
Zülmət bir gecədə məşəldir zəka,
Elmdir nur salan kor qaranlığa.
Elm ilə, idrakla yüksəlir insan,
Qədir-qiymətini elminlə qazan.
Yad et zəka tacı Nuşirəvanı,
Necə işıqlatdı əqli cahanı.
Səadət gətirdi xaqan millətə,
Adını həkk etdi əbədiyyətə.
Elmdir yaradan qədir-qiyməti,
Savadsız adamın nə mərifəti?
Zəkalı kişilər nə bəxtiyarmış,
Deməli, əsli də, nəsli də varmış.
İdrakı olanın nəcabəti var,
İdrakı olanlar bəylik qazanar.
Üzüb qara yerdən əlini insan,
Saçdı kainata elm ilə **ürfan**.
Zəkadan saçılır aləmə şölə,
Bəylər xalq işini görür əql ilə.
Dünyada nə qədər gözəl sənət var,
İdrak sayəsində yaranmış onlar.
Nə böyük **matahdır**, demə, təfəkkür,
Hələ zərrəsinin hökmü böyükdür.
Elm gül suyuna bənzəyir bir az,
Nə elmi, nə ətri gizlətmək olmaz.
Gülabı gizlətsən, gələcək ətri,
Dilə od vuracaq elmin hər sətri.
Elm sənin öylə sərvətindir ki,
**Darta, çala** bilməz bir oğru-əyri.
Müdrik insanlara sər-sanbal gərək,
Ay və Günəş kimi nur camal gərək.
İnsan* — xoşqılıqlı, mülayim, mətin,
Çırağı olmalı mədəniyyətin.
İnsan zəki gərək — iş görə bilsin,
Elmini ellərə pay verə bilsin.

Sizcə, elm insana nə üçün lazımdır?

Sizcə, insan elmi ilə qədir-qiyməti necə qazana bilər?

Bu sözün mənasını lüğətdən tapın.

Siz hansı sənəti sevirsiniz?

Bu sözün mənasını lüğətdən tapın.

Sizcə, bu sözlərin mənası nədir?

* Mənanın eyniliyi nəzərə alınaraq bəzi yerlərdə "kişi" sözü "insan" sözü ilə əvəz edilib.

Seçsin gərəklini, gərəksizləri,
Görsün yararlını, yararsızları.
Nur ilə zülmətin fərqini bilsin,
Özünün dərdini, sərini bilsin.
Yetər mətləbinə bu cür adamlar,
Hər iki dünyada məğrur adamlar.
İnsana düşməndir qəhri, qəzəbi,
Daim çılğın yaşar, daim əsəbi.
Bu sözə əməl et, ey üzü nurlu,
Yaşa ər qürurlu, alim qürurlu.
**Qəhr** edən adamlar biliksiz olur,
Qəzəbin içində zəka boğulur.
**Cəhalət** insana düşməndir, düşmən,
Alçaqlıq yaranır kindən, qəzəbdən.
Elmli insanlar sözünün əri,
Sözü — ürək hökmü, can bərabəri.
Gəl, ey yaxşı insan, yaxşı ol yenə,
Yaxşı çıraq tutur öz ölkəsinə.
Eşit nə cür olur mətin, mötəbər,
Xalqa əl uzadan müdrik insanlar.

Bu misralardan hansı əsas ideya ilə bağlıdır?

Bu sözün mənasını lüğətdən tapın.

Bu sözün mənasını lüğətdən tapın.

***Yusif Balasaqunlu***

***Tapşırıq 3.*** Cədvəl 3 üzrə "Oxudan sonra" təlimatını yerinə yetirin. Gəldiyiniz qənaətləri yoldaşlarınızla müzakirə edin. Onların yararlı fikirlərindən faydalanın. Nəticələrinizi təqdim edin.

***Tapşırıq 4.*** Şeirdən bir parçanı ideya məzmununa uyğun və ifadəli şəkildə bir daha oxuyun.

*Cədvəl 3*

| Təlimatlar | | Qeydlər |
|---|---|---|
| **Oxudan sonra** | | |
| 1. | Mətndə aydın olmayan, dəqiqləşdirilməsinə ehtiyac duyduğunuz məqamları müəyyən edin. Onlarla bağlı mətnə bir daha nəzər salın. | |
| 2. | Müəllifin məsələyə münasibətini müəyyənləşdirin. | |
| 3. | **Dəqiqləşdirin:** Müəllif bu əsərdə oxucusuna nə demək istəyir? | |
| 4. | O, nəzərdə tutduğu fikri ifadə edə bilibmi? Nəyə görə belə düşünürsünüz? | |
| 5. | Oxunu uğurla təşkil edə bildinizmi? Özünüzü qiymətləndirin (yüksək, yaxşı, orta, zəif). | |

### *Müəlliflə tanışlıq*



***Yusif Balasaqunlu***

*...Bir dəfə Türkiyədə mənə "Qutadqu biliy"in son tərcümələrindən birini bağışlamışdılar. Mən əlimdə kitab dayandığım zaman böyük türk alimi mərhum Bahəddin Ögəl əlimdəki kitabın adını soruşdu. Mən dedim: "Qutadqu bilik – səadət gətirən elm". O gülümsəyib: "Yox, oğlum, o kitabın adı "Dövlət kitabı"dır, "Dövlətnamə"dir. Türk dövləti, fəlsəfəsi, düşüncəsi haqqında ən böyük söz də bu kitabdadır. Azərbaycanın bu kitaba ehtiyacı çoxdur".*

*Müdrik alimin sözlərindəki həqiqəti inkar etmək mümkün deyil. Bu möhtəşəm abidənin müəllifi türk-islam ədəbiyyatının ilk böyük sənətkarı Yusif Balasaqunludur. Əsərdə türklərin mənəvi tərəfi, ictimai-siyasi görüşləri öz əksini tapmışdır. Əsər Azərbaycanın Xalq şairi Xəlil Rza Ulutürk tərəfindən Azərbaycan dilinə tərcümə edilmişdir.*

**Kamil Vəli Nərimanoğlu**

## YAZI PROSESİ
## (Rəy-inşa)

***Tapşırıq.***

I. Yusif Balasaqunlunun "Qutadqu bilik — səadət gətirən elm" poemasından verilmiş parçaya bir daha nəzər salın. Təqdim edilən mövzuların biri üzrə (1—1,5 səhifə həcmində) rəy-inşa yazmaq üçün dərsliyin 19—22-ci səhifələrindəki "Oxunun və yazının təşkili formalarını əks etdirən cədvəl"dən istifadə edin. İnşanın mövzusu ilə mətnin təşkili formalarını əlaqələndirin. Unutmayın ki, hər bir mövzu yalnız bir forma ilə əlaqəlidir.

1. Əsərdə elm yazıçı tərəfindən necə təsvir edilmişdir?
2. İnsan elmə sahib olmaq üçün həyatda hansı işləri görməlidir?
3. Elmli və elmsiz insan barədə müəllifin fikirlərini qarşılaşdırın və müqayisəli şəkildə şərh edin.
4. Elm insanın həyatında hansı dəyişikliklər edir?
5. İnsanların elmə marağını yüksəltmək üçün nə etmək lazımdır?

II. Rəy və inşanı yazan zaman fikirlərinizi əsaslandırmaq üçün fakt və sitatlardan istifadə edin.

III. Yazı zamanı öyrəndiyiniz yeni söz və ifadələrdən istifadə edin.

**Oxunun və yazının təşkili formalarını əks etdirən cədvəl**

Anlayışın müəyyən edilməsi məqsədilə mətnlərin yazısı və oxusu zamanı bu cədvəldən yararlana bilərsiniz:

*Cədvəl 4*

| **Anlayışı təyinetmə forması** | | |
|---|---|---|
| **Şagirdləri daha dərindən düşünməyə istiqamətləndirən suallar** | **Müzakirə zamanı istifadə edilən açar sözlər** | **Araşdırma zamanı istifadə edilən sxem** |
| Bu nə deməkdir?<br>Bunu hansı qrup insanlara, yaxud əşyalara aid etmək olar?<br>Anlayışın əsas xüsusiyyətləri nədən ibarətdir?<br>Ondan necə istifadə edilir?<br>O nə üçün lazımdır?<br>Bu anlayışlara hansı sahələrdə rast gələ bilərsiniz?<br>Hansı nümunələr var ki, bəzi xüsusiyyətləri uyğun gəlir, bəziləri yox?<br>Onun gözlənilməyən nəticələri (faydası, zərəri) olurmu? | Xüsusiyyətlər<br>Qruplar<br>Atributlar<br>Nümunələr<br>İstifadə üsulları<br>İstifadə məqsədi | <br>ANLAYIŞI TƏYİNETMƏ |

Hadisələrin ardıcıllığını müəyyən etmək məqsədilə oxunun və yazının təşkilində aşağıda təqdim edilən cədvəl sizə yardımçı ola bilər:

*Cədvəl 5*

| **Ardıcıllıq forması** | | |
|---|---|---|
| **Şagirdləri daha dərindən düşünməyə istiqamətləndirən suallar** | **Müzakirə zamanı istifadə edilən açar sözlər** | **Araşdırma zamanı istifadə edilən sxem** |
| Hansı ardıcıllıq təsvir edilib?<br>Hadisələr zaman baxımından hansı ardıcıllıqda baş verir?<br>Bu ardıcıllıqda əsas addımlar, hadisələr hansılardır?<br>Ardıcıllıq nə üçün əhəmiyyətlidir? | Ona görə<br>Növbəti<br>O zaman<br>Birinci<br>İkinci<br>Əvvəlcə<br>Sonra<br>Sonda<br>Ardınca<br>Onu müşayiət etdi<br>Çox çəkmədən | 1. ________<br>2. ________<br>3. ________<br>4. ________<br>5. ________<br>6. ________<br>7. ________<br>8. ________<br>9. ________<br>10. ________<br>ARDICILLIQ |

Qarşılaşdırma-müqayisəetmə məqsədilə oxunun və yazının təşkilində aşağıda təqdim edilən cədvəl sizə yardımçı ola bilər.

*Cədvəl 6*

| **Qarşılaşdırma-müqayisəetmə forması** | | |
|---|---|---|
| **Şagirdləri daha dərindən düşünməyə istiqamətləndirən suallar** | **Müzakirə zamanı istifadə edilən açar sözlər** | **Araşdırma zamanı istifadə edilən sxem** |
| Hansı anlayışlar müqayisə edilir?<br>Onlar hansı xüsusiyyətlərinə görə müqayisə edilir?<br>Onlar nə qədər oxşardırlar?<br>Bəs onlar nə qədər fərqlidirlər?<br>Hansı fərqli cəhət daha çox diqqət cəlb edir?<br>Müqayisə edilən məfhumlar daha çox bir-biri ilə oxşardır, ya fərqli?<br>Bu məsələlərlə bağlı hansı nəticələrə gəlmək olar?<br>Nəyə görə bu məfhumlar müqayisə edilir? | Fərqlidir<br>Oxşardır<br>Eynidir<br>Əksidir<br>Baxmayaraq<br>Halbuki<br>Eynən<br>Eləcə də<br>Həmçinin<br>Ya, ya da<br>Digər tərəfdən<br>Yalnız… deyil<br>Həm də…<br>Fərq ondan ibarətdir ki<br>Əgər |  <br>QARŞILAŞDIRMA-MÜQAYİSƏETMƏ |

Səbəb-nəticəni müəyyənləşdirmək məqsədilə mətnlərin yazısı və oxusu zamanı bu cədvəldən yararlana bilərsiniz:

*Cədvəl 7*

| **Səbəb-nəticə forması** | | |
|---|---|---|
| **Şagirdləri daha dərindən düşünməyə istiqamətləndirən suallar** | **Müzakirə zamanı istifadə edilən açar sözlər** | **Araşdırma zamanı istifadə edilən sxem** |
| Nə baş verib?<br>Bunun səbəbi nə idi?<br>Nəticədə nə baş verdi?<br>Nəticədə ən çox diqqəti cəlb edən məsələlər hansılardır?<br>Bu məsələlər arasında hansı əlaqə var?<br>Hər hansı bir nəticə müəyyən səbəblə bağlıdırmı? Fikrinizi əsaslandırın.<br>Səbəblər, yaxud amillər fərqli olanda nəticələr necə dəyişir?<br>Müəllifin təsvir etdiyi hansı səbəb-nəticə prosesini gördünüz? | Ona görə<br>O vaxtdan bəri<br>O vaxtdan sonra<br>Bu səbəbdən<br>Nəticə etibarilə<br>Bundan ötrü<br>Bunun üçün<br>Bununla belə<br>Bunun nəticəsində | <br>və ya<br><br>SƏBƏB-NƏTİCƏ |

Problemin həlli məqsədilə mətnlərin yazısı və oxusu zamanı cədvəllərdən istifadə sizə kömək olar:

*Cədvəl 8*

| **Problemin həlli forması** | | |
|---|---|---|
| **Şagirdləri daha dərindən düşünməyə istiqamətləndirən suallar** | **Müzakirə zamanı istifadə edilən açar sözlər** | **Araşdırma zamanı istifadə edilən sxem** |
| Problem nədir?<br>Bu kimin problemidir?<br>Bu problemin səbəbi nədir?<br>Problemin törətdiyi fəsadlar nədən ibarətdir?<br>Problemi kim həll etmək istəyir?<br>Hansı həll yolları məsləhət görülür və ya nə kimi cəhdlər edilir?<br>Problemin həlli hansı nəticələrə gətirib çıxarar?<br>Problem həll edildimi?<br>Bu, yeni problemlər doğurmadı ki? | Vəziyyəti yaxşılaşdırmaq ehtiyacı<br>Problem odur ki…<br>Məsələ budur ki,<br>Bunun həllinə<br>Yalnız…<br>Bunun səbəbi…<br>Həlli imkanları | <br>PROBLEMİN HƏLLİ |

## BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR



Siz beşinci sinifdə məkanın təsvirinə dair bədii nümunələrlə tanış olmusunuz. Həmin əsərlərin ideyasını, təsvir vasitələrini və quruluşunu müəyyənləşdirmisiniz. Siz təsvir xarakterli esselər də yazarkən bu təcrübədən çıxış etmisiniz. Bu dərs ilində də əldə etdiyiniz bilik və bacarıqları həm təkmilləşdirəcək, həm də inkişaf etdirəcəksiniz. Siz yalnız məkanın deyil, insanın da təsviri ilə bağlı aşağı siniflərdə əldə etdiyiniz öz bilik və bacarıqlarınızı artıracaqsınız.

### MİKAYIL RZAQULUZADƏ. "VURĞUN BAXIŞLARLA" ("GÖZƏLLİYİN KEŞİYİNDƏ" ƏSƏRİNDƏN)
#### (BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİRİN MÜƏYYƏN EDİLMƏSİ)

***Tapşırıq 1.***

1. Əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın ("Oxudan əvvəl"). Əsəri oxuyarkən "Oxu zamanı" təlimatına da əməl edin (cədvəl 1, 2, səh. 14, 15).

2. Doğrudanmı, bu əsər təsviri xarakterlidir? Əsərdən verilən parçanın nəqli deyil, təsviri xarakterli olduğunu sübut edin. Fikirlərinizi əsaslandırmaq üçün qarşılaşdırmalar aparmalısınız. Buna nail olmaq üçün "Qarşılaşdırma-müqayisəetmə forması"ndan (cədvəl 6, səh. 20) istifadə edə bilərsiniz.

## VURĞUN BAXIŞLARLA

*(İxtisarla)*

*Kəsin eyşi-nuşu, gələnlər sussun,*
*Yorğanı dumandan, döşəyi yosun,*
*Bir yorğun pəri var, bir az uyusun,*
*Uyusun dağların maralı Göygöl.*

**Əhməd Cavad**

Sizcə, bu əsərdə nədən bəhs olunacaq?

Ucal gözlərinə inanmadı... Yerindəcə donub qaldı.

Bu nə gözəllikdi, bu nə möcüzə idi?!

O, Göygölün şəkillərini çox-çox görmüşdü. Ən adlı-sanlı rəssamların çəkdikləri lövhələrdə də, rəngli kino ekranlarında da, hətta konfet, şokolad qutularının və rəngbərəng şüşələrin üstündə də... Bütün bu şəkillərin ən gözəlləri, hətta zərli çərçivələrə salınmış ən bəzəkli-düzəkliləri də bu mənzərənin qarşısında, Günəş qarşısında şam işığı kimi görünürdü.

Bu barədə nə bilirsiniz?

Bu nə gözəllikdi... Belə gözəl mənzərəni ancaq ən böyük ustad — ana təbiət yarada bilərdi.

Səhər şəfəqlərinin zərif göyümtül-bənövşəyi işığında dağların sərin nəfəsi gölün üzərindəki incə tül pərdəni ağır-ağır qaldırdıqca güzgü suların qoynunda başqa bir aləm canlanırdı. Ən gözəl nağıllarda, ən şirin röyalarda canlanan əfsanələr aləmindən daha gözəl bir aləm...

Göygöl haqqında daha nələri bilmək istərdiniz?

Tünd-yaşıl məxmər ətəklərini göldə yuyan gözəllər kimi halay vurmuş cərgə-cərgə şam ağacları pillə-pillə ucalır, vüqarlı Kəpəzin yalçın qayaları sıyrılmış xəncərlər kimi bu gözəlləri, bu gözəlliyi sanki yadlardan-yağılardan qoruyurdu...

Tanış olmayan sözlərin mənasını lüğətdən tapın.

Gölün büllur suları **pənbə** buludları, qızıl şəfəqləri, yaşıl təpələri, yastı qayaları qoynuna alıb ağır-ağır **ləngər** vurduqca sədəf kimi min rəngə çalırdı...

Təsvir vasitələrini müəyyən edin.

Yox... yox... İndi Ucalın gözləri qarşısındakı bu mənzərəni təsvir etməyə nə rənglər, nə sözlər çatışar... Bu ucsuz-bucaqsız səmanın dərinliyini, bu dağ havasının ətirli sərinliyini, bu əlvan çiçəklərin, rəngbərəng kəpənəklərin



sayrışmasını, bu xırdaca quşların civiltisini, gölün qoynunda göy qurşağına bənzər ala balıqları hansı boyalarla, hansı sözlərlə təsvir edə biləcəksən...

Axı Göygöl təkcə su, meşə, çəmən, çiçək, səma, sərin hava, göydə süzən quşlar, suda üzən ala balıqlar deyil... Bunlar hamısı birlikdə Göygöldür — Göygöl bunların hamısı deməkdir...

Ucal ilk dəfə gördüyü Göygölü belə vurğun baxışlarla seyr edə-edə düşünürdü. Axı o, rəssam olmaq istəyirdi. O, məktəbdə yeddinci sinifdə oxuya-oxuya rəssamlıq dərnəyinə gedirdi. İndi bura, Göygölə də, əslinə baxsan, elə bu məqsədlə, həm pioner düşərgəsində istirahət etmək, həm də etüdlər çəkmək məqsədilə gəlmişdi. O, dərnəkdə yalnız şəkillər çəkmək, yalnız müəllimin göstərişlərini yerinə yetirməklə kifayətlənməyib rəssamlığa dair kitablar oxuyur, əlavə çoxlu etüd çəkirdi.

Ucal yaxşı bilirdi ki, təbiət gözəlliyi də insan gözəlliyi kimi, yalnız zahiri deyildir. İnsan gözəlliyi yalnız qara gözlərdən, alma yanaqlardan, qələm qaşlardan deyil, əsl daxili aləmdən, insanın ağlından, kamalından, zəkasından, biliyindən ibarət olduğu kimi, təbiət gözəlliyi də onun sərvətlərindən, nemətlərindən ayrı ola bilməz.

Təsvir vasitələrinin rolunu aydınlaşdırın.

Bu cümlə ideya ilə necə bağlıdır?

Ucal Bakıda Abşeronun sərt havasında boya-başa çatmış, gah duzlu-sərin, gah da qan donduran dəli xəzrinin, yayda yandırıb-yaxan, qışda qılınc kimi kəsən gilavarın ləzzətini dadmışdı. Bilgəhin, Qalagahın yalçın qayalı sahilləri, Pirşağının sədəf-qumsal çimərlikləri də, hətta Bayılın, Qaradağın, Səngəçalın neft qoxuyan boz qayalıqları da onun nəzərində ayrı cür gözəlliklər idi. Göygöl, məsələn, **"Yeddi gözəl" baletindəki rəqqasələr kimi incə, zərif bir gözəlliyə malikdirsə, Abşeron da əlində silah, yalçın qaya başında sərhəd keşiyində duran cəsur əsgəri, nəhəng dalğalara sinə gərib dəniz buruğundan "qara qızıl" çıxaran mərd neftçini** xatırladır.

> Bu ifadələr haqqında nə deyə bilərsiniz? Onlar nə üçün istifadə edilmişdir?

***Mikayıl Rzaquluzadə***

***Tapşırıq 2.***

1. "Oxudan sonra" təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17). Gəldiyiniz nəticə barədə yoldaşlarınızla fikir mübadiləsi apararkən öyrəndiyiniz yeni sözlərdən istifadə edin.
2. Yoldaşlarınızın fikirlərini dəyərləndirin və onların fikirlərindən yararlanın.
3. Mətndən kiçik bir abzası şərti işarələrdən istifadə etməklə dəftərinizə köçürün.

↗ — səs tonunun qalxması
↘ — səs tonunun enməsi
‖ — fasilə

## *Müəlliflə tanışlıq*



***Mikayıl Rzaquluzadə***

*Mikayıl Rzaquluzadə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Yazıçı həyata müəllim gözü ilə baxmış, uşaqların tərbiyəsi üçün öz istedad və qabiliyyətini əsirgəməmişdir. Mikayıl Rzaquluzadənin yaradıcılığı öz bədiiliyi və tərbiyəvi əhəmiyyəti ilə diqqəti cəlb edir. Yeni nəslə tərbiyə hissləri aşılamaq, onlarda halal zəhmətə məhəbbət, elmi biliklərə həvəs oyatmaq yaratdığı əsərlərin əsas ruhunu təşkil edir. O, yaradıcılığı boyu müxtəlif mövzulara müraciət etmişdir: vətənin müqəddəsliyindən, onu yaraşığa mindirən uca dağların füsunkar gözəlliyindən, münbit torpaqların varından və bərəkətindən söhbət açmışdır.*

## BƏXTİYAR VAHABZADƏ. “QOCALAR”
### (BƏDİİ ƏSƏRLƏRDƏ İNSANIN TƏSVİRİ. İCTİMAİ VARLIQ KİMİ)



*Nə öyrənəcəksiniz?*

- İnsanın ictimai varlıq kimi təsviri yollarını müəyyən edəcəksiniz;
- İnsanın hiss üzvləri baxımından təsviri ilə bağlı fikirlər yürüdəcəksiniz.

Siz artıq təsviri xarakterli yazılarla tanışsınız. Bilirsiniz ki, belə mətnlərin yaranmasında əsas məqsəd hər hansı əşya, hadisə və ya məkanın insan şüurunda təsvirini yaratmaqdan ibarətdir. Elə təsviri yazılar da var ki, orada yalnız təbiət mənzərələri deyil, həm də insanlar təsvir edilir. Belə yazılarda insanların xarici görkəminin, daxili dünyasının, hiss və düşüncələrinin təsvirinə yer verilir.

Xatırlayırsınızsa, ötən il siz nəqletmə xarakterli bədii nümunələrdə obrazları təhlil edərkən onların xarici görkəminin, düşüncələrinin necə təsvir edildiyinə dair araşdırmalar aparırdınız. Bu il insan təsvirinin əhəmiyyətli məqamlarını daha dərindən öyrənəcək, esselər yazanda da bu bacarıqlardan istifadə edəcəksiniz.

İnsanı təsvir edərkən daha çox onu digərlərindən fərqləndirən xüsusi cəhətlərin təsvirinə üstünlük verilir. Yəni insanın təsviri kəmiyyətlə deyil, keyfiyyətlə dəyərləndirilir.

Təsvir edərkən dialekt və şivələrdən, jarqonlardan, yaxud anlaşıqlı olmayan sözlərdən istifadə etmək nöqsan hesab edilir.

İnsanın təsviri ilə bağlı olan mətnlər, bir qayda olaraq, indiki zamanda yazılır. Ona görə ki, bu sanki kiminsə təsvir edilən insana baxması nəticəsində baş verir. Məhz bu səbəbdən də mətn həm də üçüncü şəxsin dilindən yazılır.

Oxucu sanki təsvir edilən insanı oxu zamanı müşahidə edir.

İnsanlar iki cəhətdən təsvir edilə bilər:

— insanın ictimai varlıq kimi səciyyəvi cəhətləri;

— insanın xarici görkəmi baxımından səciyyəvi cəhətləri.

Qarşıdan gələn dərslərdə hər iki baxımdan maraqlı bədii nümunələr üzrə araşdırmalar aparacaqsınız.

## İNSANIN TƏSVİRİ
### (İCTİMAİ VARLIQ KİMİ)

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | |
|---|---|
| ***Şəxsiyyəti*** | İnsanın daxili aləmi təsvir edilir. Onun arzuları və istəklərindən danışılır. İnsanın ehtiyat etdiyi və qorxduğu məqamlar əks etdirilir. Onun ayrı-ayrı problemlərə necə reaksiya verməsi, əhvalı, nikbin və ya bədbin olması, mənəviyyatca zəif və ya güclü cəhəti təsvir edilir. |
| ***Davranışı*** | İnsanın necə hərəkət etdiyi, ünsiyyətcil, ya utancaq olması, zarafatcıl, ya həddən artıq ciddi olması təsvir edilir. Həmçinin həmin insanın fərqli şəraitlərdə davranışı da əks etdirilir. |
| ***Maraqları*** | İnsanın maraqlarından, xoşladığı məşğuliyyətlərdən və ya əşyalardan danışılır. Vaxtını əyləncəli keçirmək üçün nə etdiyindən söz açılır. |
| ***İşi, gündəlik fəaliyyəti*** | İnsanın yaşamaq üçün nə iş gördüyü, onun gələcək planları haqqında danışılır. Məktəbə getmək də iş hesab edilir. Əgər insan məktəbyaşlıdırsa, onun sinifdəki məşğuliyyətindən də danışıla bilər. |

Bütün bu məsələlərə “müəllif”in (esse yazanın) münasibəti də təsvir edilir.

***Tapşırıq 1.***

Əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın. Əsəri oxuyarkən “Oxu zamanı” təlimatına riayət edin (səh. 14,15).

***Qeyd:*** Məktəbli dost! Əlbəttə ki, gözəl şeirləri əzbər söyləmək sizin söz ehtiyatınızın zənginləşməsinə çox yaxşı təsir edir. Bu həm də sizin zövqünüzün formalaşmasında böyük rol oynayır. Lakin bu şeir yalnız əzbərləmək üçün deyil, problem baxımından araşdırmaq, mahiyyətini dərk etmək və nəticə çıxarmaq məqsədilə təqdim edilir. Şeirin ən çox bəyəndiyiniz bir-iki bəndini əzbərləsəniz, yaxşı olar.

## QOCALAR

Çənə əl üstündə, əl çomaq üstə
Qocalar əyləşir tin başlarında.
Sinə bayatılı, könül şikəstə,
Ömür varaqlanır yaddaşlarında.

Sizcə, bu təsviri bütün qocalara şamil etmək olar?

Yaşıdlar köç edib, cavanlar işdə
Tək-tənha oturmaq son əlacları.
Həyatın amansız yalqızlığında
Tutur əllərindən əl ağacları.
Yumub gözlərini düşünür onlar,
Durur göz önündə ötən zamanlar.

Sizin nənəniz, babanız varmı? Varsa, onları yalqız qoymamaq üçün nə edirsiniz?

Yerdə çuxur açır çomağın ucu,
Sonuncu həddinə dirənib ömür.
**Dünyadan aldığı, dünyaya borcu**
**Nəymiş?**
Düşüncənin sonu görünmür.

Bu misranı necə başa düşürsünüz?

---

**Qeyd: Mətnin ifadəli oxusuna dair nümunə.**

Çənə əl üstündə, || əl çomaq üstə
Qocalar əyləşir || tin başlarında.
Sinə bayatılı, || könül şikəstə,
Ömür varaqlanır || yaddaşlarında.

İşarələrə əməl etməklə ifadəli oxuyun.



Çomağın ucuna dikib gözünü,
Onlar saatlarla oturar belə.
Fikir bir gəmi ki bilinmir yönü,
Çırpınır, çıxammır ancaq sahilə.

Onlar düşündükcə boşalar, dolar,
Fikrin nə sonu var, nə də əvvəli.
Doqqazlar başında bizim qocalar
Düşüncə heykəli, fikir heykəli!

Bəndlərdə verilən təsvir vasitələri hansı məqsədlə işlənmişdir?

Əvvəllər deyərdim, onlar bu qədər
Bekarca oturub darıxmır məgər?
Kitab oxuyardım darıxmamaqçün
Onların yerinə olsaydım əgər.

Bu misralar əsərin ideyası ilə necə bağlıdır?

Bir qalın kitabmış hər ömür, demə,
Oxumaq istəsən, yum gözlərini.
Bekar deyilmişlər...
Ürəklərində
Onlar oxuyurmuş öz-özlərini.

***Bəxtiyar Vahabzadə***

***Tapşırıq 2.*** Aşağıdakı cədvəli diqqətlə nəzərdən keçirin. Həmin cədvəldə insanın ictimai varlıq kimi təsvirinin əsas göstəriciləri təqdim edilmişdir. “Qocalar” şeirindəki obrazların verilən göstəricilərə uyğunluq baxımından necə təsvir edildiyini araşdırın. Nəticə ilə bağlı fikir mübadiləsi aparın.

*Cədvəl 9*

| **İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ** | | |
|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Nümunələr** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | |

| İctimai varlıq | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | |
| **Müəllifin bunlara münasibəti** | | |

***Tapşırıq 3.***

1. Fərdi şəkildə “Oxudan sonra” təlimatını yerinə yetirin (səh. 17). Əsərin başlıca ideyasını müəyyən edin. 2. Gəldiyiniz nəticə barədə yoldaşlarınızla fikir mübadiləsi apararkən öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin.

***Müəlliflə tanışlıq***



***Bəxtiyar Vahabzadə***

*“Şair – vətənin, xalqın danışan dilidir”, – deyir Bəxtiyar Vahabzadə. O hər yerdə bu missiyanı ləyaqətlə yerinə yetirir, Azərbaycanımıza başucalığı və şərəf-şan gətirirdi. Bax buna görə də Bəxtiyarın dostları, istəyənləri, adını ürəyinin başında gəzdirənləri bu qədər çoxdur.*

*...Dünyanın bir çox ölkələrində Bəxtiyar Vahabzadəni yaxşı tanıyırlar. Şairin Buxarestdə “Zaman və məkan” kitabı nəşr olunub, eyni zamanda ona Rumıniyanın mədəniyyət sahəsində ən yüksək mükafatı – “Ləyaqət” ordeni verilib.*

*O nə qədər millidirsə, xalqına, torpağına nə qədər bağlıdırsa, bir o qədər də bəşəridir. Onun poetik dünyasının paralelləri və meridianları planetimizi belədən-belə keçib gedir, “əzəldən həqiqət aşiqiyəm mən”, – deyən şairin səsini uzaq-uzaq sahillərə aparır.*

*Xəzərin o tayından qardaş özbək şairi Pulat Fazil səsini ucaldıb könül rübabını dilə gətirir:*

*Nurlu Azərbaycan – dost diyarı var,*
*Yaxşı ki, bu yurdun Bəxtiyarı var.*

***Tapşırıq 1.*** Əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın. Əsəri oxuyarkən "Oxu zamanı" təlimatına əməl edin (cədvəl 1, 2, səh. 14,15).

## MİRVARİD DİLBAZİ. "MÜƏLLİMİM"
### (ƏSƏR ÜZƏRİNDƏ İŞ)

O elə şəfqətli, elə gözəldi,
Yox idi gözümdə heç bərabəri.
O bir arzu idi, xoş bir əməldi,
Yaşayır könlümdə illərdən bəri...

> Sizcə, bu şeirdə müəllimin daha hansı cəhətləri təsvir edilir?

> Təsvir vasitəsinin rolunu müəyyən edin.

Necə məlahətli, qəşəngdi səsi
Axan saf suların tərənəsitək;
Necə də istiydi doğma nəfəsi,
Necə də böyükdü köksündə ürək!

> Bu misraları sizin ilk müəlliminizə aid etmək olarmı?

Qarlı qış axşamı soyuq küləklər
Körpə ürəklərə gətirəndə qəm,
Onun bir sözüylə açar çiçəklər,
Nura qərq olardı elə bil aləm!

> Necə olur ki, müəllimin bir sözü ilə aləm nura qərq olur?

Min nəğmə gələrdi qulağımıza
Daim çiçəklənən könül bağından.
Elə bil çıxırdıq təzə bir yaza
Soyuq, cansıxıcı qış otağından.

O bizim şəfqətlə sığallayanda
Hərdən başımızı bir ana kimi,
Onun ətrafında biz də bu anda
Olardıq nur görmüş pərvanə kimi.

> Sizcə, "nur görmüş pərvanə" ifadəsi bu şeirdə hansı mənada işlənmişdir?

Heyif ki, əl çatmaz o gözəl günə,
Aradan keçmişdir neçə qış, bahar!

Ancaq saçlarımın üstündə yenə,
Sanki o əllərin hərarəti var.

Bu misralarda hansı hiss təsvir edilmişdir?

Ah, ey uşaqlığın gözəl günləri,
Əziz müəlliməm, hardasınız siz?
O məktəb illərim dönsəydi geri,
Önündə hörmətlə indi çöküb diz —

Bu bəndlərdə hansı misralar əsas ideyanı qüvvətləndirir?

Deyərdim: — Bu şeirim, sənətim üçün
Həmişə, həmişə borcluyam sənə.
Şərəflə keçirib ömrünü bütün,
Nəsillər böyütdün doğma vətənə.

Sözü inci kimi düzdün dilimə,
Öyrətdin düşünüb cümlə qurmağı.
Qələmi bir dayaq edib əlimə,
Çox usta çıxartdın uca bir dağı.



> Təsvir vasitəsinin rolunu müəyyən edin.

> Bu bəndlərdə hansı məqamlar əsas ideyanı qüvvətləndirir?

Coşqun bir çay kimi, bir bulaq kimi
Sən həyat eşqilə coşdun, çağladın,
Mümkün olsa idi açmaq qəlbimi,
Görərdin orada həkk olub adın.

Sən uşaq könlümün eşqi, ilqarı,
Andıydın, ustadım, dostum, yoldaşım!
Bununçün bu adı daşıyanların
Önündə hörmətlə əyilir başım.

***Mirvarid Dilbazi***

***Tapşırıq 2.***

Cədvəl 9-da (səh. 30-31) verilən şərtlərə bir daha diqqət edin. Təsdiq edilən göstəricilərdən hansılar müəllimin ictimai varlıq olaraq təsvirində nəzərə alınmışdır?

***Tapşırıq 3.***

Şeirin bir hissəsini ifadəli oxuyun.

***Tapşırıq 4.***

1. "Oxudan sonra" təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17).
2. Yoldaşlarınızla fikir mübadiləsi edin və onların diqqətəlayiq fikirlərindən yararlanın. Nitqinizdə yeni öyrəndiyiniz sözlərdən istifadə etməyi unutmayın.

***Tapşırıq 5.*** Sizin üçün dəyərli olan bir insanı ictimai varlıq olaraq təsvir edin.

## *Müəlliflə tanışlıq*



***Mirvarid Dilbazi***

*"Bəy nəslinə mənsub olduğumuzdan əziyyətimiz çox oldu. Doğrudur, camaatımızın köməyi ilə sürgünlərdən, qırğınlardan uzaq düşdük. Lakin maddi çətinliklərin pəncəsindən qurtara bilmədik. Çünki bütün var-dövlətimizi müsadirə etmişdilər. Biz – iki bacı müəllimlik edərək anamızı da özümüz saxlayırdıq. O illərdə ölkədə hər şey qıt idi. Biz bacılar isə seminariyadan aldığımız iki qızıl medalı və anamızın əldə olan-qalan qızıl zinətlərini qızıl mağazasına verərək bir-iki dəst paltarlıq parça ala bilmişdik".*

*Bu qeydlərin müəllifi Mirvarid Dilbazi Azərbaycan poeziyasının ədəbi bir incisi və mirvarisi oldu. Onun zəngin yaradıcılığı Azərbaycan şeirinə yeni təravət və gözəllik gətirdi. Müsahibələrinin birində söyləmişdi ki, mən çətin, amma şərəfli bir ömür yaşadım.*

*Mirvarid Dilbazi uşaqlar üçün məktəb və təlim-tərbiyə mövzusunda bir sıra şeirlər yazmışdır. O, əsərlərində gənc nəsli elmə, məktəbə çağırır, biliklərə yiyələnməyə həvəsləndirir. Onun böyüklərə qarşı ehtiram oyadan, sadəliyi, təvazökarlığı təbliğ edən gözəl əsərləri uşaqlar tərəfindən sevilə-sevilə oxunur.*

# ÇİNGİZ AYTMATOV. "DƏNİZ KƏNARIYLA QAÇAN ALABAŞ"
## (BƏDİİ ƏSƏRLƏRDƏ İNSANIN TƏSVİRİ. XARİCİ GÖRKƏMİ)



*Nə öyrənəcəksiniz?*
- İnsanı fiziki göstəriciləri baxımından təsvir etməyin yollarını.

Siz artıq öyrəndiniz ki, bədii əsərlərdə məkanların təsviri ilə yanaşı, insanların da təsvirinə yer verilir. Siz indi insanı ictimai varlıq kimi təsvir etməyi də bacarırsınız. İnsanın təsvirində digər mühüm amillər də vardır ki, bu məsələləri siz bu dərsdə öyrənəcəksiniz.

*Cədvəl 10*

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | |
|---|---|
| **Xarici görkəmi** | Təsvir edilən insanın xarici görünüşündən danışılır. Yəni onun boyu, çəkisi, dərisinin, saçlarının, gözlərinin rəngi, saç düzümü və bədən üzvlərinin xüsusi diqqət cəlb edən digər xüsusiyyətlərindən söz açılır. Danışarkən istifadə etdiyi jest və mimikalar, onun duruşu, yerişi, digər hərəkətləri təsvir edilir. Bütün bunlar təsvir edilən insan haqqında ətraflı fikir yaradır. Yazıçı həm də bu insanı görəndə nə hiss etdiyini təsvir edir. İnsanın görünüşü təsvir edilərkən başdan ayağa doğru ardıcıllığına üstünlük verilir.  |
| **Səsi** | İnsanın necə danışdığı, səsinin başqa səslərə bənzəməsi və müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, zarıyarkən, qışqırarkən və s.) necə eşidildiyi haqqında danışılır. Həmin insanın səsini eşidəndə ətrafdakılara necə təsir bağışladığı da təsvir edilir. |

| | |
|---|---|
| **Təması** | İnsana toxunan zaman aşkar edilən keyfiyyətlər barədə danışılır. Təsvir edilən insanın dərisinin kobud, ya zərif olması, qarşı tərəfin təmasının sərt, yaxud yumşaq, kəskin və ehtiyatlı olması qeyd edilir. İnsanın güclü, ya zəif olduğu təsvir edilir. Bu məsələlər baxımından müəllifin təəssüratları da əks etdirilir. |
| **Qoxusu** | İnsandan peşə məşğuliyyətindən asılı olaraq təmasda olduğu əşyaların qoxusu gəlir (aşpazdan ədva, həkimdən dərman, dülgərdən taxta (yonqar və s.).<br>İnsanın təsviri zamanı bu məqamların nəzakətlə qeyd edilməsi oxucunun təsəvvürünü daha da genişləndirir və dəqiqləşdirir. |

***Tapşırıq 1.***

1. Əvvəlcə oxuya hazırlıq işləri aparın (cədvəl 1, səh. 14).

2. Oxu zamanı mətnin kənarlarında verilmiş yardımçı suallar üzərində düşünün. Bu suallar sizin fəal düşünən oxucu olmağınıza kömək edər.

3. Əsərdəki başlıca obrazların səciyyəvi cəhətlərini həm xarici görkəmi baxımından, həm də ictimai varlıq olaraq müəyyənləşdirin və 11—12-ci cədvəllər üzrə iş aparın (səh. 41, 42).

## DƏNİZ KƏNARIYLA QAÇAN ALABAŞ

*(İxtisarla)*

Dəniz kənarıyla qaçan Alabaşı necə təsəvvür edirsiniz? Onun haqqında nə düşünürsünüz?

Səhərin açılmasının təsvirinə diqqət edin.

**Qaranlıq çəkilib gedirdi. Səhər səxavətlə nura bələnirdi. Torpağın ümumi cizgiləri yavaş-yavaş aydın görünür, dənizin üzü get-gedə açılırdı.**

Gecə küləyin coşdurduğu dalğalar sahilə yaxın yerlərdə hələ də ağ köpüklü cərgələrlə çarpırdı. Gözdən itən uzaq-uzaq dərinliklərdə isə ağır, xəfif ləpəli dəniz tutqun-tutqun parıldayır, sakitləşib ram olurdu...

Qara buludlar dəniz üzərindən köçlənərək sahil təpəliklərinə doğru sürünürdü.

Bu yerdə, Alabaş buxtasının yaxınlığında çəpəki ucalan dağlıq yarımadada ən çox nəzərə çarpan və uzaqdan baxanda, doğrudan da, dəniz kənarıyla baş alıb qaçan nəhəng ala-bula köpəyi xatırladan bir qaya-təpə var. Böyürləri qarışıq kollu-meşəli, başında sallaq pələqulağa oxşayan iri qar talasını, quzey çuxurunda isə ondan da iri bəyaz qar zolağını yayın qızmar günlərinəcən qoruyub saxlayan Alabaş qaya dənizdən də, meşədən də həmişə aydınca görünürdü.

Qocanın xarici görkəminin təsvirinə diqqət edin.

Bu sözün mənasını lüğətdən tapın.

Sübh tezdən, Günəş iki qovaq boyu qalxanda, buradan, Alabaş buxtasından bir **nivx kayakı** ayrılıb, dənizə yol aldı. Qayıqda üç ovçu və bir oğlan uşağı vardı. Kişilərdən nisbətən daha cavan və qüvvətli olan ikisi dörd küreklə avar çəkirdi. Gözünü, ələlxüsus da boynunu dərin qat-qırış basmış, iri, kələkötür əlləri çat-çat olmuş qoca qayığın arxa tərəfində oturub çubuğunu ağır-ağır sümürərək sükanı idarə edirdi. Saç-saqqalı çallaşmışdı artıq. Demək olar, ağarmışdı. Qəhvəyi çöhrəsində çal qaşları gendən seçilirdi. Qoca yaşaran, qan sağılmış gözlərini adəti üzrə qıymışdı — axı o bütün ömrü boyu Günəş şüalarını əks etdirən sulara baxmalı olmuşdu və indi adama elə gəlirdi ki, o, körfəzdə qayığın hərəkətinə kor-korana istiqamət verir. On bir-on iki yaşlarında qaragözlü oğlan isə o biri başda, kayakın

lap burnunda oturaraq tez-tez altdan-altdan böyüklərə baxır, o yan-bu yana çox **çovumamaq**, zəhmli ağsaqqalın acığını tutdurmamaq üçün yerində özünü güclə saxlayırdı.

Bu sözün mənasını lüğətdən tapın.

Oğlanın ictimai varlıq kimi təsvirinə diqqət edin.

Mənti̇qi vurğulu* sözləri müəyyənləşdirməklə ifadəli oxuyun.

Oğlan təlaş keçirirdi. Həyəcandan burun pərələri körük kimi qalxıb-yatır, üzünə xəfif çillər çıxırdı. Bu ona anasından keçmişdi; anası çox sevinəndə, üzündə belə xəfif çillər görünərdi. Oğlanın həyəcan keçirməsinin səbəbi vardı. Bu dəniz səfəri onunçün, onu ovçuluq peşəsinə alışdırmaq üçün düşünülmüşdü. Elə buna görə də Kirisk cüllüt kimi başını o tərəf-bu tərəfə çevirir, ətrafa sonsuz maraq və səbirsizliklə baxırdı. Kirisk ömründə birinci dəfə idi ki, dədə-baba kayakında açıq dənizə, peşəkar ovçularla əsl ova gedirdi. Oğlan yerindən qalxmaq, avar çəkənləri tələsdirmək, dəniz heyvanlarını ovlayacaqları adalara tez çatmaq üçün az qala özü var gücü ilə kürəklərdən yapışmaq istəyirdi. Fəqət uşaq istəkləri təmkinli adamlara gülməli görünə bilərdi. O bundan ehtiyat edərək var gücü ilə hissini büruzə verməməyə çalışırdı. Lakin buna heç də tam müyəssər olmurdu. Öz xoşbəxtliyini gizlin saxlamaq onunçün çətin idi; sağlam, qarabuğdayı yanaqları qıpqırmızı olmuşdu. İllah da gözləri — vəcdə gəlmiş **fərəhnak**, saf uşaq gözləri onun qəlbini coşduran sevinc və qürurunu gizli saxlaya bilmirdi. Axı qarşıda dəniz vardı, qarşıda onu kalan ov gözləyirdi!!!

Bu sözün mənasını lüğətdən tapın.

---

* **Məntiqi vurğu** — cümlədə daha qabarıq səslənən söz və ya ifadədir. Yazıda daha çox xəbərin yanında gəlir. Şərti işarəsi (———)

Səs tonunun qalxması, enməsi, fasilə, məntiqi vurğu işarələrindən istifadə etməklə parça üzərində iş aparın.

Qoca Orqan onu başa düşürdü. O, gözlərini qıyaraq, qayığın dənizdə istiqamətinə baxa-baxa səbirsizlikdən yerində qurcalanan oğlanın halını da hiss edirdi. Qocanın baxışları hərarət saçırdı, o: “Eh, uşaqlıq, uşaqlıq!” — deyə gülümsəmək istədi, lakin yarısönmüş çubuğunu dərin qullab vurub sümürməklə **cənglərindəki** xəfif təbəssümü vaxtında gizlətdi. Təbəssümü büruzə vermək olmazdı. Oğlan onlarla dəniz səfərinə qayıqda əyləncə üçün çıxmamışdı. O öz dəniz ovçusu həyatını başlamalı idi; o, həyatı birdəfəlik, havaxtsa bir gün elə dənizdə də başa vurmaq üçün başlamalı idi — neyləmək olar, çörəyini dənizdən çıxaran adamın taleyi belədir, çünki dünyada dəniz ovçuluğundan da çətin və təhlükəli iş yoxdur. Ona gərək uşaq yaşlarından vərdiş eləyəsən. Elə buna görə də atalar deyiblər: **“Ağıl — göydən, səriştə — uşaqlıqdan”**. Atalar belə də deyiblər: “Çörək gətirməyən oğul nəslə yükdür”. Deməli, çörəkgətirən olmaq, ailə dolandıran olmaq üçün kişi xeylağı erkən çağlarından özünə bir peşə seçməlidir. Kiriskin də belə bir peşə öyrənmək çağıydı; oğlanı ovçuluğa öyrətmək, dənizə alışdırmaq vaxtı çatmışdı.

Bu atalar sözünün ideya ilə bağlılığını izah edin.

***Çingiz Aytmatov***

***Tapşırıq 2.*** Qoca Orqan və oğlan obrazlarının həm xarici görkəmləri baxımından, həm də ictimai varlıq olaraq səciyyəvi cəhətlərini araşdırın.

*Cədvəl 11*

| İNSANIN XARİCİ GÖRKƏMİNİN TƏSVİRİ | | | |
|---|---|---|---|
| **Hiss üzvləri baxımından** | **Göstəricilər** | **Qoca** | **Oğlan** |
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | | |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | | |
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu | | |
| **Müəllifin bunlara münasibəti** | | | |

*Cədvəl 12*

| İNSANIN İCTİMAİ VARLIQ OLARAQ TƏSVİRİ | | | |
|---|---|---|---|
| **İctimai varlıq** | **Göstəricilər** | **Qoca** | **Oğlan** |
| **Şəxsiyyəti** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibət | | |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | | |
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | | |
| **Müəllifin bunlara münasibəti** | | | |

***Tapşırıq 3.*** “Oxudan sonra” təlimatını yerinə yetirin (səh. 17).

## *Müəlliflə tanışlıq*



***Çingiz Aytmatov***

*Qırğızıstan Xalq yazıçısı Çingiz Aytmatov dövrünün ən qüdrətli qələm sahiblərindən olmuşdur. Onun hər yeni əsəri dünya ədəbiyyatında bir hadisəyə çevrilmişdir. Yazıçı öz əsərlərində ən adi həyat hadisələrini belə dünya səviyyəsinə qaldıra, ona ən yüksək zirvədən baxa bilmişdir.*

**Bəxtiyar Vahabzadə**

*Yaradan Çingiz Aytmatova nəhəng yazıçı və ictimai xadim kimi istedad bəxş etmişdir. Çingizdə hələ uşaqlıq illərindən insanın cəmiyyətdəki davranışına düşünülmüş baxış formalaşmışdı.*

*Dördüncü sinifdə dövlət sərhədlərini qoruyan sərhədçilər haqqında özünün ilk hekayəsini yazmışdır. Həmyaşıdları bu hekayəni maraqla oxuyurdular. Müəllimləri şagird Çingiz Aytmatova xüsusi diqqət yetirir, onun gələcəkdə görkəmli bir şəxsiyyət kimi inkişaf edəcəyini əvvəlcədən görürdülər.*

**Akademik İlgiz Aytmatov**

## ABDULLA ŞAİQ. “KÖÇ” HEKAYƏSİNDƏN “KƏRİM BABA” VƏ “AYRIM QIZI” PARÇALARI
(BİZ NƏ ÖYRƏNDİK?)

***Tapşırıq.***

Bədii əsərdən verilmiş parçanı oxuyun. 30 və 36-cı səhifələrdəki 9-cu və 10-cu cədvəllərə əsasən insanı ictimai varlıq kimi və fiziki göstəricilərinə görə təsvir edin. Qeydlərinizi dəftərdə yazın.

### I VARİANT

### KƏRİM BABA

Günlərimin bir qismini Kərim baba ilə keçirirdim. Kərim baba altmış yaşlarında, qısaboylu, köksü və kürəkləri enli bir qoca idi. Gözünün yanları iri cizgilərlə örtülmüş və kiçilmişdisə də, yenə parlaq idi. Söz söylədiyi zaman daima kiçik gözləri, qalın və iri dodaqları gülərdi. Onun keçirmiş olduğu uzun bir tarixi hər zaman gözlərindən oxumaq olurdu. Yaşlı olduğu halda, daima açıq, geniş çöllərdə yaşamış bu adamın üzü ətli, yanaqları qıpqırmızı, canı sapsağlam idi. Bu adamın hərəkətindən və simasından gəncliyində çox igid və qoçaq olduğu anlaşılırdı. İndi belə fikri-zikri daima ovda və şikarda idi.

Atasından qalma köhnə tüfəngi var idi. Bu tüfəngin lüləsi kiçik bir top lüləsi qədər idi. Onu hər zaman özü ilə gəzdirər və bir an yanından ayırmazdı. Hər gün silər, təmizlər və arabir dərənin içinə enərək bir yeri nişan alardı. Nişanladığını vurduqda bütün arzularına qovuşmuş bəxtiyar bir uşaq kimi sevincindən atılıb-düşərdi. Tüfəngin bir top qədər şiddətli səsindən xoşlanmayan Ayrım qızı arabir Kərim babaya istehza ilə: “Ayıbını yer örtsün, sən heç bildiyindən əl çəkmə. Yaxşı ki, dədən Qafar sənə bu qırıq tüfəngi qoyub gedibdir”, — deyərkən Kərim baba məğrur bir tövrlə: “İgid atadan igid oğula bir tüfəng, bir də at qalar”, — cavabını verirdi.

Kərim baba inəkləri cüzi ayıqlıqla güdərdi. Özünün də iki inəyi, dörd-beş qoyunu var idi. Hər gün inəkləri bir yamaca yayıb obaya qayıdardı. Bu işdə ona bəzən kiçik oğlu Vəli də kömək edərdi. Oğul-uşaq zoğal, fındıq, moruq dərməyə gedərkən Kərim baba da sıradan qalmazdı. O da onların içində olmalı idi. Kərim babanın inəkləri özbaşına buraxması sahiblərinin xoşuna gəlməzdi; lakin o bunlara heç əhəmiyyət verməyib nəşəsini pozmaz, tütək çalar, sümsü qayırar, hələ bayatı-şikəstəsi də ağzından düşməzdi.

### II VARİANT

## AYRIM QIZI

Ayrım qızı qısaboylu, kök bir qadın idi. Kiçik qumral gözləri, ay kimi yuvarlaq üzü var idi. Bu çalışqan, namuslu qadının üzündə kişilərə məxsus bir heybət vardı. Hələ gurlayan səsini hər kəs eşitsə idi, onun bir kişi olduğuna inanırdı. Gündüzləri bir yandan bizim evdə çalışıb-çapalayar, bir yandan da öz evinin işlərini görərdi. Meşədən şələ-şələ odun daşıyar, sac asar, çörək bişirər, özgələrinin inəklərini, qoyunlarını sağar, nehrə çalxalayar və yorulmaq nə olduğunu bilməzdi.

Bu vaxta qədər kimsə Ayrım qızından "yoruldum" sözünü eşitməmişdi. Həyat onu belə öyrətmişdi. Onun əsl adı Fatma idi. Atası **"ayrım"** olduğundan hamı onu "Ayrım qızı" çağırırdı.

Bu iki adamın təbiəti bir-birinə əsla uymurdu. Onun üçün Ayrım qızı bir yandan Kərim babanın uşaqcasına işlərindən, qəribə hərəkətlərindən darılar, o biri tərəfdən də naxır sahiblərinin töhmət və məzəmmətlərini izzəti-nəfsinə sığışdıra bilmədiyindən Kərim babanın arxasından hər gün söylənərdi. Kərim baba heç bir şeyə əhəmiyyət vermədiyi kimi, buna da əsla əhəmiyyət verməyib nəşəsindən, kefindən qalmazdı.

Bir gün qadınlarla uşaqlar moruq və çiyələk yığmağa getmişdilər. Kərim baba sıradan heç qalarmı? Ayrım qızı Kərim babanın da getdiyini, naxırın başsız qaldığını bilmiş, naxır sahiblərinin acı töhmətini eşitməmək, həm də Kərim babaya acı dərs vermək qəsdi ilə yumrubaşlı iri çomağı götürüb özünü na-

xıra yetirmişdi. Axşamçağı naxırı obaya doğru sürərkən hamı ona tamaşaya çıxdı.

Hətta Kərim baba da bu tamaşadan qalmadı, uzaqdan laqeyd baxışlarla arvadını seyr etdi. Ayrım qızı əsla tövrünü dəyişməyərək əlində çomaq o inəyin, bu öküzün arxasınca bağıra-bağıra qalırdı.

Kəndlilərdən biri gülə-gülə Kərim babaya:

— Ay Kərim, ay Kərim! Buna Ayrım qızı deyərlər, adamdan belə hayıf alarlar, bu pəhləvan arvad kişidən artıqdır, — dedi.

Bu sözün Kərim babaya bir milçək vızıltısı qədər təsiri olmadı, gurlayan səsi ilə:

— Mənim kimi kişinin elə də arvadı olar, — deyə cavab verdi.

### *Müəlliflə tanışlıq*



***Abdulla Şaiq***

*Azərbaycan ədəbiyyatında görkəmli şəxsiyyət, uşaq ədəbiyyatının yaradıcılarından biri kimi tanınır. "Həpimiz bir günəşin zərrəsiyiz", – deyən Abdulla Şaiq bütün əsərlərində xalqları dostluğa, əmin-amanlığa çağırırdı. Abdulla Şaiq həm də milli uşaq teatrının banisidir. Şair ən çox uşaqlar və gənclər üçün yazıb-yaratmışdır. Onun əsərləri məktəblərdə tədris edilir. Uşaqlar onun hekayələrini, nağıllarını, təmsillərini sevə-sevə oxuyurlar. Abdulla Şaiq xalqın, Vətənin gələcəyi naminə var gücü ilə çalışmışdır. Kiçikyaşlı uşaqlar üçün yazdığı şeirləri bu gün də dillər əzbəridir. Elmə çağırış, gənc nəslin tərbiyəsi, xalqın, vətənin gələcəyi kimi məsələlər onun əsərlərinin əsas mövzusu olmuşdur.*

*Ana vətənin gözəl təbiətini uşaqlara sevdirmək Abdulla şaiq əsərlərində başlıca yer tutmuşdur. O, çalışır ki, uşaqlar təbiəti duyub sevsinlər, ondan zövq alsınlar, ona xidmət etməyi, onu zənginləşdirməyi bacarsınlar. Zəhməti sevmək, xeyirxah işlərə, nəcib əməllərə çağırış Abdulla Şaiqin əsərlərində təbliğ olunan gözəl xüsusiyyətlərdir.*

## ӘLİAĞA KÜRÇAYLI. "VӘTӘN"
### (BӘDİİ ӘSӘRLӘRİN İDEYASININ MÜӘYYӘN EDİLMӘSİ)



*Nə öyrənəcəksiniz?*
- İdeyanın müəyyən edilməsi mexanizmlərindən istifadə etməklə əsərdə əsas fikri müəyyənləşdirəcəksiniz.

Təsviri xarakterli bədii əsərlərdə əsas ideya açıq-aşkar təqdim edilmir. Yazıçı əşya, məkan, insan, hadisə barədə fikirlərini təsvir vasitələrinin yardımı ilə ifadə edir. Bununla da haqqında danışılanlar barədə oxucusunun fikirlərini, təsəvvürlərini formalaşdırır.

Aşağıdakı suallar da sizi əsərin əsas ideyasını müəyyən etməyə istiqamətləndirə bilər:
- Bu əsərdə nədən bəhs edilir?
- Bu əsərdə əsas fikir nədən ibarətdir?

***Tapşırıq 1.***

1-ci cədvəl üzrə oxuya hazırlıq işləri aparın. "Oxu zamanı" təlimatına əməl edin, sualları cavablandırın (səh. 14, 15).

## VӘTӘN

"Zümrüd meşələr", "dilbər guşələr" ifadələrində müəllifin məqsədini izah edin.

Mən səndən bir yaşıl budaq istədim,
Sən mənə bəxş etdin zümrüd meşələr.
Mən səndən kiçik bir otaq istədim,
Sən mənə bəxş etdin dilbər guşələr.

Vətənin belə məkanları haqqında nə bilirsiniz?

Mən səndən adicə həyat istədim,
Sən məni çıxardın min-min səhərə.
Mən səndən kiçik bir qanad istədim,
Sən məni uçurdun **ənginliklərə**.

Tanış olmayan sözün mənasını lüğətdən tapın.

Siz Vətəndən nə istərdiniz? Vətənə nə vermək istəyirsiniz?

Mən səndən bir dəstə çiçək istədim,
Mənimçün dörd fəsil yaz elədin sən.
Mən səndən ilhamlı ürək istədim,
Sən mənə təb verdin milyon ürəkdən.

Mən səndən kiçik bir sevinc istədim,
Sən mənə bəxş etdin bütöv səadət.
Mən səndən bir parça bürünc istədim,
Sən mənə bəxş etdin xəzinə, dövlət.

Burada hansı misralar ideyanı qüvvətləndirir?

Mən səndən istədim açıq bir alın,
Sən mənə bəxş etdin əzəmət, vüqar.
Mən də başıaçıq, ayağı yalın
Yolunda can qoysam, yenə az olar.

Bəlkə, buna görə əzəmətlisən —
Nəyin var vermisən əsirgəmədən!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, Vətən, can Vətən!

***Əliağa Kürçaylı***



*Tapşırıq 2.*

1. Verilən sxemdən istifadə etməklə əsərin ideyasını müəyyənləşdirin.
2. İdeya və məzmununu müəyyənləşdirdikdən sonra şeiri yenidən ifadəli oxuyun.




*Tapşırıq 3.*

"Oxudan sonra" təlimatına əməl etməklə əsər üzərində işi yekunlaşdırın (cədvəl 3, səh. 17).

*Müəlliflə tanışlıq*



***Əliağa Kürçaylı***

*"Mən öz həyatımdan bir epizodu danışsam, bu bizim bütün nəslimizin, Səməd Vurğunun diqqət və qayğısı ilə tərbiyələnmiş nəslimizin taleyi hesab oluna bilər...*

*Mən 1947-ci ildə Gənc yazıçıların respublika müşavirəsinə gəlmişdim. Çıxış edəndə Səməd Vurğun sözümü kəsib harada oxuduğumu soruşdu. Dedim ki, oxumuram, fəhlə işləyirəm. O dedi:*

*– Fəhləliklə şairlik bir yerə sığmaz. Gəl sənədlərini universitetə ver.*

*Dedim ki, mən onuncu sinfi qurtarmamışam, məni universitetə götürməzlər...*

*Oradakılar məsləhət gördülər ki, mən rayona qayıdım, orta məktəbi bitirim, sonra gəlib universitetdə təhsilimi davam etdirim. Lakin şair razılaşmadı. Dedi:*

*– Mən bilirəm, bu, müsəlman balasıdır, getsə, gəlməyəcək.*

*Məni Bakıda gecə məktəbinə düzəltdilər. Lakin Bakıda mənim nə qalmağa yerim, nə də yeməyə çörəyim vardı. Səməd Vurğunun göstərişi ilə Yazıçılar İttifaqının üzvü olmadığım halda İttifaqın hesabına mənə mehmanxanada otaq tutdular və mən orada yaşayaraq gecə məktəbində oxudum".*

## MƏMMƏD ARAZ. "AZƏRBAYCAN – DÜNYAM MƏNİM"
### (BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR VƏ İFADƏ VASİTƏLƏRİ)



*Nə öyrənəcəksiniz?*
- Bədii ifadə vasitələri nədir?
- Bədii təsvir vasitələrini bədii ifadə vasitələrindən hansı xüsusiyyətlər fərqləndirir?

Siz artıq beşinci sinifdən təşbeh və epitet kimi bədii təsvir vasitələri ilə tanışsınız. Həmçinin hisslərin və faktların da təsviri imkanları ilə bağlı xeyli məlumatınız var. İndi isə həm öyrəndiyiniz məsələlərə dair bilik və bacarıqlarınızı inkişaf etdirəcək, həm də bədii nümunələrdə bədii ifadə vasitələri və onların rolunu araşdıracaqsınız.

***Tapşırıq 1.***

"Oxudan əvvəl" və "Oxu zamanı" təlimatına əməl etməklə əsəri oxuyun (cədvəl 1, 2, səh. 14, 15).

### AZƏRBAYCAN – DÜNYAM MƏNİM

Azərbaycan – qayalarda bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı vəsf eləyərək,
Azərbaycan dünyasından baxar dünyaya.

Azərbaycan dünyasından dünyaya baxsanız, nə görərsiniz?

Azərbaycan – mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər.
AZƏRBAYCAN deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər.

Bu ifadələr reallığa nə dərəcədə uyğundur?

Oğulları Kür gəzdirər biləklərində,
Oğulların göz atəşi gözəl əridir.
Azərbaycan səhərinin bəbəklərində
Qütb ulduzu, dan ulduzu gözəlləridir.

Bu bənddə hansı bədii ifadə vasitəsindən istifadə edilmişdir? Onların rolunu izah edin.

İllər olub kürələrdə dəmir olmuşuq,
Sərhədlərdə dayanmışıq küləkdən ayıq.
Od gölündə, buz gölündə gəmi olmuşuq,
Biz Bakının ilk səadət carçılarıyıq.

Bu bənddə şair "biz" sözünü kimə, yaxud nəyə bənzədir?

Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin ümman dünyası.
Azərbaycan qatarı da yollara çıxdı,
Dağılanda qoca Şərqin duman dünyası.

Bu misraların mənasını şərh edin.

Azərbaycan — mayası nur, qayəsi nur ki,
Hər daşından alov dilli ox ola bilər.
AZƏRBAYCAN deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər!

***Məmməd Araz***



***Bunu bilməlisiniz!***

***Bədii sual*** əsərin emosional təsirini artırmaq üçün fikrin sual tərzində ifadə olunmasına deyilir. Adi qrammatik sualdan fərqli olaraq, bədii sualda cavab alıb hansısa məlumatı dəqiqləşdirmək məqsədi güdülmür.

*Ey fəzalarda gülümsər əbədi şeri-xəyal,*
*O nə qüdrət? O nə həşmət? O nə ahəngi cəlal?!*

**Hüseyn Cavid**

***Mübaliğə*** sözünün lüğəvi mənası "şişirtmə" deməkdir. Təsvir edilən əşya və ya hadisənin mənası, gücü, ölçüsü şişirdilmiş şəkildə təqdim olunur. Bədii sual və mübaliğə bədii ifadə vasitələridir.

*Mən dizimə döyüb zar-zar ağladım,*
*Çöllər göz yaşımdan gölmə-gölmədi.*

**Bəxtiyar Vahabzadə**

***Tapşırıq 2.***

Əsərdəki mübaliğə və bədii sualları müəyyən edin. Həmin nümunələri verilən cədvəldə müvafiq sütunlara daxil edin.

| Mübaliğə | Bədii sual |
|---|---|
| | |

***Tapşırıq 3.***

"Oxu və yazı prosesi" bəhsindən "Qarşılaşdırma-müqayisəetmə" cədvəli (səh. 20) ilə artıq tanışsınız. Həmin cədvəldən istifadə etməklə bədii təsvir vasitələri ilə bədii ifadə vasitələrini qarşılaşdırın. Onlar arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirin. Nəticələrinizi yoldaşlarınızın nəticələri ilə müqayisə edin.

***Bunu bilməlisiniz!***

**Bədii ifadə vasitələri** bədii əsərin tərkib hissəsidir. Daşıdığı vəzifəyə görə məcazlara oxşayır. Bütöv cümlə və ya misra şəklində ola bilər. Bədii ifadə vasitələrində sözün məcazi mənada işlənməsi zəruri deyil. Onlardan istifadə etməklə yazıçı fikrin təsir gücünü artırır.

***Xatırlayırsınızmı?***

Bədii təsvir vasitələri — bədii əsərin emosional təsir gücünü artıran məcazlardır. Bədii təsvir vasitələri daşıdığı vəzifəyə görə bədii ifadə vasitələrinə oxşayır. Onlar məcazi mənada işlənmiş ayrı-ayrı söz və ya ifadələrdən ibarət olur. Məcazlarda söz yalnız məcazi mənada işlənir.

***Tapşırıq 4.***

Oxuduğunuz əsərdəki bədii təsvir və ifadə vasitələrini, hisslərin və faktların təsvirinə aid nümunələri seçib cədvəli dəftərinizə çəkin və yerinə yetirin. Nəticələrinizi müzakirə edin.

*Cədvəl 13*

| **Abzas, bənd** | **Nümunə** | **Təsvir və ya ifadə vasitəsinin növü** |
|---|---|---|
| *Bədii təsvir vasitələri (təşbeh, epitet)* | | |
| | | |
| | | |
| | | |
| | | |
| *Bədii ifadə vasitələri (mübaliğə, bədii sual)* | | |
| | | |
| | | |
| *Təsvir edilən hiss (görmə, eşitmə, qoxu, dad, təmas)* | | |
| | | |
| | | |
| | | |
| *Faktların (şəxs, zaman, məkan) təsviri* | | |
| | | |
| | | |
| | | |

***Tapşırıq 5.***

1. "Oxudan sonra" təlimatı üzrə iş aparın (cədvəl 3, səh. 17).
2. İdeya və məzmununu müəyyənləşdirdikdən sonra şeiri yenidən ifadəli oxuyun.

***Tapşırıq 6.***

Şeiri oxuyarkən təsəvvürünüzdə canlandırdığınız Azərbaycan mənzərəsi ilə bağlı kiçik bir rəsm çəkin və ya aplikasiya hazırlayın.

***Müəlliflə tanışlıq***



***Məmməd Araz***

*Sənətkarın tərcümeyi-halı, taleyi və həyatı daha çox onun yaradıcılığında öz əksini tapmışdır. Bunu Xalq şairi Məmməd Araz özü də etiraf edirdi. Kitablarından birinə yazdığı müqəddimədə deyilir: "Əsl tərcümeyi-hal şairin şeirləridir... Şair çox halda öz yazılarının baş qəhrəmanı ola bilir..."*

*Məni şeirimdə gəz, bir insan kimi,*
*Qəlbimdə nə varsa, ona demişəm.*
*Anadan-bacıdan gizlətdiyimi*
*Kağızdan, qələmdən gizlətməmişəm.*

*Məmməd Araz şeiri qaynar həyat seli, sehrli mənəvi dirilik çeşməsidir. Dünənimizdən ibrət dərsi almaq, bu günümüzün ab-havası ilə yaşamaq, sabahımızın mənzərəsini ayın-şayın görmək, amalımızı, məqsədimizi müəyyən etmək üçün Məmməd Araz poeziyası ən etibarlı və ağıllı bələdçidir.*

*Azərbaycanın Xalq şairi, Əməkdar incəsənət xadimi Məmməd İnfil oğlu İbrahimov – Məmməd Araz milli şeirimizin ağsaqqalı, şeir-sənət ustadı kimi tanınmış və sevilmişdir. Vətənpərvər şair öz əsərləri ilə geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.*

# HİKMƏT ZİYA. “QARABAĞDA”
## (BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR VASİTƏLƏRİNİN ƏLAQƏLƏNDİRİLMƏSİ)




Məktəbli dost! Bədii nümunələrdə əşya və hadisələr təsvir edilərkən ayrı-ayrı məqamların təsviri yolları ilə tanış oldunuz.

Öyrəndiniz ki, bədii təsvirin, hisslərin və faktların təsviri yazının əsas şərtlərindəndir. Bədii əsərlərdə hansı məqamın təsvir edildiyini müəyyən etmək istərkən bəzən suallar qarşısında qalırdınız. Görəsən, “Şiş qayalardan şırıltı ilə tökülən şəlalənin səsindən qulaq tutulurdu” cümləsində hansı məqam təsvir edilib? Düşündürücüdür. “Şiş” epitetdir, yəni bədii təsvirdir, “şırıltı ilə axan şəlalə” hissin təsviridir, eşitmə ilə bağlıdır. Bu cümləni hansı təsvirə aid etmək olar? Əlbəttə ki, hər ikisinə. Yəni təsvir edilən ayrı-ayrı məqamlar bir fikirdə əlaqələndirilib.

***Tapşırıq 1.***

1-ci cədvəldən istifadə etməklə oxuya hazırlıq işləri aparın (səh. 14). Əlaqələndirilmiş təsvir vasitələrini müəyyən etmək məqsədilə əsəri diqqətlə oxuyun. Belə nümunələri aşkar etdikcə 14-cü cədvələ uyğun qeydlər aparın.

*Cədvəl 14*

| | |
|---|---|
| Hiss və bədii təsvir | |
| Fakt və bədii təsvir | |
| Fakt və hissin təsviri | |
| Hiss, fakt və bədii təsvir | |

## QARABAĞDA

Qarabağ haqqında nə bilirsiniz?

Qarabağ təbiətin sərvətidir, varıdır,
Azərbaycan yurdunun solmayan gülzarıdır.
Hüsnü yaşıl bağları, vüqarı dağlarıdır...
Başqa ətirlə açır qönçələr Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

Qarabağ haqqında daha nə bilmək istərdiniz?

Dağlarının başında Şuşa zümrüd tacıdır,
Bərdə, Ağdam, Füzuli daim qardaş-bacıdır.
Qəlbim bu xoş yerlərin həmişə möhtacıdır,
Hər daşını görənlər dirçələr Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

Bu yerlər haqqında televizorda, yaxud həyatda nə eşitmisiniz, oxumusunuz?

Sizcə, burada əlaqələndirilmiş təsvir vasitələri hansılardır?

Bu yerdə Vaqifimin müqəddəs türbəsi var,
Natəvanın, Zakirin pozulmayan izi var,
Üzeyirin nəfəsi, Bülbülümün səsi var...
Cabbar, Xan, Rəşid, Səid, Zülfü zəngulәsi var,
Yetişibdir gör necə incilər Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.






Bu misralardan hansında mübaliğəyə yer verilmişdir və nə üçün?

Ulu babalarımın min-min illik oylağı!
Doğmalardan doğmadır hər aranı, yaylağı,
Saflıq çeşmələridir Turşsu, İsa bulağı...
Havası qocanı da gənc edər Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

Bu misralarda hansı məqamlar əsas ideyanı qüvvətləndirir?

Gözlərinə ağ gələr bu yerdən pay umanın,
Yolunda qurban verər hər bir övladı canın.
Döyünən ürəyidir doğma Azərbaycanın.
Gündüzlər Qarabağda, gecələr Qarabağda,
Min ilin yorğunu da dincələr Qarabağda.

***Hikmət Ziya***

***Tapşırıq 2.***

1. Fərdi şəkildə “Oxudan sonra” təlimatını yerinə yetirin (səh. 17). Əsərin başlıca ideyasını müəyyən edin.
2. Gəldiyiniz nəticə barədə yoldaşlarınızla fikir mübadiləsi apararkən öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin.

***Tapşırıq 3.***

İdeya və məzmununu müəyyənləşdirdikdən sonra şeiri yenidən ifadəli oxuyun.

**Yaradıcı tətbiqetmə:**

Sinifdənxaric oxu materiallarından "Qurban bayramı" hekayəsini oxuyun. Əlaqələndirilmiş təsvir vasitələrini müəyyən edin. 14-cü cədvələ (səh. 54) uyğun olaraq dəftərdə qeydlər aparın.

***Müəlliflə tanışlıq***



***Hikmət Ziya***

*"Mən uşaq yazıçısı kimi bu fikrin üzərində xeyli düşündüm. Yazıçı cansız əşyaları insan kimi düşündürür, danışdırır, onların sevincini, qəzəbini göstərir. Axı necə olur ki, uşaqlar bütün bunlara inanır? Görünür, uşaqların bütün bunlara inanması yazıçının qələminin qüdrətindəndir". Qələm dostu Zahid Xəlil barədə Hikmət Ziyanın söylədiyi bu sözləri şairin özünə də şamil etmək olar.*

*Hikmət Ziya duzlu, məzəli, incə yumorla dolu şeirlərin müəllifidir. Elə buna görə də onun əsərləri daim sevilərək oxunur, görüşlərdə onun çıxışları əsl toy-bayrama çevrilirdi. Dinləyicilərin üzünə xoş bir təbəssüm qonurdu. Alqış səsləri kəsilmək bilmirdi. Bütün bunlar şairin şeirlərinin həyatiliyi, səmimiliyi ilə əlaqədar idi.*

*Hikmət Ziya yüzlərlə təmsilin, onlarla şeir toplusunun müəllifidir. Şairin təmsilləri və mənzum (şeirlə yazılan) nağılları uşaq ədəbiyyatı xəzinəsini zənginləşdirən kamil nümunələrdir. O, coşqun şair, eyni zamanda işgüzar tərcüməçi idi. Şairin əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuşdur. O özü də başqa xalqların yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.*

## ALEKSANDR DÜMA. “QAFQAZ SƏFƏRİ: BAKI”
### (TƏSVİRİ XARAKTERLİ BƏDİİ ƏSƏRLƏRİN QURULUŞU: ƏSƏRİN HİSSƏLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ)



*Nə öyrənəcəksiniz?*
- Təsviri mətnin hissələrinə verilən tələblər baxımından əsərin hissələrini müəyyən edəcəksiniz.

Məktəbli dost! Mətnin quruluşu haqqında məlumatlı olduqda oxunun təşkili xeyli asanlaşır. Məsələn, tutaq ki, siz təsviri xarakterli hər hansı bir bədii nümunə ilə tanış olursunuz. Belə əsərlərin ideyası kiçik fikirlər şəklində əsər boyu paylanır. Bu zaman siz bəndlərdə, abzaslarda ifadə olunmuş kiçik fikirləri aşkar edərək müvafiq qeydlər aparmaqla oxumalısınız. Oxunun sonunda isə həmin kiçik fikirləri ümumiləşdirərək başlıca fikri — əsərin ideyasını müəyyən edirsiniz. Oxunun əsas məqsədi də bundan ibarətdir. Məqsədə çatmaq və müəllifin nə demək istədiyini müəyyənləşdirmək üçün mətnin quruluşu ilə yaxından tanış olmaq lazımdır.

***Tapşırıq 1.***

1. “Oxunun təşkili” cədvəlindən istifadə etməklə “Oxudan əvvəl”, “Oxu zamanı” və “Oxudan sonra” təlimatlarına əməl edin və əsəri oxuyun. Dəftərinizdə müvafiq qeydlər aparın.

*Cədvəl 15*

| OXUNUN TƏŞKİLİ CƏDVƏLİ (DƏRK EDƏRƏK OXU) | | |
|---|---|---|
| **Təlimatlar** | | **Qeydlər** |
| **Oxudan əvvəl** | | |
| 1. | Fikrinizi bir yerə cəmləşdirin. Mətnin başlığını oxuyun. | |
| 2. | **Fikirləşin:** Bu barədə indiyə qədər nə oxumuşam, nə eşitmişəm, hansı televiziya verilişini izləmişəm? Bu barədə nə bilirəm? | |

| Təlimatlar | | Qeydlər |
|---|---|---|
| **Oxudan əvvəl** | | |
| 3. | Bu mətni nə üçün oxuyuram? Bildiklərimdən əlavə daha nələri öyrənmək maraqlı olardı? — deyə oxu məqsədini müəyyən edin. | |
| 4. | Başlıq və yarımbaşlıqlara, şəkillərə, həmçinin digər diqqət cəlb edən məqamlara ötəri nəzər salın. | |
| 5. | Əldə etdiyiniz bu ilkin məlumatlara əsasən çalışın ki, mətndə nədən bəhs olunduğu barədə əvvəlcədən fərziyyələr irəli sürəsiniz. Həmin fərziyyələri qeyd edin. | |
| **Oxu zamanı** | | |
| 1. | Oxu prosesində qarşılaşdığınız tanış olmayan sözlərin mənasını aydınlaşdırın ki, müəllifin fikrini tam şəkildə anlaya biləsiniz. | |
| 2. | Oxu zamanı əsərdə müəllifin nə demək istədiyini (əsərin əsas ideyasını) müəyyən etməyə çalışın. | |

| Təlimatlar | | Qeydlər |
|---|---|---|
| | **Oxu zamanı** | |
| 3. | Mətnin necə təşkil edildiyinə fikir verin. Bəzən mətndə əvvəlcə hadisələrin başvermə səbəbləri təqdim olunur, sonra isə həmin hadisələrin nə ilə nəticələndiyi göstərilir. Bəzən də hadisələr əhəmiyyətlilik baxımından düzülür: əvvəlcə daha əhəmiyyətli məsələlər, sonra az əhəmiyyətli məsələlər gəlir. Yaxud əksinə olur. Bunları bilmək sizə əsas ideyanı (fikri) dəstəkləyən kiçik fikirlərin müəyyən edilməsində kömək edər. | |
| 4. | İmkan olduqca əsərdəki hadisələri özünüzün və ya yaxınlarınızın həyatında baş vermiş hadisələrlə əlaqələndirin. | |
| 5. | Əgər nəyisə anlamadığınızı və ya səhv oxuduğunuzu hiss etsəniz, dayanın, yenidən oxuyun. | |
| 6. | Mətndəki fikirlərin sxemini və ya cədvəlini çəkməyə çalışın. | |
| | **Oxudan sonra** | |
| 1. | Mətni oxudunuz. Dəqiqləşdirilməsinə və ya genişləndirilməsinə ehtiyac hiss etdiyiniz məsələləri müəyyənləşdirin. Onlarla bağlı mətnə bir daha nəzər salın. | |

| Təlimatlar | | Qeydlər |
|---|---|---|
| 2. | Mətndə haqqında danışılan məsələdən nəticələr çıxardın. | |
| 3. | **Dəqiqləşdirin:** Müəllif bu əsərdə oxucusuna nə demək istəyirdi? | |
| 4. | O, nəzərdə tutduğu fikri ifadə edə bilibmi? Nəyə görə belə düşünürsünüz? | |
| 5. | Oxunu uğurla təşkil edə bildinizmi? Özünüzü qiymətləndirin (yüksək, yaxşı, orta, zəif). | |

## QAFQAZ SƏFƏRİ: BAKI

*(İxtisarla)*

Sizcə, yazıçı iki əsr əvvəlki Bakını necə təsvir edə bilər?

Səhər açılar-açılmaz yuxudan oyanıb ətrafa nəzər saldıq. Nə azərbaycanlılar, nə də onların dəvələri vardı. Lələ köçüb, yurdu qalmışdı. Çöl də dəniz kimi bomboş idi. Gəmisiz dəniz nə dənizdir? Mən bundan ağır, bundan kədərli heç nə təsəvvürümə gətirə bilmirəm. Biz hələ durmamış atları hazırlamışdılar. Bircə onları faytonlara qoşub yola düşmək qalırdı.

Ətrafı bürümüş ağımtıl duman çox yaxşı hava olacağından xəbər verirdi. Dumanın arasından bərk qaçdıqlarından sanki ayaqları yerə toxunmayan dağkeçiləri görünürdü. O qədər ürkək, o qədər qorxaq idilər ki, bir az yaxınlaşıb bircəciyini də vura bilmədim. Dağların güneyi çəhrayı, quzeyi isə bənövşəyi rəngə çalırdı. Qəribə bir mənzərə ilə qarşılaşmışdıq. Bir yanda qızıl kimi parıldayan qum səhrası, o yandan mavi Xəzər!

Biz Bakıya qədər bu mavi dənizi — gəliş-gedişi az olan, unudulmuş, itirilmiş, insanlara az bəlli olan, ünvanına çox böhtanlar yağdırılan yazıq və məsum Xəzəri bir daha görməyəcəkdik.

Əslində isə Abşeron yarımadasının elə bir nöqtəsinə çatmışdıq ki, Qızılburundan bura qədər yol Xəzər dənizinin sahili boyu uzanıb gəlirdi. Buradan yol gözlənilmədən sağa burulub çöllüyə sarı irəliləyir və sanki nizə şəkilli yarımadanı dənizdən asılı qoyurdu. Beş-altı kilometr hamar yoldan sonra enişlər, yoxuşlar gəlirdi. Hiss olunurdu ki, Qafqaz sıra dağlarının son aşırımlarını arxada qoyuruq. Bizim **Burqund yaylasına** bənzəyən

Lüğətdən bu məkan haqqında məlumat əldə edin.

bu yerlərdə yolboyu kiçik kəndlər vardı. Evlərin bacalarından tüstü çıxır, biçənəkdə sürülər otlayırdı. Arpa-buğda cücərib qalxmışdı. Orda-burda boz dağların döşünə elə bil qeyri-bərabər biçimdə xalılar döşənmişdi.

Hər halda bu, mədəniyyət idi. Əkin-biçin, qorxusuz otlayan sürülər, evlər, sakitlik insanların dinc həyat sürdüyünə dəlalət edirdi.

Dərindən nəfəs aldım. Neçə vaxt idi ki, mədəniyyət barədə heç bir söz eşitməmişdim. Özümü rahat hiss etdim.

— Görəsən, yolun mənzərəli və təhlükəli hissəsi birdəfəlik arxadamı qaldı?

— Bəli, — deyə azərbaycanlı bələdçimiz cavab verdi.

Lakin Qafqaz dağlarının o biri ətəyində biz gözəl mənzərələr və təhlükə məfhumlarının ikili xarakter daşıdığını duyub razı qaldıq. Təhlükə, qorxu yolçunun qəribə bir yol yoldaşıdır. Əvvəlcə adam çəkinir, çalışır ki, qorxuyla üz-üzə gəlməsin. Sonra ona alışır və nəhayət, onun yaxında olmasını arzulayır. Bu elə bir təsiredici qüvvəyə malikdir ki, yaxında olanda insan hər şeyin qiymətini, dəyərini ikili duyur. Təhlükənin olmasına adam sevinir, o sovuşanda təəccüblənir. Hətta yolunu dəyişib təhlükəli, qorxulu yolla getmək istəyir.

Biz istəməzdik ki, onunla birdəfəlik vidalaşaq. Ona görə də "hələlik" deyirəm...

Yol elə bayaqdan gəldiyimiz kimi davam edirdi. Enişlər, yoxuşlar...

Burada hansı tarixi abidələr təsvir edilə bilər?

Birdən qarşımıza əvvəlkilərdən daha dik və çətin bir yoxuş çıxdı. Yoxuşda atların işini asanlaşdırmaq üçün yox, Bakını bizdən gizləyən bu axırıncı təpənin başına tez çatmaq üçün faytonlardan yerə tullandıq. Yoxuşun lap başına çatanda uzaqda Xəzər dənizini gördük. Bizimlə dəniz arasında bəzi yerləri çökəkliklərdə gizlənən Bakı şəhəri yerləşirdi. Lakin tezliklə Bakı bütün gözəlliyi ilə gözümüz önünə gəldi. Elə bil şəhərə göydən düşmüşdük. İlk baxışdan adama elə gəlirdi ki, Bakı iki hissədən ibarətdir: Ağ şəhər, Qara şəhər. Bakı Rusiyanın tərkibinə daxil olandan sonra şəhər ətrafında meydana gələn tikililər Ağ şəhəri təşkil edir. Qara şəhər isə şəhərin qədim hissəsidir. Bu şəhər də Dərbənd kimi divarlarla əhatə olunmuşdur. Dərbənd qalasının divarları qədər gözəl və mənzərəli olmasalar da, bu divarların özünəməxsus xüsusiyyətləri var. Aydın məsələdir ki, bu divarlar artilleriyadan deyil, soyuq silahdan müdafiə olunmaq üçün ucaldılmışdır.

Şəhərin mərkəzində nəzəri Xan sarayı cəlb edirdi. Buradan qədim məscidin əyilmiş minarəsini və ayağını Xəzərin suları yuyan Qız qalasını da görmək olur.

Bakıya daxil olmaq orta əsrlərin alınmaz qalalarından birinə girmək təsiri bağışlayır. Divarları üçqat olan qalanın qapıları o qədər dardır ki, üç at qoşulmuş arabanı qapıdan keçirmək üçün yan atı açmalı olduq. Şəhərin Şimal qapıları yanında böyük bazar, Şərq memarlıq üslubundan daha çox Qərb memarlıq üslubuna yaxın, daha doğrusu, Avropasayağı tikilmiş binalar və sağ tərəfdə xristian kilsəsi vardır. Bizi birbaşa M.Piqulevskinin iqamətgahına apardılar. O, qapının ağzında bizi salamladı, lakin evə dəvət edə bilmədi. Çünki evində iki azərbaycanlı qadın qonağı vardı. Müsəlman dini qadınların yad kişilər yanında üzü açıq oturub söhbət etməsinə yol vermir. Bu yandan da bizə uzun səfərdən sonra yuyunub-rahatlanmaq vacib idi. Bizi öz adamlarından biri ilə yaşayacağımız "Avropa klubu"na yola salan M.Piqulevski yuyunub-rahatlandıqdan sonra onunla nahar etməyimizi xahiş etdi.

Xristian kilsəsinin yanında şəhərin ən mənzərəli yerlərindən birində yerləşən bu klubun salon və otaqlarını mənim sərəncamıma vermişdilər.

Göstərilən qonaqpərvərlik üçün söz tapa bilmirəm. Bircə onu deyə bilərəm ki, bütün yolboyu bizə göstərilən qonaqpərvərlik gözlədiyimizdən də üstün idi.

> Bakını heç vaxt görməyən oxucusunda yazıçı hansı təəssüratları oyada bilmişdi?

Yuyunub-rahatlanmaq üçün M.Piqulevskinin bizə çox vaxt verməsinə ürəkdən sevinirdik. Lakin yenicə yuyunmuşduq ki, Piqulevski özü iki faytonla arxamızca gəldi. **Azərbaycanlı xanımlar öz milli və dini qanunlarını pozaraq mütləq məni görmək istəyirdilər.** Biz hazırlaşana qədər M.Piqulevski gözlədi.

> Sizcə, bu xanımlar kim ola bilərdilər?

O, gözəl adam idi. Onun haqqında bir neçə kəlmə deməyə dəyər.

> M.Piqulevskinin təsvirinə diqqət edin.

O, Bakının həm bələdiyyə, həm polis rəisi, həm də hakimi idi. Bu ucaboy, enlikürək adamın qırx yaşı olardı. Əynində rus forması, başında azərbaycanlı papağı vardı. Xəz papağını gözlərinin üstünə elə basmışdı ki, alışıb-yanan və gülümsəyən gözlərini güclə görmək olurdu. Gözlərindən səmimilik oxunurdu. Dolu sifəti, mir-

vari kimi ağ dişləri, gözəl dodaqları gözləri ilə tamamilə həmahəng idi. Fransızca bir kəlmə də bilmirdi. Rusca isə elə aydın, elə ifadəli danışırdı ki, nə demək istədiyini tamamilə başa düşürdük. Onun sifətindən xoşbəxtlik yağırdı. Elə bil Babil qülləsinin dağıldığı gündən bu günə qədər alimlərin yaratmaq arzusunda olduğu beynəlxalq əlifbanın ilk hərflərini bu xoşbəxt adam kəşf etmişdi.

Asudə vaxtınızda Babil qülləsi haqqında internetdə araşdırma aparın.

Faytonlara əyləşib M.Piqulevskinin iqamətgahına gəldik. Mən onun üz-gözündəki sevinci indi anladım. Onun on altı yaşında gül kimi zərif və gözəl qızı, otuz iki-otuz dörd yaşında, anadan çox öz qızının bacısına oxşayan çox cazibədar bir qadın əlimizi sıxaraq bizi salamladı. Ailənin iki-üç uşağı da vardı. Heç vaxt ağrı-acı dadmamış bu ailə həyatın pillələri ilə dərdsiz-qəmsiz irəliləyirdi.

Bu cümlədə hansı təsvir vasitəsindən istifadə edilmişdir? Onun rolunu aydınlaşdırın.

Natəvanın və onun ailə üzvlərinin təsvirinə diqqət edin.

Səbirsizliklə gözləndiyimiz, hörmətlə qəbul olunduğumuz bu məclisdə bizi görmək istəyən iki azərbaycanlı xanım və onlardan birinin — gənc xanımın əri də iştirak edirdi. Çadra örtmüş bu xanımların biri Qarabağın axırıncı xanı Mehdiqulu xanın arvadı, o biri qızı idi. Anaya qırx, qızına isə iyirmi yaş vermək olardı. Hər ikisi milli geyimdə idi. Qəşənglikdən daha çox bahalı olması ilə seçilən nazik paltarda cazibədar görünən gənc xanımın yanında iki uşağı da vardı. Anası kimi milli geyimdə olan üç-dörd yaşlı qız uşağı maraq dolu, böyük, qara gözlərini bizdən çəkmirdi. Beş-altı yaşlı oğlan uşağı isə nənəsinin dizinə sıxılmış və sövqi-təbii ilə kiçik əlini belindən asılan xəncərin üstünə qoymuşdu. Mən mat qalmışdım. Bu, fransız qadınının uşağın oynamasına icazə verə biləcəyi oyuncaq xəncər deyildi, oğlanın belindəki əsl iti xəncər idi. Azərbaycanlı qadınlar üçün bu, birinci uşaq oyuncağı hesab olunurdu.

Gənc xanımın həyat yoldaşı Xasay xan Usmiyev ürəyəyatan, gözəl insanlarla yolda baş çəkdiyimiz Andreyevo kəndində anadan olmuşdur. Otuz beş yaşlı Xasay xan qədd-qamətli idi. Alışıb-yanan gözlərində nəsə bir narahatlıq duyulurdu. Qapqara



*Aleksandr Düma ilə birgə Azərbaycanda olmuş fransız rəssamı J.P.Moynenin Xurşidbanu Natəvanla görüşündən xatirə rəsmi*

saqqalı onun dişlərini daha ağ göstərirdi. Başına qıvırcıq quzu dərisindən tikilmiş gözəl papaq qoymuşdu. Uzun, qara çərkəzi çuxa geyinmişdi. Çuxaya qızıl sapla naxış vurulmuş, yaxasında ətrafı qızıl və gümüşlə haşiyələnmiş iki patrondaş, belində saf qızıldan olan gözəl kəmər vardı. Kəmərdən fil sümüyü və qızılla işlənmiş zərif bir xəncər asılmışdı. Əynindəki şalvar İran qumaşından tikilmişdi. Dağlılar arasında dəbdə olan qumaş şalvarı dizdən aşağı sıxmışdı. Fransızca parislilərdən heç də pis danışmayan Xasay xan ləyaqətli adam idi. Mən onun mədəniyyətinə, ağlına, fransızca təmiz danışmağına heyran qalmışdım.

Xanımlar əvvəlcədən nahar etmələrinə baxmayaraq, məclisi tərk etmədilər. Onlar bizim söhbətimizə diqqətlə qulaq asırdılar. Deyilənləri onlara hərdənbir Xasay xan tərcümə etsə də, nahar başlanandan qurtarana qədər dilmancımız M.Piqulevskinin gözəl qızı idi.

***Aleksandr Düma***

***Tapşırıq 2.*** Əsəri bir daha oxuyun, mətnin quruluşunu müəyyən etməklə müvafiq xanalarda qeydlər aparın.

*Cədvəl 16*

| **Plan** | **Nəzərə alınmalı məsələlər** | **Mətnlə bağlı qeydlər** |
|---|---|---|
| *I. Giriş*<br>— Təsvir ediləcək əşya və ya hadisə ilə tanışlıq;<br>— Əsas fikirlə əlaqə yaradan məqamların təqdim edilməsi. | *1. Oxucunun hazırlanması*<br>Təsvir edilən əşya və ya hadisə haqqında oxucuda maraq doğuran cümlələr varmı?<br>*2. Əsas fikrin təqdim edilməsi*<br>Əvvəlcədən əsas fikrə zəmin yaradılıbmı? Mətndə əsas fikirlə əlaqəsi olmayan məsələlərə yer verilməyib ki? Təsvir ediləcək məsələlər barədə oxucuda ilkin təsəvvürlər yaradılmışdırmı? | |
| *II. Əsas hissə*<br>— Müxtəlif məqamların təsviri (bədii, hiss, fakt);<br>— Düşüncələrin və hisslərin əks etdirilməsi;<br>— Əşya, hadisə, insan və məkanla bağlı təsvirlərin ardıcıllıq (uzaqdan yaxına və ya əksinə; ümumidən xüsusiyə və ya əksinə; insan təsvirində başdan-ayağa və ya əksinə və s.), yaxud əhəmiyyətlilik baxımından müəyyənləşdirilməsi. | *1. Təsvir ediləcək məsələlərin müəyyən edilməsi və sıra ilə düzülməsi*<br>Əsərdə bədii ifadə və təsvir vasitələri ilə yanaşı, həm də hisslərin və faktların təsvirinə yer verilibmi? Məsələlər haqqında danışılıb, yoxsa onların necə olduğu sözlə göstərilib? "Otağın təmiri köhnə idi" kimi deyilib, ya "Döşəmənin rəngi bir çox yerlərdə getmişdi. Nəmişlikdən divar kağızları qopub geriyə qatlanmışdı" kimi təqdim edilib? Nümunələr göstərin.<br>*2. Düşüncə və hisslərin təqdim edilməsi*<br>Bu bədii nümunədə müəllif təsvir edilən məkan haqqında öz düşüncə və hisslərini oxucu ilə paylaşıbmı? | |

| Plan | Nəzərə alınmalı məsələlər | Mətnlə bağlı qeydlər |
|---|---|---|
| | *3. Oxucunun irəliyə doğru istiqamətləndirilməsi*<br>Oxucu təsvir edilən əşya və hadisəyə doğru istiqamətləndirilibmi? Məsələlərin ardıcıllığı əşyaların yerləşməsi baxımından müəyyənləşib, ya hadisələrin əhəmiyyətliliyi baxımından düzülüb? | |
| *III. Nəticə*<br>Təsvirləri yekunlaşdırmaqla yazının başa çatdırılması. | *1. Gözəl bir sonluğun verilməsi*<br>Əsas fikir yenidən vurğulanıbmı? Təsvir etdiyiniz əşya və hadisə ilə bağlı fikirlər tamamlanıbmı? | |

Təsviri xarakterli bədii nümunələrin quruluşunun müəyyənləşdirilməsində, onun giriş, əsas hissə və nəticəsində əhəmiyyət verilən məsələlərin araşdırılmasında müəyyən təcrübəniz var. İndi siz iki cədvəli qarşılaşdıracaq və onlar arasında əlaqələri müəyyənləşdirəcəksiniz.

***Tapşırıq 3.***

1. 15 və 16-cı cədvəlləri qarşılaşdırın. Hər iki cədvəldə əlaqəli məsələləri müəyyən edin və qarşılarında sadə karandaşla "+" işarəsi yazın. Bir cədvəldə verilmiş, digər cədvəldə öz əksini tapmayan məsələlərin qarşısında isə "–" işarəsi yazın. Cədvəllər arasında əlaqəlilik səviyyəsinə dair təqdimat edin. Nitqinizdə yeni öyrəndiyiniz sözlərdən istifadə edin.
2. Natəvan və onun ailə üzvləri ilə bağlı parçanı təkrar ifadəli oxuyun.

***Müəlliflə tanışlıq***



***Aleksandr Düma***

*Fransız yazıçısı Aleksandr Düma Azərbaycanı gəzərkən Şamaxıda da olmuşdur. Bu barədə Düma yazır: "...Şamaxıda mənə, Avropanın uzaq diyarından gəlmiş qonağa göstərilən ehtiram və hörməti ifadə etmək üçün söz tapmaqda çətinlik çəkirəm".*

*Azərbaycan, onun təbiəti və insanları yazıçının ürəyində dərin izlər qoyur. "Nə olaydı, mənə bir də bu yerlərə gəlmək qismət olaydı!" – deyir.*

**XƏLİL RZA ULUTÜRK. "GERBİMİZ – QƏLBİMİZ"**
**(BİZ NƏ ÖYRƏNDİK?)**

## GERBİMİZ – QƏLBİMİZ

Sən şəkil yox, nəfəsimsən, axan qansan varlığımda,
Hansı rənglər çiçəklənir gör üçrəngli bayrağımda.
Yaşıl rəngim – yaşıl bahar, müsəlmanlıq timsalıdır,
Göy rəngimdə türklük yaşar – millətimin amalıdır.

Bənddəki hansı misraları bədii sual şəklində ifadə etmək olar?

Qırmızılıq – simvoludur çağdaşlığın, yüksəlişin,
Vətənimə can verməli mənim əzmim, mənim işim.
Cavan palıd mən özüməm, kökü ərzin mərkəzində,
Kökü burda, budaqları xan Arazın o üzündə.



Səkkizguşə ulduzumda səkkiz cənnət qapısı var,
Yalnız oğul qeyrətilə açılacaq bu qapılar.
Qızıl sünbül soraq verir xırman-xırman bərəkətdən,
Ərzə bəhrə-bar gedəcək bu müqəddəs məmləkətdən.

Qabaran tunc köksümüzdür qalxanımız, sipərimiz,
Əvvəl-axır qıracağız qart düşmənin belini biz.
Alovlarda, çovğunlarda daim yaşa dolasıyıq,
Od yurdunda od tükənsə, özümüz od olasıyıq.

Yalnız qızıl alovlarla bəzəmədik gerbimizi,
Aləm üçün, bəşər üçün məşəl tutduq qəlbimizi.
Dedik: — Bu Yer kürəsində nə qan, nə bir məzar olsun,
Məzarlara gül qoymayaq, cahan özü gülzar olsun!

***Xəlil Rza Ulutürk***

## *Müəlliflə tanışlıq*



***Xəlil Rza Ulutürk***

*Xəlil Rza Ulutürk Azərbaycan ədəbiyyatı tarixinə azadlıq carçısı kimi daxil olub. Azərbaycanın sevimli şairinə çevrilən Xəlil Rza Ulutürk hələ məktəb illərindən öz çalışqanlığı, fərasəti və davranışı ilə müəllimlərin, valideynlərin rəğbətini qazanmışdı. Şair orta məktəbdə oxuduğu illərdə ədəbiyyata sonsuz həvəs göstərib, bütün əsərlərində xalqı düşmənlərə qarşı mübarizəyə səsləmişdir. Yaradıcılığı boyu əsərlərində Vətən məhəbbəti, torpaq sevgisi, sülh, əmin-amanlıq, azadlıq kimi dəyərlər tərənnüm olunmuşdur. Azərbaycanı sevən, onun müstəqil dövlət olması arzusu ilə yaşıyan və çarpışan Xəlil Rza Ulutürkün bütün zəncirləri yox etmək, zülmün qarşısına sədd çəkmək istəyi onu azadlıq şairinə çevirdi. Xəlil Rza Ulutürk ədəbiyyatımızın inkişafına böyük töhfələr verən sənətkarlardandır.*

## YAZAQ, YARADAQ: YAZIYA HAZIRLIQ, YAZI, QARŞILIQLI YOXLAMA, TƏQDİMAT



Məktəbli dost! Siz ibtidai siniflərdə inşa, esse yazmısınız. Ötən il isə bu nümunələri yazmağı daha yaxşı öyrəndiniz. Siz artıq bilirsiniz ki, esse ədəbiyyatda bir janr olub, müəllifin hər hansı mövzu ilə bağlı düşüncələrini və hisslərini şərh edən kiçik bədii nümunədir. Onun dili həm obrazlıdır, həm də danışıq dilinə yaxındır. Yəqin, unutmamısınız ki, təsviri esse yazmazdan əvvəl ətrafdakı əşya və hadisələri diqqətlə müşahidə etmək, fikirlərin ifadəsi zamanı isə müxtəlif bədii təsvir vasitələrindən istifadə etmək lazımdır. Bu dərs ilində təsviri esse yazı haqqında bilik və bacarıqlarınızı daha da artıracaq, yeni-yeni nümunələr yaradacaqsınız.

***Unutmamısınız ki?!***

Bütün uğurla yazılmış nümunələr kimi, təsviri esse də quruluş baxımından düzgün tərtib edilməlidir. Esse yazıya giriş hissə ilə başlanır. Burada siz təsvir etdiyiniz əşya, hadisə, insan və ya məkana öz münasibətinizi bildirin.

Əsas hissədə təsvir edilən subyektin səciyyəvi cəhətləri müxtəlif təsvir vasitələrinin yardımı ilə təqdim edilir. Əgər siz insanı təsvir edirsinizsə, esseyə daha üç abzas daxil etməlisiniz. Birinci abzasda insanın gəlişi, ikinci abzasda onun şəxsiyyəti, əsas xüsusiyyətləri, üçüncü abzasda isə marağı və istedadından söz açmalısınız.

Essenin nəticə hissəsində mövzu ilə bağlı təəssüratlarınızı təqdim etməli, fikirlərinizi əsaslandırmalısınız.

Təsviri yazıda təsvir vasitələrindən istifadəyə xüsusi əhəmiyyət verilir. Yazıda təşbeh və epitetlərdən, habelə faktlardan istifadə olunsa, təsvir edilən subyekt haqqında daha ətraflı fikir yaranar.

Subyektin xarici görkəmini və səciyyəvi cəhətlərini təsvir edərkən onun yaxşı və pis, yaxud oxşar və fərqli cəhətləri qruplaşdırılır. Oxşar cəhətləri təsvir edərkən “həmçinin”, “eləcə də”, “bundan əlavə” bağlayıcı vasitələrdən istifadə etmək olar. Ziddiyyətli cəhətləri təsvir edərkən isə “eyni zamanda”, “buna baxmayaraq”, “bununla yanaşı” və s. kimi ifadələr işlətmək olar.

## YAZIDAN ƏVVƏL

***Tapşırıq 1.***

Dərsliyə daxil edilən şəkillərdən istifadə etməklə, yaxud mövzuya uyğun gələn digər rəsmlərdən, fotoşəkillərdən və s. yararlanmaqla insanın təsvirinə geniş yer verilmiş esse yazın. Yazınızda şəkildə gördüyünüzün əşya, insan və məkanı da təsvir etməyə çalışın.



**“Dostlar”**



**“Sərhədimi qoruyuram”**




**“Hər şey vətəndaş üçün”**



**“Məktəbdə”**

## YAZI PROSESİ

***Tapşırıq 1.***

1. Tapşırığın hər bir bəndinə əməl etməklə esseni yazın.

2. Öz müşahidələrinizə əsasən topladığınız məlumatları qruplaşdırın. Onlara başlıq verin. Bu başlıqlar yazacağınız essenin əsas ideyasını təşkil edəcək kiçik fikirlərdir. Sonra həmin kiçik fikirləri ardıcıllıqla ifadə edin.

3. Fikirlərinizi ifadə edərkən düşünün:

— Hansı təsvir vasitələri fikirlərimin daha yaxşı çatdırılmasına kömək edər?

— Gördüklərimi canlı çatdırmaqda hansı hisslərin (görmə, eşitmə, qoxu, dad, toxunma) təsviri mənə kömək edər?

— Bu mətndə faktların təsvirinə ehtiyac varmı? Əgər faktlar təsvir edilərsə, hansı növdən (ad, tarix, say və s.) istifadə etmək lazımdır?

4. Baş verən hadisələrdə qeyri-adilik görürsünüzmü? Əgər görürsünüzsə, bu qeyri-adilik nədədir?

5. Səh. 52-də verilən 13-cü cədvəl əsasında dəftərinizdə təsvir vasitələrinə aid nümunələr yazın:

   a. Dəftərdə qeyd etdiyiniz təsvir vasitələrindən (bədii təsvir, hisslərin və faktların təsviri) istifadə edin.

   b. Əlaqələndirilməsi mümkün olan ayrı-ayrı nümunələrdən ən azı bir zəncirvari təsviri nümunə müəyyən edin (*bax:* səh. 54-də cədvəl 14).

6. Əvvəlki mərhələdə müəyyən etdiyiniz ardıcıllıqla fikirləri bir-bir düzün.

7. Fikirlərin ardıcıllığını müəyyən edərkən aşağıdakılara əhəmiyyət verin:

a) Əvvəlcə təsvir edilən məkanın uzaqdan necə göründüyünü əks etdirin;

b) Sonra isə oxucunun nəzərlərini haqqında danışılan yerə yönəldin. Baxış dairəsini daraldaraq konkret məkana yaxınlaşın;

c) Həmin məkanın təsvirini davam etdirərək həmin yerin sözlərlə “xəritə”sini yaradın (nə, harada yerləşir?)

d) Ola bilər ki, təsvir etdiyiniz hadisə eyni məkanda baş verməsin. Başqa məkanın da təsvirinə ehtiyac yaransın. Bunların üzərində düşünün.

f) “Səbəb-nəticə” ardıcıllığına üstünlük verilərsə, “Səbəb-nəticə” cədvəlindən (səh.21) istifadə edə bilərsiniz. Təsvir edilən hadisələrin əvvəlcə səbəbini, sonra isə ondan irəli gələn nəticəni əks etdirə bilərsiniz.

8. “Əhəmiyyətlidən az əhəmiyyətliyə” doğru ardıcıllıq yararlı hesab edilərsə, “Ardıcıllıq” cədvəlindən (səh. 19) istifadə edə bilərsiniz: *Təsvir etmək istədiyiniz əşya və hadisələrin siyahısını tərtib edin. Həmin siyahıda əvvəl daha vacib məsələləri, sonra isə az əhəmiyyətli məsələləri sıra ilə düzün. Ola bilər ki, əvvəl az əhəmiyyətli məsələlərdən, sonra isə daha əhəmiyyətli məsələlərdən söz açasınız.*

9. Fikirləri bir yerə toplayın və mətni yekunlaşdırın. Baş verən hadisə nə haqda düşünməyə və nəyi hiss etməyə vadar edir?

## YAZILMIŞ TƏSVİRİ MƏTNİN YOXLANMASI, TƏQDİMATI

*Yazı zamanı, adətən, yol verdiyiniz səhvlər!*

***Yazıda başlıca fikrin olmaması.*** Esseni yazarkən bütün diqqət oxucuya çatdırmaq istədiyiniz bir əsas fikrə yönəlməlidir. Bəzən şagirdlər mətnə mümkün qədər çox təsvir vasitələri daxil etmək üzərində düşünürlər. Bu zaman başlıca fikir nəzərdən qaçırılır, kiçik fikirlər əlaqələndirilmir və təsadüfi xarakter daşıyır.

***Çoxsaylı təyinlərdən istifadə.*** Təsvir edilən əşya, insan, məkan, yaxud hadisə ilə bağlı öz fikir və hisslərini ifadə etmək əvəzinə, çoxlu sayda əhəmiyyətsiz təyinlər işlədilir.

***Mənfi xüsusiyyətləri təsvir edərkən ehtiyatlı olmaq.*** Bu zaman söz seçimində diqqətli olmaq lazımdır. Məsələn: "Arzu çox əsəbi adamdır", — deməkdənsə, "Yoldaşları çox zaman Arzunun əsəbi olduğunu görürdü" kimi demək olar.

***Tapşırıq 1.***

Yazdığınız esseni həm məzmun, həm də mətnin təşkili baxımından yoxlamaq üçün 17-ci cədvəldən istifadə edin.

***Qeyd:*** Cədvəlin sol sütunundakı suallar mətnin məzmunu və təşkili üzrə aparılmış işi qiymətləndirməyə imkan verir. Orta sütundakı məsləhətlər problemlərin aşkar edilməsində sizin ən yaxşı bələdçinizdir. Hər hansı dəyişiklik etmək istədikdə isə sağ sütunda verilən üsul və texnikalar yardımçınız olacaq.

*Cədvəl 17*

| **Əşya və hadisələrin təsviri**<br>**Məzmun, mətnin təşkili üzrə özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə** | | |
|---|---|---|
| **Qiymətləndirilən suallar** | **Məsləhətlər** | **Yoxlama üsulları, texnikaları** |
| 1. Girişdə çatdırılması nəzərdə tutulan əsas fikir üçün zəmin yaradılıbmı? | Girişdə çatdırılması nəzərdə tutulan əsas fikrə zəmin yaradan cümləni tapın. Onun altından xətt çəkin. Yazmamısınızsa, əlavə edin. | Giriş hissəyə elə bir cümlə əlavə edin ki, o, əsas fikir üçün zəmin yaratsın. |
| 2. Bütün təsvir və ifadə vasitələrindən istifadə edilibmi? | Mətni oxuyun. Qarşılaşdığınız hissləri təsvir edən nümunələrin üzərində "H", faktları təsvir edən nümunələrin üzərində "F", bədii təsvir vasitələrinin üzərində "B" yazın. Bədii ifadə vasitələrinin üzərində "İ" yazın. Nəzər salın. Bunlardan hansına az yer verilmişdir? Ehtiyac olarsa, bu istiqamətdə işlər aparın. Həmçinin baxın ki, "H"lar həddən artıq çox, "B", "İ", "F"lər həddən artıq az olmasın. | Müxtəlif hisslərin (görmə, eşitmə, toxunma, dad, qoxubilmə) təsvirinə yer verilməsinə **diqqət edin**. Hansı yoxdursa, **əlavə edin**. Əsas fikri çatdırmağa yardım edən bədii təsvir vasitələrinin olmasına xüsusi diqqət yetirin. Əgər yazıda təsvir vasitələrinə az yer verilmişdirsə, uyğun nümunələr yaradın. |
| 3. Təsviri mətndə müəllifin düşüncələri və hissləri öz əksini tapıbmı? | Birinci şəxs əvəzliklərinin (mən, biz) yanında ulduz yazın. Əgər hər abzasda ən azı bir ulduz görməsəniz, düzəliş aparın. | Elə edin ki, birinci şəxsin düşüncələri, hissləri, təsvir vasitələri (bədii, hiss və faktlar) öz əksini tapsın. |

| Qiymətləndirən suallar | Məsləhətlər | Yoxlama üsulları, texnikaları |
|---|---|---|
| 4. Verilmiş məkandakı əşyaları təsvir edərkən onlar əhəmiyyətlilik baxımından qruplaşdırılıbmı? Həmin əşyalar qrupu ilə bağlı məlumatlar mətnə ardıcıllıqla daxil edilərkən bu amil nəzərə alınıbmı: əhəmiyyətlidən əhəmiyyətsizə doğru və ya əhəmiyyətsizdən əhəmiyyətliyə doğru? | Mətndə istifadə edilmiş təsvir və ifadə vasitələrini sıra ilə düzün. Sonra təsvir edilən məkanın sözlə sadə xəritəsini çəkin. Siyahıya aldığınız təsvir və ifadə vasitələrini orada yerləşdirin. Yoxlayın. Siyahıdakı nümunələrdən yararsızlarını kənarlaşdırın və ya düzəliş verməklə münasib gələn yerə yerləşdirin. | Yenidən təşkil edin. Təsvir edilən məkanda əşyaların yerləşməsi baxımından ardıcıllığa riayət edin (uzaqdan yaxına, yüksəkdən aşağıya və s.). Fikirlər təqdim edilərkən əhəmiyyətlilik baxımından ardıcıllığı gözləyin (az əhəmiyyətlidən çox əhəmiyyətliyə doğru və ya çox əhəmiyyətlidən az əhəmiyyətliyə doğru). |
| 5. Təsvir edilən insanın xarici görkəmi və ictimai vəziyyəti öz əksini tapıbmı? | Bu məsələlər baxımından mühüm parametrlərə bir daha nəzər salın və mövcud boşluqları aradan qaldırın. | Obraz haqqında təsəvvür yaradan parametrləri diqqətdən kənar qoymayın. |
| 6. Nəticədə çatdırmaq istədiyiniz fikri yekunlaşdırın. | Fikirlərinizi yekunlaşdıran cümlənin altından xətt çəkin. Əgər belə bir cümlə tapa bilmirsinizsə, əlavə edin. | Elə cümlə əlavə edin ki, əsas fikri yenidən vurğulasın və apardığınız təsvir işini yekunlaşdırsın. |

***Tapşırıq 2.***

Yazını üslub baxımından təkmilləşdirmək məqsədilə təqdim edilən təlimata əsasən işinizi davam etdirin. Təsviri mətn yazmaq üçün çoxsaylı sifətlərdən (təyinlərdən) istifadə etmisiniz. Mətn oxunanda diqqət edin ki, eyni məna verən sifətlər yersiz təkrarlanmasın. Əgər belə hallarla qarşılaşsanız, düzəlişlər aparmaq lazımdır.

*Cədvəl 18*

| Qiymətləndirən suallar | Məsləhət | Yoxlama texnikaları |
|---|---|---|
| Bəzi cümlələrdə lazımsız olaraq təkrarlanan sifətlər (təyinlər) varmı? | Yersiz təkrarlanan yaxın mənalı sözləri dairəyə alın. Buraya vergüllə bağlanan sifətlər daxildir. Bu sifətlərin eyni məna verib-vermədiyini yoxlayın. | Eyni mənanı verən sifətlərin (təyinlərin) birini silin və ya yerini dəyişin. Sifətlərdən birini əksmənalı sözlə əvəz edin və cümlənin tərtibatında dəyişikliklər edin. Məsələn: "O, çox zəhmətkeş və çalışqan idi" cümləsini "O, çox zəhmətkeş idi. Heç kəs onun tənbəl olduğunu deyə bilməzdi" kimi tərtib etmək olar. |

### *Özünüzü qiymətləndirin*

1. Yazdığınız mətni qiymətləndirin: "Nəzərdə tutduğum fikri nə qədər aydın çatdıra bildim?"
2. Hazırlanmış təsvir (bədii, hiss, fakt) nümunələri hadisə haqqında aydın təsəvvür yaratmağa imkan verirmi?
3. Bu nümunələr təsvir edilən əşya və hadisənin ayrı-ayrı xüsusiyyətlərini əks etdirirmi?
4. Təsvir edilən hadisənin qeyri-adiliyini əks etdirən məqamlar varmı?
5. Mətndəki əsas ideyanın (fikrin) çatdırılmasına kömək edirmi?
6. Aşkar etdiyiniz nöqsanları aradan qaldırın.
7. Yazını oxumaq üçün yoldaşlarınıza və ya valideynlərinizə verin. Yaxınlarınızın da yazı ilə bağlı fikirlərini nəzərə alın və işin keyfiyyətini yüksəldin.
8. Yazını çap etməklə, divar qəzetinə, yaxud internetdə (müxtəlif sosial şəbəkələr) yerləşdirməklə oxucularınıza çatdırın.
9. Yazdığınız mətn üzərində düşünün: "Bu yazını yazan müddətdə yeni nə öyrəndim?" Yeni öyrəndikləriniz barədə də qeydlər etməklə yazını müəllimə təqdim edin.

### *Tapşırıq 3.*

Yazdığınız kiçik esseni yoldaşlarınızla müzakirə edin. Onların esse ilə bağlı fikirlərinə hörmətlə yanaşın və əsaslandırılmış münasibət bildirin.

## “KİMDİR ƏLİL?”
## KAMAL TURAN. “ÜÇ NƏFƏRİN İMTAHANI”
### (BƏDİİ ƏSƏRLƏRDƏ NƏQLETMƏ)



*Nə öyrənəcəksiniz?*
- Nəqletmə xarakterli bədii mətnlərin oxusunun və yazısının təşkilinə dair bilik və bacarıqlarınızı inkişaf etdirəcəksiniz.

Məktəbli dost! Boş vaxtınızda digər əyləncə növləri ilə yanaşı, televiziya, yaxud internet səhifələrində maraqlı bir film izləməkdən imtina etməzsiniz, elədirmi? Siz cizgi, bədii filmlərə tamaşa edərkən əylənməklə yanaşı, müxtəlif məsələlərlə bağlı həyat dərsi də alırsınız. Təsəvvür edin ki, 60—70 il əvvəl nə televizor, nə də internet var idi. Bu gün mövcud olan əyləncə növlərinin əksəriyyəti də o zaman yox idi. Bəs əsrlərlə insanlar boş vaxtlarını necə keçiriblər, necə əyləniblər?

O zaman oxu və yazı bacarıqları olmayan, lakin yaxşı hafizəsi və nəqletmə bacarıqları olan insanlar eşitdiklərini başqalarına danışmışlar. Savadı olanlar isə yazılı bədii nümunələri oxuyaraq digər insanlara nəql etmişlər. Qədim dövrlərdən başlayaraq nağıllar, əfsanələr, rəvayətlər, sonralar ayrı-ayrı yazıçı və şairlər tərəfindən qələmə alınmış əvəzsiz nəqletmə xarakterli bədii nümunələr məhz bu ehtiyacdan yaranmışdır. Belə əsərləri oxuyan oxucu həm əylənir, oxuduğu əsərdən zövq alır, həm də məlumatlanır.

Siz elm və texnologiya erasının sakinlərindənsiniz. Bu gün mövcud texnologiyalar daha təkmil, onlardan istifadə daha rahat ola bilər. Amma bütün bunlar oxunun və oxudan alınan bədii zövqün əhəmiyyətini azalda bilməz. Bir hekayəni oxumaqla onun əsasında çəkilmiş

filmə tamaşa etmək arasında fərqin nədən ibarət olduğunu bilirsinizmi? Əsəri oxuyan rejissor onu öz xəyalında necə canlandırırsa, filmi də o şəkildə çəkir. Siz də yazıçının sizə təqdim etdiyi fikirləri filmin rejissorunun istədiyi kimi görür, dərk edirsiniz. Lakin bədii nümunəni özünüz oxuduqda, sizinlə yazıçı arasında vasitəçi olmur. O zaman əsərdə baş verən hadisələri, oradakı əsas obrazları, ayrı-ayrı məkanları özünüz xəyalınızda canlandırar, həmin görüntüləri təsəvvürünüzdə yaradarsınız.

Odur ki nəqletmə xarakterli bədii nümunələr öyrənmək baxımından son dərəcə əhəmiyyətlidir.

Siz artıq beşinci sinifdə öyrəndiniz ki, nəqletmə xarakterli bədii nümunələrdə aşağıda təqdim edilən quruluş olmalıdır:

**Giriş** — əsas istiqamətlərin müəyyən edilməsi. (Əsərdə, əsasən, nədən danışılır? Kimdən söz açılır? Hadisələr harada, nə zaman baş verir? və s.)

**Əsas hissə** — hadisələrin düyünlənməsi. (İştirakçıların başına hansı hadisələr gəlir? Obrazlar arasında nə kimi ziddiyyətlər yaranır? Yaranmış problemlərin həllinə yardımçı olacaq hansı hadisələr baş verir? və s.)

**Nəticə** — problemlərin öz həllini tapması. (Obrazlar ziddiyyətdən irəli gələn problemi həll edir. Hər hansı obrazın qalib gəlməsi, yaxud məğlub olması mühüm deyil. Əsas odur ki, problem bitir.)

***Tapşırıq 1.***

Təqdim edilən nümunələri “Oxuya hazırlıq” və “Oxu zamanı” təlimatlarına riayət etməklə oxuyun (səh.14, 15). Verilən cədvələ əsasən bunlardan hansının nəqletmə xarakterli bədii əsər olduğunu müəyyən edin. Fikirlərinizi əsaslandırın.

## KİMDİR ƏLİL?

Əlil deyəndə ağlımıza əlsiz-qolsuz, danışa, görə bilməyən insanlar gəlir. Amma xəstəlik və ya əmək qabiliyyətini itirən, həmçinin anadangəlmə fiziki qüsuru olan şəxslər də əlil hesab edilir.

Əlil insanlar xüsusi qayğıya ehtiyacı olan insanlardır. Bəzən elə olur ki, insanlar haradasa bir əlil görəndə onu barmaqla göstərir, ətrafına yığışıb baxır, müşahidə aparırlar. Biri onun halına acıyır, digəri yardım etmək istəyir. Ancaq elə insanların çarəsiz hesab edilməsi doğru deyil. Bu, çox xoşagəlməz bir haldır. Əlil insanlar olduqları vəziyyətdə belə həyatın müxtəlif sahələrində yüksək nəticələr əldə edə bilərlər.

Əlillik insanları cəmiyyətdən təcrid olunmuş hala gətirir. Onlar həddindən artıq utancaq olurlar, insanların arasına çıxmaqdan çəkinirlər. Lakin fiziki əlil hələ mənəvi əlil deyil. Əslində, bunlar zahiri əlillikdir. Gerçək əlillər iradəsiz, aciz, yaşamaq üçün hər cür cəhddən, zəhmətdən, çalışqanlıqdan imtina edənlərdir. Gerçək əlillik başqasına yük olmaqdır və bu haldan xoşlanmaqdır. Görəsən, beləleri əlləri, ayaqları, dili, gözü, qulağı və s. sağlam yarandığına görə nə qədər şükür etməli olduqlarını anlayırlarmı? Özlərinə və ətrafdakılara faydalı ola bilmək üçün nə qədər geniş imkanları olduğu barədə fikirləşirlərmi? Ya sağlam və gümrah olduqları üçün qürur duyurlar? Beləleri varsa, onda o insanlar əsl əlildir — mənəvi əlil.



*Paraolimpiyaçı İlham Zəkiyev Beynəlxalq yarışlarda Azərbaycanın şərəfini qoruyur*

# ÜÇ NƏFƏRİN İMTAHANI

Sizcə, bu hekayədə nədən bəhs edilir?

Qədim vaxtlarda üç adam var idi. Bunlardan birinin bütün bədəni dəri xəstəliyinə tutulmuşdu. Digərinin bütün saçları tökülmüşdü. Üçüncüsünün isə gözləri görmürdü. Bu vəziyyət onlar üçün ciddi çətinliklər törədirdi. Çünki insanlar onlardan daim uzaq gəzirdilər. Haqq-taala əvvəlcə dəri xəstəliyi olan adama bir mələk göndərdi. O vaxt bu adam bir ağacın altında oturmuşdu və için-için ağlayırdı. Mələk ona yaxınlaşdı:

— Hazırda ən çox istədiyin şey nədir? Bu xəstəlikdən xilas olmaq və insanlar arasında əvvəlki etibarını qazanmaq istəyirsənmi? — deyə sual etdi.

— Sən məni bu dərddən qurtara bilərsən ki?

— Mən Allahın mərhəmət edib sənə göndərdiyi bir mələyəm. Dediklərimi Allahın icazəsi ilə edə bilərəm.

Siz bu haqda nə fikirləşirsiniz?

— Elədirsə, bu xəstəlikdən xilas olmaq, gözəl və hamar dəriyə sahib olmaq istəyirəm. İnsanları məndən uzaqlaşdıran bu halımın düzəlməsini istəyirəm.

Mələk “Bismillah” deyərək adamın bədəninə toxundu və adamın xəstəliyi birdən-birə yox oldu. Həmin adam sevincindən az qala uçacaqdı. Mələk onun bu sevincini görüb:

— İnsanlara möhtac olmayacaq qədər var-dövlət sahibi olmaq istəyirsənmi?

O, sevinclə:

— Bəli, — dedi.

— Necə var-dövlət istəyirsən?

— Dəvə istəyirəm. Çünki dəvə burada ən qiymətli heyvandır.

Mələk ona tezliklə balası olacaq bir dəvə verdi:

— Al! Sənin üçün xeyirli olsun!

Sonra mələk dərdi olan başqa bir adamın yanına getdi. Bu adamın saçlarının hamısı tökülmüşdü. Çox kədərli görünürdü. Zibilliyin kənarında oturub yeməyə bir şey axtarırdı. Milçəklər başının üzərində uçuşur, o isə əlini başına aparıb qovmağa belə səy göstərmirdi. Mələk ona yaxınlaşdı:

Həyatda belə insanlarla rastlaşmısınızmı?

— Səni bu haldan qurtarmağımı istəyirsənmi?

— Çox yaxşı fikirdir. Amma sən bunu edə bilərsənmi?

— Mən mələyəm, sənin yanına bu iş üçün göndərilmişəm.

— Elə isə çox gözəl saçlar istəyirəm.

Mələk adamın başına toxunan kimi par-par parıldayan, gözoxşayan və qapqara saçlar əmələ gəldi. Adam nə edəcəyini bilmirdi, sevincindən ora-bura qaçırdı. Sonra mələk o biri adamdan soruşduğu kimi, ondan da mal olaraq nə istədiyini soruşdu. Yeni saçlara sahib olan adam inək istədikdə, bu istəyi dərhal həyata keçdi.

Bu hissədə hansı janrın xüsusiyyətlərinə rast gəldiniz?

Mələk axırda gözləri görməyən adama baş çəkəcəkdi. Adam əlindəki əyri əsa ilə gəzməyə çalışırdı. Bəzən ağaca dəyir, bəzən ayağı daşlara ilişir, bəzən də müvazinətini itirib yerə yıxılırdı. Heç kim də ona kömək etmirdi. Mələk ona yaxınlaşdı, əvvəlki iki adama dediyi sözləri təkrarladı. Sonra da əvvəl etdiyi kimi Allahın adını çəkərək adamın gözlərinə toxundu. Görməyən gözləri açılan adamın ağzından çıxan ilk söz bu oldu:

Siz necə, belə insanlara kömək edərdinizmi?

— Uca Rəbbimə sonsuz şükürlər olsun!

Bu adam digər iki adama nisbətən daha diqqətli idi. Mələk ondan mal olaraq nə istədiyini soruşduqda belə cavab verdi:

— Mənə gözlərimi bəxş etdin. Başqa heç nə istəmirəm, bu, bəsimdir.

Deyə bilərsinizmi, o nə cavab verəcək?

— Mütləq bir şey istəməlisən. Bu, Allahın əmridir.

— Yaxşı, onda bircə qoyun bəsimdir.

Mələk ona istədiyini verdi və dua edərək ondan ayrıldı.

Bu hadisələrin üstündən illər keçdi. Dəri xəstəliyi olan adam bir müddətdən sonra varlandı. **Vadiləri** dolduran dəvələrə sahib olmuşdu. Dəvəsi o qədər çox idi ki, say-hesabını heç özü də bilmirdi.

Qara hərflə verilmiş sözün mənasını lüğətdən tapın.

Saçları olmayan adamın sahib olduğu inəklər də çölü, düzü tutmuşdu. O da varlandıqca varlanırdı.

Qoyun istəyən adamın vəziyyəti də olduqca yaxşı idi. O da digər iki yoldaşının sahib olduğu zənginliyə çatmış, qoyunlarının südü, yunu və bunlardan əldə etdiyi qazanc dillərdə dastan olmuşdu.

İndi sağlamlıq və var-dövlət verilən bu adamları bir imtahan gözləyirdi.

İmtahanın uğurlu olacağına inanırsınızmı?

Dəri xəstəliyi olan adam çadırında oturub zəngin süfrədə qarnını doyurur və vadi dolu dəvələrini seyr edirdi. Dəvə səslərinə qarışan çoban səslərindən vadi lərzəyə gəlirdi. Mələk xəstəlikdən dərisi tökülmüş bir adam surətində çadıra girməyə çalışdı. Xarici görünüşü dəvə sahibinin əvvəlki xəstə halına çox bənzəyirdi. Mələk adamın yanına gəlib:

— Mən kasıb bir adamam, bütün var-dövləti-
mi itirmişəm. Ölkəmə gedib çatmağım üçün sənin köməyinə ehtiyacım var. Sənə bu gözəlliyi və belə rahat bir həyatı bəxş edənin xətrinə mənə bir dəvə versən, onunla ölkəmə çataram. Sənə də çox dua edərəm, — dedi.

Necə fikirləşirsiniz, o, kömək edəcək?

Adam birdən qaşlarını çatdı və bütün kefi pozuldu:

— Get başqa qapıya! Mən onsuz da kifayət qədər xeyir və yaxşılıq edirəm. Başqa insanların ehtiyaclarını təmin edirəm.

— Elə bil mən səni tanıyıram. Sən bir vaxtlar xəstəlikdən bütün bədəninin dərisi soyulan və adamların uzaq gəzdiyi, küçələrdə dilənən adam deyilsən? Sonra Allahın yazığı gəlib səni dərdlərindən qurtarmış və sənə çoxlu mal verməmişdimi?

— Yox, xeyr! Səhv edirsən. Gördüyün bu var-dövlət mənə ata-babalarımdan qalıb.

— Əgər sən bu barədə yalan deyirsənsə, Allah səni əvvəlki halına geri qaytaracaq, — dedi və yoluna davam etdi.

Səs tonunun qalxması, enməsi, fasilə, məntiqi vurğu işarələrindən istifadə etməklə parça üzərində iş aparın.

Saçları tökülən adam da çəmənlikdə qurulmuş çadırında oturmuşdu. Ən gözəl paltarlarını geyinmiş, çəmənlikdəki heyvanlara tamaşa edirdi. Mələk ona da kasıb bir adam surətində göründü:

— Mən kasıb bir adamam. İnsanlar məni özlərinə yaxın qoymur və kömək etmirlər. Neçə gündür ağzıma bir tikə də qoymamışam, acından ayaq üstə dura bilmirəm. Nə olar, sənə bu gözəlliyi verən və səni bu qədər varlı edən Haqq-taala xətrinə mənə kömək et, — dedi.

Adam o birisindən daha kobud və nəzakətdən də bir o qədər uzaq idi. Yanına bir ehtiyacı üçün gələnlərə kömək etməkdən yayınırdı. O da kömək etməkdən imtina etdi.

Kasıb adam surətindəki mələk:

— Mən səni tanıyıram. Sən əvvəl saçları tökülmüş, pis görkəmli bir adam ikən Allah səni bu dərddən qurtarmış və indi sahib olduğun sərvəti verməmişdimi?

— Mən anadangəlmə beləyəm, saçlarım da özümü biləndən belə gözəldir. Malım-mülküm də atamdan qalıb.

Onun bu hərəkəti sizdə hansı hissləri oyatdı?

— Əgər yalan deyirsənsə, Allah səni əvvəlki vəziyyətinə qaytaracaq, — deyən mələk yoluna davam etdi. Üçüncü adama — gözlərinə qovuşan qoyun sahibinə baş çəkdi.

Bu adam bir ağacın altında oturub, düzənlikdə otlayan qoyunlarını seyr edirdi. Yanında nə bir çoban, nə də bir köməkçi

vardı. Qoyunlarını özü güdür, onlarla özü məşğul olurdu. Mələk ona da kasıb bir adam surətində göründü:

— Mən kasıb bir yolçuyam. Neçə gündür yollardayam. Sığınacaq bir yer, bir qaşıq isti yemək tapmadım. Sənə gözlərini bəxş edən və bu qədər mal verən Allah xətrinə mənə bir qoyun versən, çətin günlərim sona çatar, mən də sənə dua edərəm.

— Düz deyirsən. Mənim əvvəllər gözüm görmürdü. Allah gözlərimə nur, özümə çoxlu mal verdi. Ey qərib adam, bir halda ki Allah adına istəyirsən, onda bir deyil, istədiyin qədər qoyun sənindir, yerdə qalan mənə bəsdir. Çünki bunların hamısı Allahın mənə verdiyi nemətdir.

— Malların mübarək olsun. Allah səninlə birgə üç adamı imtahan etdi. Səndən başqa hər ikisi keçmişini yaddan çıxarıb malları ilə təkəbbürə qapıldılar, — mələk dedi.

Bu hekayədə baş verən hadisələr haqqında nə düşünürsünüz?

Dəvə sahibinin o hərəkətindən sonra dəvələrinə yoluxucu xəstəlik düşdü. Sürülər bir-bir tələf oldu. Özü də yenidən köhnə xəstəliyinə tutuldu.

İnək sahibinin də axırı bədbəxt yoldaşınınkı kimi oldu. Bir gün qapqara buludlar çəmənliyin üstünü aldı. Şiddətli yağış yağdı və qabağına gələn hər şeyi silib-süpürən selə çevrildi. İnək sürüləri suda boğuldu. Bu ani fəlakət qarşısında adam dəli oldu və saçları birdən-birə töküldü. Yəni köhnə xəstəliyinə tutuldu. Sonra onu yenə zibilliklərdə yemək axtaran gördülər.

***Kamal Turan***

***Tapşırıq 2.***

1. Əsərdən əldə etdiyiniz nəticələri "Qarşılaşdırma-müqayisəetmə" sxeminə əsasən müqayisə edin. Qənaətlərinizi yoldaşlarınızla müzakirə edin. Nitqinizdə öyrəndiyiniz yeni sözlərdən istifadə edin. 2. "Oxudan sonra" təlimatı üzrə oxu fəaliyyətinizi yekunlaşdırın.

***Tapşırıq 3.*** Mətndən mübaliğələrə aid nümunələr seçin.

***Tapşırıq 4.*** Bu əsərdə siz hansı janrlara məxsus xüsusiyyətləri müşahidə etdiniz?

***Müəlliflə tanışlıq***



***Kamal Turan***

*Müasir türk yazıçısı Kamal Turanın hekayələrində həyatı dərindən dərk etmək üçün zəngin material vardır. Onun hekayələri insanı ən müqəddəs varlığa – Tanrıya bağlayır. Kamal Turan sübut etməyə çalışır ki, həyatda hər kəs öz əkdiyini biçəcəkdir. Yazıçının hekayələri sanki qaranlıqlara işıq saçır, insanı həyata bağlayır.*

## MƏMMƏD NAMAZ. "HAMININ GÜNƏŞİ"
### (NƏQLİ MƏTNİN OXUSUNUN TƏŞKİLİ: PROQNOZLAŞDIRMA)



*Nə öyrənəcəksiniz?*
- Mətndə baş verən hadisələrin nəticələrini proqnozlaşdıracaqsınız.

Artıq beşinci sinifdə nəqletmə xarakterli bədii nümunələri oxuyarkən ayrı-ayrı hadisələrin proqnozlaşdırılması üzrə ilkin bacarıqlara yiyələnmisiniz. Bu bacarıq oxu zamanı fəal düşünməyinizə və müəllifin çatdırmaq istədiyi fikirləri tam şəkildə aydınlaşdıra bilməyinizə kömək etmişdir. Bu sizin fəal oxucu kimi formalaşmağınıza yardım edir. Bilirsiniz, fəal oxucu olmaq nə deməkdir? Belə oxucular oxu prosesində mətnə suallar verir və ya meydana çıxan sualları öncədən cavablandırırlar. Əvvəlki dərslərdə mətnlərə verilən müxtəlif suallarla qarşılaşmısınız. Həmin suallardan bir çoxu proqnozlaşdırma məqsədi daşımış və fəal oxucu olmaqda sizə kömək etmişdir. Bu baxımdan ötən il əldə etdiyiniz bacarıqları daha da inkişaf etdirəcəksiniz.

Proqnozlaşdırma aparmayan oxucu əsərdəki mühüm məqamları nəzərdən qaçıra bilər. Proqnozlaşdırma həm təlim prosesində, həm də həyatda sizə yardımçı olacaq əhəmiyyətli bacarıqdır.

***Tapşırıq 1.***

1. Verilən əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işlərini yerinə yetirin (cədvəl 1, səh.14).

2. Oxuya başlamazdan əvvəl proqnozlaşdırma aparın. Oxu zamanı da proqnozlaşdırmalar aparmaqda davam edin. Proqnozlarınızı qeyd edin.

| Proqnoz | Əsərdə verilən variant |
|---|---|
| | |
| | |

## HAMININ GÜNƏŞİ

Bakıda məktəblilərin mahnı festivalı keçirilirdi. Burada Sumqayıtdan gəlmiş Fidan adlı balaca, arıq, qarayanız bir qız da çıxış etməli idi. Mahnı festivalında dahi rəhbər də iştirak edirdi və bu, balaca müğənnini çox həyəcanlandırmışdı. Həm də Fidan dahi rəhbərin ən çox xoşladığı mahnını oxuyacaqdı. Bu, Azərbaycanın Xalq şairi Məmməd Arazın sözlərinə bəstələnmiş “Dünya sənin, dünya mənim” mahnısı idi.

Sizcə, dahi rəhbər nə üçün uşaq festivalında iştirak edirdi?

Sizcə, bu hansı mahnı olacaq?

Fidan səhnəyə çıxdı. O elə ürəkdən, elə gözəl oxudu ki, dinləyənlər hamısı qalxıb onu ayaqüstə alqışladılar.

Mahnının nəqəratı belə olmalı idi:

Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

Amma Fidan mahnının nəqəratını dəyişib oxudu:

Dünya sənin,
Dünya mənim,
Dünya hamının.

Qız nə üçün mahnının son misrasını dəyişib oxudu?

Heydər Əliyev yerindən qalxıb səhnəyə çıxdı. Fidanı qucaqlayıb üzündən öpdü. Bu an kimsə rəhbərin adından qızcığaza gözəl bir gül dəstəsi verdi. Rəhbər soruşdu:

— Sənin adın nədir?

Qız utana-utana dilləndi:

Sizcə, rəhbər ondan nə soruşdu?



— Adım Fidandır.
— Haradan gəlmisən, qızım?
— Sumqayıtdan gəlmişəm, — qız dedi.
— Fidan, bəs mahnının sözlərini niyə dəyişmisən? Məncə, axı orda sözlər başqa cürdür.
— Mahnının sözlərini bilirəm, sözləri mən özüm dəyişdim.

Fidanın yerinə olsaydınız, siz bunu necə dəyişərdiniz?

— Niyə?
— Belə yaxşıdır! Mən istəyirəm ki, dünya hamının olsun: Günəş kimi, bahar kimi və... — Fidan balaca əlləri ilə rəhbərin boynunu qucaqladı: — Və sizin kimi!

***Məmməd Namaz***

*Tapşırıq 2.*

1. Oxudan sonra həqiqətə ən yaxın proqnozu müəyyən edin.
2. Əsərlə uyğun gəlməyən hansı proqnozunuzun doğru olmasını istərdiniz?

3. “Oxudan sonra” təlimatına əsasən oxu fəaliyyətini yekunlaşdırın (cədvəl 3, səh. 17).

| Proqnoz | Əsərdə verilən variant |
| --- | --- |
| | |
| | |
| | |
| | |

4. Əsərin janrını müəyyənləşdirin. Fikirlərinizi əsaslandırın.

***Tapşırıq 3.*** Mətni öz sözlərinizlə davam etdirin.

## *Müəlliflə tanışlıq*



***Məmməd Namaz***

*Məmməd Namaz uşaq ədəbiyyatı sahəsində səmərəli fəaliyyət göstərən istedadlı şairlərdəndir. O, əsərlərində təbiətin gözəlliklərini sevə-sevə qələmə alır, təbii, yaddaqalan lövhələr yaratmaqla Azərbaycan təbiətini uşaqlara sevdirməyi qarşısına məqsəd qoyur. Şair Vətənin başıqarlı dağlarından, zümrüd meşələrindən, nəğməli çaylarından, səfalı yaylaqlarından məhəbbətlə söz açır. Məmməd Namazın yaradıcılığında ən yaxşı cəhətlərdən biri onun xalq yaradıcılığından yaradıcı şəkildə bəhrələnməyi bacarmasıdır.*

## “AĞILLI UŞAQ”
## (Azərbaycan xalq nağılı)
### (NƏQLİ MƏTNLƏRDƏ OBRAZLAR VƏ ONLARIN BAŞLICA XÜSUSİYYƏTLƏRİ)

***Gəlin düşünək!***

Aşağıda təqdim edilən iki məqama diqqət edin. Onlar arasında oxşar və fərqli cəhətlər üzərində düşünün. Fərziyyələrinizi qeyd edin. Yoldaşlarınızla müzakirə edin:

— Bədii əsərdə insanın təsviri;
— Bədii əsərdə obrazın təhlili.

***Tapşırıq 1.***

1. Oxuya hazırlıq işləri aparın. Əsəri oxuyun. Oxuyarkən diqqət edin: bu əsərdə insanın təsvirinə yer verilmişdirmi?

2. 11—12-ci cədvəllərdən istifadə etməklə (səh. 41,42) qoca və oğlan obrazlarının xarici görkəmləri və ictimai varlıq olaraq səciyyəvi cəhətlərinin təhlili ilə bağlı qeydlər aparın.

## AĞILLI UŞAQ
*(Azərbaycan xalq nağılı)*

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir xan var idi. Xan hər dəfə bir bəhanə eləyib yan-yörədəki kəndləri, şəhərləri talan eləyir, əhalinin var-yoxunu əlindən alırdı. Xan yaşadığı şəhərə bitişik bir kənd var idi. Oranı tutmaq çox çətin idi, çünki kənddə dünyagörmüş, ağıllı qocalar xanın hiylələrinə hər dəfə cavab verir, onu məğlub edirdilər.

Sizcə, bu nağılda nədən bəhs edilə bilər?

Günlərin birində xan öz adamlarını başına yığıb həmin kəndi tutmaq üçün tədbir istədi. Xanın baş məsləhətçisi dedi:

— Nə qədər ki həmin kənddə ağıllı, dünyagörmüş adamlar var, oranı tutmaq çətin olacaq. Yaxşısı odur ki, əvvəlcə onları bəhanə ilə aradan götürək, sonrası asandır.

Xan bu təklifi bəyəndi, elə həmin günü öz adamlarını yanına çağırtdırıb tapşırıq verdi ki, nə təhər olur-olsun, gedib o kəndin başbilən adamlarını, qocalarını aldadıb bura gətirərsiniz.

Xanın adamları hamısı eyni vaxtda kəndə doluşub hərəsi bir qocanın evinə getdilər. Onlar hiyləyə əl atıb dedilər:

— Bizim xanımız bir məsələdə bərk çətinliyə düşüb. O, ümidini sizə bağlayıb kömək istəyir. Deyir ki, bircə günlüyə mənə məsləhət vermək üçün yanıma gəlsinlər.

Qocalar yarızor, yarıxoş əlacsız qalıb xanın adamları ilə getdilər.

Qocaların zindana salınması hansı hadisələrin olacağından xəbər verir?

Xan qocaların gətirildiyini görüb əmr elədi, hamısını zindana saldılar. Bu tərəfdən xan həmin kəndə getmək üçün atlı çağırdı, üç alma verib dedi:

— Bu almaların biri birillik, o biri ikiillik, üçüncü isə üçillikdir. Almaları apararsan həmin kəndə, camaatı meydana yığıb deyərsən ki, xan əmr eləyib ki, bunların neçə illik olduğunu tapsınlar. Onlara üç gün vaxt verirəm, tapa bilməsələr, onda kəndi talan edəcəyəm. Əgər bu sirri tapan olsa, həmin adam yanıma mənim xoşladığım heyvanla gəlməlidir, həm də o elə adam olmalıdır ki, boyca məndən hündür olsun, mən ona aşağıdan yuxarı baxım.

Çapar atlanıb xanın tapşırığını xəbər vermək üçün həmin kəndə gəldi. Camaatı bazar meydanına yığıb əhvalatı söylədi.

Çapar almaları verib geri qayıtdı. Kəndin camaatı nə qədər fikirləşdi, almaların sirrini tapa bilmədi.

Bu kənddə qoca bir qarının Əhməd adlı balaca nəvəsi var idi. O, çox ağıllı və qoçaq uşaq idi. Həmin gecə Əhməd səhərə kimi yata bilmədi, çox fikirləşdi, suallara cavab tapa bilmədi, axırda yadına düşdü ki, bu işdə böyüklərdən məsləhət almaq lazımdır.

Sizcə, böyüklərdən məsləhət almaq lazım idimi? Buna aid hansı atalar sözlərini bilirsiniz?

Nənəsindən xəbər aldı ki, kəndimizdə heç qoca, ağıllı kişilərdən qalan varmı? Qarı dedi:

— Bala, kəndin kənarında bircə nəfər yaşı yüzü ötmüş bir qoca qalıb, şikəst olduğu üçün xanın adamları onu aparmayıblar.

Əhməd səhər tezdən durub həmin qocanın yanına getdi. Gördü bir nurani kişidir. Saç-saqqalı ağappaq qar kimi, gözləri tutulub, qıçları şikəst olub, yerindən tərpənə bilmir.

Əhməd ədəb-ərkanla qocaya salam verdi, onun yanına məsləhətə gəldiyini söylədi.

Qoca dedi:

— Oğlum, məndən nə məsləhət istəyirsən?

Əhməd xanın şərtlərini qocaya söyləyib ondan kömək istədi.

Qoca əlini alnına qoyub bir qədər fikirləşdi. Sonra sualların cavabını necə tapmağı Əhmədə öyrətdi. Axırda dedi:

— Oğul, bircə sirri mən bilmirəm, gərək onu özün tapasan. O da xanın hansı heyvanı xoşlamasıdır. Bunun üçün bircə çarə var, gərək bir yolla xanın şəhərinə keçəsən, çox ehtiyatla, tədbirlə bu sirri öyrənəsən. Əhməd dedi:

— Elə bu saat gedirəm həmin sirri öyrənməyə.

Əhməd qocadan çox razı qaldı. Evdən çıxıb getmək istəyəndə həyətdə bir qoca arvadın ocaq qalamaq üçün çör-çöp yığdığını gördü. Bu, qocanın bacısı idi. Qocanın bacısından başqa heç kimsəsi yox idi. Əhməd dedi:

— Ay qarı nənə, bu çör-çöpü neynəyirsən?

Qarı dedi:

— Oğul, odunumuz qurtarıb, meşəyə gedənimiz yoxdu, odur ki çör-çöp yığıram.

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən tapın.

Əhməd qarıdan balta, bir də **çatı** istədi. Qarı gətirib verdi. Əhməd gedib meşədən bir yekə şələ odun qırdı, çatı ilə bağlayıb qocanın həyətinə töküb getdi.

Nə vaxtsa qocalara, kimsəsiz insanlara kömək etmisinizmi? Bu zaman hansı hissləri keçirmisiniz?

Əhməd gedə-gedə ürəyində fikirləşirdi, görsün nə yolla xanın sirrini öyrənsin. Elə ki şəhərin kənarına çatdı, gördü hər yüz addımdan bir əli qılınclı gözətçilər dayanıb, onların yanından keçmək mümkün deyil. Amma bir qədər kənarda xanın qoyun sürüsü göy çəmənlikdə otlayır, qoyunlar gah bu tərəfə, gah o tərəfə keçirlər. Əhməd bunu görüb kəndə qayıtdı. Kəndlərindəki çobanın yanına gedib, əhvalatı ona danışdı. Xahiş elədi ki, qoyunun birini kəssin, dərisini bütöv çıxarıb versin ona.

Çoban nə üçün Əhmədin bir sözü ilə qoyunu kəsib dərisini ona verdi?

Çoban beş dəqiqənin içində bir yekə qoçu kəsib dərisini bütöv çıxartdı. Əhməd dərini bir dəsmala büküb düz gəldi xanın sürüsü otlayan yerə. O bir ağacın altında qoyunun dərisinin içinə girib başladı iməkləyə-iməkləyə sürüyə tərəf getməyə, cəld özünü verdi qoyunların arasına, gedib bir xeyli aralıda dəridən çıxdı, dərini qatlayıb bükdü yenə dəsmala. Əhməd baxıb gördü, uzaqda sürünün çobanı göy otun üstündə uzanıb çoban

bayatısı çalır, yanında da bir keçi var. Keçinin buynuzları, üst-başı par-par parıldayır, bir qədər yaxına gedib gördü keçinin buynuzlarını qızıla tutublar, boynuna qızıldan zınqırov taxıblar, üstünə tirmədən şal salıblar. Daha nə başınızı ağrıdım, keçini elə bəzəyiblər ki, adam baxanda məəttəl qalır. Əhməd başladı keçiyə baxmağa, çoban onu görüb dedi:

— Ay bala, nə çox baxırsan?

Əhməd dedi:

— Ay çoban qardaş, mən belə keçi görməmişəm, ona görə baxıram.

Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr baş verəcək?

Çoban dedi:

— Sən bu şəhərin adamı deyilsən? Bu keçini görməyən adam yoxdur.

Əhməd gördü, çoban onu tanısa, işlər alınmaz. Odur ki dedi:

— Mən heç yerdən gəlməmişəm, elə bu şəhərdə oluram, amma nənəm məni bu vaxta kimi evdən heç yerə buraxmayıb, odur ki həmin keçini də görməmişəm.

Çoban dedi:

— Bala, onda bil və agah ol ki, bu bizim xanın keçisidir. O, uşaqlıqdan keçini çox xoşlayarmış. Həmin keçini xanın əmri ilə belə bəzəyiblər.

Əhməd bu xəbəri eşidəndə sevindiyindən bilmədi neyləsin, tez qayıtdı geri. Bir az çobandan aralanandan sonra qoyun dərisini dəsmaldan açıb girdi içinə, özünü vurdu qoyunların arasına, sürünə-sürünə keçib gəldi öz kəndlərinə, gördü adamlar qalıblar əlləri qoyunlarında, bilmirlər nə eləsinlər. Həmin gün xanın suallarına cavab verməsələr, kəndləri əldən çıxacaq.

Necə fikirləşirsiniz, Əhməd məqsədinə nail oldumu?

Əhməd irəli yeriyib dedi:

— Camaat, mənə bir hündür dəvə, bir də bir keçi verin, gedəcəyəm xanın şəhərinə, onun suallarına cavab verib kəndimizi xatadan qurtaracağam.

Sizcə, Əhməd camaatı inandıra biləcəkmi?

Əhmədin sözünə hamı gülüşdü, dedilər:

— Bala, yəqin, sənin ölümün yetib. Bəs qorxmursan ki, xanın qəzəbinə gələrsən?

Əhməd dedi:

— Mən xandan qorxmuram.

Adamlar dedilər:

— Bala, xan səni görən kimi deyəcək ki, yəqin, məni ələ salıblar, bu kənddə bir adam tapmadılar ki, mənim yanıma uşaq-muşağı göndərdilər.

Əhməd dedi:

— İstədiyim heyvanları verin, dalısıynan işiniz yoxdur. Camaat gördü ki, başqa əlac yoxdur, bir hündür boylu dəvə tapıb Əhmədi mindirdilər üstünə, bir keçinin də boğazına kəndir bağlayıb ucunu verdilər Əhmədə. Əhməd almaları da götürüb başladı xanın şəhərinə tərəf yol getməyə. Xanın adamları Əhmədi apardılar saraya. Xan Əhmədi görən kimi qəzəbləndi, istədi onu zindana saldırsın, amma keçini görüb fikirləşdi ki, suallarımın birini tapıblar, görək o birilərinə necə cavab verəcəklər. Odur ki dedi:

Sizcə, Əhməd suallara cavab verə biləcəkmi?

— Bala, mən demişdim ki, yanıma göndərdiyiniz adam məndən hündür olmalıdır. Mən gərək onunla danışanda aşağıdan yuxarı baxım. Bəs buna niyə əməl eləmədiniz?

Əhməd dedi:

— Xan sağ olsun, məgər görmürsünüz ki, mən dəvənin üstündə sizdən çox hündürdəyəm, özü də aşağıdan yuxarıya mənə baxıb danışırsınız, elə siz deyəndir də.

Xan dedi:

— Axı sən dəvədən düşsən, mənim dizimdən də aşağıda dayanarsan.

Əhməd dedi:

— Mən niyə dəvədən düşürəm ki, səndən də aşağıda duram.

Xan gördü uşaq hazırcavabdır. Odur ki dedi:

— Bala, di almaların sirrini de görək.

Əhməd dedi:

— Xan sağ olsun, sizin şərtiniz olan kimi mənim də şərtim var. Əmr eləyin, camaatı yığsınlar şəhər meydanına, orada almaların sirrini açıb deyim.

Xan nə qədər elədi ki, burada de, oğlan razı olmadı, xan dedi:

— Sən ki belə tərslik eləyirsən, almaların sirrini düz deyə bilməsən, boynunu vurduracağam.

Əhməd dedi:

— Mən razıyam.

Bəli, xan əmr verdi, şəhər meydanında taxt quruldu, camaat hamısı ora yığışdı. Xan da bir dəstə adamla meydana getdi.

Əhməd irəli yeriyib dedi:

– Xan sağ olsun, mən sualların cavabını düz tapsam, bizim kəndimizə toxunmamalısan, bir də zindana saldığın qocalarımızı azad eləməlisən, tapa bilməsəm, nə istəyirsən, elə.

Xan söz verdi ki, şərtlərlə razıdır. Əhməd bir qab su istədi, o saat gətirdilər. O, almaların üçünü də suya saldı. Almaların biri çökdü suyun dibinə, ikincisi qaldı suyun ortasında, üçüncüsü isə lap suyun üzündə üzdü.

Əhməd dedi:

– Birinci, builki təzə alma olduğu üçün canı şirəlidir, ağırdır, odur ki çökdü qabın dibinə. İkinci alma keçənilkidir, bir qədər suyunu çəkib, quruyub deyə, suyun ortasında qalıb, üçüncü alma isə üç il bundan əvvəlkidir. O, tamam suyunu çəkib, yüngülləşib, ona görə də suyun üzündə üzür.

Xanın adamları gördülər, Əhməd düz dedi. Odur ki qaldılar məəttəl. Xan fikrini dəyişmək istədi, amma gördü ki, onda camaatın arasında hörmətdən düşəcək, əlacı kəsildi, qocaları zindandan azad elədi. Kəndə toxunmayacağına söz verdi.

Əhməd qocaları da götürüb öz kəndlərinə qayıtdı. Kənd camaatı bu şad xəbəri eşidib Əhmədin qabağına çıxdı. Ona "afərin" deyib, alqış etdi.

Əhmədin uzaqgörənliyi, hazırcavablığı sizə nə öyrətdi?

Balaca Əhməd öz ağlı, bacarığı və tədbiri ilə kəndi xilas elədi. Göydən üç alma düşdü. Biri nağıl söyləyənin, biri məsləhət verən qocanın, biri də Əhmədin.

***Tapşırıq 2.***

1. Çingiz Aytmatovun "Dəniz kənarıyla qaçan Alabaş" əsərindən parçanı əvvəlki dərslərdə oxumusunuz. Qoca Orqan və oğlan obrazlarının xarici görkəmi və ictimai vəziyyətinin təsviri ilə bağlı araşdırmalar aparmısınız. "Ağıllı uşaq" nağılındakı kəndin kənarında yaşayan qoca və kəndi xilas etmək istəyən oğlan obrazlarını da həmin qaydada tədqiq edin.
2. **Düşünün:** bu obrazlardan hansının səciyyəvi cəhətləri təsvir edilmiş, hansı haqqında ümumi məlumat verilmişdir?

***Tapşırıq 3.***

1. Əsərdəki başlıca obrazlar haqqında (oğlan, qoca) artıq sizə tanış olan sxem üzrə məlumat toplayın.

2. Əldə etdiyiniz məlumatları yoldaşlarınızla müzakirə edərkən öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin. Fərqli fikirlərə diqqətlə yanaşın.

**NÜMUNƏ**




Təsviri xarakterli mətnlərdə obrazın ***fərdi, özünəməxsus cəhətləri*** təsvir edilir. Oxucu həmin insanın "şəklini" gözləri önündə bu və ya digər formada canlandıra bilir. Məsələn:

*Onlardan ən yaşlısı — qəhvəyi sifətli, arıq, iri hülqumlu, üz-gözünü, ələlxüsus da boynunu dərin qat-qırış basmış, iri, kələ-kötür əlləri çat-çat olmuş qoca qayığın arxa tərəfində oturub çubuğunu ağır-ağır sümürərək sükanı idarə edirdi.*

Nəqletmə xarakterli bədii nümunələrdə obraz haqqında danışılarkən onun ***ümumi cəhətləri*** haqqında məlumat verilir. Məsələn:

*Əhməd səhər tezdən durub həmin qocanın yanına getdi. Gördü bir nurani kişidir. Saç-saqqalı ağappaq qar kimi, gözləri tutulub, qıçları şikəst olub, yerindən tərpənə bilmir.*

Göründüyü kimi, qocanın saç-saqqalının ağ olması, ayaqlarının tutulması və gözlərinin görməməsi kimi xüsusiyyətləri əksər ixtiyar qocalara şamil etmək olar. Amma bütün qocaların rəngi qəhvəyi, sifəti arıq, əlləri kələ-kötür olmur.

***Tapşırıq 4.***

1. Obrazlar haqqında əldə etdiyiniz məlumatlardan çıxış edərək obrazları təhlil edin.



**Obrazın təhlili** zamanı müəllifin obraz haqqında əsərə daxil etdiyi fakt və məlumatlar seçilib ayrılır, onlar üzərində düşünülüb nəticələr çıxarılır.

Obrazla bağlı fakt və məlumatlar nə qədər uğurlu **təsvir edilərsə** (təsviri xarakterli mətnlərdə) və ya onun **haqqında danışılarsa** (nəqli xarakterli mətnlərdə), təhlil imkanı da o qədər geniş olar.

***Tapşırıq 5.***

1. Bədii nümunələri janr xüsusiyyətlərinə görə müqayisə edin, öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin. Fərqli fikirlərə diqqətlə yanaşın.
2. 3-cü cədvələ əsasən (səh. 17) "Oxudan sonra" təlimatını yerinə yetirin.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından marağınıza uyğun olan bir mətni oxuyun. Təqdim edilmiş iş vərəqindən istifadə etməklə əsas obrazı təhlil edin.

## NƏRİMAN SÜLEYMANOV. "BİRİNCİ CIĞIR"
### (ƏSƏRDƏKİ OBRAZLARIN BAŞLICA XÜSUSİYYƏTLƏRİ BAXIMINDAN MÜQAYİSƏSİ)

Bəzi bədii nümunələrdə obrazlar xarici görünüşü, ictimai vəziyyəti baxımından incəlikləri ilə təsvir edilir. Bəzilərində isə obrazların iştirakı ilə baş verən hadisələr haqqında danışılır. Siz artıq təsviri xarakterli mətnlərdə təsvir edilən, nəqli xarakterli əsərlərdə haqqında danışılan obrazları araşdırmağın yollarını bilirsiniz. Siz, həmçinin obrazların xüsusiyyətlərini ümumiləşdirməklə onlar haqqında mühakimələr də yürütməyi öyrənmisiniz. İndi isə bir əsərdə iki obrazın təhlili ilə bağlı zəruri fəaliyyətləri yerinə yetirəndən sonra onlar haqqında gəldiyiniz qənaətləri qarşılaşdıracaq, mühakimələrinizi əsaslandıracaqsınız. Bu, insanların xüsusiyyətlərindən çıxış edərək onlar haqqında qənaətə gəlmək, münasibətinizi düzgün qurmaq üçün əhəmiyyətli həyati bacarıqdır. Elə əsərlər var ki, orada obrazlar dəqiqliklə təsvir edilmir. Sadəcə, onlar haqqında danışılır. Beləliklə, obrazlar oxucuya müxtəlif şəkildə təqdim edilə bilər.

*Tapşırıq 1.*

1. Verilən əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın.

2. Əsas obrazları müəyyənləşdirin. Onlar haqqında məlumat toplamaq məqsədilə təqdim edilən sxemlərə əsasən dəftərdə qeydlər aparın (sxemi dəftərinizə çəkə bilərsiniz).






## BİRİNCİ CIĞIR

Sizcə, söhbət hansı cığırdan gedir?

Südabə xala həmişə səhər tezdən durar, uşaqları qalxanadək lazım olan işləri görər, onlar üçün çay-çörək hazırlayardı.

Bu səhər də hamıdan qabaq oyandı. Qalxmaq istədi, amma gördü canı ağrıyır, durmağa da həvəsi yoxdur. Bildi ki, xəstələnib. Yerinin içində astadan öz-özünə danışdı:

— Mən durmasam, iş aşmaz. Gedim bulaqdan su gətirim. Çay qoymaq lazımdır. Hələ uşaqlar əl-üzlərini də yuyacaqlar.

Sən demə, evdə qoca nənə oyaq imiş.

— Ay Südabə, yaman qar yağıb, — dedi, — əynini qalın elə.

Canında üşütməsi olan Südabə xala dedi:

— Tərs kimi özüm də xəstələnmişəm.

— Eləsə, durma yerindən! — qoca nənə Südabə xalanın qalxmasına etiraz etdi.

— Bəs evin işi necə olsun?

— Maşallah, yekə uşaqlardır. İndi onları qaldıraram. Hərəsi bir işin qulpundan yapışar. Mən özüm də evdə...

Südabə xala razılaşıb yerinə uzandı. Qoca nənə durub geyindi. Sonra nəvələrindən birinin çarpayısına yaxınlaşdı və onu dümsüklədi:



Necə düşünürsünüz, Elxan qarlı havada çölə çıxacaqmı?

— Elxan!.. Elxan!.. Dur, get, bulaqdan su gətir, çay qoyaq, xörək hazırlayaq.

Elxan durdu, bir dəqiqənin içində geyindi, vedrəni götürüb eşiyə çıxdı və tezcə də əsə-əsə içəri gəldi.

— Boyy, o qədər qar yağıb ki, — dedi, — yol-iz görünmür. Qoy bulağa iz düşsün, sonra gedərəm.

Qoca nənə o biri nəvəsinə yaxınlaşdı:

Sizin həyatınızda belə bir hadisə olubmu?

— Kamran!.. Kamran!.. Dur, get, bulaqdan su gətir, çay qoyaq, xörək hazırlayaq.

Kamran oyanıb qalxdı, tezcə əsə-əsə içəri gəldi.

— Boyy, o qədər qar yağıb ki, — dedi, — yol-iz görünmür. Qoy bulağa iz düşsün, sonra gedərəm.

Qoca nənə indi də o biri nəvəsinin çarpayısına yaxın durdu.

— Nargilə!.. Ay Nargilə!.. Dur, get, bulaqdan su gətir, çay qoyaq, xörək hazırlayaq. Heç əl-üz yumağa da suyumuz yoxdur.

Nargilə durub geyindi, balaca küzəni çiyninə alıb eşiyə çıxdı, tezcə də geri qayıtdı.

Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr baş verəcək?

— Boyy, o qədər qar yağıb ki, — dedi, — yol-iz görünmür. Qoy bulağa iz düşsün, sonra gedib gətirərəm.

Qoca nənə lap dilxor oldu. Qorxurdu ki, gedə, yolda-izdə qara batıb qala. Bəs indi necə etsin?! Məcbur olub balaca nəvəsinin yatdığı çarpayıya yaxınlaşdı.

Aslanın cəsarəti sizdə hansı hissləri oyatdı?

— Ay Aslan!.. Aslan!.. Dur, get, bulaqdan su gətir, çay qoyub içək. Evdə bir gilə də suyumuz yoxdur.

Aslan yerindən sıçrayıb qalxdı. Tezcə geyindi. Vedrəni götürüb eşiyə çıxdı. Qoca nənə ilə Südabə xalanın gözü qapıda qalmışdı. Onlara elə gəlirdi ki, Aslan da indicə geri qayıdacaq.

Bir az keçmişdi, qoca nənə pəncərənin qarşısına gəldi. Bulağa gedən qarlı yola baxdı. Ayaqlarına uzunboğaz çəkmə geyinmiş nəvəsinin qara bata-bata getdiyini görcək xoşbəxtliklə gülümsədi və ürəyində dedi:

— Mənim qoçaq balam, oxumaqda da, işdə də mənim birinci balam.

Balaca Aslan öz hərəkətləri ilə sizə nə öyrətdi?

***Nəriman Süleymanov***

*Tapşırıq 2.*

1. Əvvəlki dərsdə oxuduğunuz əsərin obrazları haqqında məlumat toplamısınız. Həmin məlumatlara bir daha nəzər salın. Təqdim edilən sxemlərdən istifadə etməklə əsərin obrazlarını davranış və əməllərinə görə səciyyələndirin. Onlar haqqında əsaslandırılmış mühakimə yürüdün. Gəldiyiniz qənaətləri yoldaşlarınızla müzakirə edin, onların diqqətəlayiq fikirlərindən yararlanın.

2. Əsərdə və sxemdə qarşılaşdığınız yeni sözlərdən təqdimatlarınızda istifadə edin.






### *Tapşırıq 3.*

Siz artıq əsərdəki obrazların davranış və əməllərinə görə səciyyəvi cəhətlərini müəyyənləşdirmisiniz. Obrazları həmin cəhətlər baxımından qarşılaşdırın.

Bu zaman "Qarşılaşdırma-müqayisəetmə" formasından (cədvəl 6, səh. 20) istifadə edin və təqdim edilən sxem üzrə iş aparın.




### *Tapşırıq 4.*

1. Çıxardığınız nəticələri yoldaşlarınızla müzakirə edin. Əsaslandırılmış fikirləri nəticələrinizə əlavə edin.
2. Müzakirə edərkən obrazlı sözlərdən və ifadələrdən nitqinizdə istifadə edin.

### *Tapşırıq 5.*

"Oxudan sonra" təlimatını yerinə yetirin, oxuduğunuz mətni qiymətləndirin:

— Əsər hansı janrda yazılmışdır? Fikirlərinizi əsaslandırın.

— Fikirlər dəqiq ifadə edilmişdirmi? Ümumiyyətlə, fikrin ifadəsi sizi qane edirmi?

— Oxuduqlarınızı ətrafınızda baş verən hadisələr və digər oxuduğunuz mətnlərlə əlaqələndirin.

— Oxuduğunuz mətn üzərində düşünün. Bu əsərdən hansı qənaətə gəlmək olar?

— Mətnin sonunda nə kimi dəyişiklik etmək istərdiniz?

**Yaradıcı tətbiqetmə:** Əsərdəki obrazlardan bir-ikisinin xarakterində hər hansı dəyişiklik etməklə öz versiyanızı yazın.

***Tapşırıq 6.*** Əsərdən müəyyən bir hissəni dəftərinizə köçürün, şərti işarələrdən istifadə edin.

↗ — səs tonunun qalxması
↘ — səs tonunun enməsi
‖ — fasilə

### *Müəlliflə tanışlıq*



***Nəriman Süleymanov***

*Nəriman Süleymanov müasir uşaq ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, əsərlərində müasir həyat problemlərinə toxunmuş, yaddaqalan maraqlı əsərlər, bitkin obrazlar yaratmışdır. Onun hər bir hekayəsində insan həyatının əhəmiyyətli anları təsvir olunmuşdur. Nəriman Süleymanov öz əsərləri ilə uşaqlarda xeyirxahlıq, humanizm tərbiyə etməyə çalışmışdır. Onun hekayələrində müxtəlif xarakterli uşaqların həyatından, onların mənəvi dünyasından söhbət açılmışdır. Müəllif, əsasən, uşaqların təlim-tərbiyəsini, əxlaqi keyfiyyətlərini ön plana çəkmiş, bir şəxsiyyət kimi formalaşmalarını arzulamışdır. Nəriman Süleymanovun əsərləri dünyanın bir çox dillərinə tərcümə olunmuş, kiçikyaşlı oxucular tərəfindən maraqla qarşılanmışdır.*

## NİZAMİ GƏNCƏVİ. "YARALI BİR UŞAĞIN DASTANI"
## MİRMEHDİ SEYİDZADƏ. "ƏQRƏB VƏ ÇANAQLI BAĞA"
### (TƏSVİRİ VƏ NƏQLİ XARAKTERLİ ƏSƏRLƏRDƏ OBRAZLARIN TƏQDİM EDİLMƏSİNDƏ OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİN QARŞILAŞDIRILMASI)

Siz artıq hər hansı bir əsərdə iki obraz haqqında məlumat toplamağı, onlar əsasında mühakimə yürütməyi və qarşılıqlı müqayisə etməklə onlara əsaslandırılmış münasibət göstərməyi öyrənmisiniz. Bu dərsdə isə siz bu fəaliyyəti bir qədər fərqli şəkildə həyata keçirəcəksiniz. Ayrı-ayrı əsərlərin qəhrəmanlarını təqdim edilən xüsusiyyətlər baxımından araşdıracaq, əldə etdiyiniz məlumatlar əsasında onlar haqqında fikirlər yürüdəcəksiniz. Sonra həmin fikirləri qarşılaşdırıb müqayisə edəcəksiniz. Həcm baxımından daha geniş, süjet baxımından daha mürəkkəb əsərlərdəki obrazları bu şəkildə qarşılaşdırmaq və onlar barədə müqayisəli mühakimə yürütmək sizin əlaqələndirmək bacarığınızı daha da inkişaf etdirə bilər.




***Tapşırıq 1.***

1. Nizami Gəncəvinin "Yaralı bir uşağın dastanı" və Mirmehdi Seyidzadənin "Əqrəb və Çanaqlı bağa" başlıqlı əsərlərini oxumazdan əvvəl oxuya hazırlıq işləri aparın.

2. Yardımçı sualları cavablandırmaqla bədii nümunələri oxuyun. Hər iki əsərdəki əsas obrazları müəyyən edin.

3. Əsərdəki obrazların təsvirində səciyyəvi cəhətləri və gəldiyiniz qənaətləri sxemə daxil edin.

## YARALI BİR UŞAĞIN DASTANI

Sizcə, bu hekayətdə söhbət nədən gedəcək?

Azadə böyümüşlər cərgəsindən bir uşaq
İki-üç həmyaşilə çölə çıxdı kefi çağ.
Elə ki yola düşdü bu uşaq, birdən-birə,
Yüyürərkən ayağı sürüşdü, dəydi yerə.
Elə bərk yıxıldı ki, sındı birdən ayağı,
Qırılmışdı çox yaman varlığının dayağı.

Dostlarınızı dar gününüzdə imtahan etmisinizmi?

Uşağın yaşıdları batdılar bundan qəmə,
Hey çarə axtardılar bu qəmə, bu matəmə.
Onu sevən bir uşaq dedi: "Çarə var gerçək,
Gəlin onu quyunun lap dibində gizlədək.

Sizcə, burada bədii təsvir, yoxsa bədii ifadə vasitəsi işlənmişdir?

Ta ki bir gündüz kimi olmasın aşkar bu sirr,
Atasından xəcalət çəkmək yaxşı deyildir".
Ordakı uşaqlardan uzaqgörən bir nəfər
Şikəst olmuş uşağın düşməniydi müxtəsər.
Bu halı ölçüb-biçdi, sonra düşündü bir az,
Öz-özünə dedi ki, bu sirr gizlində qalmaz.
Mən ki həmin uşağın bir düşməniyəm, demək,
Bu işi eşidənlər, yəqin, məndən biləcək.

Oğlanın hərəkətini necə qiymətləndirirsiniz?

Uşağın atasına gedib tez verdi xəbər,
O da gəlib oğluna çarə gördü birtəhər.
Hər kimdə ki vardısa, ağıllılıq cövhəri,
O bacarır hər işi, parlar onun gövhəri.
Fələklərin bəndini açar ancaq o qoçaq
Ki, basa bilsin onun başına bir gün ayaq.
Fələyin az-çoxuna göz yuman gündən bəri,
Nizaminin işləri keçmişdir fələkləri.

***Nizami Gəncəvi***

### *Müəlliflə tanışlıq*



***Nizami Gəncəvi***

*Azərbaycanın böyük şair və mütəfəkkiri olmuşdur. Gəncə mədrəsələrində təhsil almış, şəxsi mütaliə sayəsində orta əsr elmlərini mükəmməl öyrənmişdir. Ömrü boyu Gəncədə yaşamış, saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Şərq ədəbiyyatı tarixində Nizami Gəncəvi ilk dəfə olaraq qadını yüksək insani keyfiyyətlərə malik ülvi varlıq kimi təsvir etmişdir. Şairə görə, yalnız əməkçi insan hörmət və məhəbbətə layiqdir. Nizami Gəncəvi həm də böyük vətənpərvər idi. Onun bütün əsərlərində öz xalqına böyük məhəbbəti aydın görünür. Dahi şairin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur.*

## ƏQRƏB VƏ ÇANAQLI BAĞA
*(Təmsil)*

Girmişdi Əqrəb bağa,
Gəlib Çanaqlı bağa
Əqrəblə sirdaş oldu,
Dost oldu, qardaş oldu.
İki əziz, mehriban
Yoldaş bağda bir zaman
Birlikdə yedi, içdi,
Günləri çox şən keçdi.
Bir gün qopdu bərk tufan.
Külək dostları bağdan
Götürüb çox şiddətlə
Atdı geniş sahilə.
Əqrəb dedi: — Dostum, sən
Üzüb çaydan keçərsən,
Mən burda qalaram tək.
Səndən ayrılmır ürək,
Olmuşuq yaxın həmdəm,
Qəlbimi sıxar dərd, qəm.
Bağa dedi: — Dostum, gəl,
Min arxama əlbəəl,
Çaydan keçirim səni.
Burax yersiz qüssəni,
Gedək başqa bir bağa.
Aldı mehriban Bağa
Arxasına Əqrəbi.
Bir az yol gedən kimi
Əqrəb sancdı dostunu.
Duyaraq Bağa bunu
Dedi: — Ay üzü qara,
Dost dosta vurar yara?
Əqrəb dedi: — Əzizim,
Qara olsa da üzüm,
Sancmaq məndə adətdir,
Sanma, bu, ədavətdir.
Baş vurdu suya Bağa
Söylədi: — Əqrəb qağa,

“Dostluq” dedikdə, nə başa düşürsünüz?

Siz onların dostluğuna necə baxırsınız?

Sizcə, Bağa dostunun sözlərini necə cavablandıracaq?

Dostlarınızın ağır günlərində onlara dəstək olmusunuzmu?

Sizcə, Əqrəb düzgün hərəkət etdimi?

Mənim də adətim bax
Olub suya baş vurmaq.
Əqrəbi atdı suya,
Bağa çıxdı quruya.

***Mirmehdi Seyidzadə***

***Tapşırıq 2.*** N.Gəncəvinin “Yaralı bir uşağın dastanı” əsərinə əsasən verilən cədvəl üzrə tapşırığı yerinə yetirin. Obrazların oxşar və fərqli cəhətlərini müəyyən edin.

*Cədvəl 19*

| **Araşdırılan məsələ** | **I uşaq** | **II uşaq** | **Münasibətiniz** | |
|---|---|---|---|---|
| Davranışı | | | | |
| Söylədiyi | | | | |
| Hərəkəti | | | | |
| Hissləri | | | | |
| Məqsədi | | | | |
| Təsviri | | | | |
| Başqalarının söylədikləri | | | | |
| Müəllifin fikri | | | | |

***Tapşırıq 3.***

1. M.Seyidzadənin “Əqrəb və Çanaqlı bağa” əsərinə əsasən cədvəldəki tarşırıqları yerinə yetirin.

2. Obrazların əsas cəhətlərini müəyyənləşdirin və onlara münasibətinizi bildirərkən öyrəndiyiniz yeni sözlərdən istifadə edin.

*Cədvəl 20*

| | **Əqrəb** | | **Çanaqlı bağa** | |
|---|---|---|---|---|
| Bu obraz haqqında nə düşünürsünüz? | | | | |
| Onun hansı hərəkətləri belə düşünməyə əsas verir? | | | | |
| Bu obraza münasibətiniz necədir? | | | | |
| Bu obraz ən çox diqqətinizi nə ilə cəlb edir? | | | | |
| Siz onun yerinə olsaydınız, nə edərdiniz? | | | | |

***Tapşırıq 4.***

1. Ayrı-ayrı əsərlərdəki obrazların hansında cədvəl 21-də verilən xüsusiyyətlər daha qabarıqdır? Həmin obrazı müəyyənləşdirin.

*Cədvəl 21*

| **Xüsusiyyətlər** | **I əsər** | | **II əsər** | |
|---|---|---|---|---|
| | **I obraz** | **II obraz** | **I obraz** | **II obraz** |
| Sədaqətli | | | | |
| Ədalətli | | | | |
| Yalançı | | | | |
| Xeyirxah | | | | |

**Yaradıcı tətbiqetmə:**

Oxuduğunuz bədii nümunə üzrə aşağıdakı fəaliyyətlərdən birini yerinə yetirin:

— Əsəri oxuyarkən gözləriniz qarşısında canlanan obrazlardan birinin şəklini çəkməyə çalışın;

— Plastilindən bəyəndiyiniz obrazlardan birinin görkəminə bənzər fiqur düzəldin;

— Həmin obrazı əks etdirən aplikasiya hazırlayın;

— Əsərin məzmunundan çıxış edərək kiçik bir hekayə yazın.

***Bunu bilməlisiniz!***

***Təmsil*** — tənqidi-satirik mövzularda yazılmış əsərlərə deyilir. Çox vaxt nəzmlə yazılır, lakin nəsrlə yazılmış təmsillərə də rast gəlinir. Təmsil həcmcə yığcam olur, alleqorik və nəsihətamiz səciyyə daşıyır.

Azərbaycan ədəbiyyatında Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Abbas Səhhət, Hikmət Ziya və b. yaradıcılığında təmsilin gözəl nümunələrinə rast gəlirik.

*Müəlliflə tanışlıq*



***Mirmehdi Seyidzadə***

*Mirmehdi Seyidzadə Azərbaycan ədəbiyyatında görkəmli uşaq şairi kimi tanınır. O, uşaqlar üçün şeirlər, nağıllar, təmsillər yazmışdır. Əsərlərinin əsas mövzusunu Vətənə məhəbbət, dostluq, sədaqət kimi müsbət keyfiyyətlər təşkil edir. Şeirlərində insanın vətənpərvərlik duyğularını, saf məhəbbətini tərənnüm etmişdir. Şair uşaqları təbiət və canlı aləmlə yaxından tanış etmək məqsədilə xalq nağıllarına tez-tez müraciət etmişdir. Onun nağılları uşaqlar tərəfindən həmişə rəğbətlə qarşılanmış, maraqla oxunmuşdur. Şair təmsillərində də uşaqlar üçün əhəmiyyətli məsələlərə toxunub, mövzuların əxlaqi və tərbiyəvi olmasına fikir verib. Mirmehdi Seyidzadə tərcüməçi kimi də tanınmışdır. O, rus və Avropa ədəbiyyatının uşaq şeiri nümunələrini dilimizə tərcümə etmişdir. Bəstəkarlar şairin şeirlərinə musiqi bəstələmişlər.*

## SABİR ƏHMƏDLİ. "DƏRS"

**(NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRİN QURULUŞU: MƏTNİN HİSSƏLƏRİ. NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRDƏ HADİSƏLƏRİN ARDICILLIĞININ MÜƏYYƏN EDİLMƏSİ)**



*Nə öyrənəcəksiniz?*

- İdeyanın müəyyən edilməsi mexanizmlərindən istifadə etməklə əsərin ideyasını müəyyənləşdirəcəksiniz.

Məktəbli dost! Əsərin hissələrini müəyyən etməyin nə qədər əhəmiyyətli bir bacarıq olduğunu aşağı siniflərdə qazandığınız təcrübədən bilirsiniz. Müxtəlif oxu fəaliyyətlərini yerinə yetirərkən həmin bacarıqlardan kifayət qədər bəhrələnmisiniz. Bu bacarıq oxuduğunuz əsərin məzmun və ideyasını sistemli dərk etməkdə sizə yardımçı olub. İndi isə həmin bacarıqları daha da inkişaf etdirmək istiqamətində işlər aparacaqsınız.

Keçən dərs ilindən bilirsiniz ki, nəqli mətnlər giriş, əsas hissə və nəticə çərçivəsində bir neçə hadisənin ardıcıl düzülməsi ilə yaranır. Oxuduğunuz bədii nümunələrdə hadisələri müəyyən etmiş, onların hansı ardıcıllıqla düzüldüyünü müəyyənləşdirmisiniz. Təcrübənizdən bilirsiniz ki, əsərdə hadisələrin ardıcıllığı ilə bağlı məlumatlılıq onun məzmununun nəqli işini də xeyli asanlaşdırır.

***Tapşırıq 1.***

1. Sabir Əhmədlinin “Dərs” hekayəsini oxumazdan əvvəl oxuya hazırlıq işi aparın. İlkin məlumatlardan çıxış edərək əsərdə hadisələrin ardıcıllığını və aşağıdakı sxemlərdən hansına uyğun gəldiyini müəyyənləşdirin. Hadisələrin ardıcıllığına uyğun gələn sxemi dəftərinizə çəkin və müvafiq qeydlər aparın.

2. Nəticələrinizi yoldaşlarınızla müzakirə edin, diqqətəlayiq fikirlərdən yararlanın, öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin.









***Tapşırıq 2.*** Əsəri oxuyun. Əsərdə hadisələrə başlıq verin və uyğun gələn hadisələrin ardıcıllığının sxemini tərtib edin.

## DƏRS

*(İxtisarla)*

Məktəbin direktoru çıxışda, pilləkən başında dayanıb gözünü darvazaya dikmişdi. Siniflər boşdu, yaxın evlərdən beş-on şagird gəlmişdi, onlar da eləcə dəhlizdə, həyətdə girlənib harasa itdilər.

İçəridə bir neçə müəllim vardı, budur, ikisi də gəldi. Rəng-ruhları qaçmışdı. Orası aydındır, niyə. Hər iki müəllim üst qapıdan gəldi. On-on beş dəqiqə qabaq orada, Şərifzadə küçəsinin Kiyev prospekti ilə kəsişdiyi yerdən avtomat atəşi qopmuşdu. Nəqliyyat işləmirdi, avtobus yox idi, deməli, piyada gəliblər.

Bu hadisələr haqqında daha nələri bilirsiniz?

— Nə atışma idi? — direktor soruşdu.

Müəllimin dilli-dilavəri söylədi:

— Tankdan atırdılar, tankın üstündə soldatlar vardı. Yerdə də atırdılar. Kimə atırdılar, nə üçün atırdılar, bilmək olur ki?! Bir “Jiquli” ötdü, onu vururdular, yoxsa küçədə kimisə...

— Hara gəldi, atırlar, — bu biri müəllim dedi.

Sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

— Heç ağlımıza gəlməzdi. Gündüzün günortasında bu qudurmuşlar... belə iş tutarlar. Bir də gördük, lap yaxınlığımızdaca **şilədilər**. Qaçıb birtəhər yaxındakı evin blokuna girmişik, neçəsi dükana, mağazaya soxuldu.

— Xətər yetirmədi?

— Vallah, bilmədik. Ötüb getdilər, biz də evlərin arası ilə qorxa-qorxa gəlmişik... Lap quduzlaşıblar. Ağına-bozuna baxmadan atəş açırlar. Qurtarmadı, qırdılar, ürəkləri soyumadı?

Direktor çönüb getdi və sifariş göndərib məktəbə gətirdiyi müəllimlərin bu hala düşməyində özünü təqsirkar bilsə də, üstünü vurmadı.

Müəllimlər direktorun ardınca içəri keçdilər.

Direktor “dərsə davamiyyət” adı altında bir ayaqüstü yığıncaq keçirəndə, iki rəfiqədən biri dilləndi:

— Nəqliyyat işləmir. Yollar qarışıqdır. Belə halda körpə uşaqların məktəbə gəlməyi təhlükəlidir.

— Hələ atışma da gedir bəzi yerlərdə.

— Alatavada bərk atışma olub. Elə ev yoxdur ki, ona bir xətər çatmasın. Neçəsini Şəhidlər xiyabanında dəfn ediblər...

— Məktəb işləməli, dərs keçilməlidir. Məsələ belə qoyulmuşdur. Xalqımızın başına müsibət gəlmişdir. Haqsız yerə qan tökülmüşdür. Evlərdə yasdır. Lakin bu bizim ruhumuzu öldürməməlidir.

Hamı bilirdi: komendant kəskin şərt qoymuşdu. Bütün maarif müəssisələri, uşaq bağçaları, körpələr evi işə başlamalıdır. Uşaqlar məktəbə gəlməli, bağçaya, körpələr evinə verilməliydi ki, valideynlər zavodlara, dəzgah arxasına getsinlər. Xəbərdarlıq edilmişdi: kim, hansı məktəb işləməsə, Bakı komendantlığı bunu itaətsizlik təki qiymətləndirəcək və həmin məktəb, həmin maarif şöbəsi barədə ölçü götürüləcək.

Direktor müəllimlərdən rica etdi, yalvardı. Qorxurdu; vəzifədən çıxarılar, partbiletini alarlar.

— Ay yoldaş direktor, sən niyə əsirsən? Partbiletlərdən Mərkəzi Komitənin qabağında tonqal qalamışdılar.

Haradasa atışma olur, avtomat şaqqıldayırdı. Kimi isə ötdüyü yerdəcə güllləyə qurban edirdilər... Hər gün Şənbə gecəsinin bir-birindən müdhiş sorağı söylənirdi. İkinci növbənin uşaqlarının gəlişi daha çətindi, axırıncı dərs qaranlığa düşürdü. Gülzar müəllimənin sinfi ikinci növbə idi.

— Sənin uşaqların gəliblər! — dedi direktor, ürəyində müəlliməyə minnətdarlıq oyandı. Tapşırıq belə idi: söhbət aparın, uşaqları sakitləşdirin. Qaranlığa saxlamayın.

Guya, uşaqlar hamısı birdən itirilərdi, guya, onların bəstəboy, istəkli müəllimələri bir yayğın gülllədən ölər, yaralanardı. Bəs niyə soraq tutmayıblar bu neçə gündə? Nə onlar bundan, nə bu onlardan.

Otuz iki uşaqdan on səkkizi gəlmişdi. Gəlməyənlərin yeri boşdu, sinif, boş qalmış partalar ah çəkirdi elə bil.

— Necə gəldiniz, uşaqlar? — soruşdu müəllimə. Elə bil nə qanlı atışmalar olmuşdu, nə bir həftə məktəbə gəlməmişdilər. Müəllimə həminki geyimində, sual da həmin ahənglə. Ona görə də uşaqlar çaşdılar.

Müəllimə sinfin ən danışqan oğlanına göz qoydu. Hə, bu başlasa, qatıb-qarışdıracaqdı. Amma hamı bilirdi ki, müəllimə onu çox istəyir, həm də sinifdə haçan nə baş versə, Gülzar müəlliməyə hamanca çatdıran bax bu cıbıldız Məqsəd olurdu.

— Mən, Aydın, Sənubər bir gəlmişik, müəllimə.

— Sakitlikdirmi sizin məhlədə?

— Müəllimə, müəllimə! Bizim qapının lap ağzında... bir tank dayanıb.

— Bəs Sona niyə gəlməyib? — müəllimə Məqsədlə bir partada oturan qızı soruşdu.

Kimsə dilləndi, qəhərdənmi, qorxudanmı sinfə göz dolandırdı. Məqsəd dil-dodağı təpimiş halda tezcə dedi:

— Onun... müəllimə, Sonanın qardaşı ölüb!

İlk partada təkcə əyləşmiş Zivər soruşdu:

— Siz Şəhidlər xiyabanına getməmisiniz, müəllimə? Sonanın qardaşını orada dəfn ediblər. Şəkli də qəbrinin üstündə.

Siz neçə dəfə Şəhidlər xiyabanına getmisiniz?

Bundan sonra hamı susdu. Müəllimənin indi ağlına gəldi; onun uşaqlarının əgər yaxın bir kəsi həlak olmuşdusa, bir dəqiqə sükutla ayağa qalxıb dayana idilər. Bax bu, düz olardı.

İndi müəllimə başqa boş partalara baxmaqdan çəkinir, soruşmaqdan yayınırdı.

— Qədirin də əmisi Tiflis prospektində tankın altında qalıb, — dedi Məqsəd. Geri qanrılıb arxasındakı boş partaya vurdu əlini.

Uşaqlar baxdılar müəlliməyə, müəllimə qaldı nə desin. Balacaların ürəkləri dolu idi, gözləri uşaq qəlbinin çəkə bilməyəcəyi ağrıdan, qorxudan böyüyüb, eləcə donuqlaşmışdı.

— Müəllimə, — dedi, — qəzetlər düz məlumat vermir. Yalnız Bakıda ölənlərin sayı üç yüzdən çoxdur! Komendant gizlədir. Atam deyir, əgər toqquşmada ölənlərin sayı yüzdən artıq olsa, gərək bu işə **BMT-də** baxılsın.

Sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Məqsəd tezcənə yerindən atıldı:

— Mən öz gözümlə görmüşəm, müəllimə, atam canı, and olsun Allaha, öz gözümlə gördüm! Yalan demirəm. Niyə yalan deyirəm? Budur... — deyib çantasını dartışdırdı. Əlini soxub oradan qəzetə bükülmüş bir şey çıxartdı. Bir əlin gücü çatmadı, iki əliylə yapışdı; çantaqarışıq, birlikdə götürüb partadan çıxdı. İcazəsiz cumdu müəllimənin masasına. Əllərini soxub bürməni çıxartdı, taqqıltı ilə qoydu sinif jurnalının üstünə.

Hamı boylandı, müəllimə ehmalca qəzet bükülüsünü araladı, açdı.

— Bu nədir, Məqsəd?

— Bunları tankdan atırdılar! Hə, bizim küçədə çoxdur. Eləsi vardı, qana bulanmışdı. Onu gətirmədim. Evdə neçəsi var. Məhlədən yığmışıq.

Doğrusu, tankların daş atmağı müəlliməyə də uydurma təki gəldi.

Bir qarış uzunu, biləkdən yoğun lülə-daşdı. İki başdan mişarla kəsilmişdi. Müəllimə onu tərpətdi, qaldırmaq istədi, ağırdı. Bir daş parçasını tək əllə qaldıra bilməyəcəyindən utanıb, ikiəlli də qaldırmadı. Hamar daş lüləsi təkər təki masa üstə dığırlananda, Məqsəd yenidən atılıb daşı saxladı. Düşsə, bircə adamın ayağına toxunsa, sındıracaqdı. Çox ağırdı, elə bil içinə qurşun doldurmuşlar.



— Müəllimə! Onu mən gətirmişəm... — bilirdi, müəllimə nigarandı. Məqsədin bu ağırlıqda daşı çantasına qoyub, uzun yolu piyadaca gətirməkdə məqsədini soruşacaqdı. Bu uşaq soruşmazdan cavab verdi — ... sərgimizə qoyacağıq!

Hə, məktəbdə hər sinfin sərgi guşəsi vardı. Tapdıqları, düzəltdikləri maraqlı əşyaları oraya qoyur, saxlayırdılar.

— Bir də, müəllimə, mən bir bayatı yazmışam.

— Get əyləş, — dedi müəllimə. Məqsəd daşmərmisini masanın üstə qoyub qayıtdı yerinə.

— Uçastkovumuzu da öldürüblər, müəllimə!

Müəllimə istədi desin bilirəm. Bayaq kimdənsə eşitmişdi.

Siz şəhidlərimizin xatirəsini yad etmək üçün nə etmisiniz?

Uşaq elə bil qəsdən, bir də söylədi:

— Bizim məktəbə gəlirdi, ha! Kök kişi idi. Buraya baxırdı, bizim məktəb onun sahəsi idi.

— Müəllimə, bilirsiniz, necə olub?.. Bir oğlan keçirmiş. Soldat yaxınlaşıb qabağını kəsib. Avtomatın qundağı ilə elə vurub ki, oradaca yıxılıb yerə. Sahə müvəkkili öz maşınında ötürmüş oradan. Saxlayıb maşını, düşüb gəlib. Görüb... soldata deyib, niyə vurdun onu?! Soldat avtomatı çevirib, uçastkovunun da ortasından... iki güllə vurub. Dünən olub, müəllimə.

Axırıncı dərsləri keçmədilər ki, uşaqlar qaranlığa düşməsin. Belə dərsin bircəsi də bəsdi.

Çən-çiskinli havada müəllimə öz sinfi ilə birgə çıxdı. Düşdülər, müəllimə onları böyük işlək yolun o tayına keçirdi, dönə-dönə tapşırdı.

> Xalqımızın başına gətirilən bu ağır faciədən bəhs edən hekayədən siz nə öyrəndiniz?

Alatavada uşaqlar keçmiş daş karxanasının yerində törənmiş Qanlıgölün yaxınından keçən torpaq cığırla uzaqlaşdılar. Tez getdilər. Yüngülləşmişdilər. Həm ürəkləri boşalmış, həm də çantalarında gətirdikləri gilizləri, qəlpə qırıqlarını, daş mərmiləri buradaca töküb vermişdilər məktəbə. Direktorun göstərişi vardı: atışmadan nə düşüb, nə qalıbsa, gətirsinlər.

Bir neçə də maşın gəlmişdi məktəbin qapısına. "Moskviç", "Jiquli"lərin qanadı əzilmiş, burnu ovulmuşdu. Salamat olanı da vardı, amma onların da elə içi düşmüşdü. Zədələnmiş qol-qanada, qapıya astar taxılmışdı. Gün ötəcək, quruyacaqdı. Üstdən öz rəngi çəkiləndə sezilməyəcəkdi.

***Sabir Əhmədli***

***Tapşırıq 3.*** "Oxudan sonra" təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17). Yoldaşlarınızla müzakirə edin: müəllif öz oxucusuna nə demək istəyib? Öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə etməyi unutmayın.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından marağınıza uyğun olan nəqletmə xarakterli bir bədii nümunə oxuyun. Hadisələrin ardıcıllığını müəyyən edin.

Əsərdə baş verən əhvalatlarda hər hansı dəyişiklik etməklə öz variantınızı yazın.

## *Müəlliflə tanışlıq*



***Sabir Əhmədli***

*Sabir Əhmədli Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindəndir. Yazıçı əsərlərində xalqın taleyində baş verən acılı-şirinli hadisələrin bədii təsvirini vermişdir. Onun əsərlərinin ana xəttini müasirlərinin arzu və düşüncələri, mübarizələri təşkil edir. Sabir Əhmədli televiziya müxbirinə 75 yaşdan sonrakı həyatının arzularını belə anlatmışdı: "Ürəyim düşmən tapdağında qalan Qarabağım, doğulduğum Cəbrayıl üçün nanə yarpağı kimi əsir. Ən böyük arzum doğma torpaqlarımızın azad olması, Cəbrayılda ömrümün sonunacan yaşayıb, onun torpağına qarışmaqdır..."*

## "XAN SARAYI" ƏFSANƏSİ

### (NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRDƏ HADİSƏLƏRİN ARDICILLIĞININ MÜƏYYƏN EDİLMƏSİ)

Siz nəqli mətnlərdə hadisələrin ardıcıllığını müəyyən etmək üzrə işlər apardınız. Bir-biri ilə bağlı hadisələrin ardıcıl inkişafı əsərin süjetini təşkil edir.




Məşhur filosof Aristotel göstərirdi ki, hər hansı əsəri yaradarkən ən çox əsərin süjetinə diqqət yetirilməlidir. O hesab edirdi ki, əsərin süjeti, hətta oradakı obrazlardan daha əhəmiyyətlidir. İstənilən süjetin girişi, əsas hissəsi və nəticəsi olmalıdır. Əsəri təşkil edən hadisələr də xronoloji və səbəb-nəticə ardıcıllığı ilə əlaqələndirilməlidir.

***Tapşırıq 1.***

**1.** "Xan sarayı" əfsanəsini oxumazdan əvvəl oxuya hazırlıq işləri aparın. Yardımçı sualları cavablandırmağa, əsəri düşünərək oxumağa çalışın. Mətndəki hadisələri və onların ardıcıllığını müəyyən edin. Əlavə №2-dən (səh. 229) istifadə etməklə hadisələri adlandırın.

## XAN SARAYI

*(Əfsanə)*

Şəki xanı bir gün ustanı yanına çağırıb deyir:

— Qocalmışam, istəyirəm adımı əbədiləşdirən bir saray tikdirəm. Gərək dünyada ona bərabər ikinci bir saray tapılmasın.

Mahir usta xanın qabağına şərt qoyur:
— Əməyimi qiymətləndirsəniz, tikərəm.
Xan dərhal razılığını bildirir:
— Əgər saray ürəyimcə olsa, o qurub-yaradan əllərini qızıla tutaram.

Deyə bilərsinizmi, bu əfsanədə nədən bəhs ediləcək?

Qoca usta qoca xana etiraz edir:
— Qızıl qiymət ölçüsü deyil, xan. Mən istəyirəm, siz sənətə, sənətkara qiymət qoyasınız.

Siz necə fikirləşirsiniz, xan ustanı razı salacaqmı?

Xan ustaya söz verir. Usta şəyirdlərini başına toplayıb işə başlayır. Vaxt tamam olanda hamı gəlib saraya baxır. Xan görür ki, usta, doğrudan da, möcüzə yaradıb. İkimərtəbəli binada bir dənə də olsun mismar işlətməyib. Əlvan rənglər, heyrət doğuran şəbəkələr, divarlarda məhəbbət və qəhrəmanlıq dastanlarından götürülmüş süjetli şəkillər, günəş işığında bərq vuran şüşə günbəzlər əsl sənət incisi idi.
Sarayın gözəlliyindən olduqca məmnun qalan xan ustadan soruşur:
— Əhsən əllərinə, usta! De görüm, bundan da yaxşı saray tikə bilərsənmi?
— Xan sağ olsun, tikərəm!
Xan marağını gizlədə bilmir:

Bundan sonra hansı hadisələrin baş verəcəyini deyə bilərsinizmi?

— Bəs niyə mənim sarayımı bundan yaxşı tikməmisən, hansı cəsarətlə bütün bacarığını və məharətini əsirgəmisən?
Qoca usta qəzəbli xanın qarşısında susmur:
— Xan sağ olsun, insanın, sənətkarın əməyini qiymətləndirəndə yaradan əllər qara daşdan sədəf düzəldir.
Xan qəzəblənir:
— Bəs sənə verdiyim bir ətək qızıl?
— Siz mənə əməkhaqqı vermisiniz, amma sənətimə qiymət verməmisiniz.
Xan qeyzini fərmana çevirir:
— Sən nankorsan, qədirbilməzsən. İndi sənin o yaradan əllərinin başına bir oyun açım ki, bütün ustalara, sənətkarlara dərs olsun.

Zalım xanın fərmanı sizdə hansı hissləri oyatdı?

Xanın əmrilə qoca ustanın yaradan əllərini, bir ölkəni yaraşığa mindirən əllərini kəsirlər.
— Sən zalımsan, zülmkarsan! Ancaq beləsi yaradanı kəsə bilər. Onu bil ki, onun yaratdıqları intiqamı səndə qoymayacaq, onların arasında rahat nəfəs ala bilməyəcəksən, kef-işrət məclisləri qura bilməyəcəksən. O binalar sənin deyil, mənimdir. Onlar səni qəbir kimi sıxacaq.

Xan ustaya istehza ilə gülür:

— Yaradan əlləri kəsdirmişəm, onlar bir də qurub-yaratmayacaq.

Qoca usta əllərinin ağrısını unudur, xandan betər istehza ilə gülür:

— Sənə elə gəlir ki, mənim əllərimi kəsmisən. Amma buna sənin gücün çatmaz. İndi mənim əllərim şəyirdlərimdədir. Məndən sonra onlar qurub-yaradacaqlar.

Ustanın sözləri haqqında nə düşünürsünüz?

— Gərək əvvəlcə dilini kəsəydim, sonra əllərini. Gec də olsa, səhvimi düzəldərəm.

Xan böyük, tarixi abidələr yaradan bir sənətkarı öldürtdürür.

**2.** Süjetin beş hissəsinin xüsusiyyətlərini nəzərə almaqla əsərdəki hadisələri süjet xətti üzrə yerləşdirin. Nəqli mətnin süjetini tərtib edin. Nəticəni yoldaşlarınızla müzakirə edin. (Əlavə №4, səh. 230)



***Bunu bilməlisiniz!***

***Əfsanə*** — müasir ağlın, düşüncənin uydurma, fantastika kimi qəbul etdiyi qeyri-adi hadisələrin təsvir edilməsidir. Əfsanələrdə insan quşa, heyvana, səma cisimlərinə çevrilir, dağlar, çaylar, çiçəklər dil açıb danışır.

***Tapşırıq 2.***

1. "Oxudan sonra" fəaliyyətini yerinə yetirin (cədvəl 3, səh. 17).

2. Əsəri fakt və sitatlarla zənginləşdirin:

a) hansı məqama əlavə etməyin mümkün olduğunu müəyyənləşdirin; b) əlavə edəcəyiniz söz və ifadəni bir tərəfi yapışqanlı kiçik qeyd vərəqinə yazın; c) vərəqi əsərdə münasib bildiyiniz yerə yapışdırın; e) əsərin janr xüsusiyyətlərini müəyyənləşdirərkən fikrinizi əsaslandırın.

**Yaradıcı tətbiqetmə:**

Əlavə oxu materiallarından öz marağınıza uyğun olan nəqletmə xarakterli bədii nümunələrdən birini seçin. Əsəri oxuyun. Yuxarıda təqdim edilən sxem üzrə əsərin süjetini müəyyənləşdirin. Sinifdə əldə etdiyiniz bilik və bacarıqları möhkəmləndirmək məqsədilə dərsdənkənar vaxtda müstəqil şəkildə öyrənməni davam etdirin.

## MİR CƏLAL. "DƏRSİMİ YAZ" VƏ ZAHİD XƏLİL. "ZEYNALABDİN"
### (NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRİN ELEMENTLƏRİNİN MÜQAYİSƏSİ)

Nəqli mətnlərin, əsasən, beş elementdən ibarət olduğunu artıq bilirsiniz. İndi isə həm ötən dərs ili öyrəndikləriniz, həm də bu dərs ilində yeni nail olduğunuz bilik və bacarıqlarınızı tətbiq etməklə maraqlı bir bədii nümunənin elementlərini müəyyən edəcəksiniz. Siz həm də ayrı-ayrı mətnlərin xəritələrini qarşılaşdırmaqla müqayisə edəcək, onlar arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirəcəksiniz. Bu bacarıqlar əsərin mahiyyətini dərk etmək baxımından çox əhəmiyyətlidir.

***Tapşırıq 1.***

1. Mir Cəlalın "Dərsimi yaz" və Zahid Xəlilin "Zeynalabdin" başlıqlı əsərlərini oxumazdan əvvəl oxuya hazırlıq işləri aparın. Əsəri oxuyun.

2. 22-ci cədvəldən istifadə etməklə mətnin elementlərini müəyyən edin.

*Cədvəl 22*

| **Əsər** | **Obraz** | **Hadisənin baş verdiyi zaman və məkan** | **Problem** | **Problemin həlli** | **Mövzu** | **Süjet** |
|---|---|---|---|---|---|---|
| **I əsər** | | | | | | |
| **II əsər** | | | | | | |

## DƏRSİMİ YAZ

Mən bir uşaq tanıyıram, hörmətli bir ailədəndir. Atası, anası onu çox sevir, əzizləyir, bir sözünü iki eləmir. İstədiyini alır, istədiyi yerə göndərir, handa bir qəşəng, bahalı libas geyindirir, addımbaşı sağına-soluna keçir, kefini soruşurlar:

— Necəsən, bala, indi ürəyin nə istəyir?

Sizcə, bu hekayədə nədən bəhs olunacaq?

Əslinə baxsan, haqqı demək lazımdır, işlərin çoxunu ata-anadan qabaq bacılar eləyir.

Bacı insan üçün böyük nemətdir, illah da ki bir qardaş olasan!

Bir dəstə bacı, tək bir qardaş. Tofiqin işi lap belə idi. Əvvəldən ailədə oğlan uşağı olmamışdı. Dalbadal bacılar doğulub böyümüşdü: Lalə, Bənövşə, Yasəmən, Zanbaq, Xətmi!

Axırda dəstə bacılar içində Tofiq boy atanda hər kəs onun başına sadağa deyir, hər gün bir bacının qucağından yerə düşmürdü. Atakişinin ailəsində Tofiqə, doğrudan da, bir əlamət, bir xoşbəxtlik kimi baxırdılar.

Qızların hərəsi bir məktəbə, sənətə, bir peşəyə getmiş, iş sahibi olmaq qəsdi ilə çalışdıqları halda, anası Tofiqi yanından kənara buraxmır, "bayıra çıxma, soyuq dəyər", "tərpəşmə, quyuya düşərsən", "orada oturma, buraya keç..." deyirdi.

Oğlanın əzizlənməsi onun oxumasına necə təsir edəcək?

Məktəb vaxtı gələndə hamı Tofiqi qayğı ilə əhatə edirdi. Qızlar yer-yerdən səs-səsə verib qardaşları haqqında düşünürdülər. Biri yaraşıqlı portfel alır, biri məktəb forması, üçüncüsü saat, dördüncüsü qələm, beşincisi boğazlı çəkmə.

Birinci gün məktəbə yola salanda da bacılar bir-birinə macal vermirdilər. Müəllimlə xüsusi danışırdılar:

— Müəllimə, bu bizdə tək uşaqdır, ana uşağıdır. Bunu pəncərə qabağında, dal cərgədə, ayaq altında oturtmayın! Yoxsa xətrinə dəyər, anası bizi evə qoymaz!

Qızların qayğısından, hay-küyündən Tofiq özü də şübhəyə düşürdü. Aşkar görürdü ki, beş bacının bir qardaşı zarafat deyil, hər kəsə səadət qismət olmaz. Bacılar Tofiqin qulluğunda dayanmaqda bir-birinə macal vermirdilər: biri paltarını ütüləyir, biri kotlet qızardır, biri ayaqqabılarını gətirirdi...



Dərs hazırlamağa gələndə də Tofiq özünü xoşbəxt gördü: hesabını bir bacı, yazısını başqası, coğrafiyasını o birisi hazırlayıb dərsə yola salırdı. Uşaq elə öyrəndi ki, müəllimin dediyi tapşırıqları bacılarına təhvil verib, səhər də hamısını hazır istəyirdi. Bəzən də hökmünü dürüst yerinə yetirməyəndə hirslənir, qışqırırdı:

— Ay qız, Lalə, götür mənim dərslərimi yaz!

— Bənövşə, sən də məsələləri hazırla!

— Yasəmən də elə misalı toplasın, niyə durmusunuz, tez olun!

Olubmu ki, siz dərslərinizi hazırlayarkən kimsə sizə kömək etsin?

Tofiqin anası hər kəsdən əvvəl qızları danlayırdı:

— Ay yaramazlar, aman-zaman bir qardaşdır, onun ürəyini niyə qırırsınız, götürüb dərsləri hazırlasanız! Di tez olun, gedin qardaşınızın dərslərini hazırlayın!

Qızlar, doğrudur, bilirdilər ki, bu dərslər Tofiqə verilib, ondan soruşulacaq, onun özü hazırlamalıdır. Ancaq qardaşlarının xətrinə, analarının xahişinə bu işlərə boyun əyirdilər. Aşağı siniflərdə Tofiqin dərslərdən kütlüyünü, tənbəlliyini biləndən sonra anasına xəbər verdilər, məsuliyyəti boyunlarından atdılar.

Bir il də üçüncü sinifdə qalandan sonra Tofiq bacılarını məzəmmət edib məktəbi atdı.

Sizcə, Tofiq haqlı idi?

Anası, bacıları təkrar Tofiqi məktəbə cəlb etməyə çalışsalar da, fayda vermədi. Uşaq oyundan əl çəkmədi. Axırda Tofiq birtəhər montyorluq öyrəndi. O, evlərdə pozulan işıq xətlərini düzəldir, xırda qazancı ilə restoranlarda yeyib-içir, gününü keçirirdi. Bacıları bundan pərişan olsalar da, analarına bildirmək istəmir, qardaşlarının cibinə pul qoyurdular. Tofiq lap sonradan anlamışdı ki, bacılarının istəyi, qayğısı onu əməkdən, peşədən, sənətdən məhrum eləmişdir.

Atalar yaxşı deyib: "Məhəbbətdən mərəz hasil olur". "Oha" var dağa qaldırar, "oha" var dağdan endirər!" Axırda bacılar bir yerə yığışıb iyirmi səkkiz yaşlı qardaşlarına bir sənət seçmək istədilər:

— Ay canım, bu gədə avara qalacaq, məktəbdən, peşədən kənarda adam olarmı? Nə zəmanədir, indi dünənki hambal isbatlı peşə, sənət sahibi olur, bu bığıburma oğlana nə olub ki, avara gəzə, görən bizə nə deyər, eyib deyilmi!

Tofiq indi montyorluq kursuna daxil olub biliyini artırmağa cəhd edir.

Tofiqin başına gələnlər sizə nə öyrətdi?

Gec olsa da, yaxşıdır. Uğur olsun!

***Mir Cəlal***

## *Müəlliflə tanışlıq*



***Mir Cəlal Paşayev***

*Mir Cəlal müəllim xeyirxah işlər görməkdən xüsusi zövq alırdı. O deyərdi ki, insan gərək bu dünyada yalnız özü üçün yaşamasın, başqalarına da yaşamağa kömək etsin. İnsanlara təmənnasız yaxşılıqlar etməklə, ətrafdakılara xoşbəxtlik arzulamaqla özün də xoşbəxt olarsan. Bu yüksək mənəvi dəyərlərin müqəddəs Məhəmməd Peyğəmbərimizin tövsiyəsi olduğunu xatırladırdı: "Mən ömrüm boyu insanlara əlimdən gələn yaxşılıqları etmişəm. Bir çox vəzifəli şəxslərlə münasibətlərimin yaxşı olmasından istifadə edərək neçə-neçə kasıb, lakin istedadlı şair və yazıçı ailələrinin mənzil almasına kömək etmişəm. İşə düzələ bilməyənlərin işə düzəlməsinə kömək etmişəm. İstedadlı gənc şairlərin şeir kitablarının nəşr olunmasına da yardım etmişəm. Hər dəfə mənə minnətdarlıq edərkən deyirəm ki, həyatda sən də çalış başqa imkansız insanlara arxa ol. Ehtiyacı olanlara kömək et. Onda həyat daha da mənalı, xoşbəxt və gözəl olar!"*

**Vaqif Əsədovdan**

## ZEYNALABDİN
*(İxtisarla)*

Deyə bilərsinizmi, bu hekayədə nədən söhbət gedəcək?

Elə bil ki nəhəng bir təndiri başı üstünə çevirmişdilər. Göydən günün şüaları əvəzinə nəhəng alov dilləri uzanırdı. Zeynalabdinə elə gəlirdi ki, bu saat Bibiheybət mədənləri od tutub yanacaq və onu söndürmək üçün Xəzərin suyunu əndərsən də, xeyri olmayacaq. Hər tərəfdə torpaq qapqara idi. Elə bil gecənin bir parçası Abşerona çökmüş, onu əbədi zülmətə çevirmək istəmişdi. Uzaqlarda görünən kiçik daxmalardan çıxıb harasa tələsən adamlar da qapqara idi və onları beləcə qaraldan neftdən ümid gözləyirdilər.

Burada hansı bədii ifadə vasitəsi işlənmişdir?

Adamlar hər gün təzə bir xəbər sorağı ilə yuxudan ayılırdı. Elə bil Zeynalabdinin özü də hər gün Bibiheybətdə şərikli aldığı bu torpaqdan neft çıxacağı ümidi ilə yaşayırdı. Səhərdən axşamacan quyunun içində əlləşir, amma bir şey çıxmırdı. Dünən şəriki çıxıb getdi.

— Bu yerdən heç su da çıxmaz. Havayı özümüzü əziyyətə salmışıq.

Zeynalabdin borc pul tapıb şərikinin haqqını verdi, onu yola saldı. İndi torpağa verdiyi pullar da, quyu qazmağa çəkdiyi xərc də, özünün əziyyəti də havayı gedirdi. Qulağını quyuya dirədi ki, görsün oradan bir hənirti gəlirmi. Amma oradan səs-zad gəlmirdi.

Zeynalabdin qara bir daşın üstündə oturub ötən günlərini yada saldı. Atası Tağı kişi hələ on il əvvəl ona öz yanında işləməyi təklif etmişdi:

Siz hansı sənəti daha çox sevirsiniz?

— Gəl yanımda pinəçilik elə. Sağ olsun camaatı, bizi birtəhər dolandırar.

— Yox, ata, mən **bənna** olmaq istəyirəm. Əlim-ayağım sağ, qolumda da gücüm. Nə üçün **pinəçi** olmalıyam?

Qara hərflərlə verilmiş sözlərin mənasını lüğətdən tapın.

Atası Zeynalabdinin tərsliyini bilirdi. Dediyindən dönməyəcəkdi. Buna görə də dillənmədi.

Anası Anaxanım öləndən sonra atası evlənmişdi və təzə arvadından beş uşağı olmuşdu. Kişinin vəziyyətinin ağırlığını Zey-

nalabdin başa düşürdü. Buna görə də hələ 12 yaşı olanda tikintidə fəhlə işləməyə başladı. Palçıqla dolu ağır çanağı başında güclə aparırdı. Bir dəfə çanaq həddindən artıq ağır olduğu üçün Zeynalabdinin ayaqları titrədi. Az qaldı ki, çanaqqarışıq yerə sərilsin. Dişlərini və dodaqlarını bir-birinə sıxıb bütün gücünü topladı və palçığı ustanın yanına apardı. Yaxşı ki, divar hələ alçaq idi. Bu ağırlıqda palçığı pilləkənlə çıxarmaq qətiyyən mümkün olmazdı. Düz 18 yaşına kimi o, beləcə işlədi. Qəpik-qəpik yığdı. Bir azdan bənna oldu, hətta podratçı-memar keçdi. Xeyli pul əldə edəndən sonra Bibiheybətdə yer aldı. Məqsədi də bu idi ki, bəlkə, quyu fontan vura, Zeynalabdin kasıbçılığın daşını bir yolluq ata. Amma indi borcu xirtdəyinə çıxmışdı. Daha heç kəs ona nisyə işləmək istəmirdi. Hamı çıxıb getmişdi. Bu boyda mavi göyün altında və qapqara torpağın üstündə bığ yeri təzəcə tərləyən Zeynalabdin tək qalmışdı.

— Eybi yoxdu, göydə Allah da təkdi, — deyə özünə ürək-dirək verirdi.

Zeynalabdin külüng və belini götürüb yenə quyuya düşdü. Günəş isə torpağı mümkün qədər çox qızdırırdı ki, bəlkə, bu cavan dediyindən dönsün.

Lap nağıllarda olduğu kimi, günlərin birində Zeynalabdin quyunun dibində qeyri-adi bir səs eşitdi. Elə bil aşağıda, torpağın altında qatarlar gedirdi. Bu gurultu getdikcə şiddətlənirdi.

> Sizcə, bundan sonra hansı hadisə baş verə bilər?

Zeynalabdin başa düşdü ki, quyu tezliklə fontan vura bilər.

Birtəhər quyudan çıxıb oradan uzaqlaşdı. Günəş batmaq üzrə idi. Son şüalar Zeynalabdinin həyəcandan rəngini dəyişmiş sifətində bərq vururdu. O isə gözlərini quyudan çəkmirdi. İndi bayaqkı səs daha da bərkimişdi. Elə bil nəhəng bir qatar vağzala yaxınlaşırdı. Bir azdan lap qatarın fitinə oxşayan səs eşidildi və qeyri-adi bir hadisə oldu. Zeynalabdin ömründə fontan vuran quyu görməmişdi. Görmüşdü, amma o quyuları fontandan sonra görmüşdü. Nəhəng qara çayın ətrafı basdığını, yolu-izi necə qaraltdığını görmüşdü. Amma indi başqa bir mənzərə gördü. Əvvəlcə qapqara bir fontan göyün üzünə qədər qalxdı, sonra Zeynalabdini təpədən-dırnağa qədər neftə qərq etdi. Daha sonra anlaşılmaz bir qarışıqlıq yarandı. Zeynalabdin gözlə-

rini tutmuş mazutdan güclə təmizləyib baxanda nəhəng bir qara çayın ona tərəf necə axdığını gördü. Bəli, onun quyusu fontan vurmuşdu.

Məşhur milyonçu haqqında televizordan, kitablardan daha nələr bilirsiniz?

Belə anlarda adam bilmir, sevincdən ağlasın, yoxsa gülsün. Zeynalabdin key-key onu qucaqlayan çaya baxdı və neft onun dizinə çatanda başa düşdü ki, çayın içində boğulub ölə bilər. Yalnız bundan sonra oradan qaçıb özünü vaxtsız ölümün əlindən qurtardı...

Bəli, 1873-cü ilin isti avqust ayında başmaqçı oğlu Zeynalabdinin quyusu fontan vurdu və cəmi bir-iki ildən sonra Zeynalabdinin adının qabağına milyonçu sözünü də artırdılar. Oldu milyonçu Zeynalabdin.

Sizin çoxlu pulunuz olsaydı, ondan necə istifadə edərdiniz?

Neft quyunun dibindən fontan vurandan sonra elə bil pul da fontan vurdu. Neft alanların arabaları gəldi. Pul sel kimi onun cibinə dolmağa başladı. Zeynalabdin bu qədər pulu ömründə görməmişdi. Fikirləşdi ki, axı bu qədər **pulu evdə saxlayıb çürütməyin** nə mənası var. İlk dəfə bax bu evi tikdirdi. Evin girəcəyinə bir fikir verin! O zaman Bakıda tikilən evlərin heç biri buna bənzəməz. Tezliklə köhnə milyonerlər əl-ayağa düşdülər.

Qara hərflərlə verilmiş ifadənin mənasını necə izah edərdiniz?

— Oğul, bu boyda evi tikməkdə məqsədin nədir?

— Evdi də, tikdirirəm! — deyə Zeynalabdin sakitcə dilləndi.

— Yox da, evin də bir ölçü-biçisi olar. Bir balaca ailən üçün bu boyda ev tikdirməyin, mən bilən, mənası yoxdur.

Hə, orasını unutdum deyim ki, Zeynalabdin Azərbaycan xalq ədəbiyyatının bilicisi idi. Hələ usta yanında şagird işləyəndə onu bütün çətinliklərdən xalq ədəbiyyatı qoruyub çıxarmışdı. Ən çətin vaxtlarında Zeynalabdin dözüm haqqında, xalqın igidliyi barədə ürəyində bayatı deyər, sonra daha da əzmlə işləyərdi. İndi də dilinə belə bir bayatı gəldi:

Bu qala, bizim qala,
Həmişə bizim qala.
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala.

Şeirin janrını müəyyən edin.



Bu xalq hikmətinin mənasını hər milyonçu başa düşməz. Zeynalabdin deyirdi ki, yəni bu evi özüm üçün tikmirəm ha. Mən dünyadan köçəndən sonra xalqıma lazım olacaq. O, haqlı imiş, indi bu evdə Azərbaycan tarixi muzeyi yerləşir. Dünyanın hər tərəfindən gələn qonaqlar içəri girən kimi əvvəlcə heyrətlə bu gözəl binanın quruluşuna baxır, sonra ayaqlarına xüsusi ev ayaqqabıları geyinirlər ki, onun gözəl döşəməsini xarab etməsinlər.

İndi isə sənə qız məktəbinin tarixini danışım. Bu bina 1898-ci ildə tikilməyə başladı. 1900-cü ilə hazır oldu. Amma bu vaxtacan Zeynalabdin Həcc ziyarətinə getmişdi. Bakının 150 kilometrliyindən Şollar su kəmərini çəkdirmişdi. Çox-çox işlər görmüşdü və üç dəfə qız məktəbi açmaq barədə yuxarılara müraciət etmişdi. Amma imperator III Aleksandr bu işə razılıq verməmişdi. Elə ki III Aleksandr ömrünü sizə bağışladı və II Nikolay taxta çıxdı, Hacı Zeynalabdin Tağıyev fürsəti itirmədən Nikolayın arvadı Aleksandra Fyodrovnaya bahalı bir hədiyyə göndərdi, bunun üstündən az bir vaxt keçəndən sonra Nikolaydan xahiş etdi ki, Bakıda qız məktəbi açmasına icazə versin. Onu da bildirdi ki, həmin məktəbə Aleksandra Fyodrovnanın adı veriləcək.



Bir özünüz düşünün, bütün bunları Bakı milyonçusu kimin üçün edirdi? Xalqın uşaqları üçün. O deyirdi ki, qoy Azərbaycan qızları elm oxusunlar ki, sabah həm başqalarını öyrətsinlər, həm də evdə öz balalarını tərbiyə edə bilsinlər.

Siz bu barədə nə düşünürsünüz?

Amma Nikolayın razılığından sonra məlum oldu ki, belə bir məktəbi açmaq elə sən deyən asan iş deyilmiş. Bakının köhnə dindarları, qoçular, Hacı Zeynalabdinin ayağını qazanlar küçələrə çıxıb "Vaveyla, abır-həyamız, dinimiz əldən getdi", — deyə qışqırır, camaatı qəzəbləndirməyə çalışırdılar. Adətən, dünyanı dərk edə bilməyən adamlar belə anda çox qəzəblənir, güclü bir qüvvəyə çevrilə bilir. Hacı vəziyyətin belə şəkil alacağını gözləmirdi. Fikirləşirdi ki, yəqin, xalq bu işə sevinər, amma tərsinə oldu. Qız məktəbinin taleyi tükdən asılı idi. Hacı ruhdan düşsəydi, hər şey batmışdı. Amma Hacı da dediyindən dönən adam deyildi. Üstəlik orasını da yaxşı bilirdi ki, məktəbi olmayan bir xalqın gələcəyi yoxdur. Xalqın gələcəyi naminə bu məktəb tikilməlidir. Onun nə qədər xərc aparacağını isə Hacı Zeynalabdin qətiyyən hesablamırdı. Onun bircə şüarı var idi: "Mənim yerin altından çıxan pulum yerin üstünü bəzəməlidir".

Qız məktəbinin tikintisi o zamanın qızıl pulu ilə 184 min manata başa gəldi. Sonra Hacı İstanbuldan, Məkkədən və Mədinədən, başqa dini mərkəzlərdən Bakıya adamlar dəvət etdi. Gələnlər gəldi, gəlməyən din xadimləri yazılı iltimas göndərdilər ki, müsəlman qızları da oğlanlar kimi məktəbdə oxuya bilərlər. Bundan sonra düşmənlərin səsi batdı, qoçuların xəncəri qınına, tapançası qoburuna girdi, hərə öz evinə çəkildi və Hacının ən böyük arzularından biri olan qız məktəbi açıldı.

Hənifə xanım Məlikova məktəbin müdiri təyin olundu. Hənifə xanım böyük alim və yazıçı Həsən bəy Zərdabinin həyat yoldaşı idi. Məktəbdə əvvəllər 58 nəfər qız oxuyurdu. Onlar burada pulsuz yeyib, geyinirdilər. Məktəbin bütün xərcini Hacı çəkirdi. Sonra xərci bir az da artırdı, məktəbi seminariyaya çevirdi. Dünyanın hər tərəfindən Bakıya gələn qonaqlar hökmən qız məktəbində olur, Hacının xalq maarifinə bu qədər can yandırmağına heyrət edirdilər. Bir dəfə İran şahı öz arvadı ilə bu məktəbə qonaq gəlir. Şah arvadı məktəbin şagirdlərinin hərəsinə qızıl boyunbağıya keçirilmiş bir onluq qızıl bağışlayır.

Qızlar burada Tağıyevin atalıq qayğısı altında oxuyub təhsillərini başa vururlar. Əgər vaxtilə həmin qız məktəbi açılmasaydı, indi Azərbaycanda bu qədər savadlı qadınlar olmazdı.

***Zahid Xəlil***

***Tapşırıq 2.***

Araşdırdığınız əsərləri elementləri baxımından müqayisə edin. Onlar arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirin.



***Tapşırıq 3.*** 1. "Oxudan sonra" təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17). Əsərləri ideya, məzmun və janr xüsusiyyətləri baxımından qarşılaşdırın. Qarşılaşdırma-müqayisəetmə cədvəlindən (cədvəl 6, səh. 20) istifadə edin. 2. Gəldiyiniz nəticələri yoldaşlarınızla müzakirə edin, diqqətəlayiq fikirlərdən yararlanın.

**Yaradıcı tətbiqetmə:**

Televiziyada marağınıza uyğun olan bir cizgi, yaxud bədii filmə baxın. Həmin filmin elementlərini yuxarıda verilən sxem üzrə müəyyən edin. Nəticələrinizi müəllimə təqdim edin.

***Müəlliflə tanışlıq***



***Zahid Xəlil***

*"İndi uşaqlar üçün dərslik hekayələri yazıram. Bu mənim həyatımda yeni bir mərhələdir. Heç vaxt düşünməmişəm ki, məktəb üçün xüsusi hekayələr lazımdır. İndi çalışıram bu şərtlərə cavab verən əsərlər yazım. Köhnə əsərlərimi də bu şərtlərə uyğunlaşdırmaq istəyirəm".*

*Bizim bağçamıza bir çəmən düşüb,*
*Sürüşüb baharın çiynindən düşüb.*

*Həmişə bahar gələndə istər-istəməz bu misraları xatırlayıram. Gözlərim önündə gözəl bir mənzərə canlanır. Elə bil ki çəmənin baharın çiynindən allı-güllü bir yapıncı kimi sürüşüb yerə düşdüyünü də öz gözümlə görürəm. Bir də gözlərim qarşısında həmin şeirin müəllifinin – ömrünü uşaq ədəbiyyatına həsr edən Zahid Xəlilin nurani çöhrəsi canlanır.*

*Zahid Xəlil bütün yaradıcılığı boyu kiçik açarla böyük qapılar açmağa üstünlük vermiş, dünyaya uşaq gözü ilə baxmış, bu yolda böyük uğurlar qazanmışdır.*

**Rafiq Yusifoğlu**

## İVAN KRILOV. "AĞAC"
### (NƏQLETMƏ XARAKTERLİ ƏSƏRLƏRİN NAĞIL EDİLMƏSİ, NƏTİCƏLƏRİN ÇIXARILMASI)

Şahidi olduğunuz hadisəni olduğu kimi çatdırmaq və müsahibinizdə tam təsəvvür yaratmaq əhəmiyyətli həyati bacarıqdır. Bunu edə bilmək üçün yalnız zəngin söz ehtiyatına malik olmaq kifayət deyil. Fikrinizi təşkil etmək, mərhələ-mərhələ müsahibinizə çatdırmaq müəyyən bilik, bacarıq tələb edir. Siz ötən dərs ilində sadə bədii nümunələr üzərində belə fəaliyyətlər yerinə yetirmisiniz. Bu il daha mürəkkəb bədii nümunələr üzərində həmin bacarıqlarınızı tətbiq edəcəksiniz. Nəqletmə zamanı hadisələrə əsaslandırılmış münasibət bildirəcək, gəldiyiniz qənaətləri yoldaşlarınızla bölüşəcəksiniz.

***Taşırıq 1.***

Təqdim edilən sxemə əsasən nəqletməni oxuduğunuz əsər üzrə müvafiq ardıcıllıqla təşkil edin.

**Əsərdə hadisələr** ______________________________
______________________________(məkanda)
______________________________(zamanda) **baş verir.**

**Əsərdəki əsas obrazlar** ______________________________
______________________________

**Hadisələr ondan başlanır ki,** ______________________________
______________________________

**Əsərdə əsas ziddiyyət** ______________________________
______________________________

**Əhvalat belə oldu ki,** ______________________________
______________________________

**Sonra** ______________________________
______________________________

**Daha sonra** ______________________________
______________________________

**Sonda** ______________________________
______________________________

**Ziddiyyət belə həll olur ki,** ______________________________
______________________________

## AĞAC
*(Təmsil)*

Sizcə, bu təmsildə söhbət nədən gedir?

Çiynində baltası kəndli gedirdi,
Pöhrcə bir Ağac kəndliyə dedi:
"Əzizim, dövrəmdə nə ağac var, sən
Çox yaxşı olar ki, bir-bir kəsəsən;
Rahatca boy ata bilmirəm artıq,
Nə günəş görürəm, nə də ki işıq,
Köküm rişə ata bilmir torpağa,
Küləklər də düşüb məndən uzağa,
Heç məni axtarıb-araya bilmir,
**Tağ** hörüb gövdəmə sarıya bilmir,
Mane olmasaydı mənə bu meşə,
Dərəni tutardı kölgəm həmişə;
İndisə çubuqtək napnaziyəm mən".
Baltaya əl atıb kəndli də bu dəm
Düşündü, dosttək
Bu Ağaca xidmət göstərsin gərək.
Tamam təmizləndi onun dövrəsi;
Di gəl ki, çıxmadı şan-şöhrət səsi!
Gah günəş Ağacı yandırdı-yaxdı,
Dolu vurdu, gah da gur yağış yağdı,
Nəhayət, küləklər yıxdı Ağacı.
İlan dedi ona çox acı-acı:
"Ağılsız! Başına iş açdın özün,
Axı sıx meşədə, bir yaxşı düşün,
Boy atıb, görməzdin quraqlıq, külək,
Qoca ağaclar qoruyardılar səni balatək.
Onlar da meşədən bir gün gedəndə,
Dünyanı tərk edəndə,
Sən də qalxıb boya-başa çatardın,
Kökün üstə möhkəm qərar tutardın.
Yıxılmazdın, elə hey yüksələrdin,
Bəlkə də, tufana sinə gərərdin!"

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr olacaq?

Həyatda təmsildəki ağaca bənzəyən insanlarla rastlaşmısınızmı?

İlanın fikirlərinə sizin münasibətiniz necədir?

***İvan Krılov***

**Tərcümə edən:** ***Hikmət Ziya***

***Tapşırıq 2.***

Tərtib edilmiş işçi vərəq üzrə aşağıdakı məqamları nəzərə almaqla nəql edin.

**Əsaslandırmaq:** əsərdə baş verənləri əsaslandıraraq danışmaq (əsərə istinadlar, əsərdən sitatlar);

**Münasibət bildirmək:** onlardan nəyin doğru, nəyin yanlış olması ilə bağlı fikirlər yürütmək;

**Dəstəkləmək:** doğru hesab etdiklərinizi əsərdən nümunələr gətirməklə və ya şərhlər verməklə dəstəkləmək;

**Nəticə çıxarmaq:** buradan hansı qənaətə gəldiyinizi bildirmək.

***Tapşırıq 3.*** 1. Təmsil və nağılın oxşar və fərqli cəhətlərini müəyyənləşdirin. 2. Təmsilin ideya və məzmununu müəyyənləşdirdikdən sonra yenidən ifadəli oxuyun.

### *Müəlliflə tanışlıq*



***İvan Krılov***

*İvan Andreyeviç Krılov teatrda opera tamaşasına baxırdı. Yanındakı kürsüdə əyləşənin musiqisevər olduğunu anlamaq çətin deyildi. O, teatrda yalnız olmadığını unudub, tamaşa başlayandan bəri ifaçılarla birlikdə oxuyurdu. Cana yığılmış Krılov sakitcə:*

*– Biabırçılıq! – dedi.*

*– Bu söylədiyiniz mənə aiddir? – yanında əyləşən oxumağını saxlayıb ondan soruşdu.*

*– Siz necə belə düşünə bilərsiniz, – Krılov cavab verdi, – bu, səhnədəki cənablara aiddir, onlar sizi dinləməyə mane olurlar.*

*İ.A.Krılovun yaradıcılığı rus təmsilinin zirvəsi səviyyəsinə yüksəlmişdir. Onun təmsillərinin böyük tərbiyəvi əhəmiyyəti vardır. O, atalar sözü, nağıl və məsəllərdən məharətlə faydalanmış və əsərləri rus ədəbi dilinin inkişafında mühüm rol oynamışdır. İ.A.Krılovun əsərləri bir sıra dillərə tərcümə olunmuşdur. Təmsilləri Azərbaycanda da geniş yayılmışdır.*

## “ÇAHARGAH ƏFSANƏSİ”
**(MÜSTƏQİL İŞ)**

### *Tapşırıq*

**1.** Oxuya hazırlıq aparmaqla əsəri oxuyun. Təqdim olunan sxemdən istifadə etməklə əsərin elementlərini müəyyənləşdirin:




## ÇAHARGAH ƏFSANƏSİ
*(Əfsanə)*

Deyə bilərsinizmi, bu əfsanədə söhbət nədən gedə bilər?

Qədim zamanlarda bir alim yaşayırdı. O öz gözəl əməlləri ilə xalqın rəğbətini qazanmışdı.

Alimin sorağı yaşadığı ölkənin hökmdarına da çatır. O, saraya cəlb etmək məqsədilə alimi çağırtdırır və öz

yanında qalmağı ona təklif edir. Alim qərara gəlmək üçün möhlət istəyir, hökmdar alimə üç gün möhlət verir.

Sizcə, alim hökmdarın təklifinə razı olacaqmı?

Vaxt yetişəndə alim saraya gəlir və hökmdara deyir:

— Böyük hökmdar, sizin saray üçün dərin, dərrakəli alim lazımdır. Mən isə onların səviyyəsində dayana bilmirəm.

Bu sözləri deyib alim qayıdır. Öz xeyirxah işləri ilə yenidən xalqa kömək etmək istəyir.

Alimin cavabı, dikbaşlığı, açıq sözü hökmdarı hirsləndirir. Şah səxavətinin, firavan saray həyatının qiymətləndirilməməsini nankorluq hesab edir.

Hökmdar vəziri yanına çağırıb ondan alimin hərəkətlərinə tədbirlə cavab verilməsini tələb edir.

Vəzir deyir:

— Alimin əvvəlcə cahilliyini sübut edib xalqın gözündən salmaq lazımdır.

Vəzirin niyyəti çətin suallarla alimi çıxılmaz vəziyyətə salıb xalqın gözündə kiçiltmək idi. Sualları hazırlamaq üçün vəzir qırx gün möhlət istəyir. Qırx gün keçdikdən sonra suallar hazır olur.

Hökmdar adamları meydana toplayır. Alimi çağırırlar. Hər şey hazır olur. Alim təmkinlə hökmdarı dinləyir.

Bundan sonra hansı hadisələrin baş verəcəyini deyə bilərsinizmi?

Hökmdar alimə deyir:

— Sən öz **əllaməliyinlə** xalqı aldadırsan, sən heç də alim deyilsən. Sənə vəzirim suallar hazırlayıb. Sən bu suallara cavab versən, alimliyini sübut etmiş olacaqsan.

Lüğətdən istifadə etməklə sözün mənasını müəyyənləşdirin.

Alim cürətlə deyir:

— Buyurun, suallarınızı verin.

Hökmdar vəzirinə işarə edir. Vəzir suallara başlayır:

— Ulu dağın başından buraxılmış bir qoz Zümzümə bulağına qədər neçə dəfə fırlanar?

Alim gülə-gülə deyir:

— Mən sualın cavabını verməyə hazıram. Siz isə Ulu dağdan Zümzümə bulağına qədər olan yolun nə qədər olduğunu, dağın nə qədər maili olmasını, bir də qozun həcmini deyin.

Camaat alimin cavabını alqışlayır. Hökmdar və vəziri alimlə bacarmayacaqlarını görüb məyus olurlar. Artıq sual vermək fikrindən vaz keçirlər, biabır olmaq istəmirlər.

Alim evə yollanır. Ancaq onu evə getməyə qoymurlar. Başqa ölkəyə gedən karvana qoşurlar. Onlar yaxşı bilirlər ki, hökmdar bu heyifi alimdən çıxacaq.

Karvandakı hər dəvənin boynunda bir zınqırov vardı. Alim karvan başçısına bildirir ki, əgər təklifini yerinə yetirsə, onlarla səfərə çıxmağa hazırdır.

Alimin bu hərəkəti barədə siz nə düşünürsünüz?

Karvan başçısı təklifini soruşur. Alim xahiş edir ki, dəvələrin boynundakı zınqırovların yerini dəyişməyə icazə versin.

Karvan başçısı alimin təklifinə can-başla razı olduğunu bildirir, ancaq səbəbini öyrənmək istəyir.

— Mən zınqırovların səsindən ecazkar musiqi yaradacağam. Bu bizi ölümdən qurtaracaq.

Bəli, alim zınqırovları dəvələrin boynundan elə asır ki, dəvə hər addım atanda sanki mizrab bir neçə telə dəyir. Zınqırovlar səsləndikcə onlardan yaranan musiqi dalğa-dalğa ətrafa yayılır. Hamı alimin bu məharətinə heyran qalır.

Gecə öz yuvalarına çəkilən quşlar musiqinin səsindən vəcdə gəlib karvanın üstü ilə uçurlar. Musiqinin səsindən, onun dalğasından ağacların yarpaqları rəqs edir, axşamdan bükülən güllər yenidən ləçəklənib ətir saçır.

Sizə kimdən xəbər verim, hökmdardan. Saraya çatan kimi alimin onun hüzuruna gətirilməsini tələb edir. Alimi nə qədər axtarırlarsa da, tapa bilmirlər.

Hökmdar bir bölük atlını karvanın dalınca göndərir. Atlılar karvana yetişəndə gözəl musiqi səsi eşidirlər və bihuş olurlar. Dəvələrin yerişi ilə zınqırovlardan çıxan musiqi sədaları alimi aparmağa gələn atlıları karvana yaxınlaşmağa qoymur, əsir aparmağa gələnlərin özləri alimin yaratdığına əsir düşürlər. Birdən atlılar elə bil yuxudan oyanıb görürlər ki, artıq başqa ölkənin ərazisindədirlər. Alimin geri qaytarılmasının artıq müşkül bir iş olduğunu görən dəstə əliboş geri qayıdır.

Alimin gücü nədə idi ki, hökmdara üstün gəldi?

**2.** Nəqletmənin təşkilinə xidmət edən aşağıdakı cədvəli yazılı şəkildə yerinə yetirin:

*Cədvəl 23*

| **Əsər:**<br>**Müəllif:** | |
|---|---|
| **Əsərin ardıcıllığı** | **Nəqlin təşkili** |
| **Giriş:**<br>— Əsas obraz kimdir?<br>— Hadisələr harda və nə zaman baş verir?<br>— Əsər hansı hadisə ilə başlanır? | |
| **Əsas hissə:**<br>— Əsas hissədə nə baş verir?<br>— Problem nədən ibarətdir?<br>— Problemin həllinə nail olmaq üçün əsas obraz nə edir? | |
| **Nəticə:**<br>— Problem necə həll olundu?<br>— Əsər necə başa çatdı? | |

**3.** Əldə etdiyiniz nəticələri yoldaşlarınızla müzakirə edin, onların faydalı fikirlərindən bəhrələnməklə işinizin keyfiyyətini yüksəldin. Müzakirələr zamanı öyrəndiyiniz yeni sözlərdən istifadə edin.

## "İSGƏNDƏR QUŞ DİLİ ÖYRƏNİR"
**(BİZ NƏ ÖYRƏNDİK?)**

## İSGƏNDƏR QUŞ DİLİ ÖYRƏNİR
*(Azərbaycan xalq nağılı)*

Bir gün İsgəndər səhər tezdən reyhan bağına çıxmışdı. Bu bağın tən ortasında böyük bir hovuz vardı. İsgəndər dünyada olan bütün balıqlardan tutub buraya salmışdı. O hər səhər tezdən gəlib bu balıqlara tamaşa edərdi. Yenə də qaydası üzrə İsgəndər həmin hovuzun kənarında oturmuşdu. Çay içə-içə balıqlara tamaşa edirdi. Gördü ki, birdən Günəşin üzü qara buludlarla örtüldü. İsgəndər qorxu içərisində başını yuxarı qaldırıb bunların qara qarğa olduğunu gördü. Qarğalar öz dillərində danışmağa başladılar, sonra çıxıb getdilər.

Beş gün, on gün, hər gün səhər tezdən qarğalar gəlirdilər, İsgəndərin oturduğu yerdə çığır-bağır salıb gedirdilər. Bir neçə gün İsgəndər bu sirri gizli saxladı. Axırda təngə gəldi, vəzirini çağırıb dedi:

— Vəzir, neçə gündü ki, hər səhər tezdən qarğalar bulud kimi Günəşin üzünü tuturlar. Çığır-bağır salıb gedirlər. Mənə elə bir adam tapmalısan ki, bu quşların dilini bilsin. Get, sənə qırx gün vaxt verirəm.

Vəzir: “Baş üstə!” — deyib, öz otağına çəkildi. Gecə-gündüz bu xüsusda düşünməyə başladı. Axırda bir gün öz-özünə dedi: “Ölmək ölməkdi, xırıldamaq nə deməkdi? Padşah əmr edir, çıx şəhərləri gəz, ya elə bir adam taparsan, ya da elə dərələrdə ölüb gedərsən”.

Vəzir hazırlaşdı, arvad-uşağı ilə halallaşıb yola düşdü. Çox getdi, az dayandı, az getdi, çox dayandı, neçə-neçə şəhərlər gəzdi, heç bir şey tapmadı. Amma geri qayıtmaq da istəmirdi.

Axşam vaxtı idi, özünü verib bir tacirin dükanının qabağında dayandı. Tacir dükanı bağladı, evə gedəndə vəzir ona dedi:

— Allah qonağıyam, məni qonaq saxlarsanmı?

Tacir dedi:

— Allaha da qurban olum, qonağına da, buyur, gedək.

Tacir vəziri evinə apardı. Yeyib-içdilər.

Onlar söhbət etməkdə olsunlar, sənə deyim tacirin qızından.

Bu tacirin ağıllı və keçmişdən, gələcəkdən xəbər verən bir qızı vardı. Tacir bu qızını iki gözündən artıq istəyirdi. Onun üçün xüsusi ev ayırmışdı, qulluğunda neçə-neçə qaravaşlar dayanmışdı. Tacirin evinə hər nə cür qonaq gəlsəydi, gərək bu qız da ismət pərdəsinin dalında oturub danışığına qulaq asaydı.

Vəzir də özünü “dərviş”əm deyə tanıtdırmışdı. Qız vəziri görən kimi tanıdı, bildi ki, İsgəndər bunu diri-diri ölümə göndərib. Vəzirə yazığı gəldi, atasını çağırıb dedi:

— Ata, bu qonaq dərviş deyil. Bu, böyük İsgəndərin ağıllı vəziridi. İsgəndər onu quş dili bilən adam üçün göndərib. İzin ver, mən onunla danışacağam.

Tacir razı oldu, qız pərdənin dalından dedi:

— Ey qonaq, sənin kim olduğun mənə lazım deyil, ancaq nə üçün gəzdiyini bilirəm. Əgər mənim adımı İsgəndərə versən, səni külə döndərib, külünü isə dəryaya səpəcəyəm. Əgər bu sirri gizlin saxlasan, sənin axtardığın adamı tapıb sənə verəcəyəm.

Vəzir sevindi, and içdi, üzünü torpağa sürtdü.

Qız dedi:

— İndi sənə inandım. Ey İsgəndərin ağıllı vəziri, buradan gün çıxana tərəf gedərsən, düz üç gün, üç gecəlik yoldur. Orada qabağına bir koma çıxacaq. O komada bir qoca kişi olur. O bütün heyvanların dilini bilir, sənə etsə-etsə, o kömək edər.

Vəzir çox sevindi, gecəni yatdı, səhər tezdən tacir ilə xudahafizləşib yola düşdü. Az getdi, üz getdi, dərə-təpə düz getdi, sonra gəlib həmin komaya çatdı, gördü ki, komanın qapısı açıqdır. İçəri girdi, gözünə evin yuxarı başında bir ağsaqqal qoca dəydi. Vəzir sevinib dedi:

— Mənimkini Allah yetirdi.

Qocaya salam verdi; qoca kişi vəzirin salamını aldı, ona yer göstərdi. Hər ikisi şirin söhbət elədi, sonra qoca kişi vəzirə dedi:

— Bilirəm, İsgəndər səni nə üçün göndərib.

Vəzir qocadakı ağıla heyran olub dedi:

— Ey dünyagörmüş qoca, dünyanı qarış-qarış gəzən İsgəndərin yanına getməyə hazırlaş.

Qoca dedi:

— Mən hazıram.

Qoca hazırlaşdı, vəzir istədi ki, qocanı ata mindirə, qoca dedi:

— Vəzir, get, qorxma, sən oraya çatan gününün sabahı özümü oraya yetirərəm.

Qoca kişi vəziri yola saldı, yenə oturub öz işi ilə məşğul oldu.

Vəzir üçüncü gün vətəninə çatdı. Qoca da simurq quşunun qanadları arasına minib özünü vəzirə yetirdi.

Vəzir qocanı görən kimi sevindi, hər ikisi İsgəndərin hüzuruna gəldilər.

İsgəndər taxtında oturmuşdu. Gördü ki, vəzir bir nəfər qoca ilə gəlir. İsgəndər gülərüzlə vəzirə dedi:

— Vəzir, necə gəldin?

Vəzir dedi:

— Yaxşı gəlmişəm, qibleyi-aləm.

İsgəndər üzünü qocaya tutub dedi:

— Qoca, mən istəyirəm, yer üzündə bütün heyvanatın dilini öyrənəm. Sən məni öyrətməyi bacararsanmı?

Qoca dedi:

— İsgəndər, bunu öyrətməyə gəlmişəm. Amma bu sirr bütün dünyaya yayılacaq, deyəcəklər ki, böyük İsgəndər bir abidin qanına səbəb oldu.

İsgəndər dedi:

— Məgər hər elm öyrədən elmi qurtarandan sonra ölərmi?

Qoca dedi:

— Bu elm o biri elmlərdən deyil. Heyvanat dilini bir adam başqa bir adama öyrətsə, dərsi təslim edən kimi canını da təslim edəcək. İndi mənə bir otaq ayır ki, orada bir mən olum, bir də sən.

İsgəndər əmr verdi, xüsusi bir otaq ayırdılar, qoca İsgəndərə dərs verməyə başladı. Otuz doqquz gün tamam oldu, qırxıncı günün səhəri qoca İsgəndəri evdən bayıra çıxartdı, götürüb gəldi həmin hovuzun yanına. Çox keçmədi ki, göy üzünü qara bulud aldı. İsgəndər başını yuxarı qaldırıb gördü ki, həmin qarğalar yenə də gəldilər, danışmağa başladılar. Bir az danışdıqdan sonra dağılışıb getdilər.

Qoca xəbər aldı:

— İsgəndər, o qarğalar nə danışırdılar?

İsgəndər dedi:

— Qarğalar şikayət edirdilər.

Qoca soruşdu:

— Kimdən?

İsgəndər dedi:

— Bu qarğalar öz ağsaqqalları ilə şikayətə gəlmişdilər. Deyirdilər ki, Xalxal vilayətindənik, neçə müddətdir ki, orada yuva salıb yaşayırıq. Orada Bəlq adında bir pəhləvan vardır. Onun zülmü həddindən aşıbdı, əhalinin naləsi göylərə qalxır. Bütün heyvanlar Bəlq pəhləvandan narazıdırlar.

Sözünü qurtarmamışdı ki, qoca canını təslim elədi. İsgəndər qocanı böyük calal ilə aparıb basdırdı, qırx verdirdi.

Bir gün vəziri çağırtdırıb dedi:

— Vəzir, mən Xalxal vilayətinə gedirəm, əmr ver, qoşun hazır olsun, yol tədarükü görsünlər.

Vəzir:

— Baş üstə! — dedi.

Onu deyək ki, həmişə İsgəndərin yol tədarükü, qoşun hazırlığı bir aya görülərdi. Bir ay tamam oldu, hazırlıq görüldü, bunu İsgəndərə xəbər verdilər. İsgəndər atını minib qoşunun qabağına düşdü.

Nağıllarda vaxt tez başa gəldiyi kimi, mənzil də tez başa gəlir. Belə deyirlər ki, İsgəndər şəhərin altı ağaclığında olan bir dəyirmana gəlib çıxdı. Qoca dəyirmançı şeypur səsini, at tappıltısını eşidən kimi dəyirmanın unluğuna girdi. İsgəndər adam göndərdi ki, gedib görsünlər, dəyirmanda kim var. Axtarıb qocanı dəyirmanın unluğundan çıxartdılar, onu İsgəndərin yanına gətirdilər. İsgəndər qocadan xəbər aldı:

— Bəlq necə adamdı?

Qoca dedi:

— Yaxşı adamdı.

İsgəndər soruşdu:

— Qoca, dünya-aləm ondan şikayət eliyir, sən deyirsən ki, Bəlq yaxşı adamdı?

Nə qədər İsgəndər qocanı sıxışdırdı, qoca yenə də dedi: "Yaxşı adamdı".

İsgəndər dedi:

— Qoca, mənə ölkələri gəzən, bütün dünyadan xərac alan İsgəndər deyərlər!..

Qoca bayaqdan qorxurdu, elə ki İsgəndər adını eşitdi, onun ayağına yıxılıb dedi:

— Mən səni Bəlq pəhləvan bilib qorxurdum. İndi bil, agah ol, Bəlq o qalada olur, özü də üç padşahdan xərac alır.

İsgəndər kağız yazıb elçi göndərdi. Elçi gəlib elçi daşının üstündə oturdu. Bəlqə xəbər çatdı ki, elçi gəlibdi. Bəlq əmr verdi ki, gələn elçini onun yanına buraxsınlar. Elçi Bəlqin yanına gəlib baş əydi, İsgəndərin məktubunu ona verib dedi:

— Böyük İsgəndər sizdən yeddi ilin xəracını istəyir, əgər verməsəniz, dava eliyəcək.

Bəlq İsgəndər adını eşitmişdi, amma üzünü, qüvvətini görməmişdi. Ona görə də elçiyə belə cavab verdi:

— Get, İsgəndərə de ki, mən xərac verən yox, alanam, necə gəlib, elə də çıxıb getsin.

Elçi geri döndü, İsgəndərin acığı tutmasın deyə qorxa-qorxa Bəlqin dediyini ona nağıl elədi. İsgəndər qəzəbləndi, qoşuna əmr verdi ki, hücuma keçsinlər.

Bəlq şəhərin qapılarını bağlatdırmışdı. Gördü ki, bunun qabağına qoşun göndərməsə, İsgəndər deyəcək ki, Bəlq qorxdu. Qo-

şun qara qarışqa kimi şəhərdən kənara üz qoydu. Hər iki tərəf üç gün vuruşdu, bir-birinə bata bilmədi.

İsgəndər vəziri çağırıb dedi:

— Vəzir, necə bilirsən, mən bu davada qoşun qırdırmaq istəmirəm, şəhəri qansız almaq istəyirəm.

Vəzir dedi:

— Məsləhət sizindi, şahım!

— Vəzir, get mənə min ədəd erkək keçi, səkkiz qatır yükü parça al gətir.

Vəzir getdi, axşama bir xeyli qalmış min keçi, səkkiz qatır yükü parça alıb gətirdi. İsgəndər qoşuna əmr verdi ki, ertədən hərə bir keçi götürüb parçadan onun buynuzuna bağlasın. Qoşun həmin saat şahın əmrini yerinə yetirdi. Elə ki hava qaraldı, İsgəndər əmr verdi ki, qoşun min keçinin buynuzlarına bağlanmış parçalara od vursun, keçiləri dörd bir tərəfdən düşmənə tərəf qovsun.

Tapşırıq həmin saat yerinə yetirildi. Çox çəkmədi ki, çölü alov bürüdü, keçilər hürküb şəhərə tərəf qaçmağa üz qoydular. Bəlqin qoşunu gecənin qaranlığında alovu görüb, elə bildi ki, İsgəndərin qoşunudu, öz səngərlərini qoyub qaçdılar.

Qoşun qaçdıqca keçilər irəliləyirdi. İsgəndərin qoşunu da davasız şəhərə girdi. Bəlq bu dəsgahı görürdü. Qorxusundan qaçıb gizləndi ki, İsgəndər onu görüb öldürməsin.

İsgəndər Bəlqin bütün adamlarını qılıncdan keçirtdi, səhər tezdən taxta çıxıb, işləri öz yoluna salmağa başladı. Camaat rahat oldu. Bir neçə gün burada qaldı, öz sərkərdələrindən birini şəhər başçısı qoyub, ona xeyli qoşun verdi. Atlarını minib şəhərdən çıxanda İsgəndər öz vəzirinə dedi:

— Dünyada hər dili bilmək min padşahlığa dəyər.

## NƏQLİ ESSENİN YAZISINA HAZIRLIQ: MƏTNİN ELEMENTLƏRİNİN YARADILMASI



Məktəbli dost! Siz nəqli essenin yazısına verilən tələbləri bilirsiniz və ötən dərs ilində sizdən cəsarətli olmağı tələb edən bir hadisə ilə bağlı esselər də yazmısınız. Belə mətnlərin, əsasən, beş elementdən ibarət olduğunu da artıq bilirsiniz. Nəqli esse yazan zaman bu elementlərin nəzərə alınması zəruridir. Bu dərsdə bütün xüsusiyyətlərini nəzərə almaqla nəqli esse yazacaqsınız.

***Tapşırıq.***

**1.** Siz həyatda ailə üzvlərinizin, yoldaşlarınızın, qonşularınızın münasibətində ədalətsizliyin şahidi olmusunuzmu? Ədaləti bərpa etmək üçün nə etmisiniz? Bu hadisə barədə bir esse yazın.

**2.** Yazıya başlamazdan əvvəl hazırlıq işləri aparın:

Qeydlər aparmaq üçün zəruri məsələləri unutmamısınız ki?

— Hadisələr harada və nə zaman baş verir?

— Hadisələrin əsas iştirakçıları kimlər olacaq?

Bu elementi siz artıq əvvəlki yazıya hazırlıq mərhələsində işləmisiniz. Həmin qeydlərinizi nəzərə alın;

— Essedə nədən bəhs ediləcəyi barədə qeydlər götürün. Nədən bəhs edildiyini aydınlaşdırarkən essenin mövzusunu müəyyən etmiş olacaqsınız;

— Oxucunun diqqəti hansı problemə və onun həllinə yönəldiləcək? Bu problem nəyə görə sizin üçün əhəmiyyətlidir?

— Essenin süjet xəttini necə təsəvvür edirsiniz? Bu elementi də siz yazıya hazırlıq mərhələsində artıq işləmisiniz. Tərtib etdiyiniz həmin nümunəyə bir daha nəzər salın. Hər hansı dəyişiklik, yaxud təkmilləşmə işlərinə ehtiyac duyularsa, yerinə yetirin. Bundan sonra həmin qeydləri elementlərdən biri kimi daxil edin.

| ESSENİN BAŞLANĞICI |
| --- |
| Hadisənin baş verdiyi zaman və məkan |
| |
| Əsərdə iştirak edən obrazlar |
| |
| **ƏSAS HİSSƏ** |
| Ziddiyyətin yaranması |
| |
| Ziddiyyətin açılması |
| |
| **ESSENİN SONU** |
| O zaman nə hiss edirdim, indi nə hiss edirəm |
| |

## NƏQLİ ESSENİN TƏŞKİLİ

***Tapşırıq 1.*** Ədalətsizliyə qarşı mübarizəni əks etdirən hadisə ilə bağlı qeydlər aparmısınız. Həmin qeydlər əsasında hadisəni yazılı nəql edin. Bunun üçün əvvəlcə esseni planlaşdırın:

— Yazıya hazırlaşarkən apardığınız qeydlərdən çıxış edərək essenin xəritəsini tərtib edin;
— Yazının planını tutun;
— Həmin hadisəyə maraqlı və cəlbedici giriş verin;
— Qaralamada ilkin variantınızı yazın;
— Açar sözlərdən, indiyə qədər öyrəndiyiniz yeni sözlərdən yeri gəldikcə istifadə edin;
— Yeri gəldikcə dialoqlara yer verin;
— Düşündürücü bir nəticə ilə esseni başa vurun.

***Tapşırıq 2.*** Yazdığınız esseni yoldaşlarınızla müzakirə edin. Onların fikirlərini nəzərə almaqla essedə təkmilləşdirmə işləri aparın.

## *BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR-NƏQLETMƏ*



Siz artıq bir çox təsviri və nəqletmə xarakterli bədii nümunələri oxumuş, onları səciyyəvi cəhətləri, quruluşu, dil xüsusiyyətləri baxımından araşdırmısınız. Təsviri xarakterli əsərlərin ideyasını müəyyən etmiş, fikrin obrazlı ifadəsi üçün istifadə edilən müxtəlif növ təsvir və ifadə vasitələrinin əhəmiyyətini aydınlaşdırmış, bu növ bədii nümunələrin quruluşunu öyrənmisiniz. Siz həmçinin nəqletmə xarakterli bədii əsərləri də oxuyarkən proqnozlaşma aparmağın yollarını bilirsiniz. Obrazların başlıca xüsusiyyətlərini müqayisələr aparmaqla təhlil etmiş, habelə ayrı-ayrı obrazları qarşılaşdırmaqla müxtəlif parametrlər üzrə onların oxşar və fərqli cəhətlərini müəyyən etmisiniz.

Elə düşünmək doğru olmazdı ki, bədii nümunələr yalnız nəqletmə, yaxud təsviri xarakterli olmalıdır. Hər iki növ mətnlərin xüsusiyyətlərini özündə daşıyan bədii nümunələr saysız-hesabsızdır. Bu fəsildə siz belə bədii nümunələrlə tanış olacaq, təsviri və nəqletmə xarakterli mətnlərin xüsusiyyətlərinin həmin əsərlərdə öz əksini necə tapdığını öyrənəcəksiniz.

### ƏLİ SƏMƏDLİ. “QANLI BƏNÖVŞƏ”
**(BƏDİİ ƏSƏRLƏRDƏ TƏSVİR VƏ NƏQLETMƏ)**

***Tapşırıq 1.***

1. Əsərin oxusuna başlamazdan əvvəl oxuya hazırlıq işləri aparın. Düşündürücü suallara cavab verməklə əsəri oxuyun.

2. **Düşünün:** Bu bədii nümunə təsviredici, ya nəqletmə xarakterlidir?

## QANLI BƏNÖVŞƏ

Deyə bilərsinizmi, bu hekayədə söhbət nədən gedir?

Zərif bugecəki kimi qorxunc yuxu görməmişdi. Həmişə üzünə gülümsəyən, onu xoş sözlərlə dindirən Siranuş xala yuxuda əcinnə sifətində onu boğurdu. Suren dayının əlində tutduğu iti qılıncdan damla-damla qan süzülürdü. Bu qan onun üst-başına və ən çox da gözlərinə çilənmişdi. Əlində qan süzülən qılınc olan Suren dayının gözləri qan süzülən qılıncdan çox-çox qorxunc görünürdü. Onların qızları olan Süsən və Rozanın əlləri, ətəkləri daşla dolu idi. Hamısını da Siranuş xalanın əlində boğulan Zərifin başına yağdırmağa hazır idilər. Bütün bu dəhşətlərin hamısına dözmək olardı, təkcə Zərifin səsi çıxıb, “Ana!” — deyə çağıra bilsəydi. Yaxşı ki, qızcığaz yuxudan tez ayıldı. Yoxsa ürəyi partlayacaqdı. Gözünü açanda özünü qan-tər içində gördü. Bu əzab və işgəncənin yuxu olduğuna sevindi, heç kimi səsləmədi. Bilirdi ki, səhərlər ata-anası onu yuxuda qoyub işə gedirlər. Yatağından qalxmaq istədi, ancaq qalxa bilmədi. Elə bil üstünə daş qalamışdılar. Acı-ağrıdan əl-qolunu tərpədə bilmirdi. Handanhana özünü ələ alıb yatağından qalxdı.

Qara rəngdə verilmiş sözlərin mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Günəş çoxdan çıxmışdı. Havada yazın nəfəsi duyulurdu. **Eşikdə** sərçələrin civiltisindən qulaq tutulurdu. Eşiyə çıxdı ki, əl-üzünü yuyub, toyuqlarına dən səpsin. Əlini eyvanın qırağındakı **lüləkli parça** aparanda gördü ki, bomboşdur. Axı anası səhərlər onu doldurub qoyur ki, qızı əl-üzünü yusun. Gördü ki, yer yaşdır, kimsə onun suyunu yerə boşaldıb. Parçı doldurmaq üçün həyətə düşəndə gördü ki, atasının dünən əkdiyi qızılgül kollarını kimsə sındırıb, əzib. Əl-üzünü yuyub, anbardan bir **sini** dən götürüb toyuqları **düdülədi**. Toyuqlar gəldi. Ancaq Ları xoruzla Papaqlı fərə gözünə dəymədi. Axtardı, axtardı, tapa bilmədi.

Sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Çay-çörəyini yeyib küçəyə çıxdı. Süsəngilin **doqqazına** yanaşdı. Süsənlə Roza, iki bacı həyətdə oynayırdılar.

— Süsən, ay Süsən! Süsən, ay Süsən!

Zərifin beş addımlığında olan nə Süsən, nə də Roza ona hay verdilər. Zərif həyətə keçdi, onlara yanaşdı.

— Bizim Ları xoruzla Papaqlı fərə sizin həyətə gəlməyib?

Qızların heç birindən səs çıxmadı. Üzlərini yana çevirib ağızlarını büzdülər. Zərif gözlərinə inanmadı. Gördüyü dəhşətli yuxunu xatırladı. Ona elə gəldi ki, bu saat qızların anası çıxıb öz əcinnə barmaqları ilə onu boğacaq, ondan tamamilə üz döndərən Süsən və Roza başına daş yağdıracaqlar. Qız qorxub geri döndü. Bağ-bağçanı gəzib Ları xoruzu və Papaqlı fərəni axtardı, axtardı, tapa bilmədi. Son zamanlar toyuqların itməsi birinci dəfə deyildi...



Zərif nə toyuqların itməsinə, nə parçın suyunun kimsə tərəfindən dağıdılmasına, nə gül kollarının sındırılmasına, nə onunla həmişə bir yerdə oynayan qonşu qızların onun çağırışına səs verməmələrinə, nə də gördüyü o qorxunc yuxulara inana bilirdi.

Gün batdı, ata-anası işdən qayıtdı. Qız toyuqların itməsini atasına, gördüyü qorxunc yuxusunu isə anasına söylədi. Ona elə gəldi ki, toyuqların itməsinə atası ondan çox məyus oldu. Ona elə gəldi ki, söylədiyi bu qorxunc yuxudan anası ondan da çox qorxdu. Ancaq nədənsə, heç biri dinib-danışmadı.

Balaca Zərif buna çox təəccüb edirdi.

Son günlər nə Siranuş xala onlara gəlirdi, nə də anası onlara gedirdi. Hətta bir dəfə gözü ilə gördü ki, Surenlə üz-üzə gələn atası salamlaşmadı, ondan yan ötüb keçdi.

Qız yenə səhəri gün öz adəti üzrə yuxudan durdu, əl-üzünü yudu, toyuqları səsləyib dən səpdi. Sonra darıxıb küçəyə çıxdı. Bir də gördü ki, Süsəngilin həyətindədir. Aralarında heç nə olmayıbmış kimi üzünü ona tutaraq:

— Süsən, gedək dərəyə bənövşə yığmağa, — dedi.

— Süsən, ay Süsən.

Süsəndən səs çıxmadı. O, Zərifə dilini çıxardaraq qaçıb bacısı Rozanın yanına getdi. Zərif kor-peşman onların həyətindən çıxdı. Yazıq qız bilmirdi, kimlə oynasın, hara getsin. Üzüaşağı yollandı, gəlib dərəyə yetişdi. Kol dibində yenicə açılıb-boylanan bənövşələri görüb sevindi. Bənövşələr boynunu bükərək elə bil bu kiçik qızın yolunu gözləyirdi.

Zərif əlini uzadıb kol dibindən bir bənövşə üzdü. O ovcundan bu ovcuna qoyaraq bu zərif çiçəyə doyunca tamaşa elədi. Sonra da dəstə bağlamaq üçün onları dərməyə başladı. Nə az, nə çox, iki dəstə bağladı.

— Biri atamın, biri də anamın, — dedi.

Zərif geri dönəndə elə bil Süsənlə Roza pusquda dayanmışdılar. Doqqazlarında kəsdilər qızın qabağını. Bənövşə dəstələrinin ikisini də onun əlindən alıb, özünü də döydülər.

Bu parçada hansı təsvir vasitələri verilmişdir?

Zərif ağlaya-ağlaya evə döndü. Həmin gündən Zərifin qara günləri başladı. Qorxusundan gülünün alınması, döyülməsini ata-anasına demədi. O bilirdi ki, bu kənddə ermənilər onlardan çoxdur. O bilirdi ki, qohum-əqrəbaları bu doğma kəndi çoxdan tərk etmişdilər. O bilirdi ki, bu hədə-qorxulara dözməyib bir gün onlar da bu doğma od-ocaqlarını tərk etməli olacaqlar.

Sizcə, Zərif niyə belə düşünürdü?

Zərif indi nə gecə ifritə sifətində onu boğan Siranuş xaladan, nə qılıncından qan daman Suren dayıdan inciyirdi. Heç Rozadan da bir o qədər incimirdi. Ona dərd olan Süsənin dönüklüyü idi. Axı Süsən hər yaz gələndə özü onu səsləyib dərəyə bənövşə yığmağa gedərdi. Axı Süsən dərdiyi bənövşələrdən bağladığı dəstənin birincisini Zərifə verərdi. Axı onlar ikisi də bu payız birlikdə məktəbə gedəcəkdilər. Axı anası Zərifə tikdiyi güllü ipək dondan birini də Süsənə tikmişdi. Axı onlar təzə tövlə tikəndə iməcilikdə ən çox can yandıran Suren dayı olmuşdu. Zərif bu sualların burulğanında boğulub qalır, bir yana çıxa bilmirdi. Bu dəhşətli sualların burulğanlarında batıb boğulan təkcə Zərif deyildi, həm də onun ata-anası idi. Zərif neçə gün idi, təkliyə dözürdü. Ancaq bu səhər səbri lap tükəndi. Ayaqlarını sürüyə-sürüyə Süsəngilə getdi.

Süsən həyətdə tək oynayırdı. Birayaq-birayaq gedib ona yanaşdı. Özünü toplayıb:

– Ay axçı, mən sənə nə pislik eləmişəm? — dedi.

Süsən üzünü yana çevirdi, Zərif ondan əl çəkmədi. Sualını bir də təkrar etdi. Nəhayət, Süsən dilləndi:

— Sən türksən, — dedi, — siz bizim düşmənimizsiniz. Anam deyir ki, səninlə oynamayım.

Siz bu barədə nə düşünürsünüz?

Zərif baxdı-baxdı, bu qızın sözlərindən heç nə anlamadı. Nə türk sözünü, nə də düşmən sözünü. Yenə kor-peşman evlərinə döndü. Axşam atası işdən gələndə onun boynuna sarılıb soruşdu:

Səs tonunun qalxması, enməsi, fasilə, məntiqi vurğu işarələrindən istifadə etməklə parça üzərində iş aparın.

— Ata, düşmən nədir?

Atası bir qədər duruxdu, bilmədi qızına nə cavab versin.

— Qızım, bu sözü kimdən eşitmisən?

— Süsəndən. O dedi ki, biz düşmənik.

— Qızım, düşmən onlardı, biz dostuq.

— Bəs türk kimdir?

— Türk bizik, qızım.

— Bəs biz azərbaycanlı deyilik?

— Yox, qızım, Azərbaycan bizim torpağımızın adıdır. Bizi türk dünyasından ayırmaq üçün millətimizi, dinimizi, əlifbamızı əlimizdən alıblar. Böyüyəndə bunların hamısını biləcəksən.

Ata bu sözləri dedikcə onu qəhər boğurdu. Gözləri yaşla dolub-boşalırdı. Bu zaman elə kimsə çəpərin üstündən, atasının gözünün qabağında həyətə bir vərəq yazılı kağız atdı. Ata cəld kağızı götürüb oxudu. "Siz türklərə kəndi boşaltmaq üçün üç gün vaxt verilir. Getməsəniz, bəxtinizdən küsün!"

Atanı elə bil ildırım vurdu. Bütün ev-eşik, həyət-baca başına fırlandı.

Həmin məktubdan sonra gecəni gündüzə qatıb yır-yığış elədilər.

Verilən vədə səhəri gün tamam olurdu. Onlar bu axşam qaranlıq düşən kimi dağla, daşla aşağı qaçmalı idilər, hər üçü paltarlarını üst-üstə geyinmişdilər. Ata-ana hərəsi iki çanta, iki bağlama düzəltmişdi. Toyuqlarını hindən, itlərini zəncirdən açıb buraxmaq qalırdı.

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Ata elə bil öz əli ilə əkib-yetişdirdiyi ağaclarla vidalaşırdı. Ana gözüyaşlı halda astadan bayatı deyib **xanimanı** ilə vidalaşırdı. Zərif isə gözə dəymirdi.

Qəfildən onların evlərinin üstündən güllələr açılmağa başladı.

Ata da, ana da özlərini itirdilər. Atəş çoxaldı, güllə yağış kimi yağmağa başladı. Ata-ana dünəndən hazırladıqları çantalarını götürməyə, itlərini zəncirdən, toyuqlarını hindən belə açıb buraxmağa macal tapmadılar. Təlaş içində Zərifi axtardılar. Qız elə bil yoxa çıxmışdı. Atılan atəşlər isə onlara aman vermirdi.

Bağın ayağına doğru qaçmağa başladılar. Xeyli uzaqlaşandan sonra bir təpənin üstünə çıxıb evlərinə tərəf boylandılar. Gözlərinə inanmadılar. Evləri od-alov içərisində alışıb-yanırdı.

Ata dərindən ah çəkərək:

— Ay namərd Suren, — dedi, — bu sənin işindi. Yəqin, uşağı da öldürəcəklər.

Artıq onların ayaqları yer tutmurdu. Qonşu kəndlərdən də dərə boyu qaçıb aşağıya tökülürdülər. Ata nə qədər təkid edirdisə, ananı beli bükülü halda oturduğu yerdən tərpədə bilmirdi.

— Heç hara gedən deyiləm. Balamla burda öləcəyəm.

Övladını itirmiş ananın hissləri haqqında nə deyə bilərsiniz?

Qorxudan səslərini çıxarıb doyunca ağlaya da bilmirdilər. Kəndin itləri aramsız ulaşırdı.

Gecəni soyuğun, sazağın içində dirigözlü açdılar. Dan yeri söküləndə ata ananı zorla razı salıb uşağın dalınca yollandı. Ayın aydınlığı olduğundan səhər toranlığı aydın görünürdü. Ata bağlarının ayağında dayanıb evlərinin, tövlələrinin son tüstülərinə tamaşa etdi. Cəsarət edib evlərinə yaxın düşə bilmədi. Qızı Zərifin sağ qalmasına bütün ümidi tamam kəsildi. Kəsə cığırla geri dönəndə artıq səhər açılmışdı. Kol dibindən yenicə açılmış bənövşələr boylanırdı. Ata gözüyaşlı qızını xatırladı. Axı Zərif hər yaz gələndə bu zərif bənövşələrdən dəstə bağlayıb ona bağışlayardı.

Ata yol gözləyən anaya nə cavab verəcəyini və onu yerindən qaldırıb bu qaçanlar dəstəsinə necə qoşacağını bilmirdi. Ata bu fikir-xəyal içində qarşısındakı kolun dibində bir qaraltı gördü. Yaxın gəldi. Bu, qız uşağının cəsədi idi. Şaxtadan qaralıb bozarmış bu cəsəd onun ciyərparası olan Zərif idi. Qız al-qanın içindəydi. Köksündə neçə-neçə güllə yarası vardı. Sıxılmış ovcunda isə qanlı bənövşə çiçəkləri!

Ata gözlərinə inanmadı. Cəsədi paltarlarından tanısa da, qaldırıb üzünə baxdı. Dizləri qatlandı, yerə oturdu. Balasının üzünə heyrətlə baxdı. Zərif barmaqlar arasından boylanan qanlı bənövşələri görüb var səsi ilə hayqırmaq, bu vəhşiliyi, bu ədalətsizliyi bütün dünyaya car çəkmək istədi. Ancaq bacarmadı.

Qızını qolları üstündə qaldırıb, şaxtadan donub bozarmış üzündən öpdü. Sonra ananı qoyub gəldiyi səmtə yollandı.

Bu hadisə sizə nə öyrətdi?

***Əli Səmədli***

***Tapşırıq 2.***

Bədii nümunənin təsviredici, ya nəqletmə xarakterli olduğunu sübut edən faktları müəyyən edin və onlarla bağlı şərh verərkən öyrəndiyiniz yeni sözlərdən faydalanın. Fikirlərinizi əsaslandırın.

| **Təsviredici xarakterlidir** | | **Nəqletmə xarakterlidir** | |
|---|---|---|---|
| ***Fakt*** | ***Şərh*** | ***Fakt*** | ***Şərh*** |
| | | | |

***Tapşırıq 3.***

1. "Oxudan sonra" təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17), müzakirə zamanı yoldaşlarınızın faydalı fikirlərindən yararlanın.
2. Bu əsəri "Xan sarayı" əsəri ilə janr xüsusiyyəti baxımından müqayisə edin.

***Müəlliflə tanışlıq***



***Əli Səmədli***

*Xalq yazıçısı Əli Vəliyev Əli Səmədlinin nağıllarına yüksək qiymət verərək yazırdı: "Şifahi xalq ədəbiyyatının ən qədim növü olan nağıllar yazılı ədəbiyyatın, xüsusilə uşaq ədəbiyyatının inkişafı üçün həmişə tükənməz mənbə olmuşdur. Bu bitməz-tükənməz xəzinədən səmərəli bəhrələnən Əli Səmədli uşaqlarımız üçün onlarla maraqlı nağıllar yazmışdır. Bu nağıllar yığcam və təbii süjet üzərində qurulmuşdur. Burada təsvir olunan hadisələr ideyanın, fikrin cövhəridir".*

## CABİR NOVRUZ. "MƏN BİZİM ANALARI GÜNƏŞLƏ TƏN TUTURAM"
## "ANA RƏHMİ" ƏFSANƏSİ
### (TƏSVİRİ VƏ NƏQLETMƏ XARAKTERLİ BƏDİİ NÜMUNƏLƏRİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ)

***Tapşırıq 1.***

Əsərləri oxumazdan əvvəl oxuya hazırlıq işi aparın. Düşünərək oxumaq üçün təqdim edilən yardımçı sualları cavablandırmaqla əsərləri oxuyun.

Bu şeirdə nədən bəhs edilə bilər?

### MƏN BİZİM ANALARI GÜNƏŞLƏ TƏN TUTURAM

Mən bizim anaları Günəşlə tən tuturam,
Onlara gül çələngi məhəbbətdən tuturam,
Əlvan qövsi-qüzehdən min cür rəng istəyirəm
Onlara od verirəm ürəyimin odundan.
Övladların adından, oğulların adından
Əyilməz analara əyilmək istəyirəm.

Burada hansı ifadə vasitəsi var?

Söz qoşmaq istəyirəm ən cavan analara,
Ömrünü bizə verib qocalan analara,
Bizə laylalarıyla xoş həyat verənlərə,
Bizə tale bəxş edib, bizə ad verənlərə,
Toyumuzu görəndə yüz il gəncləşənlərə,
Qadın adlı xilqətə, ana adlı bəşərə
Sevgi dolu mahnılar oxumaq istəyirəm,
Nə qədər ki səsim var, oxumaq istəyirəm.

Bu misralar sizdə hansı hissləri oyatdı?

Oğulları döyüşdən geri dönməyənləri,
Fəqət ürəklərində ümid sönməyənləri,
Bir gecədə saçını ağappaq hörənləri,
Bir gözüylə ağlayıb, birilə gülənləri,
Keçmiş qanlı davadan hər gün söz salanları,
Gəlinsiz olanları, nəvəsiz qalanları
Övlad məhəbbətilə isitmək istəyirəm,
Ürək hərarətilə isitmək istəyirəm.

Siz bu barədə nə düşünürsünüz?

Bu misralar sizdə hansı hissləri oyatdı?

Mən bizim analara həyat səsi deyirəm,
Bir ümman dərinliyi, dağ zirvəsi deyirəm.
Hər əzaba tab edən, hər zəhmətə qatlaşan,
Torpaq ilə döyüşdə tunclaşan, poladlaşan,
Qabarlı əlləriylə bizə şöhrət gətirən,
Şərəfli ad gətirən, sonsuz hörmət gətirən
O əlləri qızıla mən tutmaq istəyirəm,
Onların heykəlini yaratmaq istəyirəm.

Mən bizim anaları Günəşlə tən tuturam,
Onlara gül çələngi məhəbbətdən tuturam,
Əlvan qövsi-qüzehdən min cür rəng istəyirəm
Onlara od verirəm ürəyimin odundan.
Əslimizin adından, nəslimizin adından
Əyilməz analara əyilmək istəyirəm.

Bu şeirdən siz nə öyrəndiniz?

***Cabir Novruz***

Sizcə, əfsanədə nədən bəhs edilə bilər?

## ANA RƏHMİ
*(Əfsanə)*

Natəvan oğlu Mehdiqulu ilə qızı Xanbikənin əlindən tutub seyrə çıxmışdı. Yazın yaxşı vaxtı idi. Yal-yamacın tamaşasından doymaq olmurdu. Qarlı quzeylərin ağlayan, güllü güneylərin gülən günləri idi. Bulaqların, çayların qah-qah çəkən, uğunub gedən anları idi.

Birdən onların qarşısına bir atlı çıxdı. Qucağında da bir əlik. Ovçu tüfəng-tapançalı, yay-oxlu, qılınc-qalxanlı, şahqatarlı idi.

Atdan endi.

Siz necə, Natəvanı tanıyırsınızmı?

Natəvanı yaxşı tanıyırdı. Onun qəzəllərini az əzbərləməmiş, kefinin kök vaxtı dərələrdə, meşələrdə avazla az oxumamışdı.

— Xanım, — dedi, — bugünkü ovum sizin qismətinizdir. Uşaqlar əl-ayağı bağlı əliyə qorxa-qorxa yaxınlaşdılar, əllərini ehtiyatla toxundurdular. İlk təmasdan diksinən əlik tumara tez yatdı, xoşhallandı. Ölüm vahiməsi yaşlı gözlərindən çəkildi. Çapaladı, sanki Natəvandan imdad istədi, onu köməyə çağırdı: "Əl-qolumu aç, — dedi, — mən də anayam, mən də balalarımın yol-

larda qalan gözlərini özlərinə yığmaq, həsrətli gözlərinin sel yaşlarını qurutmaq istəyirəm”.

Natəvan baxıb gördü ki, ana əlikdir, süd verən vaxtıdır. Ovçuya dedi:

— Əliyin əl-ayağın aç, balaları yolunu gözləyir.

Ovçu pərt oldu. Dinmədi. Uşaqlar anasının ətəyinə sarmaşdılar:

— Yox, ana, — dedilər, — qoy evimizə aparaq, biz onu saxlamaq istəyirik.

> Sizcə, övladları Natəvanı razı sala biləcəkmi?

Natəvan çox dedi, uşaqlar az eşitdi. Ayaqlarını yerə döyə-döyə zar-zar zarıdılar, yalvardılar. Ana gördü ki, əmrlə, hökmlə nə əliyi onların əlindən ala biləcək, nə də balalarının ürəyini sındırmağa dilindən var gələcək. Oturdu. Uşaqların hərəsini bir dizinin üstünə alıb onlara maraqlı, təsirli bir əhvalat danışmağa başladı:

— İnişilin söhbətidir. Siz onda lap balaca idiniz. Sizi yatırmışdım. Bax, o dağın dalına aşdım ki, qantəpər çiçəyi yığım, gətirib beşiyinizin başından asım. Qantəpərin ətri uşağın üzünə lalə rəngi gətirir, otaq, ev düz bir həftə müşkənbər qoxuyur... Bir də gördüm, meşədən bir dəstə atlı çıxdı. Atlarını çapdılar. Üstümü aldılar.

> Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr baş verəcək?

Barmaqlarımda qızıl üzüklər, biləyimdə bilərziklər, qulağımda qiymətli sırğalar, boynumda boyunbağı, belimdə gümüş kəmər vardı. Bu quldurlar məni meşəyə aparıb öldürmək istədilər. Sonra da daş-qaşımı soyub aparacaqdılar. Axı kəsik baş dilsiz olar... Məni xeyli sürütlədilər. Qulağıma sizin səsiniz gəldi. Elə bildim, oyanmısınız, məni çağırmısınız, sizə hay verməmişəm. Ağlaya-ağlaya, “ay ana!” deyib məni çağıra-çağıra çöllərə düşmüşsünüz. Dartındım, quldurların əlindən çıxdım. Özümü qayalardan ata-ata qaçdım. Gəlib gördüm siz, doğrudan da, yetim quzu kimi mələyirsiniz, səsiniz dağlara ün salıb. Mənim balalarım, bu əlik də anadır, balaları var, görmürsünüzmü, südlüdür? Siz istərsinizmi, əliyin balaları yetim qala?

Uşaqların hərəsi bir yandan Natəvana sarmaşdılar:

— Yox, ana, — dedilər, — yox, yox!..

Ovçu əliyin əl-ayağını açıb buraxdı. Uşaqlar onun qaçmağına baxa-baxa sevinirdilər.

> Bu əfsanədən siz nə öyrəndiniz?

***Tapşırıq 2.*** "Oxudan sonra" təlimatına riayət edin (cədvəl 3, səh. 17).

**Yaradıcı tətbiqetmə:**

Azərbaycanda bitən bir neçə dərman bitkisi haqqında məlumat toplayın, onları təsvir edin.

***Tapşırıq 3.***

1. İnsanlar hər hansı bir işi görərkən qarşılarına müəyyən məqsədlər qoyurlar. Sizcə, bu əsərlər yazılarkən müəlliflərin məqsədi nədən ibarət olub?

2. Cabir Novruzun "Mən bizim anaları Günəşlə tən tuturam" şeirindən çıxış edərək aşağıda təqdim edilən suallara cavab verin.

— Müəllif əsərin əvvəlində oxucunun diqqətini cəlb edən, marağına səbəb olan hansı məqamlara toxunub?

— Şair nəyi (insan, məkan, əşya və hadisəni) təsvir edib? Onların səciyyəvi cəhətlərini necə təqdim edib?

— Müəllif oxucuda hansı əhvali-ruhiyyəni yarada bilib?

— Şair əsəri həyatla əlaqələndirmək üçün nə edib?

3. **Düşünün:** Bu cavablar təsviredici mətnin səciyyəvi cəhətləri ilə necə əlaqəlidir?

***Tapşırıq 4.*** "Ana rəhmi" əfsanəsindən çıxış edərək aşağıda təqdim edilən suallara cavab verin.

— Əsərdəki obrazların məqsədlərini, düşüncələrini, hisslərini, maraqlarını, dünyagörüşünü, ictimai vəziyyətini müəyyən edin.

— Əsərdə dialoqlara yer verilibmi? Dialoq kimlərin arasında baş verir və nə məqsəd daşıyır?

— Dialoqlarda obrazların söhbəti hansı zamanda baş verir?

— Əsərdə hər hansı təsvirə yer verilibmi? Bu təsvir ümumi xarakter daşıyır, yoxsa obrazın səciyyəvi cəhətlərini incəlikləri ilə əks etdirir?

**Düşünün:** Bu cavablar nəqletmə xarakterli mətnin xüsusiyyətləri ilə necə əlaqəlidir?

***Tapşırıq 5.***

1. Cabir Novruzun "Mən bizim anaları Günəşlə tən tuturam" şeirinin dil xüsusiyyətlərini aşağıda təqdim edilən suallara əsasən araşdırın:

— Əsərdə ananın portreti təsvir edilir, yoxsa onun haqqında nağıl edilir? Fikirlərinizi əsaslandırın.

— Bunun üçün müəllif hansı söz və ya söz birləşmələrindən istifadə etmişdir?

— Əsərdə hansı məqamlar əsas fikrin çatdırılmasına xidmət edir?

— Şeirdə müəllif hisslərin (eşitmə, görmə, qoxu, dad, toxunma) təsvirinə yer veribmi? Cədvəl 11-ə baxın, təqdim edilən göstəricilərdən hansının ananın xarici görkəmində nəzərə alındığını müəyyən edin.

— Şair hansı bədii təsvir (təşbeh, epitet), yaxud ifadə vasitələrindən (mübaliğə, bədii sual) istifadə etmişdir?

— Oxucunu təsvir edilən "məkana aparmaq", "insanla görüşdürmək" üçün hansı feillərdən və isimlərdən istifadə edilmişdir?

2. Bu sual və cavablara əsasən təsviri xarakterli bədii nümunələrin dil xüsusiyyətlərini müəyyən edin.

***Tapşırıq 6.***

1. "Ana rəhmi" əfsanəsi ilə bağlı digər məqamları aşağıda təqdim edilən suallara əsasən araşdırın:

— Əsərdə hadisələr hansı zamanda baş verir və neçənci şəxsin dilindən söylənilir?

— Əsərin bir parçasında hadisələr I şəxsin dilindən danışılır. Həmin parçanı bir daha oxuyun. Obrazın hissləri və düşüncələri sizdə hansı təəssüratları yaradır?

— Müəllif fikirlərini ifadə edərkən hansı cümlə quruluşuna (sadə, mürəkkəb) üstünlük verib?

2. Bu sual və cavablara əsasən nəqletmə xarakterli bədii nümunələrin dil xüsusiyyətlərini müəyyən edin.

***Tapşırıq 7.*** Cabir Novruzun "Mən bizim anaları Günəşlə tən tuturam" şeiri və "Ana rəhmi" əfsanəsi üzrə iki dərsdir ki, verilən suallara cavab hazırlamısınız. Həmin cavabları 24-cü cədvəllə qarşılaşdırın. Uyğun gələn məqamları müəyyənləşdirin. Uyğun gəlməyənlərlə bağlı yoldaşlarınızla müzakirə aparın.

*Cədvəl 24*

| Təsviri mətnlər | Nəqli mətnlər |
|---|---|
| **Məqsədi** | |
| İnsan, məkan, əşya və hadisəyə dair aydın təəssürat yaratmaqla oxucunu əyləndirmək, düşündürmək. | Oxucunu əyləndirmək, öyrətmək, məlumatlandırmaq, hər hansı məsələyə onun münasibətini formalaşdırmaq, dəyişmək. |
| **Səciyyəvi cəhətləri** | |
| — oxucunun diqqətini cəlb edir;<br>— insan, məkan, əşya və hadisənin səciyyəvi cəhətlərini təqdim edir;<br>— müəyyən əhvali-ruhiyyə yaradır;<br>— yazını həyat hadisələri ilə əlaqələndirir. | — obrazlar məqsədləri, düşüncələri, hissləri, maraqları, dünyagörüşü, ictimai vəziyyəti müəyyən edilmiş fərd kimi təqdim edilir;<br>— dialoqlar daxil edilir;<br>— dialoqlarda zaman keçmişdən indiki və ya gələcək zamanlarda dəyişə bilir;<br>— ümumi təsvirlərə yer verilir. |
| **Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələlər** | |
| — İnsan, məkan, əşya, hadisə haqqında danışılmır, onun necə olduğu göstərilir;<br>— Xüsusi söz ehtiyatlarından istifadə edilir;<br>— Ancaq o məqamlardan söz açılır ki, həmin məqam əsas fikrin çatdırılmasına xidmət etsin;<br>— Hisslər (eşitmə, görmə, qoxu, dad, toxunma) təsvir edilir;<br>— Bədii təsvir vasitələrindən istifadə edilir;<br>— Oxucunu təsvir edilən “məkana aparmaq”, “insanla görüşdürmək” üçün təsirli feillərdən və dəqiq seçilmiş isimlərdən istifadə edir. | — Əsasən, keçmiş zamanda III şəxsin dilindən yazılır;<br>— İndiki zamanda I şəxsin dilindən də yazılan nümunələrə rast gəlmək olur. Bununla yazıçı oxucusunu yaratdığı obraza daha da yaxınlaşdırır. Oxucu əsərin qəhrəmanının duyğu və düşüncələrini hiss edir;<br>— Fikrin ifadəsində hansı cümlə quruluşuna üstünlük verilir;<br>— Belə mətnlərdə üstünlük isimlərə, feillərə verilir. |

### *Tapşırıq 8.*

“Qarşılaşdırma-müqayisəetmə” cədvəlindən (cədvəl 6, səh.20) istifadə etməklə nəqletmə və təsviri xarakterli bədii nümunələrdəki obrazları məqsəd və xüsusiyyətləri baxımından müqayisə edin.

### *Müəlliflə tanışlıq*



***Cabir Novruz***

*Cabir Novruzun poeziyası XX əsr Azərbaycan ədəbiyyatının parlaq səhifələrindən birini təşkil edir. Onun əsərlərində şairin yüksək mənəviyyata səsləyən yaradıcılığı, vətəndaş ruhunun hakim olduğu poeziyası öz dilinin bədii gözəlliyi və rəvanlığı ilə səciyyələnir. Onun sözlərinə bəstələnmiş çoxsaylı mahnılar musiqisevərlər tərəfindən həmişə böyük rəğbət və sevinclə qarşılanmışdır. Cabir Novruz yaradıcılığı vətənpərvərlik və mübarizlik ruhunun aşılanmasına mühüm xidmət göstərmişdir. Vətənin taleyi üçün narahatlıq hissinin xas olduğu Cabir Novruz poeziyasının başlıca mövzuları azərbaycançılıq ideyaları ilə sıx bağlı olmuşdur. Şairin əsərləri dünyanın müxtəlif xalqlarının dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Onun bədii tərcümələri sayəsində isə Azərbaycan oxucusu dünya poeziyasının bir sıra qiymətli nümunələri ilə tanış olmaq imkanı qazanmışdır.*

## "KOROĞLU" DASTANINDAN "DÜRATIN İTMƏYİ" QOLU
### (TƏSVİRİ-NƏQLİ BƏDİİ NÜMUNƏLƏRDƏ TƏSVİRİLİK VƏ NƏQLETMƏ XÜSUSİYYƏTLƏRİ)

***Tapşırıq 1.***

1. Oxuya hazırlıq təlimatını yerinə yetirin. Düşünərək oxunu təmin edən yardımçı suallara cavab verməklə əsəri oxuyun.

### DÜRATIN İTMƏYİ
*(Dastan)*

Deyə bilərsiniz- mi, bu dastanda nədən bəhs edilir?

Yenə də yaz ayları gəlmişdi. Çənlibeldə başqa bir aləm var idi. Hər tərəf al-yaşıla bürünmüşdü. Elə idi, elə idi ki, gül gülü, bülbül bülbülü çağırırdı. Necə deyərlər, lalələr bənövşələrə göz vururdu. Sıldırım qayalarda xınalı kəkliklər qaqqıldaşırdı. Bülbüllər Koroğlunun səsinə səs verirdi. Çənlibelin ətəklərində ot adamboyu qalxmışdı. Koroğlunun ipə-sapa yatmayan, qoruq-qaytaq bilməyən ayğırları ilxı ilə göy ota buraxılmışdı. Koroğlu bu yaz Düratı da ilxıya qatdırmışdı.

Dürat ola, çöl ola, xam dəli ayğırlar ola. Olmuşdu dəlisov bir şey. Day bir at ilə yola getmirdi. Çəçikləşirdi, qapışırdı, vuruşurdu. Day, o necə deyərlər, ilxını götürmüşdü başına, eləmişdi **ləlik-giryan**.

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Yenə də günlərin bir günündə Düratın nadincliyi tutdu. Atların birini vurdu, birini qapdı, axırda hamısını qabağına qatdı, Çənlibeldən aşağı töküb qovmağa başladı. İlxının ağzı düşdü çöllü bərrü-biyabana. Gethaget, gethaget, ilxı dağlar aşdı, düzlər keçdi, yamaclar dırmandı, enişlər endi, gəlib Ballıcada Qara xan deyilən bir xan var idi, onun qoruğuna doldu. İndi eşit Qara xandan.

Qara xan əzazil bir xan idi. Çox az adam tapılardı ki, onun əlindən sinədağlı olmasın. Özü də yaman tamahkar idi. Kimdə bir yaxşı şey görsəydi, ya xoşla, ya hiylə ilə, ya da ki bunların heç birisi baş tutmayanda zorla tutub əlindən alardı. Day camaat onun əlindən zinhara gəlmişdi. Hər yerdə özünü elə göstərirdi ki, guya, İran padşahının qohumudur. Odur ki qorxudan heç kəs ona bir söz deyə bilmirdi.



Elə ki Koroğlunun ilxısı gəlib onun qoruğuna doldu, nökərlər gəlib əhvalatı Qara xana xəbər verdilər, Qara xan o saat hökm elədi ki, ilxını haylayıb gətirsinlər.

Qara xanın adamları ilxını aparmaqda olsunlar, sənə kimdən deyim, Koroğludan.

Burada hansı cəhət var ki, nağılda ona rast gəlmək olmaz?

Koroğlu Çənlibeldə idi. Ələmqulu xanın yanından qayıdandan sonra hələ bir səfərəzada getməmişdi. Bir də ilxıçı başılovlu gəldi ki, bəs ilxı itib. Koroğlu əvvəl-əvvəl buna əhəmiyyət vermədi. Elə ki eşitdi ki, bəs Dürat da itib, qəzəbləndi. Elə bir nərə çəkdi ki, bütün Çənlibel titrədi. Dağlar, daşlar səs-səsə verdi. Dəlilər hamısı tökülüb gəldilər.

Aldı Koroğlu nə dedi:

Mübaliğənin rolunu aydınlaşdırın.

Hoydu, dəlilərim, hoydu, oğullar,
Hardasa Düratım, tapılsın gərək!..
Aman çəksin əlimizdən yağılar,
Müxənnət obası çapılsın gərək!..

Durub mərd meydanda göstərrəm hünər,
Qənimlər nərəmdən eyləyər həzər,
At üstə sağ-sola işlədək şeşpər,
Qoşun qayalara səpilsin gərək!..

Qoç igid yalıyar özü öz qanın,
Koroğlu, hər yana işlər fərmanın,
İndi bəy, paşanın, xotkarın, xanın
Dərisinə saman təpilsin gərək!..

Dəli Mehtər tez atlandı. Dəlilərdən, mehtərlərdən də bir neçəsini yanına alıb ilxını axtarmağa getdi. Amma sən de ki, ilxı hayanda idi? İlxı odu Qara xanın qoruğunda, Dəli Mehtər axtarır Çənlibelin kövşənlərini. Hər yeri bir-birinə vurdular. Dağı-daşı əldən-ayaqdan saldılar. Axırda kor-peşman Çənlibelə qayıtdılar.

Koroğlunun dərdi bir idi, oldu min. Dəlilər başladılar ona ürək verib yoşutmağa ki:

— Ay Koroğlu, niyə bu qədər cəza-fəza eləyirsən? İlxıdı, görəsən, ağzı hayana düşüb, çıxıb gedib. İtməyəcək ki? Harada olsa tapılacaq. Qorxudan kim sənin ilxına gözünün ucu ilə baxa bilər?

Dəlilər çox dedilər, Koroğlu az eşitdi. Nə qədər elədilər, yoşumadı ki, yoşumadı. Elə olmuşdu, elə olmuşdu ki, acığından bığlarını gəmirirdi. Nigar gördü yox, Koroğlu soyumaq bilmir. Elə bil ki yanmış kürədir, getdikcə qızır. Axırda dedi:

— Ay Koroğlu, hirslənəndə soyumaq bilmirsən. İndi nə olub axı? İlxıdı, itib, tapılar da...

Koroğlu Nigarın cavabında aldı görək nə dedi:

Nigar, Düratın itməyi
Yandırır məni, yandırır...
Əməyim zaya getməyi
Yandırır məni, yandırır...

Alnımdakı qalın qatlar,
Düşmən görsə, bağrı çatlar,
Candan əziz **bədöy** atlar
Yandırır məni, yandırır...

Qara rəngdə verilmiş sözün mənasını lüğətdən istifadə etməklə aydınlaşdırın.

Sinəmin düyünü, dağı,
Müxənnət, meydan açmağı,
Mən dəliyə sataşmağı
Yandırır məni, yandırır...

Yaradan hoyuma yetə,
Bu müşkül mətləbim bitə,
Dürat da Qıratdan ötə
Yandırır məni, yandırır...

Koroğluyam, deyim düzü:
Saymaram əllini, yüzü,
Hərcayının tənə sözü
Yandırır məni, yandırır...

Sizcə, Koroğlu hansı tədbirləri görəcək?

Söz tamama yetişdi. Nigar dedi:

— Yaxşı da... Axır acıqlanmaqdan, dodaqlarını çeynəməkdən ki bir şey çıxmayacaq. Tədbirin nədi, onu de!

Koroğlu sazı döşünə basıb, bir dəfə dəlilərə baxdı, dedi:

İndi bir mərd dəli gərək,
Tapsın mənim Düratımı.
Bəslənəndə quzu kimi,
Miniləndə kür atımı.

Kişnəyib meydanda gəzən,
Hərdən sağa-sola süzən,
Düşmanın başını üzən
Bir əsrəmiş nər atımı.

Həmişə olan gücündə,
Şeşpər atıla üstündə,
Hünər göstərib dar gündə
Düşürməyən ər atımı.

Koroğluyam, yol güdərəm,
Düşman bağrını didərəm,
Atlannam, özüm gedərəm,
Çəkin mənim Qıratımı!..

Dəlilər hamısı qalxdılar ayağa. Ləpirçilər düşdülər qabağa. Koroğlu özü də başladı geyinməyə. Elə bu dəmdə bir də gördülər ki, budur, keşikçilər bir adam gətirir. Yaxınlaşanda Koroğlu baxdı ki, bu — çiynində kəpənəyi, əlində dəyənəyi cavan bir oğlandır. Özü də şəstli-bəstli, bazburutlu bir şeydir. Soruşdu keşikçilərdən ki:

— Kimdi bu?

Keşikçi dedi:

— Bilmirəm. Nə qədər elədik, demədi. Səni görmək istəyir.

Koroğlu dedi:

— Bala, kimsən? Nə istəyirsən?

Oğlan qabaqca salam verdi. Koroğlu əleyk aldı. Onda oğlan Koroğludan soruşdu:

— Hələ bir qabaqca deynən görüm, sizin ilxınız itib, ya yox?

Koroğlu dedi:

— Hə, itib. Necə?

Oğlan elə bil arxayınladı. Dedi:

— Qoy hələ bir nəfəsimi dərim, yorulmuşam.

Koroğlu dedi:

— Əyləş!

Oğlan əyləşdi. Patavalarını açdı. Çarıqlarını çıxartdı, bir tərəfə qoydu. Sonra corabların çıxartdı. Onları da bir tərəfə qoydu. Ondan sonra başını qaldırıb dedi:

— Koroğlu, mən Ballıcalı Qara xanın mehtəriyəm. Budu, üç gündü ki, sənin ilxını Qara xan tutub. Gəlmişəm sənə xəbər verməyə. Dürat da ilxının içindədi. Mən də elə ondan bildim ki, ilxı sənindi.

Koroğlu elə bunu eşitcək dik yerindən qalxdı. Dedi:

— Dəli Həsən!

Dəli Həsən dedi:

— Bəli, qoç Koroğlu?

Dedi:

— Mən gəlincə bu oğlanın üstündə gözün olsun.

Dəli Həsən dedi:

— Baş üstə!

Ondan Koroğlu üzün dəlilərə tutub dedi:

At belinə, mərd dəlilər,
Ballıcaya səfərim var!
Dava günü qurd dəlilər,
Ballıcaya səfərim var!

Hünər elər qoç oğlu qoç,
Qorxar, keçməz yanından köç,
Alın ələ misri qılınc,
Ballıcaya səfərim var!

Hədyan sözə bəli deməm,
Müxənnət çörəyin yeməm,
Qoy düşman bilsin mən kiməm,
Ballıcaya səfərim var!

Şeşpərim susayıb qana,
Düşmanlarım gəlib cana,
Qan uddurram Qara xana,
Ballıcaya səfərim var!

Koroğluyam, budu sözüm,
Müşkül işə necə dözüm?
Heç qovğadan doymaz gözüm,
Ballıcaya səfərim var!

Deyə bilərsinizmi, bu abzasda hansı təsvir vasitələri əlaqələndirilmişdir?

Koroğlu sözünü tamam eləyib quş kimi sıçradı Qıratın belinə. At bir dəfə kişnəyib iki dal ayağı üstə qalxdı, dəstənin qabağına düşdü. Dəstə Ballıcaya üz qoydu. Yolları, yamacları üz elədilər, dağları, daşları düz elədilər, ildırım kimi süzüb Ballıcaya çatdılar.

Koroğlu dəliləri kənarda qoydu, özü ilxıçı paltarı geyinib, altdan da misri qılınc bağladı, şəhərə girdi. Gəzə-gəzə, dolana-dolana gəlib Qara xanın yanına çıxdı. Qara xan üç gün idi ki, ilxını tutmuşdu. Amma bir dənə ilxıçı ilxını boynuna götürmürdü. Qara xan nə qədər döyürdü, söyürdü, qorxudurdusa, yenə də bir şey çıxmırdı. İlxıçılar, mehtərlər bilmişdilər ki, ilxı Koroğlunundur. Odur ki bir adam yaxın düşmürdü.

Yenə də Qara xan ilxıçıları, mehtərləri yığmışdı başına. Bir də baxdı ki, budur bir adam gəlir, bir adam gəlir, elə bil ki Rüstəm-Zaldır. Amma pal-paltarından ilxıçıya oxşayır. Ürəyində sevindi ki, “bu, çox yaxşı oldu. Elə bunu götürrəm ilxıçı, tapşırram ilxını buna...” Qərəz, o qədər gözlədi ki, Koroğlu gəlib çatdı. Ədəblə əlini döşünə qoyub Qara xana salam verdi. Qara xan əleyk alıb soruşdu:

— Ayə, kimsən? Deyəsən, pal-paltarından ilxıçıya oxşayırsan.

Koroğlu dedi:
— Bəli, ilxıçıyam. Neçə il idi ki, Çənlibeldə Koroğlunun ilxısını otarırdım. Budu, bir ay olar ki, məni çıxardıb qovub.
Qara xan soruşdu:
— Niyə çıxardıb qovdu ki?
Koroğlu dedi:
— Mənə dedi ki, day bəsdi, bu qədər ilxıçı oldun. Gəl indi mənə dəli ol! Mən boyun qoymadım. O da qəzəblənib məni qovdu.
Qara xan dedi:
— Səni Koroğlunun ilxısına göndərsəm, gedərsənmi?
Koroğlu baxdı ki, oğlan doğru deyirmiş. İlxı buradadı. Özünü bilməməzliyə vurub soruşdu:
— Necə yanı Koroğlunun ilxısına?
Qara xan lovğalana-lovğalana dedi:
— Koroğlunun həmin ilxısı bu saat buradadı. Gətirtmişəm.
Koroğlu özünü lap avamlığa vurub soruşdu:
— Necə gətirtmisən?
Xan dedi:
— Gətirtmişəm də... Nə işin var necə gətirtmişəm. Mən gətirdərəm.
Koroğlu qəsdən soruşdu ki:
— Yaxşı, xan, birdən Koroğlu bildi. Onda nə eləyəcəksən?
Xan dedi:
— Bilsin də... Bilmiş mənə nə eləyəcək?
Day burada Koroğlu özünü saxlaya bilmədi. Dedi:

Meydana girəndə pələng pəncəli,
Dağıdar elini gəlsə, Qara xan!
Qıratın üstündə qılınc oynadar,
Lal elər dilini gəlsə, Qara xan!

Mənəm deyib, yekə danışma belə,
Görməmisən zərbi-dəstini hələ,
Qaldırar başına, qırar gürz ilə,
Belini yəqin bil, gəlsə, Qara xan!

Talar dövlətini, aparar malın,
Dağıdar varını, yaşılın-alın,
Yıxar evin, yaman eləyər halın,
Sovdurar gülünü gəlsə, Qara xan!

Çətin qoç Koroğlu qorxa, üşünə,
Yetər yağıların yeddi, beşinə,
Hayqıranda qatar Qırat döşünə,
Bağlayar qolunu gəlsə, Qara xan!

Koroğlunun bu sözünə Qara xanın acığı tutdu, dedi:

— Mən dedim, mənə ilxıçı ol, demədim ki, Koroğlunu mənim üstümə çək gətir. Bir də sən nə çox Koroğlu, Koroğlu deyirsən? Koroğlu bir adsız-sansız gədənin birisi, mən xan. Özüm də İran padşahının qohumu. Koroğlu gəlmiş mənə nə eləyəcək? Qoy lap gəlsin. Onu bir Koroğlu elərəm ki, biri də yanından çıxar.

Koroğlu baxdı ki, yox, Qara xan özündən çox müştəbehdi. Elə bir istədi paltarı atıb, desin, mən Koroğlu, özüm də budur, gəlmişəm. Sonra lənət şeytana eləyib aldı sazı, dedi:

— Yox, xan, sən səhv eləyirsən.

Demə ki, Koroğlu təkdi,
Saysız-sansız dəlisi var.
Dəmirçioğlu, Bəlli Əhməd,
Eyvaz, İsabalısı var.

Namərdlərdən durar iraq,
Mərdlər üçün arxa, dayaq,
Büllur şüşə, eyvan otaq,
Döşəməyə xalısı var.

Dara düşsən, elər kömək,
Dava günü dosta gərək,
Açar süfrə, verər yemək,
Qeyrəti var, namusu var.

Koroğlunun uca boyu,
Hər yerdə tutulur boyu,
Çənlibeldə götür-qoyu,
Ağır oba-ulusu var.

Qara xan bunun belə diri danışmağından şübhələnmişdi. Düzdü, Koroğlu olmağını güman eləmirdi, amma elə ürəyinə üşütmə düşmüşdü. Dedi:

— Sən, deyəsən, şərə-şürə adamsan. Bizimki sənnən tutmaz. Yaxşısı budu ki, çıx burdan get. Səndən ilxıçı olmaz.

Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr olacaq?

Bunu deyib, Qara xan döndü getsin. Koroğlu baxdı ki, Qara xan əkilmək istəyir. Aman verməyib onu yaxaladı. İlxıçı paltarını soyunub kənara atdı. Bir nərə çəkdi. Qara xanın qulaqları batdı. Tez adamlarını köməyə çağırdı. O tərəfdən də dəlilər Koroğlunun nərəsini eşidib, siyirməqılınc töküldülər. Ara qarışdı. Dava başladı. Davanın şirin yerində Koroğlu özünü Qara xana yetirdi. Misri qılınc havada parıldayıb, Qara xanın təpəsində elə gözdən itdi ki, elə bil ildırım yerə soxuldu. Qara xan bayaq ha cəhənnəmə vasil oldu. Qoşun Qara xanı ölmüş görüb davam gətirə bilmədi. Qırılan qırıldı, qalan da qaçdı, dağıldı. Dəlilər qiymətdə ağır, vəzndə yüngül nə vardısa, götürdülər. Düratla bərabər ilxını da qabaqlarına qatıb Çənlibelə yol başladılar. Dağ aşıb, düz keçib gəldilər Çənlibelə çatdılar.

Nigar xanım qabağa çıxdı. Koroğlu atdan düşdü. Qara xanın mehtərini gətirdilər. Koroğlu ona bir at, bir də bir qılınc bağışlayıb dəlilərin içinə qatdı.

Məclis quruldu, keflər duruldu, saqi dolandı, ruh təzələndi. Nigar əlində badə Koroğlunun yanına gəldi. Dedi:

— Ay Koroğlu, bilirəm, sən səfərdən davasız-şavasız qayıtmazsan. De görüm, Ballıca səfərin necə keçdi? Kimlə qabaqlaşdın? Kimlə dalaşdın?

Koroğlu badəni alıb içdi. Üçtelli sazı döşünə basıb dedi:

Siz bu dastandan nə öyrəndiniz?

Ballıcada || açdım meydan,
Müxənnət dilədi || aman,
Qabağımdan || qaçdı düşman
Yana, || deyim, Telli Nigar!

İşarələrə əməl etməklə ifadəli oxuyun.

---

**Qeyd: Mətnin ifadəli oxusuna dair nümunə.**

Ay Koroğlu, || bilirəm, || sən səfərdən **davasız-şavasız** qayıtmazsan. De görüm, || **Ballıca səfərin** necə keçdi? **Kimlə** qabaqlaşdın? **Kimlə** dalaşdın?

Nərəm davada, qızğın nər,
Dünyada göstərdim hünər,
Boyandı əlimdə şeşpər
Qana, deyim, Telli Nigar!

Müxənnətin üzü gülməz,
Namərd dostun qədrin bilməz.
Koroğlu hünəri gəlməz
Sana, deyim, Telli Nigar!

***Bunu bilməlisiniz!***

***Dastan*** şifahi xalq ədəbiyyatının həcmcə ən böyük janrıdır. Dastandakı əhvalat nəsrlə söylənilir və yeri gəldikcə mövzu ilə bağlı şeir parçaları da verilir. Dastanlarda müəyyən bir dövrdə baş vermiş əhvalat həyati həqiqət kimi söylənir. Dastanlarda bəzən faktlar şişirdilir, mübaliğədən çox istifadə olunur. Burada bəzən əfsanəvi və sehrli qüvvələr də iştirak edir. Azərbaycan şifahi xalq ədəbiyyatında onlarca dastan var. Dastanları ideya-mövzu cəhətdən iki qrupa bölmək olar:

— qəhrəmanlıq dastanları;
— məhəbbət dastanları.

Qəhrəmanlıq dastanlarında xalq içərisindən çıxmış igid oğul və qızların azadlıq, haqq, ədalət uğrunda mübarizəsi təsvir olunur.

***Tapşırıq 2.*** "Oxudan sonra" təlimatı üzrə iş aparın (cədvəl 3, səh. 17). Müzakirələr zamanı öyrəndiyiniz yeni sözlərdən nitqinizdə istifadə edin.

***Tapşırıq 3.***

1. Təsviri-nəqletmə xarakterli bədii nümunələrin səciyyəvi cəhətlərini nəzərə alaraq oxuduğunuz dastanı 25-ci cədvəldən istifadə etməklə araşdırın. Aşkar etdiyiniz xüsusiyyətlərlə bağlı qeydlərinizi aparın. Onların faydalı fikirlərindən yararlanmaqla işinizin keyfiyyətini yüksəldin.
2. Nəticələrinizi yoldaşlarınızla müzakirə edin. Fikirlərinizi əsaslandırın.

*Cədvəl 25*

| Təsviri-nəqli mətnlər | |
|---|---|
| **Məqsədi** | |
| Oxucunu<br>— əyləndirmək;<br>— öyrətmək;<br>— məlumatlandırmaq;<br>— hər hansı məsələyə onun münasibətini formalaşdırmaq;<br>— hər hansı məsələyə onun münasibətini dəyişdirməkdir. | |
| Bu zaman haqqında danışılan insan, məkan, əşya və hadisənin səciyyəvi cəhətlərinə dair dolğun təsvirlər oxucuda zəngin təəssüratlar yaradır. | |
| **Səciyyəvi cəhətləri** | |
| — Hadisənin baş verdiyi zaman və məkan göstərilir;<br>— Burada baş verən hadisəyə oxucunun diqqətini cəlb etmək üçün təsvirlərə geniş yer verilir;<br>— İnsan məqsədləri, düşüncələri, hissləri, maraqları, dünyagörüşü formalaşmış bir fərd kimi təqdim edilir;<br>— Onun xarici görkəmi və ictimai vəziyyəti təsvir edilir;<br>— Məkan, əşya və hadisələrin səciyyəvi cəhətləri təqdim edilir;<br>— Oxucuda müəyyən əhvali-ruhiyyə (kədər, sevinc, mübarizə, əzmkarlıq və s.) yaradılır;<br>— Obrazlar dialoqa daxil olur;<br>— Əsərdə bir və ya bir neçə problem yaradılır ki, sonda müəyyən yollarla həmin problemlər öz həllini tapır.<br>Beləliklə, təsviri-nəqli xarakterli mətnlərdə beş elementin olması təmin edilir (hadisənin baş verdiyi zaman və məkan; obrazlar; əsərin mövzusu; ziddiyyət (problem); süjet) | |

| Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələlər | |
|---|---|
| — Əsasən, keçmiş zamanda baş verən hadisələr haqqında danışılır;<br>— Konkret zamanda və məkanda əşya, hadisə və insanı təsvir edərkən təsirli feillər və dəqiq seçilmiş isimlərlə yanaşı, sifət və zərflərdən də geniş istifadə edilir;<br>— Bununla müəllif oxucunu həmin zaman və məkana "aparır", insanlarla "görüşdürür";<br>— Hadisələr həm keçmiş zamanda III şəxsin, həm də indiki zamanda I şəxsin dilindən yazılır. Bununla müəllif öz oxucusunu yaratdığı obraza daha da yaxınlaşdırır;<br>— Dialoq zamanı hadisələr keçmişdən indiyə və ya gələcəyə dəyişə bilir;<br>— Bədii təsvir və ifadə vasitələrindən istifadə edilir;<br>— Hisslərin təsvirinə yer verir. Əsərin qəhrəmanının hiss etdiklərini oxucu da hiss edir. | |

***Tapşırıq 4.*** "Koroğlu" dastanı üzrə araşdırmalarınızı davam etdirin. Əsərin ideyasını müəyyənləşdirin. Seçdiyiniz bədii ifadə və təsvir vasitələrini həmin cədvələ (cədvəl 13, səh. 52) daxil edin. Əsərdəki başlıca obrazları təsvir və təhlil edin. Əsərin hissələrini müəyyənləşdirin.

## İLYAS ƏFƏNDİYEV. "ZƏMİDƏ BİR TURAC SƏSLƏNİRDİ"
**(BİZ NƏ ÖYRƏNDİK?)**

### ZƏMİDƏ BİR TURAC SƏSLƏNİRDİ...

Bizim kəndin yaz axşamları gözəl olur. Kəndimizin yarımkilometrliyindən axan Quruçay şırıldayır, elə bil ki axıb gəldiyi qalın meşələrdən bizə qəribə əfsanələr hekayət edir. Qurbağalar aramla səslənir. Evimizin arxasındakı zəmidə isə bir turac dalbadal oxuyur:

— Tut-du-du, tut-du-du.

Tut-du-du, tut-du-du.

Bizim yaşıl yamaclarda, çay kənarındakı Laləli dərədə turac çox olur. Lakin evimizin yaxınlığında hər səhər, hər axşam oxuyan bir turac təzə peyda olmuşdu.

Biz iki yoldaş idik. İkimizin də atası ovçu idi. Onlar otuz-qırx il idi ki, balta dəyməmiş qorxulu Kirs meşələrində ovçuluq edirdilər. Başlarına gəlmiş işlər barəsində o qədər maraqlı nağıllar danışmışdılar ki, biz də ovçu olmaq xəyalına düşmüşdük. Lakin nə tüfəngimiz var idi, nə də ov itimiz. Bunların əvəzində ala-bəzək iplərdən toxun-

muş sapandımız var idi ki, daş qoyub atanda tapança kimi şaqqıldayırdı. Yoldaşım Həsən kəndimizdə birinci sapand atan idi. Quşu gözündən vurardı. Onun qorxusundan zəmilərimizə bir qarğa qona bilməzdi. O, hətta bunun üçün kolxozdan əməkgünü də alırdı. Bizim kənddə qarğa çox olur. Onlar dəstə ilə uçub zəmi və bostanlara böyük ziyan vurur. Kolxoz sədri əkinləri onlardan qorumağı bizə tapşırmışdı. Həsən də sapandla iki qarğa vurub hərəsini zəminin bir tərəfində ağacdan asmışdı ki, başqa qarğalar görüb yaxın gəlməsin.

Deyəsən, mən əsl mətləbdən uzaq düşdüm. Yuxarıda dediyim kimi, evimizin arxasındakı zəmidə bir turac peyda olub — səhər-axşam oxuyurdu:

— Tut-du-du, tut-du-du.

Bir axşam Həsən bizə gəlib dedi ki, hər nə cür olsa, gərək o turacı sabah tapıb ovlayaq. Mən etiraz edib dedim:

— Axı atamgil indi heç ova getmirlər, deyirlər, quşların bala çıxaran vaxtıdır.

Həsənin bir pis xasiyyəti vardı ki, çox inadcıl idi. Başına bir iş girdimi, gərək hər nə cür olur-olsun, yerinə yetirəydi. Buna görə də sözündən dönmədi:

— Məgər, — dedi, — quşların hamısı birdən bala çıxarır?

Mən istər-istəməz razı oldum.

Səhər balaca heybələrimizi yumru daşlarla doldurduq, zəmidə gizlənib turacın oxumasını gözlədik. O, oxumağa başlayan kimi biz yavaş-yavaş səs gələn tərəfə süründük. Çox axtardıq, bir şey tapa bilmədik. Birdən lap ayağımızın altından pırıltı ilə bir quş uçaraq havaya qalxdı. Həsən hazır saxladığı gödəkqollu sapandını tovlayıb atdı. Turac bir qədər havaya millənib, sonra qurğuşun kimi yerə düşdü.

Biz adam boyu qalxmış sünbülləri aralaya-aralaya quş düşən yerə yüyürdük. Və gördük ki, o, kolun dibində bir ayağı üstündə dayanıb ürkək nəzərləri ilə ətrafına baxır. Bizi görən kimi gücünü toplayıb havaya qalxdı. Biz arxasınca yüyürdük. O, bir qədər uçduqdan sonra balaca böyürtkən koluna qondu. Fikirləşdim ki, yəqin, heyvan yaralı canını bizdən qurtarmaq üçün bu balaca kola pənah gətirdi. Ancaq yaxınlaşdığımız zaman elə mənzərəyə rast gəldik ki, mən onu heç vaxt unutmayacağam. Yumurtadan təzəcə çıxmış kiçik bala anasına baxaraq zəif səslə civildəyir. Və elə bil ki deyirdi: “Ana, bəs mənim üçün gətirdiyin yem hanı?” Yaralı turac isə tək ayağının üstündə dayanıb ürkək nəzərləri ilə gah bizə, gah da balasına baxırdı.

“Yazıq quşcuğaz! Sən sınıq ayağınla bu körpə balaya necə yem tapıb gətirəcəksən? Bəs bu gecə o nə yeyəcək?” — deyə düşünürdüm.

Bu mənzərə yoldaşıma də təsir etmişdi ki, qaşqabağını sallayıb başını buladı.

— Yaxşı iş görmədik, — dedi.

Mən onu məzəmmət etdim:

— Axı sənə dedim ki, indi quşların bala çıxaran vaxtıdır.

— Keçib, — deyə o, üzümə baxmadan kədərlə dilləndi.

Heç nədən xəbəri olmayan körpə bala anasına baxıb hey civildəyirdi.

— Bəs bunlar necə olacaq? — deyə Həsəndən soruşdum.

— Aparaq evə.

Körpə balanı və ananı üsulluca götürüb evə gətirdik. Onlar üçün qəfəsdə yer düzəltdik. Qabaqlarına dən səpdik, su qoyduq. Qoca nənəm sınıqçı idi. O, quşun qıçını sarıdı.

O gecə Quruçay yenə də əvvəlki kimi şırıldayır, qurbağalar səslənirdi. Yaz gecəsi heç bir şey olmamış kimi yenə də öz əfsanəsini söyləyirdi.

Lakin evimizin arxasındakı zəmidən daha turac nəğməsi eşidilmirdi.

***İlyas Əfəndiyev***

*Müəlliflə tanışlıq*



***İlyas Əfəndiyev***

*İlyas Əfəndiyev ədəbiyyata gəldiyi ilk illəri belə xatırlayır: "Qaryagində (Füzuli rayonu) coğrafiya müəllimi işlədiyim vaxtlar yadıma düşür. Uzun qış gecəsi idi, çöldə qar-çovğun vardı. Adətim üzrə mütaliə edirdim. Darıxır, qəribə hisslər keçirirdim. Birdən elə bil ilahidən məndə bir fikir yarandı ki, buradakı həyatımı, ürəyimi əzən, sıxan düşüncələrimi şəhərdəki bir dostuma məktub formasında yazım. Bu güclü hissin qarşısında davam gətirə bilmədim. Özüm də bilmirəm nə iş idi, oturdum, bir də gördüm ki, hekayə yazıram. Növbəti gün də, ondan sonra da belə oldu. Dalbadal 9 hekayə yazdım.*

*Hekayələri mərhum yazıçımız Əbülhəsənə təqdim etdim. Hekayələrin cavabını nə vaxt ala bilərəm? – Ünvanını qoy get, vaxt olanda oxuyub cavab yazarıq. – Yox, – dedim, – xahiş edirəm mən rayona qayıdanacan oxuyasınız ki, cavabını özümə deyəsiniz. Soruşdu: – Rayona nə vaxt qayıdırsan? Dedim: – On gündən sonra. On günəcən bunları oxuya bilmərəm. Özü də əlyazmasında gətirmisən. Mən təkid elədim. On gündən sonra o məni ayrı cür qarşıladı. Gülümsəyib soruşdu: – Sənin hekayələrin hansı qəzet-jurnallarda çıxıb? – Heç birində – dedim. – Bunlar mənim ilk hekayələrimdi. – Doğrudan? Amma mənə elə gəldi ki, sən çoxdan çap olunursan. Hekayələr onun xoşuna gəlmişdi".*

**“KİTABİ-DƏDƏ QORQUD” DASTANINDAN**
**“BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”**
**(TƏSVİRİ-NƏQLİ XARAKTERLİ BƏDİİ NÜMUNƏNİN TƏHLİLİ ÜZRƏ İŞ)**

***Tapşırıq 1.***

1. Oxuya hazırlıq təlimatını yerinə yetirin (cədvəl 1, səh. 14).
2. Əsəri proqnozlaşdırmaqla oxuyun.

| Proqnoz | Əsərdə verilən variant |
|---|---|
| | |
| | |
| | |
| | |

## BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY

Bir gün oğuzların yurdlarına düşmən basqın etdi. Onlar gecəylə qorxub köçdü. Qaçıb gedərkən Aruz qocanın körpə oğlu düşüb yolda qaldı, bir şir tapıb götürdü, bəslədi...

Bir müddətdən sonra oğuz camaatı yenə yurduna qayıtdı. Oğuz xanın ilxıçısı gəlib xəbər gətirdi. Dedi: “Xan, qamışlıqdan bir şir çıxır, sıçrayıb qaçmağı adam kimidir, atı vurub-basır, qanını sümürür”.

Aruz dedi: “Xan, bu, bəlkə, yerimizdən qaçanda düşüb itən körpə oğlumdur?” Bəylər atlandılar. Şirin yatağı üzərinə gəldilər. Şiri qaçırıb oğlanı tutdular. Aruz oğlanı evinə gətirdi. Şadlıq etdilər. Yemək-içmək oldu. Amma oğlanı nə qədər saxlayıb-ovundurdularsa, durmadı, şirin yataq yerinə qaçdı. Yenidən tutub gətirdilər.

Dədə Qorqud haqqında nə bilirsiniz?

Dədəm Qorqud gəldi. Dedi: “Oğlum, sən insansan. Heyvanla həmsöhbət olma. Gəl yaxşı atlar min, yaxşı igidlərlə birgə çap! Böyük qardaşının adı Qıyan Səlcikdir, sənin adın Basat olsun! Adını mən verdim, yaşını Allah versin!”

Oğuz camaatı bir gün yaylağa köçdü. Aruzun bir çobanı vardı. Qonur qoca Sarı çoban deyərdilər adına. Oğuzların önündə bundan əvvəl kimsə köçməzdi. "Uzun bulaq" deyilən məşhur bir bulaq vardı. Birdən qoyunlar ürkdü. Çoban qabaqdakı təkəyə hirsləndi, irəli getdi. Gördü ki, bir ət toplusu yatır, par-par parıldayır. Çoban ət parçasına vurduqca ət topası böyüdü; çoban həmin yığnağı qoydu, qaçdı; qoyunların ardınca düşdü.

Sən demə, o zaman Bayandır xan bəylərlə gəzməyə çıxıbmış. Bu bulağın üstünə gəldilər. Gördülər ki, bir təəccüblü şey yatır, başı-ayağı bilinmir. Çevrəyə aldılar. Bir igid atdan düşüb onu tərpətdi, vurdu. Vurduqca da enib vurdu — silkələdi, birdən bir oğlan uşağı çıxdı — gövdəsi adam gövdəsi, təpəsində bir gözü vardı. Aruz bu uşağı götürüb ətəyinə sarıdı. Dedi: "Xanım, bunu mənə verin, oğlum Basatla böyüdüm!"

Sizcə, sonra nə baş verəcək?

Bayandır xan: "Sənin olsun!" — dedi.

Aruz Təpəgözü götürüb evinə gətirdi. Buyurdu, bir dayə gəldi. Uşaq dayənin canını aldı. Bir neçə dayə gətirdilər, Təpəgöz onları həlak etdi. Gördülər olmur, "südlə bəsləyək", — dedilər. Gündə bir qazan süd çatmırdı. Bəslədilər, böyüdü, gəzməyə başladı. Oğlan uşaqları ilə oynayırdı. Uşaqların birinin burnunu, birinin qulağını yeməyə başladı. Xülasə, camaat bunun əlindən zara gəldi. Aciz qaldılar, Aruza şikayət edib ağlaşdılar. Aruz Təpəgözü döydü-söydü, belə hərəkətləri qadağan etdi; Təpəgöz sözünə baxmadı. Axır ki Aruz onu evindən qovdu.

Təpəgözün pəri anası gəlib oğlanın barmağına bir üzük keçirdi. "Oğul, sənə ox batmasın, bədənini qılınc kəsməsin!" — dedi.

Təpəgöz oğuzların arasından çıxdı, bir uca dağda məskən saldı. Yol kəsdi, adam oğurladı, böyük quldur oldu. Üzərinə bir neçə adam göndərdilər. Ox atdılar, batmadı. Qılınc vurdular, kəsmədi. Süngünü sancdılar, yerimədi. Çoban-çoluq qalmadı Təpəgöz hamısını yedi. Oğuzların içində adam yeməyə başladı. Oğuzlar yığışıb onun üstünə gəldilər. Təpəgöz görüb qəzəbləndi. Bir ağacı qoparıb yerindən atdı, əlli-altmış adam həlak elədi. İgidlərin başçısı Qazana elə zərbə vurdu, dünya başına daraldı. Oğuzun adlı-sanlı igidlərinin bəziləri Təpəgözün əlində canını tapşırdı, bəziləri məğlub olub geriyə qayıtdı.

Oğuzlar Təpəgözə heç nə edə bilmədilər, vahiməyə düşüb qaçdılar. Oğuz yurdu Təpəgözün əlində əsir-yesir olub qaldı. Gedib Dədə Qorqudu çağırdılar. Onunla danışdılar: "Gəlin, pay ayıraq, xərac verək!" — dedilər. Dədə Qorqudu Təpəgözün yanına göndərdilər. Gəldi, salam verdi. Dedi: "Oğul, Təpəgöz, oğuz yurdu əlində əsir olub, viran qaldı. Sənin ayağına məni göndəriblər. Sənə vaxtaşırı pay verək, deyirlər". Təpəgöz dedi: "Gündə altmış adam yığıb verin yeməyə!" Dədə Qorqud dedi: "Bu hesabla sən adam qoymaz, hamını yeyib qurtararsan. Amma gündə iki adamla beş yüz qoyun verə bilərik!"

Dədə Qorqud belə deyəndə, Təpəgöz dedi: "Yaxşı elə olsun! Lakin mənə həm də iki adam verin, yeməyimi bişirsin, mən yeyim!"

Dədə Qorqud döndü, oğuz yurduna gəldi. Dedi: "Bunlu qoca ilə Yapaqlı qocanı Təpəgözə verin, xörəyini bişirsin! Bir də gündə iki adamla beş yüz qoyun istəyir". Camaat razılaşdı. Dörd oğlu olan birini verdi, üçü qaldı. Üç oğlu olan birini verdi, ikisi qaldı. İki oğuldan birini verdi, biri qaldı.

Qapaqqan adlı bir kişi vardı. İki oğlu vardı. Bir oğlunu vermiş, biri qalmışdı. İndi növbə dolanıb ona çatmışdı. Anası fəryad edib, zar-zar ağladı. Sən demə, Aruz oğlu Basat harasa döyüşə gedibmiş; bu zaman gəlib çıxdı. Oğlanın anası dedi: "Basat indi çapqınçılıqdan gəlib. Gedim, bəlkə, mənə bir əsir verdi, oğulcuğazımı qurtara bildim".

Basat oturmuşdu ki, gördü bir qadın gəlir. Salam verdi, ağladı. Dedi:

Ovuclarına sığmır lələkli oxun,
Yekə təkə buynuzundan bərk yayın var.
İç Oğuzda, Daş Oğuzda bəllidir adın,
Aruz oğlu, igid Basat, kömək et mənə!

Basat dedi: "Nə istəyirsən?" Qadın dedi: "Vəfasız dünyada bir kişi meydana çıxıb. Oğuz elini yaylağa köçməyə qoymadı. Böyük iti polad qılınclar bir tükünü kəsə bilmədi. Nizə oynadanlar dərisini dələ bilmədi. Ox atanlar ona kar etmədilər. İgidlərin başçısı Qazana bir zərbə vurdu. Qardaşı Qaragünə onun əlində əzildi. Ağ saqqallı atan Aruza qan qusdurdu. Meydanda qardaşın Qıyan Səlcikin ödü yarıldı, can verdi. Qalan oğuz bəylərinin

də kimini şikəst etdi, kimini həlak elədi. Yeddi dəfə oğuz elini yerindən qovdu. Xərac istədi, aldı. İndi gündə iki adam, beş yüz qoyun istəyir. İki qocanı ona xidmətçi veriblər. İki oğlum vardı, birini verdim, biri qaldı. Növbə fırlanıb, mənə çatıb. Onu da istəyirlər. Xan, mənə kömək et!"

Basatın qaranlıq çökmüş gözləri yaşla doldu. Qardaşından ötrü, görək xan, nə söyləmişdir:

Qayalıq yerdə tikilmiş otaqlarını
O zalım yıxmışdır, yəqin, qardaş!
İti qaçan atlarını tövlədən
O zalım seçmişdir, yəqin, qardaş!
Fərəhlənib gətirdiyin gəlinini
O zalım səndən ayırmışdır, yəqin, qardaş!
Ağ saqqallı atamı
"Oğul" deyə, ağlatdın, yəqin, qardaş!
Ağca üzlü anamı sızlatdın, yəqin, qardaş!

"Qardaşımdan ayrıldım!" — deyə, çox ağladı, zarıldadı. Basat həmin qadına bir əsir verdi. "Get, oğlunu xilas et" — dedi.

Siz Basatın qərarını necə dəyərləndirirsiniz?

Qadın əsiri götürüb gəldi, oğlu yerinə verdi. Həm də Aruzu "oğlun gəldi!" — deyə muştuluqladı. Basat atasının, anasının əlini öpdü. Ağlaşdılar, hönkürdülər. Oğuz bəyləri toplaşdı. Yemək-içmək məclisləri oldu. Basat dedi: "Bəylər, qardaşımın qanını almaq üçün Təpəgözlə qarşılaşmaq istəyirəm. Nə deyirsiz?"

Qazan bəy burada söyləmiş, görək, xan, necə söyləmişdir:

Böyük nəhəng oldu Təpəgöz,
Göydə çevirdim, yıxa bilmədim, Basat!
Böyük qaplan oldu Təpəgöz,
Uca dağlarda fırlandıq, yıxa bilmədim, Basat!
Quduz aslana döndü Təpəgöz,
Qalın qamışlıqda yıxa bilmədim, Basat!
İgid olsan, yaxşıdır,
Amma mən Qazandan artıq olmazsan, Basat!
Ağ saqqallı atanı ağlatma!
Ağ birçəkli ananı zarıldatma!

Basat dedi: “Mütləq gedəcəyəm!” Qazan dedi: “Özün bilərsən”. Atası ağlayıb dedi: “Oğul, ocağımı sahibsiz qoyma, rəhm elə, getmə!” Basat dedi: “Yox, ağ saqqallı əziz ata, gedirəm”. Atasını eşitmədi, paltarının qolundan bir tutam ox çıxardı, qurşağına keçirdi. Qılıncını da qurşandı. Yayın qoluna saldı. Ətəklərini yığışdırdı. Atasının, anasının əlini öpdü, halallaşdı, “salamat qalın!” — dedi. Təpəgözün olduğu Salaxana qayasına gəldi. Gördü ki, Təpəgöz arxasını günə verib yatır. Öz belindən çəkib bir ox çıxartdı. Təpəgözün çiyninə bir ox vurdu. Təpəgöz qocalara dedi: “Bu yerin milçəyi bizi dilxor etdi!” Basat bir də atdı. O da parçalandı, bir parçası Təpəgözün qabağına düşdü. Təpəgöz sıçradı, baxdı. Basatı gördü, əlini əlinə çalıb qahqahla güldü. Qocalara dedi: “Oğuzlardan bizə yenə bir yeməliyetişmiş quzu gəlib”. Basatı qabağına qatıb tutdu. Boğazından yapışıb, dedi: “Ay qocalar, günortaüstü bunu mənimçün şiş-kabab eləyin, yeyim”. Yenə yuxuya getdi.

Sizcə, Basat Təpəgözə qalib gələcəkmi?

Basat dedi: “Ay qocalar, bunun ölümü nədəndir?” Dedilər: “Bilmirik. Amma gözündən başqa ayrı yerdə ət yoxdur”. Basat Təpəgözün başı ucuna gəldi. Göz qapağını qaldırdı. Baxdı gördü ki, gözü ətdəndir. Dedi: “Ay qocalar, süngünü ocağa qoyun, qızsın!” Süngünü ocağa saldılar, qızardı.

Basat əlinə aldı. Adı gözəl Məhəmmədə salavat çəkdi. Süngünü Təpəgözün gözünə elə basdı ki, gözü məhv oldu. Təpəgöz elə nərə çəkdi ki, elə hayqırdı ki, dağ-daş əks-səda verdi. Basat sıçradı mağaraya, qoyunların içinə düşdü. Təpəgöz bildi ki, Basat mağaradadır. Mağaranın qapısında durub bir ayağını qapının bir yanına, birini digər yanına qoydu. Dedi: “Ay qoyunlar, bir-bir gəlin, keçin!” Bir-bir gəlib keçdilər. Hər birinin başını sığalladı. “Toğlu, qoç, gəlin, keçin!” — dedi. Bir qoç yerindən qalxdı, buynuzlayıb irəli cumdu. Basat bir anda qoçu basıb kəsdi, dərisini çıxartdı, quyruğu ilə başını dəridən ayırmadı; dərinin içinə girdi. Basat Təpəgözün önünə gəldi. Təpəgöz bildi ki, Basat dəri içindədir. Basat qoçun başını Təpəgözün əlinə uzatdı. Təpəgöz qoçun buynuzundan bərk tutdu. Qaldıranda buynuzla dəri əlində qaldı. Basat Təpəgözün ayaqları arasından sıçrayıb çıxdı. Təpəgöz buynuzu

Deyə bilərsinizmi, bundan sonra hansı hadisələr baş verəcək?



götürüb yerə çırpdı. Dedi: "Oğlan, qurtuldunmu?" Basat dedi: "Tanrım qurtardı". Təpəgöz dedi: "Ay oğlan, al bu barmağımdakı üzüyü barmağına tax, sənə ox və qılınc kar eyləməsin". Basat üzüyü alıb barmağına keçirdi. Təpəgöz dedi: "Oğlan, üzüyü alıb taxdınmı?" Basat dedi: "Taxdım". Təpəgöz Basatın üzərinə atılıb, xəncərlə vurub-kəsdi. Basat sıçrayıb kənarda durdu, gördü ki, üzük yenə Təpəgözün ayağı altına düşüb qalıb.

Təpəgöz dedi: "Qurtuldunmu?" Basat dedi: "Tanrım qurtardı". Təpəgöz dedi: "Oğlan, o günbəzi görürsənmi?" Dedi: "Görürəm". Təpəgöz dedi: "Mənim xəzinəm var. Get möhürlə, o qocalar götürməsinlər!" Basat günbəzin içinə girdi. Gördü ki, qızıl, gümüş yayılmışdır. Təpəgöz dedi: "İndi elə vurum ki, günbəzlə bir yerdə darmadağın olasan". Basat: "Lailahə ilallah, Məhəm-

mədən-rəsulallah!” — dedi. Həmin anda günbəz yarıldı, yeddi yerdən qapı açıldı. Basat qapıların birindən çıxdı.

Təpəgöz dedi: “Oğlan, qurtuldunmu?” Basat dedi: “Tanrım qurtardı”. Təpəgöz dedi: “Sənə ölüm yoxmuş! O mağaranı görürsənmi? Orada iki qılınc var: biri qınlı, biri qınsız. Mənim başımı o qınsız qılınc kəsər. Get, götür, mənim başımı kəs!”

Basat mağara qapısına getdi. Gördü bir qınsız qılınc durmadan enir-qalxır. Ehtiyatla öz qılıncını çıxardı, qarşısına tutdu. Qılıncı iki para oldu. Getdi, bir ağac gətirdi, qılıncın qabağına tutdu. Onu da iki para eylədi. Sonra yayını əlinə aldı. Oxla o qılınc asılan zənciri vurdu. Qılınc düşüb yerə batdı. Həmin qılıncın dəstəyindən bərk tutdu. Gəlib dedi: “Ay Təpəgöz, necəsən?” Təpəgöz dedi: “Ay oğlan, yenə ölmədinmi?” Basat dedi: “Tanrım qurtardı”. Təpəgöz dedi: “Sənə ölüm yoxmuş!”

Təpəgöz söyləmiş, görək nə söyləyib demişdir:

Gözüm, gözüm, yalnız gözüm!
Yalnız gözlə mən oğuz yurdunu əsir etdim!
Ala gözümdən ayırdın, igid, məni!
Şirin candan ayırsın tanrı səni!
Belə ki mən çəkirəm göz dərdini,
Heç igidə verməsin tanrı bu günü!

Təpəgöz yenə dedi:

— Hardan gəldin, igid, yerin nə yerdir? Adın nədir, igid, söylə mənə!

Basat Təpəgözə söylədi:

— Olduğum yer, yurdum mənim Günortacdır! Mənim adımı soruşsan — Aruz oğlu Basatdır!

Təpəgöz dedi:

— Süd qardaşıyıq, qıyma mənə!

Basat dedi:

— Ay zalım, ağ saqqallı atamı ağladıbsan,
Ağ birçəkli, qoca anamı inlədibsən,
Doğma qardaşım Qıyan Səlciki öldürmüsən,
Ağca üzlü gəlinimi dul etmisən,
Ala gözlü uşaqlarını yetim qoymusan.
Böyük, iti polad qılıncımı çəkməyincə,

Qafalı-papaqlı başını kəsməyincə,
Al-qanını yer üzünə tökməyincə,
Qardaşım Qıyanın qanını almayınca
Qoyarammı sağ qalasan, — qoymaram!

Təpəgöz bir daha söyləyib demişdir:

Ağ saqqallı qocaları çox ağlatmışam,
Ağ saqqallın qarğışımı tutdu ola, gözüm, səni?
Ağ birçəkli qarıları çox ağlatmışam,
Anaların göz yaşımı tutdu ola, gözüm, səni?
Bığ yeri tərləmiş cavanları çox yemişəm,
Cavanlıqlarımı tutdu ola, gözüm, səni?
Əlləri xınalı qızcığazları çox yemişəm,
Ovucları-qarışları tutdu ola, gözüm, səni?
Belə ki mən çəkirəm gözümün göynəmini!
Heç kimə verməsin Allah göz yükü, göz qəmini!
Gözüm, gözüm, ay gözüm! Yalnız gözüm!

Burada hansı ifadə vasitəsinin işləndiyini deyə bilərsinizmi?

Basat hirsləndi, yerindən durub gəldi. Təpəgözü nər dəvə kimi dizi üstünə çökdürdü. Təpəgözün öz qılıncı ilə boynunu vurdu. Başını yayın kirişinə taxdı, sürüyə-sürüyə mağara qapısına gəldi.

Bu cümlədə hansı təsvir vasitələri əlaqələndirilmişdir?

Basat Bunlu qoca ilə Yapaqlı qocanı oğuz elinə muştuluqçu göndərdi. Onlar ağ-boz atlar minib çapdılar. Qalın Oğuz ellərinə xəbər çatdı.

At ağızlı Aruz qocanın evinə çapar gəldi. Ona Basatın sevinc xəbərini verdi: “Muştuluq! Oğlun Təpəgözü öldürdü!”

Qalın oğuz bəyləri yetişdilər. Salaxana qayasına gəldilər. Təpəgözün başını ortaya gətirdilər.

Dədəm Qorqud gəlib şadlıq havası çaldı. Mərd igidlərin başına nə gəldiyini dedi-danışdı. Eləcə də Basata xeyir-dua verdi:

— Qara dağa yetəndə sən, keçid versin!
Aşqın-daşqın sular keçəsən, keçid versin!
İgidliklə qardaşının qanını aldın!
Qalın oğuz bəylərini fəlakətdən qurtardın!

Bu dastanın sizin üçün hansı tərbiyəvi əhəmiyyəti oldu?

Qadir Allah üzünü ağ etsin, Basat! — dedi.
Sizə də xeyir-dua verək:
— Ölüm gəldikdə sizi pak imandan ayırmasın!
Günahınızı adı əziz Məhəmməd Mustafaya bağışlasın, xan hey!

**Mətni sadələşdirdi:** ***Samət Əlizadə, Fərhad Zeynalov***

## "BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY"
### (TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRİN İDEYASININ MÜƏYYƏN EDİLMƏSİ)

Məktəbli dost, siz təsviri xarakterli bədii nümunələrin ideyasını müəyyən etmək yollarını öyrənmisiniz. Bilirsiniz ki, əsərin mövzusu və ümumiləşdirilmiş kiçik fikirlər onun ideyasının müəyyən edilməsində əsas rol oynayır. Nəqli və nəqli-təsviri bədii nümunələrin də ideyası müəyyən edilərkən bu mexanizmlərdən istifadə olunur. Sadəcə, bu əsərlərdə "kiçik fikir" "hadisələr"lə əvəzlənir. Sxemdəki dəyişikliklərlə 1-ci tapşırığı yerinə yetirən zaman tanış olacaqsınız.

***Tapşırıq 1.*** İdeyasını müəyyən etmək məqsədilə əsəri bir daha nəzərdən keçirdin. Bədii nümunəni təşkil edən hadisələri bir-birindən ayırıb onlara başlıq verin. İdeyanı müəyyənləşdirərkən verilmiş sxemdən istifadə edin.



## “BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”
### (TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRDƏ OBRAZLAR ÜZRƏ İŞ)

***Tapşırıq.*** Əsərdə obrazların başlıca xüsusiyyətləri barədə məlumat toplayın, onların xarici görkəminin və ictimai vəziyyətinin təsvirini araşdırın. Obrazın xüsusiyyətləri ilə bağlı əsaslandırılmış mühakimələr yürüdün.




a) Obrazların başlıca xüsusiyyətləri barədə məlumat toplayın.

b) Obrazın ictimai vəziyyətinin necə təsvir edildiyini müəyyən edin.

| İctimai varlıq | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Şəxsiyyət** | a) arzuları və istəkləri<br>b) ehtiyat etdiyi və qorxduğu məqamlar<br>c) ayrı-ayrı problemlərə reaksiyası<br>d) nikbin və ya bədbin olması, xeyirxah və ya bədxah olması<br>e) mənəviyyatca zəif, yoxsa güclü, zəngin, yoxsa kasıb olması<br>ə) insanlara isti və soyuq münasibəti | |
| **Davranışı** | a) necə hərəkət etdiyi, nəzakətli, nəzakətsiz, şəfqətli, şəfqətsiz, mehriban, sərt<br>b) ünsiyyətcil, yaxud ünsiyyətdə çəkingən olması<br>c) zarafatcıl və ya həddən artıq ciddi olması<br>d) fərqli şəraitlərdə davranışı | |

| İctimai varlıq | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Maraqları** | a) xoşladığı məşğuliyyətlər<br>b) maraqlandığı əşya<br>c) əyləncə növü | |
| **İşi, gündəlik fəaliyyəti** | a) nə iş görür<br>b) gələcək planları<br>c) gündəlik məşğuliyyəti | |
| **Müəllifin bunlara münasibəti** | | |

c) Obrazların xarici görkəminin necə təsvir edildiyini müəyyən edin.

| Hiss üzvləri baxımından | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Xarici görkəmi** | a) boyu<br>b) cüssəsi<br>c) dərisinin, saçlarının, gözlərinin rəngi<br>d) saç düzümü<br>e) digər səciyyəvi cəhətləri<br>f) jestləri və mimikaları<br>g) qaməti, boy-buxunu, duruşu<br>h) yerişi, digər hərəkətləri | |
| **Səsi** | a) danışıq tərzi<br>b) səsinin başqa səslərə bənzəməsi<br>c) müxtəlif şəraitlərdə (mahnı oxuyarkən, qışqırarkən və s.) necə eşidildiyi | |
| **Təması** | a) dərisinin görünüşü (qırış və ya hamar olması)<br>b) toxunma tərzi: əl verib görüşən zaman əli möhkəm və ya ehtiyatla sıxması<br>c) əlinin qabarlı, yaxud hamar olduğu<br>d) kobud, yaxud zərif olması<br>e) insanın güclü və ya zəif olması<br>f) əlinin və alnının isti, soyuq olması | |

| Hiss üzvləri baxımından | Göstəricilər | Nümunələr |
|---|---|---|
| **Qoxusu** | a) peşəsindən irəli gələn qoxu<br>b) məşğuliyyətindən irəli gələn qoxu<br>c) adətindən irəli gələn qoxu | |
| **Müəllifin bunlara münasibəti** | | |

d) Obrazların xüsusiyyətləri ilə bağlı əsaslandırılmış mühakimələr yürüdün və onları müqayisə edin.



e) Yürüdülmüş mühakimələrə əsasən obrazları müqayisə edin.






## “BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”
### (TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRDƏ BƏDİİ TƏSVİR VƏ BƏDİİ İFADƏ VASİTƏLƏRİ)

***Tapşırıq.***

**1.** a) Əsərdə təsvir və ifadə vasitələrini, hisslərin və faktların təsvirini müəyyən edin.

| Abzas, bənd | Nümunə | Təsvir və ya ifadə vasitəsinin növü |
|---|---|---|
| *Bədii təsvir vasitələri (epitet, təşbeh)* | | |
| | | |
| | | |
| *Bədii ifadə vasitələri (mübaliğə, bədii sual)* | | |
| | | |
| | | |
| *Təsvir edilən hiss (görmə, eşitmə, qoxu, dad, toxunma)* | | |
| | | |
| | | |
| *Faktların (şəxs, zaman, məkan) təsviri* | | |
| | | |
| | | |

b) Əlaqələndirilmiş təsvir vasitələrini müəyyən edin.

| | |
|---|---|
| Hiss və bədii təsvir | |
| | |
| Fakt və bədii təsvir | |
| | |
| Fakt və hissin təsviri | |
| | |
| Hiss, fakt və bədii təsvir | |
| | |

2. Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələləri izah edin.

| Mətnin tərtibində əhəmiyyət verilməli digər məsələlər | |
|---|---|
| **Göstəricilər** | **Nümunələr** |
| — Əsasən, keçmiş zamanda baş verən hadisələr haqqında danışılır; | |
| — Konkret zamanda və məkanda əşya, hadisə, insanı təsvir edərkən feillər və dəqiq seçilmiş isimlərlə yanaşı, sifət və zərflərdən də geniş istifadə edilir; | |
| — Hadisələr həm keçmiş zamanda III şəxsin, həm də indiki zamanda I şəxsin dilindən yazılır. Bununla oxucu yaradılan obraza daha da yaxınlaşdırılır; | |
| — Müəllif oxucusunu haqqında danışılan zaman və məkana "aparır", insanlarla "görüşdürür"; | |
| — Dialoq zamanı hadisələr keçmişdən indiyə və ya gələcəyə dəyişə bilir. | |

## "BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY"
### (TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRİN HİSSƏLƏRİ: HADİSƏLƏRİN ARDICILLIĞI VƏ SÜJET)

***Tapşırıq 1.***

Əsərdə ayrı-ayrı hadisələrin ardıcıllığını müəyyən etmək üçün təqdim edilən modelləri nəzərdən keçirdin. Hadisələrin ardıcıllığı bu modellərdən hansına uyğun gəlir?









***Tapşırıq 2.*** Əsəri təşkil edən ayrı-ayrı hadisələrə başlıq verin. Hadisələrin inkişaf xətti üzrə başlıqları sxemə daxil edin.



## “BASATIN TƏPƏGÖZÜ ÖLDÜRDÜYÜ BOY”
### (TƏSVİRİ-NƏQLİ XARAKTERLİ ƏSƏRİN ELEMENTLƏRİ VƏ NƏQLETMƏNİN TƏŞKİLİ)

***Tapşırıq 1.*** Əsərin xəritəsini tərtib edin.




***Tapşırıq 2.***

1. “Nitqin təşkili” cədvəlinə əsasən əsərin məzmununun yığcam nağıl edilməsinə hazırlaşın.
2. “Oxudan sonra” təlimatını yerinə yetirin (cədvəl 3, səh. 17).

**Əsərdə hadisələr** ____________________________________________

____________________________________________(məkanda)

____________________________________(zamanda) **baş verir.**

**Əsərdəki əsas obrazlar** ____________________________________

____________________________________________________________

____________________________________________________________

**Hadisələr ondan başlanır ki,** ______________________________

____________________________________________________________

____________________________________________________________

**Əsərdə əsas ziddiyyət** ______________________________________

____________________________________________________________

____________________________________________________________

**Əhvalat belə oldu ki,** ______________________________________

____________________________________________________________

____________________________________________________________

**Sonra** ____________________________________________________

____________________________________________________________

____________________________________________________________

**Daha sonra** ______________________________________________

____________________________________________________________

____________________________________________________________

**Sonda** ____________________________________________________

____________________________________________________________

____________________________________________________________

**Ziddiyyət belə həll olur ki,** ________________________________

____________________________________________________________

____________________________________________________________

## L A Y İ H Ə

**I.** Yaxşı olardı ki, problemin həllinə nail olmağa imkan verən əsəri özünüz müstəqil şəkildə seçəsiniz. Oxu qaydalarına əməl etməklə əsəri oxuyasınız. Sonra isə təqdim edilən məsələlər baxımından araşdırmalar aparasınız. Əgər uyğun bədii nümunə tapmaqda çətinlik çəksəniz, növbəti səhifələrdə verilmiş bədii nümunələrdən birini seçib layihə üzərində işləyin.

**II.** Araşdırmalar apararkən istifadə etdiyiniz bütün iş vərəqlərini, cədvəl və sxemləri qovluqda toplayın. Həmin nəticələrdən çıxış edərək adi və ya elektron təqdimat (Power Point və b.) hazırlayın. Tədqiqatlarınızın nəticələrini yoldaşlarınıza təqdim edin. Qarşılıqlı dinləmədən sonra qruplardan birinin araşdırmalarının nəticələrinə dair rəy-inşa hazırlayın. Bölgünü elə aparın ki, hər qrupun layihəsinə dair rəy-inşa yazılmış olsun. Rəyləriniz oxunandan sonra fikir mübadiləsi aparın.

**III.** Altı qrupa bölünün. Əsərlər nəqletmə-təsviri xarakterlidir.

- Əsərləri proqnozlaşdırma aparmaqla oxuyun.
- Əsərin ideyasını müəyyən edin.
- Əsərdəki obrazların başlıca xüsusiyyətlərini aydınlaşdırın.
- Əsərdə bədii təsvir və ifadə vasitələrini, hisslərin və faktların təsvirini müəyyən edin.
- Əsərdə hadisələrin ardıcıllığını göstərin.
- Əsəri hissələrə ayırın.
- Əsərin elementlərini müəyyən edin və xəritəsini tərtib edin.
- Nəticələrinizi əks etdirən təqdimat hazırlayın.

## AĞABƏYİM AĞA

Üzü pəncərəyə dayanmış Ağabəyim ağa əlindəki zərif tikməli ipək dəsmalla gözlərinin yaşını sildi. Günəş gah buludların arxasından çıxıb azacıq özünü göstərir, gah da yenidən buludun arxasına çəkilib gizlənirdi. Günəş yox olan kimi də qapqara bulud layı sakitcə irəliyə çıxaraq yamyaşıl çəmənin bir parçasına qara kölgə çəkirdi. Ağabəyim ağa diqqətlə günəşlə buludun yerdəyişməsini seyr edir, özlüyündə bu mübarizəni xeyirlə şərin oyununa bənzədirdi. Pəncərənin önündəki ağaca qonmuş sərçələr də qara kölgə yaxınlaşanda məyus-məyus ətrafa boylanır, boz quyruqlarını ağa-

cın tilişkəli gövdəsinə çırpıb darayırdılar. Günəş görünəndə isə cikkildəşə-cikkildəşə sanki "günəş gəldi, günəş gəldi", — deyə sevinc müjdəsi yetirir, günəşdə parıldayan dimdiklərini bir-birinə yaxınlaşdırıb sevindiklərini anladırdılar. Ağabəyim ağa gözünün yaşını quruda bilməyən tikməli dəsmalını gümüş belbağısının altına keçirdib pəncərəni açdı. İpək kimi ovcunda tutduğu çörək qırıntılarını irəli uzatdı.

Sərçələr uçub Ağabəyim ağanın ovcuna qondular. Xanımın kədərli üzünə ani bir sevinc gəldi. Dodaqları təbəssümdən işıqlandı.

Bu vaxt Ağabəyim ağanın qapısını döydülər. İpək əlin içindən həvəslə çörək ovuntuları dənləyən sərçələr səksəndilər. Pırıldayıb bir göz qırpımında yoxa çıxdılar. Ağabəyim ağa sonuncu tikələrini yeməyib uçan sərçələrin ürkəkliyinə güldü. Dəməşq xarasından tikilib, qızılı saplarla işlənib, güləbətinlə bəzənmiş donunu xışıldada-xışıldada qayıdıb masasının arxasına keçdi. Amiranə səslə:

— Buyurun, — dedi.

Gələn İran hökmdarı Fətəli şah idi. O, İbrahim xanın qızı Ağabəyim ağanın həyat yoldaşı idi. Heç vaxt qapını döyməmiş onun otağına girməzdi. Fətəli şah irəli yeridi. Ağabəyim ağanın bir az açılmış bənizi yenə tutuldu. Sanki üzünün günəşi getdi. Qara buludların kölgəsi çəkildi bənizinə:

— Nə əmr edirsiniz?

— Əmr etməyə gəlməmişəm. Əmr edilən kəsin hüzuruna gəlməzlər. Onu hüzura gətirdərlər.

— Şahdan əmr olsaydı, gələrdim.

— İstərdim ki, bu sözləri başqa cür eşidim.

— Təxminən necə?

— Təxminən belə — şahdan əmr olsaydı, sevərdim.

— Şahım, bu böyüklükdə səltənətin tək hakimisiniz. Məgər indiyədək yəqin etməmisiniz ki, əmrlə sevmək olmaz. Qürbətdə Vətən həsrəti bütün sevgilərin üzərinə kölgə çəkir.

O bunu dediyi anda günəş yenə buludların arxasında gizləndi. Otağa qaranlıq çökdü.

Ağabəyim ağa pəncərəyə yaxınlaşdı. Günəş son şəfəqlərini yığıb buludun arxasında gizlənmişdi:

— Bax belə, şahım. Qara buludlar günəşin üzünə kölgə çəkdiyi kimi, Şuşa həsrəti də bütün ruhuma kölgə salıb.

Fətəli şaha sanki ipucu verildi. Donmuş sifəti avazıdı. Qəzəblə yuxarı doğru dartılmış qaşları endi. Gülümsündü:

— Şuşa həsrəti... Elə isə bu həsrətə bu gün son qoyaq. Elə bu dəqiqə.

Ağabəyim ağa sevinclə irəli atıldı:

— Dönürəmmi? Şuşaya... Həsrətini çəkdiyim Şuşama dönürəm? Elə demək istədiniz? Düz başa düşdümmü sizi?

Fətəli şah bu sevincdən bir qədər narahat oldu. Təlaş içində nəzərlərini Ağabəyim ağanın sual dolu gözlərindən çəkdi. Lakin sevdiyi bu ağıllı qadının inadını qıra biləcək hesab etdiyi tədbirə içində böyük inamı var idi.

— Tələsməyin, indi görəcəksiniz. Mən sizə qürbətdə "Vətən" hədiyyə edəcəm. Sevginizi qazanmaq üçün bütün iztirabınıza son qoyacağam. Gəlin mənimlə...

Onlar bir gülüstanın içiylə irəliləyirdilər. Yaşıl çəmənlərin otu Ağabəyim ağanın hərarətindən isinirdi. Ondan sevgi və məhəbbət uman qızılgüllərin şehli ləçəkləri xəfif küləyin təmasından titrəyirdi. Addımladıqca boynuna, boğazına toxunan yarpaqlar, min bir rəngli, ətirli çiçəklər, güllər, kəklikotular, yarpızlar sanki deyirdilər: "Sev bizi! Sev! Şuşadan gəlmişik. İllərdir həsrətində olduğun Qarabağdan gəlmişik sənə sirdaş olaq. Gəlmişik ki, Vətən həsrətli yarana məlhəm olaq. Sev bizi. Nə olar?! Unut bir anlığa dağlar gözəli Şuşanı. Unut! Ovun bizimlə... Vətən bağı gətirmişik sənə. Vətən bağı..."

Yarpaqların, gül-çiçəklərin, otların dilini bilirmiş kimi Ağabəyim ağanın ürəyi çırpındı. Nəvazişlə əlini qızılgüllərin yanağında gəzdirdi. Sonra pıçıldadı:

— Hanı? Mənim Vətənimin bağında bənzərsiz bir çiçək vardı. O düzlərin xalısının hər ilməsindən o çiçək boylanardı. Cıdır düzünün xəfif mehi ilə daranardı. Dağların arxasından doğan günəşlə bir oyanar, batan günəşlə bir yatardı. Bəs hanı Vətən bağının xarıbülbülü?! Hanı?!

Ağabəyim ağanın qəmli sinəsindən bir bayatı qanadlandı:

Vətən bağı al-əlvandır,
Yox üstündə xarıbülbül.
Nədən hər yerin əlvandır,
Köksün altı sarı, bülbül?

Fətəli şah bayatını dinlədi. Sonra Ağabəyim ağanın yanağından süzülən damcılar göründü gözünə. Üzünü çevirməyə çalışdı. Alınmadı. O, bir an nə edəcəyini bilmədi. Dinlədi onun dediklərini. Şuşa dağlarının mərd qızını dinləməməyə vicdanı yol vermədi. Həssas və ağıllı Ağabəyim ağa şahın bu vəziyyətini duyaraq ona bir əhvalatı xatırlatdı:

— Şahım, Şərqin hökmdarı, İsgəndər can üstəydi. Sonuncu yürüş etdiyi günəşin yandırıcı istisindən boğulan toz basmış şəhərin boz, acınacaqlı, sapsarı saralmış divarlarla dolu qoynunda ölmək dünya gözəlliklərini qılınca təslim edən bir sərkərdə üçün ağlasığmaz idi. O bu boz, rəngsiz, həyatın bütün şux rənglərinə həsrət məkanda boğulmamaq, son nəfəsini yaşıllıqlar qoynunda alıb, illərlə qarış-qarış dolandığı dünyaya "əlvida" demək üçün əmr etdi: "Məni "Asma bağlar"a çatdırın!" İllərlə salınmış asma bağlara. Babil şahının sevgilisi Midiya şahzadəsi üçün saldığı "Asma bağlar"a. O bu bağları dünyaya meydan oxuyan İsgəndər üçün saldırmamışdı. O, yurdun bütün riyaziyyatçı və memarlarını yığıb sevdiyi qadın üçün nağıllardakı yaşıl səltənətin salınması əmrini vermişdi. Babil sənətkarlarının saldığı dördmərtəbəli "Asma bağlar" Fərat suları ilə suvarılmışdı. Navuxodonosor eşqini belə sübut etmişdi. Bizim eradan əvvəl... 331-ci ildə. Amma mən düşünməzdim ki, çox qüdrətli Fətəli şah bütün bunları sevgi oyununda qalib çıxmaq üçün təkrar edəcək. Heç inanmazdım. Şuşanı bura gətirmək nə qədər müşküldürsə, Vətən həsrəti ilə yanan birini Vətənə qaytarmaq o qədər asandır.

Ağabəyim ağa Babil şahı Navuxodonosorun saldırdığı "Asma bağlar"dan danışırdı. Fətəli şah susurdu. Şuşa bulaqlarının buz kimi suyundan içmiş, Şuşa xanı İbrahim xanın kişi kimi cəsarətli qızının qarşısında yeganə çıxış yolu elə susub dayanmaq idi. Hər kəsi diz çökdürməyə qadir əzəmətli şah zərif bir qadının qarşısında acizliklə susub dayanmışdı.

İllər keçdi. Ağabəyim ağa Şuşaya həsrət qaldı. Ömrünü Fətəli şahın Qum şəhərində onun üçün ucaltdığı sarayda başa vurdu. Və Vətən həsrətini yanan qəlbində o dünyaya apardı...

***Sevinc Nuruqızı***

*Müəlliflə tanışlıq*



***Sevinc Nuruqızı***

*Sevinc Nuruqızının ilk şeirlərini oxuyan gözəl uşaq şairi, Azərbaycan uşaqlarının sevimlisi Xanımana Əlibəyli ondan bir xahiş edib: "Sevinc, xahişim budur, uşaq ədəbiyyatını heç nəyə dəyişmə. Ona sadiq ol".*

*Sevinc Nuruqızı da bu günə qədər verdiyi sözə sadiqdir.*

*Sevinc Nuruqızı uşaqlar üçün 30-dan çox kitabın müəllifidir. Müəllif kiçikyaşlı uşaqlara mövcud həyatın sirlərini öyrədir. Bu qələm sahibinin uşaqlar üçün yazdığı çoxsaylı əsərlərini tədqiq etdikcə sanki başqa bir aləmə düşürsən, onun aydın üslubu və yazı manerasını duya bilirsən.*

## BAĞBAN RÖVŞƏN

Zəng çalınıb fasilə olan kimi uşaqlar məktəbin həyətinə töküllüşdülər. Artıq özünü hiss etdirən cənub günəşinin yandırıcı şüaları yalnız günün ikinci yarısında bura düşürdü. Odur ki uşaqlar fasilələri də siniflərdə və ya uzunsov dar dəhlizdə keçirirdilər.

Məktəbin həyəti balaca idi. Ortasında çox kiçik bir idman meydançası vardı. Meydançanın axırındakı tikan çəpər həyəti üç tərəfdən yaşıl qələmlərlə hasarlanmış bağçadan ayırırdı. Bu bağça və onun yanındakı iki hektarlıq yer məktəbin təcrübə sahəsi idi.

Fasilədə uşaqlar hamısı idman meydançasına səpələnib oynadığı halda, on üç yaşlı bəstəboy, qarabuğdayı, iri, alagözlü Rövşən hiss olunmadan bağçaya keçdi və ağacların arasında gözdən itdi.

Yaz girəndən hər gün fasilələrdə Rövşən beləcə yox olur və zəng olanda özünü təngnəfəs sinfə salırdı. Hətta məktəbdə heç kəs olmayanda da axşamlar onu bağçaya girib-çıxan görürdülər. Heç kəs bilmirdi ki, Rövşən bağçaya niyə xəlvətcə gedib-gəlir, orada nə edir. Bu barədə yoldaşları sual verəndə qaşqabağını sallayırdı.

— Elə belə gedirəm, bağçada gəzmək xoşuma gəlir! — deyib başdan eləyirdi.

Rövşənin bu hərəkəti məktəbdə müxtəlif danışıqlara səbəb olmuşdu. Hətta bunu pis yerə yozanlar da vardı. "Yəqin, təzə-tər xiyarlara gözü düşüb". "Yox, alçaya meyil salıb", — deyərək bəzi yoldaşları onu ələ salırdılar. Müəllimlər və başqa şagirdlər Rövşən barədə bu cür danışıqları eşidəndə rədd edirdilər, çünki onun təmiz və tərbiyəli uşaq olduğuna şübhələri yox idi.

Yalnız riyaziyyat müəllimi Rövşəndən nigaran idi, onun hərəkətlərinə şübhə ilə baxırdı. Buna da səbəb lap birinci görüşdə, birinci riyaziyyat dərsində Rövşənin şuluq salması olmuşdu: bir cərgə dalda oturan Xanış kağızı yumurlayaraq çirtməklə Rövşənin boynunun ardına atmışdı, Rövşən də onun burnunun ucunu nişan alaraq həmin girdə kağızı güllə kimi ona qaytarmışdı. Müəllim Rövşənin hərəkətini görüb ona acıqlanmışdı. Ondan sonra yenə bir neçə belə hadisə olmuş və Rövşən barədə riyaziyyat müəlliminin öz xüsusi rəyi yaranmışdı. Bu gün isə riyaziyyat dərsində lap biabırçılıq oldu. Müəllim Xanışı lövhəyə çağırmışdı, məsələ vermişdi. Riyaziyyatı yaxşı bilən Xanış çaşıb qalmışdı, həll edə bilmirdi. Uşaqlar him-cimlə onu başa salmaq istəyən yerdə daha da çaşdırmışdılar. Bu zaman kim isə qapını tıqqıldatdı. Müəllim "Gəl!" demək yerinə, özü qapıya yollandı. Bundan istifadə edib Rövşən məsələnin həllini kağıza yazdı və lövhənin qabağına qaçdı. Elə kağızı Xanışın ovcuna qoyan yerdə müəllim döndü və Rövşəni görüb bərk acıqlandı. Ancaq müəllim nə dedisə, Rövşən ağzını açıb bir kəlmə danışmadı. Nəhayət:

— Divardan səs çıxar, səndən yox, — deyib müəllim ondan ümidini üzmüş kimi Xanışa döndü.

Ancaq əslində, müəllimin bütün fikri Rövşəndə idi. "Axı niyə bu uşaq belə edir?" — deyib düşünürdü. Bu fikirlər nəticəsində müəllim Rövşənin sinifdəki hərəkətləri ilə fasilə zamanı bağçada itməsi arasında bir əlaqə olduğu qərarına gəlmiş və onu izləməyi nəzərdə tutmuşdu.

Bütün bunlardan xəbərsiz olan Rövşən qələmlərin altından keçib bağçanın sıx yerinə girdi. Hərdən qalın budaqların arasından fəzanın bir parçası, ya da uzaq kəndlər: taxıl, pambıq zəmiləri görünürdü. İlin bu fəslində, yəni may ayının ortasında bü-

tün Şirvan düzü yaşıllıq içərisində itir. Bağçadakı alça, armud, alma, ərik ağacları çoxdan güldən düşmüşdü. Onların qalın yarpaqlarının arasından iriləşməkdə olan göy meyvələr seçilməyə başlayırdı. Nar ağacları isə hələ gül də açmamışdılar. Rövşən onlara baxıb düşünürdü: "Təbiət nə qədər gözəldir! Necə də hər şey öz vaxtında əmələ gəlib yetişir. Alça qurtarmamış tut çıxır, sonra da bir-birinin ardınca gilas, gilənar, qaysı, armud, üzüm və alma dəyib şirinləşir. Təbiət çox gözəldir, bizim torpaq çox mehriban, səxavətli və sevimlidir!.."

Rövşən ağacların görkəmindən, ətrindən, yarpaqların pıçıltısından doymurdu. Bütün bunlar sanki dilə gəlib onunla danışır, ona həyatın gözəllikləri və hikmətləri haqqında pıçıldayırdılar. Rövşən hiss edirdi ki, bu canlı, lakin dilsiz aləm başqa aləmdir. Şeirlə, musiqi ilə, sirlərlə dolu aləmdir...

Hər gün onu bura çəkən də bu qəribə aləmin sirlərindən birini açmaq həvəsi idi. Ağaclarla danışa-danışa, onların ətirli nəfəsi ilə nəfəs ala-ala irəliləyərək gəlib lap əldən-ayaqdan kənar bir guşədə dayandı. Burada nar ağacları o qədər sıxlaşıb bir-birinə suvaşmışdı ki, əyilib ikiqat olmadan o tərəfə keçmək mümkün deyildi. Rövşən belə də elədi, narların arasındakı açıqlığa keçdi və yamyaşıl otların altında həzin şırıltısı kəsilməyən arxın qırağında durdu. Ora basdırılmış hündürlüyü bir metrə qədər olan nazik, balaca çubuğu diqqətlə gözdən keçirməyə başladı. Çubuqda tumurcuqlar əmələ gəlmişdi, hətta aşağı gözlərdə yarpaq açılmağa başladığını görəndə sevincindən öz-özünə: "Yaşa, var ol!" — dedi. Elə bu zaman narların dalından başqa bir səs eşitdi:

— Nə olub, Rövşən, kiminlə danışırsan?!

Rövşən riyaziyyat müəllimini səsindən tanıdı və qaşqabağını salladı. Bu qədər əziz tutduğu bir sirri ona inanmayan bir adama açmaq istəmirdi.

— Niyə danışmırsan, səninləyəm?! — deyib müəllim narları araladı və bu tərəfə keçməyə çalışdı.

— Ay Həbib müəllim, tələsmə, gözlə, bir yerdə keçək! — deyə başqa bir səs riyaziyyat müəllimini dayanmağa məcbur etdi. Bu təbiyyat müəllimi Sahib idi. Rövşən sevindi:

— Müəllim, gəlin, bir görün, mən deyəndir, alça çubuğunu da cücərtmək olar! — deyib qışqırdı.

Müəllimlər ikisi də bu tərəfə keçdi. Təbiətşünaslıq müəllimi Rövşənin göstərdiyi çubuğa diqqətlə nəzər saldı, onun cücərdiyini görüb dikəldi. Rövşənin alnından öpdü:

— Sağ ol, oğlum, qoçaqsan! — dedi və təəccüblə onları süzən riyaziyyat müəlliminə döndü. — Görünməmiş şeydir, meynə rişəsiz sadəcə çubuq vasitəsilə artırıla bilər, alça isə yox, qışda Rövşənlə bu barədə mübahisəmiz oldu. O bu alça çubuğunu cücərtməklə bitkilər dünyasında yeni təcrübələrə hüdud olmadığını sübut etmişdir. Sağ ol, oğlum! Bundan sonra bağban olacaqsan. Bağban Rövşən!

Riyaziyyat müəllimi də sevinclə Rövşənə baxıb gülümsəyirdi.

***Mirzə İbrahimov***

## *Müəlliflə tanışlıq*



***Mirzə İbrahimov***

*"Ağlım kəsəndən daim dərin bir uçurumun kənarı ilə yeriyib, addımlamışam. Təsadüf nəticəsində dibi görünməyən uçuruma yuvarlanmayaraq sağ qalmışam...*

*Atam, anam gün çıxmamışdan tarlaya gedər, əkin-biçinlə məşğul olub qaranlıq düşəndə evə dönərdilər. Biz də gücümüz çatandan onlara kömək edərdik. O zaman xalqın gün-güzəranı günbəgün pisləşirdi. Aclıq ailələri girdabına alırdı. Aclıqdan ailə üzvlərimiz dünyasını dəyişirdi.*

*Dərd-ələm içində yaşayan atam Quzey Azərbaycanına üz tutdu. Atam, qardaşım və mən pay-piyada Bakıya gəlib çatdıq. Burada da həyat üzümüzə gülmədi. İş axtaran atam yorğan-döşəyə düşüb vəfat etdi. Aradan bir müddət keçəndən sonra qardaşımı itirdim. Zabratda bir ailənin qoyun-quzusunu otardım...*

*Çətinliklə də olsa, özüm-özümü dolandırdım. Sonradan mədəndə işə düzəldim. Təhsil almağa başladım. Yaşadığım həyat tərzi məni bir tərəfdən əzsə də, digər tərəfdən ədəbiyyata meylimi artırmışdı. Gecə-gündüz vaxt tapdıqca mütaliə edirdim. Ədəbiyyata əvvəlcə şeirlə gəldim. Sonra ilk hekayəm çap olundu".*

## NƏNƏNİN SÖHBƏTİ

Qırxbuğumlu düzündə cərgə ilə qurulmuş çadırların birində Arazla Afaq nənələri ilə qalırdı. Arası kəsilmədən qırx il müəllimlik eləyən Fəxrəndə qarının on iki nəticəsi vardı. Onun yaşı yetmişi haqlasa da, özünü gümrah hiss eləyirdi. Hər il iyun ayının əvvəllərindən avqustun axırlarına qədər Salvartı yaylağının soyuq bulaqlarından içər, bütün günü yediyi süd, qatıq, göy-göyərti olardı.

Nəticələrinin biri üçüncü, o birisi dördüncü sinifdə oxuyur. Bakıdan təzə gəlmişlər. Mal-qara, qoyun-keçi, at-dəvə haqqında heç bir məlumatları yoxdur.

Qocaman müəllim hər səhər qonaqlarına ya üstü şəkərli qaymaq, ya şirin süd verir, ya da ki, təzə yağla balı qatışdırıb xamralı çörəyin üstünə yaxır, nəticələrinə yedirirdi. Nahara mütləq ya xörək bişirir, yaxud qırxbuğum, quzuqulağı, gicitkən kətəsi hazırlayırdı.

Elə ki nəticələrini yedirib toxtayır, nənə çadırın qabağına palaz salıb üstünə döşək qoyur, uşaqları da böyründə oturdub, onlara kolxozun naxırı, sürüləri, ilxısı, dəvəsi barədə danışırdı.

Fəxrəndə müəllimin məqsədi bu idi ki, nəticələrinə heyvanlar barədə məlumat versin. Bir həftədən artıq yaylaqda olmalarına baxmayaraq, uşaqlar dana ilə buzovu ayırd edə bilmir, qulanla ürkəni qarışıq salır, nərlə arvanı tanımırdılar.

Göyün üzü ayna kimi dumduru idi. Gecə ayaz olduğundan indi elə qəşəng gün idi ki, Arazla Afaqa ləzzət verirdi. Fəxrəndə nənənin heyvanlar barədə söhbəti isə daha ləzzətli oldu.

Bax, daşın böyründə durub ağzını tərpədən heyvan inəkdir. Yediyini sınırmaq üçün kövşək çalır. Onun balası bir yaşına qədər buzov adlanır. İki illiyində dana olur. Üç yaşına adlayanda dişisinə düyə, erkəyinə cöngə deyirlər. Dörd yaşından sonra düyələr inək, cöngələr öküz olur. Heyvanların adı yaşı ilə əlaqədardır.

Qara rəngli, yekəqarın, iribuynuz heyvana camış deyirlər. İnəkdən çox süd verir. Südü yağlıdır. Camışın qatığı ilə qaymağı, inəyin südü ilə yağı dərmandır. Camışın balası bir yaşına qədər balaq, iki illiyində kəlçə olur. Böyüyəndən sonra dişisi camış, erkəyi kəl adlanır.

Qoyunun balası quzu, toğlu, şişək, erkək, azman adı ilə adlanır, atalarına qoç, analarına qoyun deyirlər.

Afaq sual elədi:

— Fəxri nənə, qoyunun südü yaxşıdır, inəyin?

— İnəyin südü, qoyunun pendiri ələ düşməz.

Araz dilləndi:

— Bəs keçinin balasına nə deyirlər?

— Keçinin balasına bir yaşınacan oğlaq, iki yaşında çəpiş, sonra dübür-küyər, keçi-təkə deyirlər.

Fəxrəndə qarı çeşməyinin şüşələrini silib gözünə taxdı. Afaqın xurmayı saçlarına sığal verdi. Arazın boynuna əl salıb özünə tərəf çəkdi, sinəsinə sıxandan sonra sözünə davam elədi:

— Daşlıqda sal duzu yalayan heyvana at deyirlər. İyirmi-otuz il qabaq atın hörməti çox, qiyməti baha idi. Minik və yük maşınları çıxandan sonra atlar urvatdan düşüblər. Araz bacısına macal verməyib xəbər aldı:

— Maşınlar atlara nə eləyib ki?

— Əvvəllər adamlar səfərə çıxanda at minərdilər. Dağa köçəndə yükləri atlar daşıyardı. Arabalara qoşulan, faytonları çəkib aparan, meşədən odun gətirən, dərz daşıyan, xırman döyən atlar idi. Hətta deyirdilər “At kişinin qanadıdır”. Yaxşı igid atı ilə adlanardı. Həcər, Aynalı, Bozat Qaçaq Nəbinin sədaqətli dostları olub.

Afaq dedi:

— Fəxri nənə, bəs atın balasına nə deyirlər?

— Atın balası bir yaşına qədər qulun, iki yaşında dayça, üç yaşında qulan-ürkə, böyüyəndə madyan-köhlən adlanır. Hərgah erkək at qaçağan, kara gələn olursa, ona köhlən, əgər tənbəl, yük götürməyən olursa, ona yabı deyirlər.

Gün şaxıyır, uşaqlar tərləyirdilər. Nənə balalarını çadıra aparıb söhbətinə ara verdi. Soyuq qatıqaşını iki boşqaba töküb uşaqların qabağına qoydu. Ayaqqabılarını dəyişdi. Yun şalı çiyninə salıb bayıra çıxdı. Dəvələr qanqallı dərədə idi. Biri də soyuq bulağın yanında durub gicitkən yeyirdi.

Fəxrəndə qarı Arazla Afaqı səslədi. Özü ortada dayanıb hərəsinin bir əlindən yapışdı, birbaş Soyuq bulağa tərəf addımladı. Qarı elə gedirdi ki, uşaqlar güclə ayaqlaşırdılar.

Bulağa çatıb nəfəslərini dərəndən sonra nənə dedi:

— Boyunu əyri, caydaq, gicitkəni kökündən qoparıb yeyən heyvana dəvə deyirlər.

Fəxrəndə qarı nəticələrinin maraq içində olduğunu görüb bir az dayandı. “Qoy əməlli baxsınlar. Uşaqlar hər şeyi bilməlidir. Təbiətə həsrət, heyvana tamarzıdırlar. Bulaq suyu dillərinə dəyməyən, ayaqları şehdə yuyunmayan uşaqların ürəyi təzələnərmi? Üzünə yağış

çırpmayan, dodağını ayaz çatlatmayan, sifətini şaxta qovurmayan uşağın canı sağ olarmı?" — deyə nənə düşünürdü ki, Afaq dilləndi:

— Fəxri nənə, dəvənin balalarından danış.

— Dəvənin balasına köşək, iki yaşında olanda daylaq deyirlər. Üç yaşına adlayandan sonra nər-maya, lök-arvana, buğur-haçamaya, balxımaya-göyün olur.

Dəvə bulaqdan uzaqlaşdı. Uşaqlar su içmək istəyəndə nənələri dedi:

— Əvvəlcə əl-üzünüzü yuyun, sonra için.

Uşaqlar əllərini suya vuranda diksindilər. Qayanın altından gələn su çox duru, olduqca soyuq, dedikcə dadlı idi. Onlar suyu doyunca, birnəfəsə içə bilmədilər. Dişləri göynədi. Ara verə-verə içdilər.

— Fəxri nənə, bizi gəzməyə apar da, — deyə Afaq mızıldayanda, Araz bacısının sözünə qüvvət verdi:

— Fəxri nənə, bu gün yaxşı gündür, gedək gəzməyə.

Nənə nəticələrini sakitləşdirdi:

— Qayıdaq çadıra, nahar eləyək, sonra sizi baldırğanlı dərəyə aparacağam...

***Əli Vəliyev***

## *Müəlliflə tanışlıq*



***Əli Vəliyev***

*Əli Vəliyevdə hər kəsdə olmayan bir cəsarət vardı. İclasların birində Səməd Vurğun Bağırovun tənqidinə tuş gəlir. Kimsə səsini çıxarda bilmir. Əli Vəliyev isə dostunun dayağı olur və deyir ki, Səməd Vurğun böyük şairdir. Bağırov bircə kəlmə "Bıl" (rus dilində, yəni yaxşı şair* ***olub****), – deyir. Əli Vəliyev isə daha da cəsarətlə bildirir: "Bıl da, yest də" (yəni yaxşı şair* ***olub, bu gün də*** *yaxşı şairdir). Hamı Bağırovun qəzəbini gözləyir. Ancaq Bağırov gülümsəyir və Səməd Vurğun Əli Vəliyevin sayəsində repressiyadan qurtulur.*

*Xalq yazıçısı İlyas Əfəndiyev xatirələrində yazır ki, Əli Vəliyev "Kommunist" qəzetinin baş redaktoru olan zaman redaksiyada İlyas Əfəndiyevə xüsusi bir otaq ayırıb və işləməsi üçün şərait yaradır. Bir gün yenicə yazdığı hekayəsini oxumaq üçün həmin vaxt xəstə olduğundan işə çıxmayan Əli Vəliyevin evinə yollanan İlyas Əfəndiyevi Qumru xanım qarşılayır. Əli Vəliyevin yatdığı otağa aparmaq istəyəndə: "Qumru, sən də gəl, qulaq as" sözlərini eşidib ayaq saxlayır. İlyas Əfəndiyev yazdığını oxuyub qurtaran kimi Qumru xanım "Yaxşıdır" – deyir, İlyas Əfəndiyev ustadının da fikrini soruşur. Əli Vəliyev zarafatla: "İlyas, bizim evdə bir söz olur. Onu da Qumru xanım söylədi", – deyir.*

## BARIT İYİ

Atası cəbhəyə gedəndən sonra Fərid yenicə ayaq açmışdı. Dil açsa da, hələ bircə sözü də aydın deyə bilmirdi. Ancaq tanıyırdı ki, anası kimdir, nənəsi kimdir. Ağlayanda onların qucağına gedən kimi kiriyirdi.

Fərid əməlli-başlı danışanda isə atası İbrahim onlardan çox-çox uzaqlarda, cəbhədə idi, faşistlərlə vuruşurdu.

İbrahim evə məktub yollayanda yazırdı ki, mənim əvəzimdən Fəridi öpün. Nənəsi də, anası da dönə-dönə Fəridin üzündən öpürdülər. O buna adət eləmişdi. Fərid atasını balaca ikən gördüyü üçün yadına sala bilmirdi.

İbrahim cəbhəyə gedəni evə iki şəkil göndərmişdi. Birincidə başı açıq idi. Köynəyinin yaxasından iki cərgə orden, medal asılmışdı. Fərid onları saymışdı, altı dənə idi. O birində isə başında qulaqlı papaq, əynində qoyun dərisindən gödəkcə vardı. Dayanmışdı təkərləri bir qarış qara batmış topunun yanında. Topun lüləsinə ağ rənglə bir biçimdə altı ulduz şəkli çəkilmişdi. Fərid anasından öyrənmişdi, bu o deməkdir ki, atası döyüşlərdə faşistlərin altı tankını vurub.

Bir gün səhər tezdən radio hamıya şad xəbər verdi: "Müharibə qurtardı! Qələbədir!"

Fəridin nənəsi də, anası da bir-birinə qoşulub ağladılar. O buna mat qalıb soruşdu:

— Niyə ağlayırsınız?

Onlar ikisi də gözlərinin yaşını silib gülümsədilər. Fərid o gün birinci dəfə bildi ki, insanlar ürəkdən sevinəndə gözləri də yaşarır.

O səhər — qırx beşinci ilin Doqquz may günü evlərdə, küçələrdə hamı deyib-gülür, fərəhlə bir-birini təbrik edirdi. Onda Fərid anladı ki, qələbə çox yaxşı şeydir. O gələndə hamı sevinir, lap çox sevinir. Fərid kənddəki adamların belə sevindiklərini görməmişdi.

Sonra atalar bir-bir cəbhədən qayıtdılar. Qonşulardan davadan qayıtmayan əmilər də oldu. Böyüklər danışırdılar ki, onlar vuruşmalarda vətən yolunda canlarından keçmişlər. Axı qələbə qurbansız olmur.

Bir səhər tezdən Fərid şirin yuxuda idi. Evlərində səs-küy qopdu. O diksinib ayılanda gördü ki, aynabənddə uca boylu, boz şinelli, papağı ulduzlu bir kişini bir tərəfdən nənəsi, o biri tərəfdən anası qucaqlayıb. Onlar yenə də ağlayırlar. O gün qələbə xəbərini eşitdikləri gündə olduğu kimi. Əsgərin də gözləri dolub.

Fərid yuxulu gözlərini ovuşdurdu. Əsgərə bir də baxdı. Bu onun şəkildə gördüyü kişi idi, atası, öz atası, nə vaxtdan bəri yolunu gözlədiyi, həsrətini çəkdiyi atası!

— Atacan!..

İbrahim özünü çarpayının üstünə atdı, ikiəlli Fəridi götürüb bağrına basdı. O, səsini çıxartmadı. Axı Fəridi özgəsi yox, atası bağrına basmışdı. O, indi bildi ki, kişilər güclü olur. Atasını elə belə də təsəvvür edirdi. Nənəsindən eşitdiyi nağıllardan bilirdi ki, ancaq güclülər düşmənə qalib gəlirlər.

Fərid atasının qucağından düşmək istəmirdi. Onun qollarının üstündə oturmaq necə də yaxşı idi. Amma atasından birtəhər iy gəlirdi. Bu nə iy idi?! Fərid fikirləşəndə yadına düşdü ki, atasının şinelindən toz, ocaq, barıt, bir də nəyinsə iyi gəlir.

İbrahim elə o günü çimib paltarını dəyişdi. Fərid axşamacan atasının dizi üstündən düşmədi. O, arada heç kəsə bildirmədən dəhlizə getdi, atasının şinelinin ətəyindən yapışıb burnuna apardı. Şineldən yenə də həmin iy gəlirdi. O pıçıldadı: "Davadan qayıdan ataların üst-başından, yəqin, belə iy gəlir".

O axşam kəndlərindəki əmilər, xalalar onlara çox gəlib-getdilər. Hamı içəri girəndə deyirdi:

— Gözləriniz aydın!

Onlar gec yatdılar. Fərid qəribə bir yuxu gördü. Gördü ki, cəbhədədir, atası və onun əsgər yoldaşları ilə birlikdə faşistlərlə vuruşur. Bu vaxt haradansa bir dəstə tank çıxıb uğulduya-uğulduya onların üstünə gəlir. Fəridin atası komanda verir, yoldaşları düşmən tanklarına atəş açırlar. Fərid isə iri qutulardan mərmiləri götürür, verir bir əsgərə, o da topun lüləsinə qoyur, çaxmağı çəkib atır. Düşmənin iki tankını yandırır.

Döyüş yatan kimi göygözlü, qalınbığlı bir əsgər əmi topun lüləsinin üstünə iki ulduz şəkli də çəkir. Ulduz səkkiz olur. Fərid ətrafa tamaşa eləyir. Hər yerdən tüstü, barıt, toz iyi gəlir. Hətta onun üst-başından da! Atasının şinelindən gələn kimi.

Qələbənin o biri ili, payızda Fərid birinci sinfə getdi. Sən bir işə bax, məktəbə gələn uşaqların neçəsinin əynində əsgər geyimindən tikilmiş pencək, köynək, don gördü. Hətta bir oğlan əsgər çantasına kitab yığıb gətirmişdi. Dava yenicə qurtarmışdı. Hələ faşistlərin dağıtdığı fabriklərin, zavodların çoxunu təzədən tikib qurtarmamışdılar. Geyim, kitab, dəftər, yemək çatmırdı. Buna görə də uşaqların çoxunun əynində əsgər geyimindən tikilmiş paltar vardı.

O gün Fərid ağ köynək geyinmişdi, üstündən də nənəsinin şineldən tikdiyi pencəyi. Nənəsinin atasının şinelindən biçdiyi paltardan daha davanın iyi gəlmirdi. Anası onları kəhrizin suyunda tərtəmiz yumuşdu.

Fərid çox maraqlanırdı görsün, o biri uşaqların əsgər geyimindən tikilmiş paltarlarından davanın iyi gəlirmi? O, tənəffüsdə qabaq sırada oturan oğlanın yanından ötüb onun zabit kitelindən tikilmiş köynəyini iylədi. Ondan davanın iyi gəlmirdi. Dəhlizdə duran bir qızın əynində əsgər köynəyindən tikilmiş kofta vardı. Fərid dözmədi, gedib onu da yoxladı. Qızın koftasındn xoş bir ətir iyi gəlirdi. Hər il nənəsinin həyətlərində bitən qızılgülün ləçəklərindən çəkdiyi gülab ətri! Nənəsi hərdən gülabdan Fəridin çayına tökürdü. Elə yaxşı olurdu, içdikcə içmək istəyirdin.

Fərid məktəbdən evə qayıdan kimi mətbəxə getdi. Orda rəfə gülab dolu şüşə qoyulmuşdu. Fərid kətili ayağının altına qoyub yuxarı qalxdı, ovucuna şüşədən bir neçə damcı gülab töküb pencəyinə sürtdü. Sonra gülabdan aparıb şineldən tikilmiş balaca paltosunun yaxasına, qollarına səpdi.

Fərid məktəb paltarını soyundu, dəhlizə çıxdı. Təzədən dönə-dönə otağa qayıdıb pencəyini, paltosunu iylədi. Hər ikisindən gülab ətri gəlirdi. Atasını ondan ayıran dava iyindən bir iz də qalmamışdı. İndi onun paltarlarından həyətlərində bitən qızılgülün ətri gəlirdi. Fərid buna çox sevindi. Bir parça lavaş kəsib, şordan yaxdı, dürmək tutub iştahla yeyə-yeyə yoldaşları ilə oynamağa getdi.

***Hüseyn Abbaszadə***

### *Müəlliflə tanışlıq*



***Hüseyn Abbaszadə***

*Yazıçı haqqında ən dolğun məlumatı qızı İradə Abbaszadənin xatirələrindən oxumaq olar. Hüseyn Abbaszadə ön və arxa cəbhənin vətənpərvəri kimi tanınıb, haqqın, ədalətin və həqiqətin carçısı olub: "Həmişə Azərbaycanı azad, inkişaf etmiş dünyanın bir parçası görmək istəyib. Onun üçün Vətən anlayışı bütün dəyərlərin fövqündə dururdu. O, 1941-ci ildə müharibəyə gedib. 1945-ci ilin 9 may günü yaralı vəziyyətdə qatarla arxa cəbhəyə gətiriləndə, yolda qələbə xəbərini eşidib. Müharibə haqda yazanda atam başqalarından fərqli olaraq, təkcə eşitdiyini deyil, həm də gördüyünü yazırdı. O, müharibənin odunun-alovunun içindən keçmişdi. Gözünün qabağında minlərlə insan can vermişdi. Ona görə də müharibədən yazdığı əsərləri çox təbii idi. Çünki bütün bunları, müharibə dəhşətlərini o lap gənc yaşlarında, hisslərinin hələ kövrək zamanında yaşamışdı".*

## SİNİFDƏNXARİC OXU

### GƏRƏKDİ

Aşıq olub diyar-diyar gəzənin
Əvvəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqla ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdi.

Danışdığı sözün qiymətin bilə,
Kəlməsindən ləlü gövhər süzülə,
Məcazi danışa, məcazi gülə,
Tamam sözü müəmmalı gərəkdi.

Arif ola, eyham ilə söz qana,
Naməhrəmdən şərm eyləyə, utana,
Saat kimi meyli haqqa dolana,
Doğru qəlbi, doğru yolu gərəkdi.

Ələsgər haqq sözün isbatın verə,
Əməlin mələklər yaza dəftərə,
Hər yanı istəsə, baxanda görə,
Təriqətdə bu sevdalı gərəkdi.

***Aşıq Ələsgər***

*Müəlliflə tanışlıq*



***Aşıq Ələsgər***

*Azərbaycan xalq şeirinin ən böyük nümayəndələrindən Aşıq Ələsgər bir sıra görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara qüvvətli təsir göstərmişdir. Hələ kiçik yaşlarından tez-tez müxtəlif məclislərə gedən aşıq dərvişlərin nağıllarına, aşıqların dastanlarına həvəslə qulaq asır. Güclü yaddaşı olduğundan eşitdiyi söhbətlərin hamısını hafizəsində saxlayaraq, heç bir çətinlik çəkmədən başqalarına danışardı. O, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan ədəbiyyatında böyük iz buraxmışdır. Görkəmli Azərbaycan şairi Səməd Vurğun öz çıxışlarının birində belə demişdir: "Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram altında Dədə Ələsgərdən bir nişanə görürəm". Aşıq Ələsgərin səsi, nəfəsi kimi, zahiri görkəmi də aşıqlıq sənəti üçün biçilmişdi. Müasirlərinin dediyinə görə o, ucaboy, enlikürək, bədəncə sağlam, qüvvətli imiş. Qara gözləri, qalın çatma qaşları, dolu sifəti, iri burnu varmış. Sazı sol əli ilə çalar, sağ əlini pərdələr üzərində gəzdirər, zil nazik səsi ilə çox şirin və məlahətli oxuyarmış.*

## QURBAN BAYRAMI
*(Hekayə)*

Mən babamın yeganə nəvəsi idim. Atam Qarabağ savaşında şəhid olmuşdu. Babam bu qanlı savaşda oğlunu itirib, məni tapmışdı. Atam şəhid olanda mən iki yaşındaymışam. Mən atamın yoxluğunu beş yaşımda olanda başa düşdüm. Babam hərdən mənim əlimdən tutub kəndimizin məscidinə apardı. O, orada taytuşları ilə söhbətləşəndən sonra məscidin minarəsinə çıxardıq. Babam əlimdən bərk-bərk yapışardı ki, minarənin dolama pilləkənlərindən yıxılmayım. Minarənin başına çatanda babam xeyli tövşüyərdi. Mənim də alnıma tər gələrdi. Babam dəsmalını çıxarıb alnımdakı təri silərdi.

— Bura Allahın evidi, — deyərdi, — müqəddəsdi, böyüyəndə tez-tez gəlib ibadət edərsən.

— Niyə, baba?

— Çünki Allah ona sədaqətli olan insanları çox sevir, — deyə babam köks ötürərdi. Sonra babam səssizcə dayanıb gözləri yaşa-

rıncaya qədər düşmənin işğal etdiyi şəhərlərə, kəndlərə tərəf baxardı. Bir dəfə babam əlini dağlara sarı uzadıb:

— Bax, atan rəhmətlik düşmənlə orada vuruşub şəhid olub, — dedi. — Atan vətən yolunda qurban getdi.

— Baba, atam yadıma gəlmir.

— Sən onda lap balacaydın, Allah qoysa, sən də böyüyəndə igid bir oğlan olacaqsan.

Mən dağları göstərib:

— Baba, o dağların adı nədi? — soruşmuşdum.

— Bax, o uzaqdan görünən Murov dağıdı, bu yaxındakı isə Şahbulaq.

— Şahbulaq nə deməkdir?

— Vaxtilə Şah Abbasın orada karvansarası olub. Qarabağ xanı Pənah xan da burada qala tikibmiş. O dağın altından həm də su çıxır, ona görə də Şahbulaq deyirlər.

— Baba, məni ora apararsan? — deyə soruşdum.

— İndi yox, Eldəniz, sonra apararam, sonra...

— Bəs haçan?

— Torpaqlarımız düşməndən azad olanda.

Babam bu sözləri deyəndə kövrəlmişdi. Mən onda babamın nə üçün kövrəldiyinin səbəbini başa düşməmişdim.

Bir gün babam bazardan qapqara bir qoç alıb gətirmişdi. Yamanca qəşəng idi. Təpəl, ayaqları ağ bir qoçdu. Babam dedi ki, bu qoçu sənin üçün almışam, Qurban bayramında kəsərik. Mən mərcan gözlü, qıvrım tüklü, təpəl qoçu göstərib:

— Baba, Qurban bayramı nədi? — soruşmuşdum.

Babam başımı sığallayıb alnımdan öpmüşdü:

— Qurban bayramında deyərəm.

— Bu qoçun adı nədi?

Babam qoçun alnındakı ağ xalı sığallayaraq:

— Adı yoxdur. İstəyirsən bunun adını Qaşqa qoyaq.

— Qaşqa nədi, baba?

Babam dedi:

— Bax, Eldəniz, alnında ağ xalı olan qoyun-quzuya, ata qaşqa, ayaqlarında ağ zolaq olanlara isə səkil deyirlər. Başa düşdün?

— Bəli, — dedim və Qaşqanı bağçamıza apardım.

Mən hər gün Qaşqanı yemləyirdim, su içirirdim. Məktəbə gedəcəyim günü, həm də Qurban bayramını səbirsizliklə gözləyirdim.

Qaşqa mənə yamanca öyrəşmişdi, hara gedirdim hoppana-hoppana arxamca qaçırdı. Qəşəng dodaqları ilə əllərimi imsiləyirdi. Mənim qaragöz, təpəl, səkil ayaqlı Qaşqam çox mehriban idi.

Bir gün babam evə sevinclə qayıtdı. O mənə məktəbli forması, kitab-dəftər almışdı, bir qucaq da gül gətirmişdi.

Səhəri gün tezdən babam, nənəm, anam məni geyindirib məktəbə apardılar. Babam Qaşqa arxamca gəlməsin deyə, iplə onu ağaca bağlamışdı. Qaşqa qoxumu alıb arxamca dartınır, yazıq-yazıq mələyirdi.

Məktəbə çatanda babam gülləri mənə verdi ki, müəllimə bağışlayım. Mən gülləri müəllimə verdim. O da mənə "sağ ol" deyib gülləri götürdü, əli ilə çənəmdən tutub mehriban baxışlarla gözlərimin içinə baxdı. Mənim məktəb həyatım belə başladı.

Elə ilk gündən müəllimimiz bizə Dövlət Himnimizi oxumağı öyrətdi. İlk vaxtlarda biz birgə oxumağa çətinlik çəkirdik, amma sonra alışdıq. Biz himnimizi çox həvəslə, qürur hissilə oxuyurduq:

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Bir gün babamın Qaşqanın boynuna qırmızı lent bağladığını görüb səbəbini soruşdum. O:

— Sabah Qurban bayramıdı, onu kəsəcəyik, sən də yeddi qonşuya pay aparacaqsan.

— Baba, istəmirəm mənim Qaşqamı kəsəsən, — dedim.

Babam çömbəlib gözümün içinə baxdı:

— Elə demə, Allaha xoş getməz.

— Niyə kəsirsən, Qaşqa yazıq deyil?

— Eldəniz, Allah belə buyurub, niyyət eləmişdim. Niyyətim qəbul olunub, — dedi. — Mən Allahı aldada bilmərəm... Bilirsən,

keçmişdə İbrahim peyğəmbərə Allahdan bir qoç gəlib ki, onu kəsib yoxsullara paylasın. O, qoçu kəsib kasıblara, qonşulara paylayır. Bax o zamandan müsəlmanlar hər il Qurban bayramı keçirir, qoç kəsib qohuma-qonşuya paylayırlar. Mən bir də sənə orta məktəbi bitirib, ali məktəbə qəbul olunanda qurban kəsəcəm.

Babam sözlərini bitirib Qaşqanı başıma hərlədi, ovcundakı duzu ona yaladıb kəsmək üçün yerə yıxanda evimizin arxasına qaçdım. Hiss etdim ki, mənim bu hərəkətimə gülüşdülər. Amma mən çox sevdiyim Qaşqanın başının kəsilməsinə tamaşa edə bilməzdim.

Bir azdan məni çağırdılar, babam barmağını qana batırıb alnıma xal qoydu. O, içində yeddi pay ət olan məcməyini mənə verdi ki, yeddi qapıya gedib qonşulara paylayım. Mən məcməyini götürüb getdim. Hər kəs məndən payı alanda alqış edib deyirdi:

— Eldəniz, qurbanın qoyun olsun, Allah səni qorusun!

O gün mən qonşularımızın məhəbbətini qazanmışdım. Babam mənə Allaha sədaqətli, insanlara qarşı mərhəmətli olmağın yolunu göstərmişdi.

***Mustafa Çəmənli***

*Müəlliflə tanışlıq*



***Mustafa Çəmənli***

*Mustafa Çəmənli yaradıcılığının yetkinləşən çağında özünəməxsus yol seçdi: o, mədəniyyətimizin görkəmli simalarından bəhs edən onlarla kitab yazdı. Musiqi sənətimizin korifeylərinin həyat yolu onun qələmindən çıxan kitablarda əbədiyyət qazandı. Sonralar bu yaradıcılıq yolu müxtəlif istiqamətlərə haçalandı. Xalqımızın igid oğullarından, onların qəhrəmanlıq dolu həyatından bəhs edən kitabları işıq üzü görəndə o özünü sənədli povest yazıçısı kimi də təsdiq etdi.*

*Mustafa Çəmənli həmişə həqiqətə can atır. Bu onun yaradıcılığında müstəsna yer tutan tarixi romanlarında da öz əksini tapır. Təsadüfi deyil ki, Mustafa Çəmənli "Ölüm mələyi" tarixi romanına görə Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl kəlmə" ədəbi mükafatına layiq görülmüşdür.*

## OVÇU İLƏ İTİN VƏ TÜLKÜNÜN HEKAYƏTİ

Tez görən, uzaqgörən, usta bir ovçu vardı,
Gəzib biyabanları, ov yerini tapardı.

Bəd bir iti vardı ki, çeviklikdə şir, aslan,
Günəş şüalarını ceyran belində tutan.

Kərgədan tük salardı boynunun qüvvəsindən,
Çöl eşşəyi dişindən, dağ kəli zərbəsindən.

Yolçuluqda ovçunun dostu, arxadaşıydı,
Çox işinə yaramış vəfalı yoldaşıydı.

Gecə keşik çəkən it gündüz əmrə müntəzir,
Görərdin ki, onunçün qida gəzir, yem gəzir.

Bir gün aslan ovçunun yox oldu aslan iti,
Ovçunun göz yaşları ciyərlərini diddi.

Bildi ki, dərd əlindən qanə dönsə də ürək,
Ciyərini dişində tutub tab etmək gərək!

Ovçu dözdü, səbrinin misqal boyda arpası,
Bəlkə, bir dirhəm qədər xeyir gətirdi azı.

Ovçunun qarşısına bir tülkü çıxdı lapdan,
Dedi: — Səbir etmək olmaz, sən ey səbirli insan!

Eşitdim ki, eşsiz qüdrət, hünər yolçusu
Dünyadan köçüb gedib... Nə qəm, başın sağ olsun!

Bir anda yaxalardı yüz cüyürü, ceyranı,
Oldu zirəkliyinin, cəldliyinin qurbanı.

Bilirəm, sənin üçün bu dərd hər şeydən betər,
Ovladığın qəm-kədər sənə iki ay yetər.

Qalx, bu ovdan kabab çək, ver könül ziyafəti,
Dərisi dərvişlərin, əti ovçu qisməti.

Bilirəm, çox yemisən dadlı, ləzzətli xörək,
Bir də yağlı tülkülər əlinə keçməyəcək.

Yağlıyıq, yavanıqmı? Düşündürmür heç səni,
Süfrəmizdən çəkmisən iştahının əlini.

Nə yaxşı ki uzağam daha sənin torundan,
Nə yaxşı ki azadam şikarından, darından.

Sirdaşından ayrısan, bəs bu nə cür vəfadır?
Qəm yemirsən... bəs nədən ciyərlərin yaradır?

Ovçu dedi: — Doğacaq... hamilədir bu gecə,
Qəmim bircə günlükdür, keçib gedər indicə.

Bircə bundan şadam ki, bu ölümlü dünyada
Sevinc, kədər həmişə bir-birini qovmada.

Bu boş, fani dünyada, bu dəyişən qəlibdə,
Xidmət, sərvət, səltənət elə gedib-gəlib də.

Hər şey keçib gedəcək: həm Ay, ulduz, həm fələk,
Rahatlıq da, möhnət də bir gün sona yetəcək.

Bir azca şadlanıram dərdim, qəmim olanda,
Çünki sevinc müjdəsi gətirir qəm cahanda.

Bu qəmdən Yusif kimi mən bəlaya uğradım,
Fəqət qurd deyiləm ki, dərddən dərimi yırtım.

Ey tülkü, şad olma ki, mənə dağ çəkdi fələk,
Hələ sənintək şikar əlimə çox düşəcək.

Ovçu bunu deyərkən yollar toza büründü,
Toz pərdəsi dalından cəsur köpək göründü.

Gəldi, öncə dolandı arxasını, önünü,
Lapdan dişinə çəkdi qasığını tülkünün:

— Bir az gecikdim deyə, sən məni pislədinmi?
Geciksəm də, yetirdim özümü aslan kimi!

O kimsə ki, bəsləyir yəqinliyə sədaqət,
Onun işinin sonu səadətdir, səadət.

Yəqinlik yolunu tut daim bu kainatda,
Yəqinlikdən mübarək mənzil yoxdur həyatda.

Yəqin inam gücünə saf qızıla dönür daş,
Ayaqda əyləşənlər başa keçirlər, qardaş.

Yəqin bir inam ilə addım atsan qorxusuz,
Oddan su çıxararsan, dəniz dalğasından toz.

Yəqini təvəkkülə qarışdırıb yoğuran,
Yazar kərəm əlilə: "Ruzu yalnız Tanrıdan!"

Yəqin əhli nuş edər daşdan yumşaq hər nə var,
Nə quyruqda sülənər, nə çibintək qan sorar.

Tanrı yoluyla getsən, nə qəm ye, nə qüssə çək,
Evindən yavanlığın heç vaxt əskilməyəcək.

Tanrı qapısında ol, o hər kəsdən uludur,
Ruzunu ondan istə, ruzu verən də odur.

***Nizami Gəncəvi***

## TÜLKÜ İLƏ QURD

*(Təmsil)*

Qış düşmüşdü. Hər yeri qar örtmüşdü. Qurd payızdan hər tədarükü görüb, azuqəni evinə toplamışdı. Amma tülkü tədarükzad görməmişdi.

Acından qarnı quruldayırdı. Tülkü qurdun mağarasının qapısına getdi, qapıdan baxdı, gördü qurdun kefi kökdü, ocağın qırağında oturub dəm alır. Tülkü qurda dedi:

— Ay qurd lələ, soyuqdan ölürəm, məni evinə burax, isinim.

Qurd dedi:

— Səninlə mənimki tutmaz. Acığım tutar, səni yeyərəm.

Tülkü yalvar-yapış elədi. Qurdun ona rəhmi gəldi, evinə buraxdı. Tülkü ocağın qırağında oturdu. Bir az söhbət elədilər. Qurd yıxılıb yatdı. Tülkü bərk acmışdı. Yerdən durub evi axtarmağa başladı. Gördü evdə bir küpə yağ, bir boşqab da halva var. İstədi yesin. Öz-özünə dedi: "Birdən qurd ayıq olar, məni tikə-tikə elər". Tülkü gedib qapını taqqıldatdı. Qurd yuxudan oyanıb dedi:

— Qapını taqqıldadan kimdi?

Tülkü ona cavab verdi:

— Qonşun çolaq dovşandı, səni qonaq çağırır.

Qurd dedi:

— Mənim bərk yuxum gəlir, getmirəm.

Qurd başını yerə qoyub yatdı. Tülkü baxdı, gördü qurd lap bərk yatıb. Gedib yağla halvanı yedi, gəlib yatdı. Qurd tezdən yerindən durdu, istədi halvanı gətirib yesin. Gördü halva yoxdu, yağı yemək istədi, gördü o da yoxdu. Tülkünün üstünə qışqırıb dedi:

— Yağı, halvanı sən yemisən? Səni tikə-tikə eləyəcəyəm.

Tülkü and-aman eləyib dedi:

— Mən yeməmişəm.

Qurd onun sözünə inanmadı. Tülkü ona dedi:

— Ocağın qırağında yataq. Hansımız yağı, halvanı yeyibsə, oda tərəf olan yerinin yağı əriyəcək.

Qurd razı oldu. Hər ikisi böyrü oda tərəf uzandı. Tülkü gözlədi, qurd yuxuya getdi. Tez ayağa qalxdı, küpədə qalan yağı

gətirdi, qurdun böyrünə sürtdü, yıxılıb yatdı. Bir şər yatandan sonra yuxudan ayıldılar. Böyürlərinə baxdılar, gördülər qurdun böyrü yağlıdı.

Tülkü dedi:

— Yağı, halvanı özün yemisən, mənim üstümə atırsan.

Qurd bir söz demədi. Çox hirsləndi. Hirsindən evdən çıxıb getdi. Ev tülküyə qaldı. Tülkü isti evdə keflə qışı keçirtdi.

## İKİ QARDAŞ NAĞILI

Bir şəhərdə iki qonşu var imiş, biri tacir imiş, o biri əkinçi. Bunların hərəsinin iki oğlu var imiş. Tacirin oğlanları həm fərasətsiz, həm də yaman dəcəl imişlər. Elə işləri, peşələri ona-buna sataşmaq imiş. Amma əkinçinin oğlanları ağıllı, zəhmətkeş, başıaşağı imiş. Bu kişinin bütün var-dövləti bircə cüt öküzü var imiş. Kişinin böyük oğlu evli imiş, kiçiyi subay.

Ay dolanır, il keçir, kişi canını oğlanlarına tapşırıb ölür. Ataları öləndən sonra iki qardaş bir müddət bir yerdə dolanırlar. Amma böyük qardaşın arvadı hey ərinin baş-beynini aparıb giley eləyir:

— Qardaşın böyüyüb yekə oğlan olub. Nə vaxtacan bizimlə bir yerdə qalacaq. Ona de ki, çıxıb getsin. Özünə ayrı yerdə ev-eşik düzəltsin.

Arvad nə qədər deyirdisə, əri qardaşından ayrılmaq istəmirdi. Amma arvad əl çəkmirdi ki, çəkmirdi. Axırda əri əlacsız qalıb kiçik qardaşına dedi:

— Qardaş, görürəm bu arvad səni yola verməyəcək, mən də öhdəsindən gələ bilmirəm. Yaxşısı budur gəl səni ayırım, sənin də canın rahat olsun. Mən də onun danlağından qurtarım. Arxayın ol, səni ayırsam da, gözüm üstündə olacaq.

Kiçik qardaş razı oldu. Var-yox, atalarından qalan iki öküzləri var idi. Onu da bölüşdülər, hərəsinə biri düşdü. Qardaşlar bir neçə ay ayrı yaşadılar.

Ay dolandı, gün keçdi, əkin əkmək vaxtı gəlib çatdı. Böyük qardaş baxıb gördü bir öküznən heç bir iş görə bilməyəcək. Əlacı kəsilib gəldi kiçik qardaşının yanına, dedi:

— Qardaş, indi əkin vaxtı gəlib, bir öküzlə nə sən iş görə biləcəksən, nə mən, gəl birlikdə əkib-becərək, nə götürsək, tən yarı bölərik.

Kiçik qardaş razı oldu. Həmin gündən iki qardaş arpanı, buğdanı əkib, biçib döydülər. Hərəsi öz payını taya kimi bir yerə yığdı. İstədilər evə daşısınlar, gördülər qaranlıq düşüb. Hərə öz taxılının yanında uzanıb yatdı ki, səhər açılanda işıq gözü durub daşıyarıq. Böyük qardaş yuxuya gedəndən bir az sonra kiçik qardaş durub öz-özünə bərkdən dedi:

— Bu heç insafdan deyil, böyük qardaşımın arvad-uşağı var. Külfəti böyükdü, amma mən təkəm. Taxılı da tən yarı bölmüşük. Gərək mən çox hissəsini böyük qardaşıma verəydim.

Oğlan sözünü qurtarıb kürəyi aldı əlinə, öz arpa-buğdasının yarısını tökdü qardaşının payının üstünə. Sonra yenə yıxılıb yatdı. İndi də böyük qardaş yuxudan ayıldı. O da ucadan öz-özünə dedi:

— Heç insaf deyil. Mən taxılı kiçik qardaşımla tən yarı bölmüşəm. Əvvəla, mən haqsızlıq eləyib onu ayırdım. Sonra da öküzünü verməsəydi, mənə kömək eləməsəydi, bu qədər taxılı hardan ala bilərdim.

Bu qardaş da kürəyi əlinə alıb öz arpa-buğdasının tən yarısını kiçik qardaşının payının üstünə tökdü. Sonra da yıxılıb yatdı.

Qardaşlar səhər yuxudan ayılıb görürlər ki, taxıllarının üstü qızılla doludur. Onlar bu işə məəttəl qalırlar. Öz aralarında götür-qoy eləyirlər ki, bəlkə, bizi şərə salmaq üçün qızılları bura töküblər. İstəyirlər ki, qızılları götürməsinlər. Baxıb görürlər ki, taxıl tayasının üstündə bir kağız var. Kağızı açıb oxuyurlar: "Ey Allahın təmiz ürəkli bəndələri, mən bilirəm ki, siz bu qızılları aparmaq istəməyəcəksiniz, qorxmayın, aparın. Öz malınız kimi halaldı. Gecə sizin hər ikinizin söhbətini, elədiyiniz işi gözümnən gördüm. Bu iş mənə çox xoş gəldiyinə görə bu qızılları sizə bağışlayıram. Aparın, halal xoşunuz olsun". Kağızı oxuyandan sonra qardaşlar taxıl və qızılları yığışdırıb apardılar evlərinə. Özlərinə gözəl imarət tikdilər.

Qonşu tacirin oğlanları bunların bu cah-calalını görüb paxıllıqları tutdu. Tacirin böyük oğlu atasının nə qədər var-dövləti var idisə, hamısını kef-damağa verib, xərcləyib qurtarmışdı. O, bir gün atasının yanına gəlib dedi:

— Ata, daha sən qocalmısan. Ticarətə getməyə halın yoxdu. Gəl mənə pul ver, gedim alver eləyim, çoxlu pul qazanım, yenə əvvəlki dövlətini qaytarım özünə.

Atası dedi:

— Ay oğul, mənim o qədər pulum nə gəzir ki, sənə verəm, olan-qalanımın hamısını sən dağıtdın. Bir də fərasətinə bələdəm. Səndən pul qazanan olmaz.

Oğlan dedi:

— Ata, məgər mən qonşumuzdakı əkinçinin oğlanlarından fərasətsizəm? Görmürsən nə cah-calal düzəldiblər?!

Tacir dedi:

— Əlbəttə, fərasətsizsən. Mənim dövlətim onların indiki varından çox idi, hamısını dağıtdın.

Oğlan yarıdil, yarıgüc atasının olan-qalan pulunu alıb, yol başladı uzaq şəhərlərə ticarətə getməyə. Az getdi, çox dayandı, dağlar aşdı, dəryalar keçdi. Gedib çıxdı Firəngistana. Burda qalıb başladı kef çəkməyə. Atasına da bir məktub yazıb yolladı ki, ata, daha mənim yolumu gözləmə. Mən burda qalası oldum.

Atası məktubu alandan sonra cavab göndərdi ki, oğul, səbəb nədi ki, öz evinə qayıtmaq istəmirsən?

Oğlan təzədən yazdı ki, ata, mən burda evlənmişəm. Arvadımı qoyub oralara gələsi deyiləm.

Tacir məktubu açıb oxuyan kimi cin vurdu beyninə. Götürüb oğluna yazdı ki, oğul, düz deyirsən. Sən evinə qonaq gələndə onun üçün yatmağa bir dəst yorğan-döşək tapmamağı, arvad-uşaq evdə acından ağlaşanda gedib ona-buna əl açmağı, boş süfrəni görməyibsən. Borclular başının üstünü kəsib, ver borcumu deyəndə tər tökməyi görməyibsən. Səndəki fərasətə ki mən bələdəm, bu şeyləri görəcəksən, onda özün qayıdıb gələcəksən.

Tacir məktubu yola saldı. Oğlan atasından məktubu alanda, doğrudan da, əlində olan pulu, var-dövləti tamam qurtarmışdı. Borc boğazına qədər yığılmışdı. Arvad da ağına-bozuna baxmayıb gündə bir şey istəyirdi. Oğlan baxıb gördü ki, işlər şuluqdu. Əlacı kəsilib kor-peşman qayıtdı atasının yanına. Atası oğlunu görüb dedi:

— Hə, oğul, indi necəsən, bəs qədrini bildiyin o “gözəllər” harda qaldı?

Oğlan başını aşağı salıb dinmədi. Tacirə hər şey əyan idi deyə, o da heç nə demədi.

Hə, sizə indi kimdən deyək, tacirin o biri oğlundan. Bu oğlan da ağıldankəm, qoldan qüvvətli idi. On adam onun bir qolunu qatlaya bilməzdi. İşi belə görən kiçik qardaş cuşa gəlib dedi:

— Ata, indi də mənə icazə ver gedim, bir yerdə iş-gücdən tapım, bəlkə, bir az puldan-paradan qazandım.

Tacir dedi:

— Oğul, səndən böyük qardaşın getdi neynədi ki, sən də neynəyəsən?

Oğlan dedi:

— Ata, sən ki məndəki gücə, qüvvətə bələdsən. Bu qədər gücü olan adam nə desən, eləyər.

Tacir dedi:

— Oğul, səhv eləyirsən, təkcə güclə heç nə eləmək olmaz. Adamda ağıl, bacarıq da olmalıdır.

Oğlan hirslənib dedi:

— Ata, indi ki belə oldu, mən getdim. Görərsən, bu güclə, bu qüvvətlə nə qazanaram.

Oğlan evdən çıxıb o qədər getdi ki, bir böyük çayın qırağına çatdı. İstədi soyunub çaydan keçsin. Gördü yox, bu o deyən çaylardan deyil. Bu çaydan keçmək mümkün deyil. Amma baxıb gördü ki, iki nəfər adam camaatı bərəyə mindirib, sudan keçirir. Gedib onlara dedi ki, məni də keçirin.

Bərəçilər dedilər:

— Adamın birini bir manata keçiririk. Pulun varsa, ver keçirək, yoxdursa, keçirmirik.

Oğlan gördü bunlar pulsuz keçirməyəcək, qolunun zoruna salıb hərəsini bir tərəfə itələyib, keçib oturdu bərədə. Özlərinə də qışqırdı ki, keçirin məni o taya.

Bərəçilər sözü bir yerə qoydular ki, oğlanı itələyib suya yıxsınlar. Dinməz-söyləməz bərəni sürdülər. Bir xeyli gəlib, suyun lap gur yerində bərəni löngərlətdilər. Fürsət tapıb oğlanı itələdilər düz suyun içinə. Su o saat oğlanı axıtdı. Oğlan suyun içində o qədər əlləşdi ki, axşam qaranlıq düşəndə birtəhər gücnən qırağa çıxa bildi. Səhər tezdən təzədən başladı yol getməyə. Gedib bir yerə çıxdı, gördü burada adamlar bir quyunun başına yığılıb,

pulla su alıb içirlər. Oğlan irəli keçib bir az su istədi. Pulu yox idi deyə su vermədilər. Oğlan qolunun gücünə güvənib, su satanı itələdi ki, alıb su içsin, su satan o saat haray saldı ki, ay camaat, nə durubsunuz, bu adam bizim suyumuza sahib olmaq istəyir. Oğlanı o ki var döyüb, baş-gözünü yarıb yola saldılar. Oğlan korpeşman başladı yol getməyə. Gedib bir dəvə karvanına rast oldu. Karvanbaşıdan xəbər aldı:

— Bu səhralıqda niyə düşüb qalıbsınız?

Karvanbaşı dedi:

— Qardaş, qabaqda qırx quldur mağarası var, gecə vaxtı ordan keçsək, bizi soyarlar. Elə buranın özündə də qorxuludur, birdən gəlib quldurlar bizi tapa bilərlər.

Oğlan dedi:

— Siz qorxmayın, təkcə mən iyirmi-otuz quldura cavab verərəm.

Karvanbaşı oğlanın sözündən bir az ürəkləndi, ona çörəkdən-zaddan verdilər, yedi yatdı. Gecənin bir vaxtı karvançılardan biri dedi:

— Ay qardaşlar, mən bu adamdan şübhələnirəm, birdən o, quldurların yoldaşlarından olar, bizi arxayın salıb yuxuya verəndən sonra yoldaşlarını çağırar. Var-yoxumuzu əlimizdən alarlar. Gəlin elə bunu yata-yata qoyaq, xəlvətcə yola başlayaq gedək. Yoldaşları bu fikrə razı oldular. Sakitcə yığışıb getdilər. Oğlan yorğun olduğundan elə yatmışdı ki, heç nədən xəbəri yox idi. Oğlan bir də gözünü açıb gördü ki, lələ köçüb, yurdu qalıb. Bilmədi nə eləsin, hara getsin. Gəlib bir meşəyə çatdı, yenə otdan-ələfdən yeyib aclığını söndürdü. Demə, bu vaxt padşah öz qoşunuyla ova çıxıbmış. Birdən oğlanı gördü, yanına çağırıb dedi:

— Oğlan, kimsən, nəçisən, buralarda tək-tənha nə eləyirsən?

Oğlan ağlaya-ağlaya başına gələn əhvalatları bir-bir danışdı. Padşahın yazığı gəldi, oğlana pal-paltar, bir xeyli pul verdi. Oğlan cığırı tutub düz gəldi evlərinə.

Atası oğlunun qayıtdığını görüb sevindi. Bir xeyli söhbətdən sonra oğlan başına gələn əhvalatların hamısını atasına da söylədi, dedi:

— Ata, bəs sən deyirdin ki, təkcə güc ilə heç nə qazanmaq olmaz. Bəs mən pulu necə qazandım?

Atası dedi:

— Oğul, əvvəla, sənin bu pulun bir həftədən artıq qalmaz. Axı bir də sən o pulu heç bir zəhmət çəkib qazanmayıbsan. Bu, bir təsadüf nəticəsində olub. Əgər yolda padşaha rast olmasaydın, bu pulu da ala bilməzdin. Təsadüfə bel bağlamaq olmaz. Pul qazanmaq üçün zəhmət çəkmək, ağıl işlətmək lazımdır. İndi mən sənə bir əhvalat söyləyəcəyəm, görəcəksən ki, səndən balaca bir uşaq təsadüfə nə cür cavab veribmiş.

Günlərin birində bir padşahın qiymətli bir üzüyü var imiş. Padşah düzgün ox atmağı sevərmiş. Odur ki üzüyü bir məscidin minarəsinin lap təpəsində, görünən bir yerdən asdırıb, hər yerə car çəkdirir ki, kim bu üzüyün içindən ox keçirə bilsə, üzük onun olacaq. Ölkədə nə qədər ox atan vardısa, hamısı tökülüb gəlir, heç kim üzüyün içindən ox keçirə bilmir. Bir uşaq da qarğıdan özünə ox düzəldibmiş. Uşaq gözünü yumub oxu hara gəldi atıb, hey gülürmüş. Birdən uşağın oxu düz üzüyün içindən keçir. O saat hamı hay-küy salıb uşağı alqışlayır. Gətirib üzüyü uşağa verirlər. Uşaq üzüyü geri qaytarır. Ondan xəbər alırlar ki, bəs sən niyə belə eləyirsən? Uşaq deyir:

— Mən gözlərimi yumub oxu atdım, təsadüfən o, üzüyün içindən keçdi. Bu mənim zəhmətimlə yox, təsadüf nəticəsində olmuşdur. Mən belə mükafatı özümə əskiklik bilirəm.

Kişi əhvalatı söyləyib qurtarandan sonra üzünü oğluna tutub dedi:

— Oğul, indi çox da öyünmə, sənin qazandığın qəpik-quruş da belə təsadüf nəticəsində olubdu. Əsl qazanc zəhmət, bacarıq, ağıl nəticəsində əldə edilir.

## SƏNƏ ASLANIM DEYƏN

Hekayə

*(İxtisarla)*

Adı dünyaya yayılmış Diziaynalı pəhləvan bir gün şahın hüzuruna gələndə baş əymədi. Vəzir-vəkili də saymayıb dərhal yuxarı keçdi. İçəridəkilər onu gözaltı süzsələr də, qorxularından heç nə demədilər. Bilirdilər ki, şah istəkli pəhləvanına söz deyənin boynunu vurdurur. Diziaynalı, adəti üzrə, şahın sağ tərəfində əyləşdi, dəstəyi naxışlı, uzun, enli qılıncını dizinin üstünə qoyub şəstlə içəridəkiləri süzdü. Şah da dinmədi. Həmişə başını tumarlayıb kürəyinə döydüyü sevimli pəhləvanının axır vaxtlar heç kəsi saymadığını, bu gün isə onun özünə belə məhəl qoymadığını görsə də, susdu. Ancaq hiss etdi ki, barmaqları şahlıq taxtının dirsəkliyini sıxdı.

— Necəsən, oğlum?

— Keyfin yaxşı olsun.

— Güləşməyə hazırsanmı?

— Güləşməyə yox, dünyanı çiynimə qaldırıb yerə çırpmağa da hazıram. Bu saat qollarımda elə güc var ki, heç kəs, heç kim qabağımda dayana bilməz!

— Yəni deyirsən, dizini yerə gətirən olmaz?

— Elə oğulu hələ anası doğmayıb.

Pəhləvan ayağa durdu. Sinəsini qabardıb şahın önündə dayandı. Onun enli kürəyi otağın yarısını tutdu. Şah pəhləvanının iri, cod əllərinə, tüklü qollarının şişmiş əzələlərinə, şüşənin altından aydın görünən diz kündələrinə, döş qəfəsinin aşağısına, qabırğalara doğru uzanan və paltarın üstündən belə aydınca hiss edilən girdə əzələlərinə və nəhayət, boynuna bitişmiş çiyinlərinə baxdı. Onun çiyni və sinəsi o qədər qabarıq idi ki, bunların müqabilində başı olduqca balaca görünürdü.

— İstəyirsən, bu saat buradakıların hamısını büküb alım dizimin altına!

Şahın qaşları çatıldı. Sifətindən qəzəb qarışıq acı bir təəssüf keçdi:

— Lazım deyil.

Şah qəzəbini boğub zorla gülümsündü. Diziaynalı bu gülüşdəki məzəmməti duymadı.

— Sabahkı döyüşdən qabaq səni bir yerə göndərəcəm.

— Hara?

— Qəbiristanlığa.

— Nə?!

Şah pəhləvanının təəccübünə əhəmiyyət vermədi. Sakitcə sözünə davam etdi.

— Gedərsən qəbiristanlığa, Rüstəm Zalı çağırarsan.

— Ölü mənim nəyimə lazımdır?

— Gərək olar.

Pəhləvan gəldiyi kimi, gedəndə də heç kəsi saymadı.

O, şəhərin kənarındakı qədim qəbiristanlığın girəcəyində ayaq saxladı. Xəfif külək yovşan qoxulu havanı onun üzünə çırpdı. Qəbiristanlıq böyük idi. Üstü naxışlı uca, iri başdaşları qibləyə üz tutaraq qatarlaşmışdı. Daşların üstünə qəbirdə yatanların sənətini bildirən şəkillər çəkilmişdi.

Pəhləvan asta və ləngərli addımlarla lal sükuta qərq olmuş qəbirlərin arası ilə ortadakı təpəyə doğru addımladı. Otlar saralmışdı. Çökmüş qəbirlərin ətrafında böcəklər dolaşırdı. O, qurumuş otların, yovşanların arası ilə addımladıqca çəyirtkələr ətrafa sıçraşırdı. Pəhləvan bəzən büdrəyib çuxura düşür, ayağının altında sümüklər ovxalanırdı.

Diziaynalı dikdirdə dayanıb nəfəsini dərdi. Nizami qoşun kimi sıralanmış başdaşlarına baxıb saymazyana qışqırdı:

— Ay Rüstəm!

Qəbir daşları tərpəndi. Müxtəlif tərəflərdən, yerin altından çıxanlar asta-asta ona yaxınlaşdılar. Pəhləvanın qarşısında dayanıb intizarla gözlədilər. Diziaynalı onları təkəbbürlə süzüb gülümsündü:

— Sizi kim çağırıb?

— Sən.

— Siz kimsiniz?

— Rüstəmik.

Pəhləvan qəhqəhə çəkdi. Əvvəlcə istədi onları qabağına qatıb qəbiristanlıqdan qovsun. Sonra fikrini dəyişdi:

— Mənə siz yox, Rüstəm Zal lazımdır.

Ölülər daşları qaldırıb qəbirlərin altında yox oldular.

Diziaynalı pəhləvanın sükutdan qulaqları cingildədi. Üfüqə doğru əyilmiş günəşin qürub sarılığında daha vahiməli görünən başdaşlarına baxıb yenidən qışqırdı:

— Rüstəm Zal, hey!..

Onun səsi qəbir daşlarına toxunub cingildədi. Pəhləvan qulaq verib öz səsinin əks-sədasını dinlədi. Birdən ayağının altında yer titrədi. Başdaşları silkələnib şaqqıldadı və Diziaynalı gördü ki, qəbiristanlığın aşağı tərəfindən bir təpə qalxdı və onun üstünə yeridi. Diziaynalını vahimə basdı. Dalı-dalı geri çəkilib kürəyini uca bir başdaşına söykədi. Əlini qılıncın dəstəyinə aparıb gözlədi.

Gələn insan idi. Yeridikcə dizə qədər torpağa batırdı. Onun enli kürəyi günəşin qabağını kəsdiyindən qəbiristanlığa qaranlıq çökdü. Ətrafdakı quru otlar, yovşan kolları tərpənib xışıldadı. Elə bil külək əsdi. Diziaynalının bədənini soyuq tər basdı. Çığırmaq istədi, səsi çıxmadı. Vahiməli-vahiməli qılıncını siyirib havada yellədi. Qüvvətli bir əl onun qolunu burub yanına saldı:

— Özünü niyə itirdin?

— Sən kimsən?

— Rüstəm Zalam.

O, kənara durdu. Pəhləvanın üzünə gün düşdü. Diziaynalı təpimiş dodaqlarını yalayıb qarşısında dayanan nəhəngə baxdı:

— Niyə torpağa batırsan?

— Görünür, torpaq yumşaqdır.

— Bəs mən niyə batmıram?

— Yəqin, mən səndən ağıram.

— Yəni demək istəyirsən ki, səndən güclüyəm?

— Bilmirəm. Hələ səninlə gücümü sınamamışam.

— Sən pəhləvansan?

Rüstəm Zal gülümsündü:

— Sözünü de.

— Diziaynalı onun mehribanlığından azacıq ürəkləndi və altdan yuxarı Rüstəmin üzünə baxdı. Bu nəhəngin qarşısında nə qədər balaca və cələfsiz olduğunu dərk etdi.

— Bəs sənin sorağın qulağıma niyə dəyməyib?

— Hamı sənin kimi adlı-sanlı olmaz ki?

— Yoxsa mənim güclü pəhləvan olmağıma inanmırsan? Məni bütün dünya tanıyır. Hamı qabağımda zağ-zağ əsir. Neçə pəhləvanın kürəyini yerə vurmuşam, ancaq hələ mənim dizimi yerə gətirən olmayıb.

— Bilirəm.

— Dördböyrək pəhləvanı mən yıxmışam.

— Bilirəm.

— Kəlboynunu da mən dizimin altına almışam.

— Onu da bilirəm.

— Haçaürək pəhləvanı necə danaboyun elədiyimi də, yəqin, eşitmisən?

— Eşitmişəm.

— Bəs niyə gülürsən?

— Ona görə ki o pəhləvanlar səndən güclüdürlər.

— Necə? Məndən güclüdürlər? Bəs niyə kürəklərini yerə vurub dizimin altına alıram? Bəs niyə qabağımda duruş gətirə bilməyib yıxılırlar?

— Şahın qorxusundan.

— Şahın buraya nə dəxli var?

— Var, əzizim, var. Əgər o sənin dalında durmasa, bircə gündə yox olarsan.

— Elə şey yoxdur. Mənim özüm güclüyəm. Mənim qabağıma heç kəs çıxa bilməz. Nə qədər ad-san qazanmışamsa, özüm qazanmışam. Mənim dizimi yerə gətirən hələ anasından olmayıb. Ona görə mənə Diziaynalı deyirlər.

Rüstəm gülümsündü. Yuxarıdan aşağı baxıb qarşısındakı pəhləvanın pörtmüş sifətini, qılıncın dəstəsindən necə yapışdığını gördü. Onun xoruz kimi boynunu şax tutub dünyaya meydan oxumaq meylində olduğunu anladı. Əlini pəhləvanın çiyninə qoyub ehmalca aşağı basdı. Diziaynalı ağırlıq altına düşmüş yay kimi sıxılıb balacalaşdı. Nə qədər silkələndisə, çiynindəki ağırlığı ata bilmədi. Özü də hiss etmədən büzüşüb aşağı çökdü. Dizləri yerə gəldi. Rüstəm onun dizlərinin ehmalca yerə endiyini hiss edib dayandı. Bir balaca da əlinin ağırlığını salsaydı, pəhləvanın dizlərindəki aynalar sına bilərdi. Rüstəm bunu istəmədi.

Əlini boşaltdı. Pəhləvanın çiynindən tutub yuxarı qaldırdı. Sıxılmış "yay" indi də asta-asta açılıb dikəldi. Rüstəm əlini götürdü. Pəhləvan ufuldanıb dərindən nəfəs aldı. Bilmədi, gözünü gün qamaşdırdı, yoxsa başının üstündə qığılcım oynadı. Özünə gələndə gördü ki, qəbiristanlığı bürüyən kölgə uzaqlaşdı. Yenə ayağının altında yer titrədi, başdaşları silkələnib şaqqıldadı. Rüstəm Zal yox oldu. Pəhləvan çiynini ovxalaya-ovxalaya onun dalınca qışqırdı:

— Sənin ki belə gücün var, bəs niyə mənim kimi məşhur deyilsən?

Yerin altından səs gəldi:

— Sənə "aslanım" deyən mənə "pişiyim" desəydi, dünyanı çiynimdə gəzdirərdim.

Diziaynalı kürəyini söykədiyi başdaşının dibinə çömbəldi. Qolu ilə alnındakı soyuq təri sildi.

Qəbiristanlığa ağır və vahiməli bir sükut çökdü.

***İsmayıl Şıxlı***

## QARIŞDIRMA

*(Oğlum Mahirə)*

Kobudluqla cəsarəti qarışdırma.
Yaltaqlıqla nəzakəti qarışdırma.
Mütiliklə sədaqəti qarışdırma.
Lovğalıqla ləyaqəti qarışdırma.
Tərs damarla dəyanəti qarışdırma.
Dəlibaşla şücaəti qarışdırma.
Tülkülüklə fərasəti qarışdırma.
Düşmənliklə rəqabəti qarışdırma.
Qızğınlıqla hərarəti qarışdırma.
Kef-damaqla səadəti qarışdırma.
Uydurmaqla rəvayəti qarışdırma.

Xəsisliklə qənaəti qarışdırma.
Xata ilə cinayəti qarışdırma.
İsraf ilə səxavəti qarışdırma.
Küsü ilə küdurəti qarışdırma.
Zorbalıqla əzəməti qarışdırma.
Girov ilə əmanəti qarışdırma.
Qaxınc ilə məzəmməti qarışdırma.
Güzəşt ilə bəraəti qarışdırma.
Hikkə ilə qətiyyəti qarışdırma.
Əsarətlə himayəti qarışdırma.
Məzlumluqla nəcabəti qarışdırma.
Yaxınlıqla məhəbbəti qarışdırma.
Yuyunmaqla qüdsiyyəti qarışdırma.
Mərhəmətlə ülviyyəti qarışdırma.
Daha nəyi... daha nəylə qarışdırma.
Tükü-tükdən ayır səylə, qarışdırma.
Aman... aman!!! Qarışdırma.
Heç bir yerdə,
Heç bir zaman
Qarışdırma!

***Qabil***

## ƏLAVƏLƏR

***ƏLAVƏ №1***

### Oxu testləri üzrə işin təşkili

**I. Özünüzü tənzimləyin.** Testə ötəri nəzər salın. Yoxlama üçün neçə test verildiyini müəyyən edin. Hər bir suala neçə dəqiqə ayıra biləcəyiniz üzərində düşünün. Hər beş-on dəqiqədən bir vaxta nəzarət edin. Ehtiyac yarandığı halda işin sürətini daha da artırın.

**II. Diqqətlə oxuyun.** Verilən təlimatları və ya hər hansı giriş sözü diqqətlə oxuyun. Sonra bütün diqqətinizi testlə əlaqəli mətn üzərində cəmləyin. Testdəki əsas söz və ya ifadələri başa düşdüyünüzə əmin olun. Test kitabçasında həmin əsas kəlmə və ifadələri digər vərəqdə qeyd edin.

**III. Düşünün və təxminlər edin.** "Deyil" və "başqa" kəlmələrinə diqqət yetirin. Tapşırığın şərtində belə sözlərin olması səhv olan və ya qalanlardan fərqli olan variantın seçilməsinə işarədir. Yayındıran, çaşdıran cavablarla, xüsusilə ehtiyatlı olun. Belə cavablar elmi baxımdan doğru olsalar da, soruşulan sualın cavabı olmurlar. Bütün cavabları diqqətlə oxumayınca heç vaxt seçim etməyin.

**IV. Düşünün və təxminlər edin.** Doğru olmadığına əmin olduğunuz cavabları kənarlaşdırın. Sonra yerdə qalan cavablar üzərində düşünərək doğru cavabı müəyyən edin. Heç vaxt təsadüfi cavablar seçməyin. Onu da unutmayın ki, sizin cavablarınız testlə əlaqəli mətndə təqdim edilən məlumatlarla bağlı olmalıdır. Cavabları mətndən çıxış edərək deyil, öz ilkin biliklərinizə əsasən müəyyən etsəniz, yanlış variant seçmiş olarsınız.

**V. Davamlı irəliləyin.** Çətin hesab etdiyiniz suallar üzərində düşünməyə çox vaxt sərf etməyin. Yerinə yetirə biləcəyiniz tapşırıqlara doğru irəliləyin. Sonda vaxtınız qalarsa, ötürüb keçdiyiniz tapşırıqlara yenidən dönərsiniz.

**VI. Boşluqlara nəzər salın.** Yerinə yetirdiyiniz tapşırıqlarda doğru variantlar seçdiyinizə əmin olmaq üçün onlara bir daha nəzər salın. Yerinə yetirmədiyiniz tapşırıqlar qalıbsa, yerinizi tərk etməyin.

**VII. Nəticəni yoxlayın.** İşinizi yekunlaşdırdıqdan sonra hər bir cavabı diqqətlə yoxlayın. Səhv cavabları silin (karandaşla işləmisinizsə). Ötürüb-keçdiyiniz suallar üzərində bir daha düşünün. Əgər qiymətləndirmənin şərtlərinə görə səhv cavab doğru cavabı silmirsə, o zaman ilkin təxminlərinizlə onları da yerinə yetirin.

*ƏLAVƏ №2*

**Hadisələrin ardıcıllığını müəyyən edərkən aşağıda təqdim olunan təlimata diqqət edin:**

1. Mətni təşkil edən ayrı-ayrı hadisələrə başlıq verin.
2. Başlıqları dəftərinizə yazın.
3. **Düşünün:** hansı hadisələr arasında əlaqə var, hansılar arasında əlaqə yoxdur?
4. Aralarında əlaqə olan hadisələri qruplaşdırın.
5. Hər qrupa aid hadisələrin ardıcıllığını müəyyən edin.
6. Mətnlərdə qarşılaşa biləcəyiniz açar sözlərə (birinci, növbəti, sonra, sonuncu, nəhayət və s.) diqqət yetirin. Həmin sözlər ardıcıllığı müəyyən etməkdə sizə yardımçı ola bilər.
7. Ayrı-ayrı hadisələr toplusunun əlaqələndiyi məqamı da müəyyən edin.
8. Alınan sxemi dəftərinizə çəkin.

## *ƏLAVƏ №3*

**Bədii giriş**

Bu hissədə əsərdə iştirak edəcək bütün əsas obrazlar təqdim edilir.

Onların qarşılıqlı münasibətləri, məqsədləri, əsas xüsusiyyətləri haqqında ilkin təsəvvür yaradılır. Əsas obraz və onun qarşısında duran vəzifələr aydınlaşır. Hadisələr düyünlənməyə başlayanda bu mərhələ bitir.

**Hadisələrin düyünlənərək inkişafı**

Əsərin bu hissəsində əsas obrazın məqsədi, hədəfi tam məlum olur və o, məqsədinə çatmaq üçün çalışır. Kiçik çətinliklər ilkin mərhələdə onun uğur qazanmasına maneçilik törədir və o, qüvvəsini həmin çətinlikləri aradan qaldırmağa yönəldir. Əsərdə əsas obrazın hər kiçik çətinliyi necə aradan qaldırdığı əks etdirilir. Yalnız bundan sonra əsas obraz öz böyük məqsədlərinə doğru addımlar atmağa başlayır. Bu da ikinci hissənin başa çatmasından xəbər verir.

**Zirvə**

Bu hissədə hadisələrin inkişafı ən yüksək nöqtəyə çatır, dönüş nöqtəsinə yetişir. Baş verən hadisələrin nəticələri əsas obrazın qəbul etdiyi qərardan çox asılıdır. Əsas obrazın əks tərəfə münasibəti dəqiqləşir və səciyyəvi cəhətləri tam aydınlığı ilə əks etdirilir. Burada qarşı tərəflərin mübarizə planları aşkar verilir. Onların ilk qarşıdurması təqdim edilir. Bu qarşıdurma nə tam qələbə, nə də tam məğlubiyyətlə bitir. Qarşı tərəflərin planları bəzən baş tutur, bəzən də əks tərəf onun baş tutmasına mane olur. Burada əsas obrazın qəbul etdiyi qərarlar onun insani keyfiyyətlərini üzə çıxarır. Bu da onun aqibətini müəyyən edir.

**Düyünlərin açılması**

Düyünlərin açılması əsərin ən gərgin hissəsidir. Bu hissədə şər qüvvələr xeyir qüvvələrə üstün gəlirlər. Oxucu elə hiss edir ki, şər qüvvə qalib gələcək. Əsas obraz qələbədən çox-çox uzaq görünür. Qələbənin çətinliklə əldə edilməsi əsas obrazların müxtəlif üstün cəhətlərini vurğulayır. Lakin bu cəhətlərdən hansının onun qələbəsinə daha çox yardım edəcəyi oxucuya hələ də məlum olmur.

**Son**

Bu hissədə əsas obrazın əks tərəflə son qarşıdurması verilir. Burada tərəflərdən biri digəri üzərində tam qələbə çalır. Hadisənin nə üçün məhz bu cür baş verməsi, onun nə məna verməsi, gələcəkdə baş verənlərin nə ilə nəticələnəcəyi oxucunu düşündürür.

## *ƏLAVƏ №4* Nəqli mətnin elementləri

**Hadisələrin baş verdiyi məkan və zaman**

Bu hissədə yazıçı, əsasən, təsviri mətnlərdən istifadə edir. O, hadisənin baş verəcəyi yeri, məkanı təsvir edir. Belə məkan bir ev, kənd, küçə, məhəllə, meşə, səhra və s. ola bilər. Zaman baxımından isə hadisənin hansı fəsildə, hansı tarixi zaman kəsiyində, hansı hökmdarın hakimiyyəti dövründə və s. baş verdiyi təsvir edilə bilər.

**Obrazlar**

Əsas obraz insan, heyvan və digər canlı və cansız əşyalar ola bilər. Bu obrazlar mətndəki müxtəlif hadisələrin gedişində iştirak edirlər.

**Əsərin mövzusu**

Bu mətndə nədən bəhs olunur? Bu sualın cavabı əsərin mövzusudur. Mövzu əsas ideyanı müəyyən etməkdə əhəmiyyətli vasitədir.

**Əsərdə problem (ziddiyyət)**

Nəqli mətnlərdə problem (ziddiyyət) iki tərəf arasında gedən mübarizədir. Adətən, tərəflərdən biri əsas obraz olur. Əsas obraz, həmçinin ətrafda baş verən hadisələrə, eləcə də öz hissləri və düşüncələrinə qarşı da mübarizə apara bilər.

**Əsərin süjeti**

Süjet əsərdəki problemlə (ziddiyyətlə) bağlı hadisələrin ardıcıl inkişafıdır.

# LÜĞƏT*

## A

**Abid** — ibadətlə məşğul olan adam, vaxtını ibadətlə keçirən adam.

**Abşeron** — Azərbaycanda, Xəzər dənizinin qərb sahilində ən böyük yarımada. Böyük Qafqazın cənub-şərq qurtaracağındadır. Bakı şəhəri və ətraf kəndləri Abşeron yarımadasına daxildir. Sözün etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəziləri "Abşeron"un farsca ab (su) və şoran (duzlu) sözlərindən əmələ gəldiyini güman edirlər.

**Alatava** — Bakıda yüksəklik. "Ala" (böyük) və "tava" (yastı səthli iri daş) sözlərindən düzəlib, "Yastı səthli iri daşlardan ibarət olan yer" deməkdir.

**Artilleriya** — müxtəlif quruluşlu və ölçülü toplar.

**Ar bilmək** — özü üçün əskiklik, eyib bilmək, izzəti-nəfsini gözləmək.

**Avaz** — 1. Səs, səda. 2. Hava, ahəng.

**Ayğır** — döllük erkək at.

**Ayrım** — Azərbaycanın Gədəbəy, Daşkəsən, Tovuz, Qazax və b. rayonlarının dağlıq yerlərində yaşayan azərbaycanlıların adı və onlara mənsub adam.

## B

**Babil qülləsi** — e.ə. II minilliyin əvvəllərində Babilistan dövlətində yerləşən, yaşı bilinməyən bir qüllə.

**Baldırğan** — iriyarpaqlı, uzunboy, zəhərli bir bitki. Baldırğan bir qədər acı dadsa da, yeməli bitkidir.

**Bayıl** — Bakının Bayıl burnu yaxınlığında yerləşən və hazırda dəniz sularının altında qalmış tarixi memarlıq abidəsi. Şirvan—Abşeron memarlıq məktəbinin ən gözəl əsərlərindən biri olan və XIII əsrdə inşa edilmiş Bayıl qalası Xəzər dənizinin suyunun qalxıb-enməsi zamanı gah dənizin üzünə çıxıb, gah da sulara qərq olaraq görünməz olub.

**Bəd** — pis, xarab, yaman.

**Bədoy** — sağlam, qaçağan və köhlən at.

**Bəhrə** — meyvə, məhsul, bar.

**Bənna** — binanın daş, kərpic hissəsini tikən usta.

**Bəniz** — üz, çöhrə, sifət.

**Bərəçi** —bərəni idarə edən şəxs, salçı.

**Bərq vurmaq** — parlamaq, par-par parıldamaq, işıqlanmaq, işıldamaq.

**Bəşər** — insan, adam.

**Bibiheybət** — Bakının Səbail rayonunda qəsəbə. Abşeron yarımada-

---

* Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. "Şərq-Qərb", Bakı, 2006 və Azərbaycan toponimlərinin ensiklopedik lüğəti əsasında tərtib olunmuşdur.

sında, Xəzər dənizi sahilindədir. Keçmiş adı Şıx və ya Şıxlardır. (Buradakı məscidin ətrafında şeyxlər məskən saldığı üçün belə adlandırılmışdır.) 1991-ci ildən buradakı Bibiheybət (Heybətin bibisi) türbəsinin adı ilə adlandırılmışdır. Türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur.

**Bilgəh** — Bilgəh Bakının qədim kəndlərindən biridir. Bilgəh sözünün mənası "Piləgah" sözü ilə bağlanır, mənası "ipək hazırlanan yer, ipək yeri" anlamına gəlir.

**Biyaban** — otsuz, bitkisiz düz yer; səhra, çöl (bəzən, çöl-biyaban şəklində işlənir).

**BMT** — 1945-ci ildə yaradılmış dövlətlərarası beynəlxalq təşkilat. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir.

**Buğur** — cavan erkək dəvə.

**Burqund yaylası** — dörd əyalətdən biridir.

**Burqundiya** — *(fransız Bourgogne)* Fransanın tarixi və müasir rayonu. Bu ad burqundlar (burqondionlar) etnonimindən — alman (qot) qəbiləsi alınmışdır.

**Buzov** — hələ süddən ayrılmamış inək balası.

**Büllur** — 1. Şəffaf və parlaq daş. 2. Xüsusi parlaqlığı və işığı sındırmaq qabiliyyəti olan əla şüşə növü. 3. Şəffaf, dumduru, parlaq, təmiz, saf mənasında.

## C

**Cahillik** — nadanlıq, avamlıq, bilməzlik, şüursuzluq, düşüncəsizlik, cəhalət.

**Cah-calal** — calal, ehtişam, büsat, dəbdəbə, təmtəraq, var-dövlət, əzəmət.

**Camış** — qısaboyunlu, irigövdəli gövşəyən ev heyvanı.

**Caydaq** — uzun, arıq, uzundraz.

**Cəhalət** — avamlıq, nadanlıq, cahillik, mədəni gerilik, mədəniyyətsizlik, elm və mərifətin olmadığı hal.

**Cəsəd** — meyit, ölü bədəni.

**Cilov** — qoşqu ləvazimatının ağızlığa (kəmə) bənd edilmiş uzun hissəsi; qayışdan (ya ipdən) ibarət olan və qoşulmuş atı idarə etməyə xidmət edən hissəsi. Atın başına keçirilən və onu idarə etmək üçün qayışdan hazırlanan alətə də cilov (yüyən) deyilir.

**Cöngə** — erkək, yeniyetmə, cavan inək balası.

**Cövhər** — 1. Hər hansı bir üzvi maddənin distillə və s. kimyəvi üsulla ayrılan yığcam məhlulu, şirəsi. 2. Neft, ağ neft. 3. Bir şeyin (əsərin, sənədin, yazının, nitqin və s.-nin) qısa, yığcam xülasəsi, əsas qayəsi, məğzi: əsl mətləb.

## Ç

**Çalmaq** — oğurlamaq.

**Çahargah** — Azərbaycan musiqisində yeddi əsas muğamdan biridir. Çahargah sıra sayı ilə 4-cü muğamdır. Çahargah sözü iki məfhumdan ibarətdir. "Çahar"— dörd, "gah" — məqam, yer deməkdir.

**Çapar** — 1. Keçmişdə atla bir yerə məktub, əmr, xəbər aparıb-gətirən şəxs; qasid. 2. Atlı mühafizəçi.

**Çatı** — qıldan hörülmüş, qalın kəndir.

**Çələng** — gül və ya bitkilərdən dairə şəklində hörülmüş zinət, bəzək.

**Çəpiş** — altı ayını keçməmiş keçi balası, oğlaq.

**Çovumamaq** — çovumaq sözünün inkarı. Cəld, o tərəf, bu tərəfə getmək, qaçmaq, cummaq, cəld yönəlmək, atılmaq.

**Çuxa** — qafqazlıların üstdən geyilən, beli büzməli, uzun kişi milli geyimi.

**Çuval** — 1. Böyük kisə, xaral. 2. Saylardan sonra gələrək çuval tutan miqdarı bildirir.

## D

**Dəli** — 1. Ağlı və şüuru yerində olmayan, ruhi xəstə; divanə. 2. Folklorda: dəlicəsinə, qoçaq, igid, qəhrəman.

**Dəm** — 1. Od üstündə aramla bişmə, yaxud dəm alma. 2. Buğ, buxar, qaz. 3. Kef, nəşə; istirahət.

**Dərbənd** — Dağıstan Respublikasında şəhər. Xəzər dənizi ilə Qafqaz sıra dağları arasında yerləşir. Rusiyanın şəhər statusunu daşıyan ən cənub yaşayış məntəqəsidir. Dərbənd şəhəri eyniadlı rayonun inzibati mərkəzidir, Mahaçqala şəhərindən cənub-şərq istiqamətində 121 km uzaqlıqda yerləşir. "Dərbənd" sözü — türk "dar" və fars "bənd" köklərindən törəyib, "dar keçid" deməkdir. Şəhər tarixdə Bab əl-Əbvab ("Böyük qapı") və Dəmirqapı adlarıyla da tanınırdı.

**Dərrakəli** — dərrakəsi olan; ağıllı, düşüncəli.

**Dərviş** — 1. Qapı-qapı gəzərək, yaxud meydançalarda adamları başına yığaraq peyğəmbərə, imamlara və Kərbəla hadisələrinə həsr olunmuş qəsidələri avazla oxuyub pul yığan adam. 2. Yoxsul, kasıb, fağır, yazıq mənasında.

**Dəsgah** — böyük, təşəbbüs, qeyri-adi mənzərə, əla düzəldilmiş iş.

**Dilxor** — çox pərt, əhvalı pozulmuş, qəmgin, kədərli, məyus.

**Doqqaz** — adətən, kənd yerlərində evin, həyətin, bağın və s.-nin hasarında bir-birinə keçirilən ağaclardan ibarət sadə qapı.

**Düdülədi** — "dü-dü" deyərək ev quşlarını çağırmaq.

**Düyə** — inəyin, camışın, ceyranın, maralın hələ kələ və ya təkəyə gəlməmiş, doğmamış balası.

## E

**Eyş** — zövq, səfa, ləzzətli həyat.

**Eşsiz** — 1. Yalqız qalmış, tək qalmış; yoldaşsız, dostsuz, kimsəsiz. 2. Misilsiz, misli olmayan, tayı-bərabəri olmayan.

## Ə

**Əbləh** — axmaq, səfeh, gic, sarsaq, başıboş.

**Ədəb-ərkan** — ədəb, tərbiyə, əxlaq, nəzakət qaydaları.

**Ədna** — keçmişdə aşağı təbəqədən olan adama deyirdilər.

**Əla** — ən yüksək, ən yaxşı, ən gözəl.

**Əllaməlik** — özünü alim sayan, yalançı alim.

**Əlbəəl** — cəld, tez, əlüstü, dərhal, o saat.

**Ələf** — ot.

**Əlik** — cüyür, vəhşi keçi; keyik.

**Ənbər** — 1. Kaşalota oxşar bir balığın mədəsindən çıxarılan gözəl qoxulu maddə. 2. Xoş qoxu, ətir.

**Əndərmək** — duru, yaxud səpələnən şeyləri qabdan və s.-dən birdən-birə və bütünlüklə tökmək, boşaltmaq.

**Ənginlik** — genişlik, vüsət, açıqlıq.

**Ərz** — Yer (səma müqabili).

**Əsrəmiş** — qızmış, coşmuş.

**Əzm** — qətiyyət, cəsarət, qəti qərar, mətanət.

## F

**Fani** — həmişəlik olmayan, axırı puç, axırı olmayan; müvəqqəti, keçici, qalmayan.

**Fələk** — 1. Göy, səma, asiman. 2. Tale, qismət, bəxt, uğur.

**Fərat** — Qərbi Asiyada ən böyük çay. Başlanğıcını Türkiyə ərazisində, Murad və Qarasu çaylarından götürür və İraqın Bəsrə şəhəri yaxınlığında Dəclə ilə qovuşaraq Şəttül-Ərəb çayını əmələ gətirir. Türkiyə, Suriya və İraq ərazisindən keçir. Uzunluğu — Murad çayının mənsəbindən 3065 km, Murad və Qarasu çaylarının qovuşmasından 2780 km.

**Fərəhnak** — fərəhli, şad.

**Fəzilət** — insanda ağıl, kamal, elm, mərifət, mərdlik, yüksək mə-

nəviyyat, alicənablıq kimi sifətlərin ümumi adı.

**Firavan** — çox, bol, çoxlu, varlı.

### G

**Gədə** — 1. Nökər. 2. Oğlan.

**Gilavar** — cənub və cənub-şərqdən əsən külək adı.

**Güləbətin** — 1. Qızıl və ya gümüş tellərindən, habelə onlara bənzədilən materiallardan qatışığı olan sap. 2. Həmin sapla işlənmiş, üzərinə bəzək vurulmuş.

**Güney** — 1. Cənub. 2. Gün düşən yer, gün tutan yer; Günəşli yer. 3. Dağın, təpənin Günəş çox düşdüyündən yaxşı məhsul verən cənub yamacı.

**Gürz** — 1. Müxtəlif işlərdə işlədilən çox ağır, iri çəkic. 2. Qədimdə başı dəmir və ya daşdan olan toppuz; silah kimi işlədilən, baş tərəfi enli, ağır dəyənək.

### H

**Hayqırmaq** — qışqırmaq, bağırmaq, hay salmaq.

**Heybə** — çiyindən, bəzən də atın tərkindən aşırılan kiçik xurcun.

**Hədyan** — tərbiyəsiz, ədəbsiz, hərzə, əsassız sözlər; söyüş.

**Həkk** — hər hansı bir material (metal, ağac, daş, şüşə və s.) üzərində metal qələmlə çuxur və ya qabartma şəklində açılmış naxış, yazı və s.; oyma.

**Hənirti** — canlı səsinə oxşar yavaş səs, qulağa dəyən anlaşılmaz səs.

**Hərcayi** — 1. Avara, sərsəri, veyil, heç bir işlə məşğul olmayan. 2. Mənasız, boş.

**Hicri** — İslam təqvimi (təqvim Məhəmməd Peyğəmbərin 622-ci il iyulun 16-da Məkkədən Mədinəyə köçməsi— hicrəti ilə bağlı yaranmışdır).

**Hovxuruq** — yarımbükülü barmaqlarını ağzına tutaraq nəfəsi ilə onları qızdırmaq.

**Hoydu** — haydı kimi də deyilir. Bir yerə getmək, yaxud bir işə başlamaq üçün çağırış və ya əmr mənasında işlədilir.

**Huş** — 1. Diqqət, fikir. 2. Mürgü, yarıyuxulu hal.

### X

**Xaniman** — 1. Ev-eşik, ata yurdu, ocaq, dudman, məskən. 2. Ev, ev adamları, ailə.

**Xərac** — vergi, bac.

**Xəzri** — Abşeron yarımadasında şimaldan əsən şiddətli külək.

**Xilqət** — 1. Yaradılma, yaradılış. 2. Birinin təbiətində, yaradılışında olan hal, xüsusiyyət; təbiət, yaradılış.

**Xoşqılıq** — xoşxasiyyətli, hamı ilə yola gedən, xoşrəftar.

**Xüsusda** — xas olma, məxsus olma; məxsusluq bir şeyə və ya şəxsə aid olma.

## İ

**İdrak** — dərketmə, bilmə.
**İsa bulağı** — İsa bulağı Şuşa şəhərindən 2 kilometr aralı, dəniz səviyyəsindən təqribən 1500 metr hündürlükdə, meşədə yerləşir. Azərbaycan təbiətinin nadir incilərindən sayılır. Bu hidronim haqqında yerli əhalinin məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır.
**İşrət** — kef, eyş-işrət, içki içmə.
**İz** — 1. İnsan və ya heyvan ayağından səth üzərində qalan nişanə, ləpir. 2. Hər hansı bir şeydən qalan və onun keçmiş varlığına şəhadət edən nişanə, əsər, qalıq, əsər-əlamət. 3. Yol.
**İnişil** — keçən ildən qabaqkı il.
**İnci** — 1. Bəzi molyuskların balıqqulaqlarından çıxarılan ağ və ya çəhrayı (nadir hallarda qara) rəngli dənələr şəklində qiymətli sədəf maddəsi; mirvari, dürr. 2. Çox qiymətli əşya.

## K

**Kərgədan** — başının qabaq tərəfində bir, ya iki buynuzu olan, Asiyada və Cənub-Şərqi Asiyada yaşayan otyeyən, məməli iri heyvan.
**Kəl** — 1. İş heyvanı kimi istifadə edilən camışın erkəyi. 2. Əsasən, dağlarda və meşələrdə yaşayan çöl heyvanı.
**Kiriş** — 1. Möhkəm ip. 2. Ox yayının iki ucuna tarım bağlanan ip.
**Külfət** — 1. Ailə mənasında. 2. Zəhmət, əziyyət, qayğı mənasında.
**Külüng** — daş çıxarma və torpaq qazma işlərində istifadə edilən bir ucu sivri, o biri ucu isə enli alət.
**Küpə** — 1. Su, yağ və s. tökülən müxtəlif ölçülü saxsı qab. 2. Tumurcuq.
**Körük** — kürədə odu qızartmaq və s. məqsədlər üçün yanları büküşlü dəri və taxtadan düzəldilmiş alət.
**Körfəz** — okeanın, dənizin və ya gölün qurunun içinə soxulmuş hissəsi.
**Köşək** — dəvə balası.

## Q

**Qalagah** — 1. Dəvəçi rayonunda kənd. Kəndin adı yaxınlıqdakı qala xarabalığının adı ilə əlaqədardır. 2. İsmayıllı rayonunda kənd. Adı kəndin ərazisində yerləşən V—VI əsrlərə aid qədim qalanın adı ilə bağlıdır. 3. Quba rayonunda kənd. Kəndin ərazisində yerləşən Suarun (Suvarlar qalası) və Qələ-Ələmun (Ələmlər qalası) adlı qədim xarabalıqların adı ilə bağlıdır.
**Qaravaş** — qulluqçu qadın.

**Qanqal** — yarpağı tikanlı, özəyi yeyilən alaq bitkisi; qalağan.

**Qantəpər** — xalq təbabətində işlənən sarımtıl çiçəkli dağ bitkisi.

**Qasıq** — qarının iki bud arasında olan alt tərəfi.

**Qatır** — eşşəklə madyanın cütləşməsindən törəyən yük heyvanı.

**Qeyb** — hazır və göz önündə olmama; qaiblik.

**Qeyz** — qəzəb, hiddət, acıq.

**Qəbzəl** — tutacağı, dəstəsi olan; saplı, dəstəli.

**Qəlyan** — tənbəki çəkməyə məxsus cihaz.

**Qərəz** — 1. Məqsəd, niyyət, məram. 2. Gizli məqsəd, pis niyyət, gizli ədavət. 3. Xülasə, sözün qısası.

**Qəhr** — qəzəb, hirs, hiddət.

**Qəsd** — 1. Niyyət, məqsəd, məram. 2. Qəsdən, müəyyən məqsədlə.

**Qobur** — dəridən, ağacdan və s.-dən düzəldilmiş tapança, ya tüfəng qabı.

**Qovğa** — 1. Gurultu, parıltı, çaxnaşma. 2. Bəla, müsibət; macəra, hadisə.

**Qoruq-qaytaq** — hədd-hüdud, çərçivə, ədəb dairəsi, nəzakət.

**Qövsi-qüzeh** — Günəş şüalarının havadakı yağış damcılarından keçərkən sınma nəticəsində göydə görünən rəngarəng yarımdairə şəkilli qurşaq; göy qurşağı, qarı nənə örkəni.

**Qurd** — canavar.

**Qurğuşun** — göyə çalar bozumtul rəngli, çox ağır yumşaq metal.

**Qulun** — körpə at balası.

**Qın** — xəncər, qılınc və s. kəsər silahları qorumaq üçün qab.

**Qırxbuğum** — əsasən, dağlıq yerlərdə bitən, xörəyə qatılan ətirli bir bitki.

**Qızılburun** — Siyəzən şəhəri yaxınlığında, Xəzər dənizi sahilində qədim yaşayış məskəni. Xarabalıqları qalmışdır. Siyəzən şəhərinin keçmiş adı da (1954-cü ildən) Qızılburun olmuşdur. Yaşayış məntəqəsi adını ərazidəki eyniadlı obyektdən almışdır.

## L

**Ləngər** — durmadan gah bir tərəfə, gah o biri tərəfə əyilmək.

**Ləzgihəngi** — “ləzginka” kimi tanınan rəqsin adı.

**Lüləkli** — misdən, saxsıdan, plastik kütlədən və s.-dən qayrılan xüsusi biçimli, lüləkli və qulplu su qabı.

**Lümək** — quyruğu olmayan və ya qısa olan; quyruğukəsik.

**Loğma** — “loxma” da deyirlər, bir dəfədə ağıza qoyulan çörək parçası; tikə, dişləm.

## M

**Mancanaq** — 1. Quyudan su çəkmək üçün ling rolunu oynayan uzun ağac. 2. Qədim müharibələr-

də qalaların divarlarını dağıtmaqdan ötrü daş, yanar maye ilə dolu çəllək və s. atmaq üçün işlədilən mühasirə maşını.

**Matah** — qiymətli, aztapılan əşya, əziz şey (adətən, istehza məqamında işlənir).

**Mehtər** — ata qulluq edən, ata baxan.

**Meynə** — üzüm tənəyi.

**Məqam** — 1. Yer, məkan 2. Vaxt, zaman, çağ, münasibət. 3. Vəzifə, rütbə, mənsəb, mərtəbə.

**Mətləb** — 1. Arzu, istək, dilək, istənilən şey, məqsəd. 2. Məsələ, məsələnin, işin mahiyyəti, əsl mənası, məğzi.

**Millənib** — dik qalxmaq, düz qalxmaq, dikəlmək.

**Misqal** — təxminən 4,26 qrama bərabər köhnə çəki vahidi.

**Miyançı** — iki tərəf arasında vasitəçi, araçı.

**Möhnət** — 1. Zəhmət, əziyyət, qayğı, ağırlıq, dərdi-sər. 2. Dərd, qəm, qüssə, kədər.

**Müxənnət** — alçaq, namərd, qorxaq.

**Müntəzir** — gözləyən, intizar içində olan, intizarda qalan.

**Müşk** — 1. Bir cins ceyranın göbəyindən çıxarılan xoş iyli maddə. 2. Gözəl iy, ətir.

**Müşkül** — çətin, zor, çətin başa gələ bilən, çətin həll edilə bilən.

**Müştəbeh** — şübhəli, şəkli.

## N

**Nər** — 1. Erkək (dəvə) 2. Qorxmaz, güclü, qüvvətli, cəsarətli.

**Nivx kayakı** — dəridən, qovaqdan düzəldilən, üstü örtülü kiçik qayıq.

**Nuş** — dadlı, şirin.

## O

**Orman** — meşə.

## P

**Patava** — altı yeyilmiş çarığın içinə qoyulan dəri (gön) parçası, dolaq.

**Parç** — tayqu, birəlli qulplu su qabı.

**Pənah** — sığınma, birinin yanına qaçıb ondan himayə və kömək istəmə.

**Pənbə** — açıq-al, gül rəngində.

**Pinəçi** — ayaqqabı təmir etməklə məşğul olan adam.

**Pırıltı** — kiçik quşların qanad çalmasından çıxan səs.

**Pirşağı** — Bakının ən qədim kəndlərindən sayılır. Xəzər dənizinin sahilində yerləşir.

**Podrat** — müəyyən haqq müqabilində bir işi görməkdən ibarət öhdəlik və bu öhdəlik üzrə görülən iş.

**Podratçı** — podrat üzrə işləyən adam və ya təşkilat.

**Pürkamal** — kamallı, ağıllı.

## R

**Rəğbət** — meyil, istək.

**Rişə** — kök.

**Ruzi** — azuqə, yeyəcək.

## S

**Sadağa** — yoxsula, dilənçiyə verilən pul və ya nə isə.

**Salvartı** — şirinsulu, axarlı göldür. Göldən Naxçıvan çayının sol qolu Salvardı çayı başlayır.

**Sanbal** — çəki, ağırlıq, vəzn.

**Sanqaçal** — Bakı şəhəri, Qaradağ rayonu ərazisində şəhər tipli qəsəbə. Abşeron yarımadasındadır. Qəsəbə 1967-ci ildə yaradılmışdır. *Səng* (tat. "daş") və *çal* (boz) sözlərindən düzəlib, "boz daş" mənasındadır.

**Sapand** — daş atmaq üçün qədim silah.

**Sədəf** — bəzi balıqqulağıların iç qatını təşkil edən və müxtəlif bəzək əşyaları hazırlamaq üçün istifadə edilən, müxtəlif rənglərə çalan parlaq bərk maddə.

**Sərvaxt** — sayıq, gözüaçıq, ehtiyatlı, ayıq.

**Səriştə** — bir işə bələdlik, bir işi bacarma; təcrübə, bacarıq.

**Sini** — misdən, bürüncdən və s.-dən qayırılmış böyük, dəyirmi, dayaz qab.

**Sipər** — 1. Qalxan. 2. Qoruyucu vasitə kimi istifadə edilən hər cür əşya, qurğu və s.

**Süngü** — tüfəng lüləsinin başına taxılan ucuşiş silah.

## Ş

**Şəkkaklıq** — hər şeyə şəkk-şübhə etmə, şəkk-şübhə ilə yanaşma.

**Şeşpər** — altıdilli toppuz, qədim silah.

**Şiləmək** — dalbadal vurmaq, gülləyə tutmaq.

## T

**Tağ** — 1. Qovun, qarpız, xiyar, pomidor və s. bostan bitkilərinin yerlə sürünən toru. 2. Bəzi binaların yarımdairə şəklində olan damı; qübbə, günbəz.

**Təvəkkül** — hər şeyi Allaha buraxma, ondan kömək və imdad gözləmə, taleyə bel bağlama.

**Təmas** — 1. Bir-birinə dəymə, toxunma. 2. Yaxınlıq, əlaqə.

**Təfəkkür** — insanın fikirləşmək, düşünmək, nəticə çıxarmaq bacarığı.

**Təkəbbür** — iddia, təşəxxüs, lovğalıq, özünüçəkmə, fors.

**Təlaş** — həyəcan, iztirab, təşviş, həyəcan və iztirab içində tələsmə, əl-ayağa düşmə, təşvişə düşmə.

**Təngə** — bezmək, bezikmək, usanmaq, cana gəlmək, bezar olmaq.

**Timsal** — 1. Nümunə, örnək, misal. 2. Məsəl, zərbi-məsəl. 3. Şəkil, rəsm, surət, təsvir.

**Tilişkə** — taxtanın iynə kimi iti uclu kiçik hissəsi.

**Turac** — toyuq cinsindən olan ov quşu.

**Turşsu** — müalicə sularından birinin adı (Şuşada Turşsu deyilən bulağın adından).

V

**Vadi** — iki dağ arasında böyük, uzun çuxur, düzən.

Ü

**Ün** — səs, səda.

**Ürfan** — bilik, kamal, maarif.

**Ürkək** — tez hürkən, hər şeydən hürkən, qorxan, əhli olmayan; vəhşi.

Y

**Yalçın** — çox dik və çılpaq, sıldırımlı.

**Yamac** — dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya mailli səthi.

**Yavan** — təkcə çörəkdən ibarət olan; yavanlığı olmayan.

**"Yeddi gözəl" baleti** — XII əsr Azərbaycan şairi Nizami Gəncəvinin 1197-ci ildə tamamladığı "Yeddi gözəl" poeması əsasında bəstəkar Qara Qarayev tərəfindən 1949—1952-ci illərdə bəstələnmiş balet.

**Yosun** — kökü, gövdəsi, yarpağı olmayan və bununla da başqa su bitkilərindən fərqlənən sporalı su bitkisi, dənizdən çıxan otlar.

Z

**Zınqırov** — heyvanların boynuna, dəfin sağanağına taxılan xırda zəng, qumrov.

**Ziyadə** — artıq, çox.

**BURAXILIŞ MƏLUMATI**

**ƏDƏBİYYAT 6**

*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Ədəbiyyat fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər | **Afət Yaqub qızı Süleymanova** |
| | **Təranə Böyükxan qızı Bağırova** |
| Redaktor | **Arif Əzizbəyli** |
| Nəşriyyat redaktoru | **Gülər Mehdiyeva** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizaynerlər | **Səadət Quluzadə, Zahid Məmmədov** |
| Rəssam | **Gündüz Ağayev** |
| Korrektor | **Ülkər Tağıyeva** |

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2021-041**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 14,76. Fiziki çap vərəqi 15,0. Formatı 70x100 1/16.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 240.
Şriftin adı və ölçüsü: jurnal qarnituru, 10-12 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş 1372. Tiraj 163078. Pulsuz. Bakı–2021.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 17.07.2021**

Çap məhsulunu nəşr edən:
**“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC**
(Bakı, AZ 1052, F.Xoyski küç., 121a (149))

Çap məhsulunu istehsal edən:
**“Şərq-Qərb” ASC**
(Bakı, AZ1123, Aşıq Ələsgər küç., 17)

**PULSUZ**

## Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!

